FARİZ XƏLİLLİ

# ARXEOLOJİ MATERİALLAR AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏ KİMİ

(Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)



AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ELM TARİXİ İNSTİTUTU

FARİZ XƏLİLLİ

# ARXEOLOJİ MATERİALLAR AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏ KİMİ

(Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

BAKI - 2017

AMEA-nın Elm Tarixi İnstitutunun
Elmi Şurasının qərarı ilə nəşr olunur.

**Elmi redaktorlar:**
Tarix üzrə elmlər doktoru
Məryəm Seyidbəyli

İlahiyyat elmləri üzrə fəlsəfə doktoru
Səbinə Nemətzadə

**Rəyçilər:**
AMEA-nın müxbir üzvü
Vəli Əliyev

Tarix elmləri doktoru
Rauf Məlikov

**Fotolar:**
Musa Nəsirov
Ruslan
Valter Niselli
Fariz Xəlilli

**Kitabın üz qabığındakı foto:**
Tunc əsa başlığı. Mingəçevir, Valter Niselli

Fariz Xəlilli
ARXEOLOJİ MATERİALLAR AZƏRBAYCAN
TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏ KİMİ
(Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında).
Bakı: Avropa, 2017, 178 səhifə

## GİRİŞ

Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən arxeoloji materiallar Azərbaycan tarixinin öyrənilməsində əsas maddi mənbələrdəndir. Həm arxeoloji qazıntılar, həm də təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş bu maddi mənbələr 1920-ci ildən başlayaraq Muzeyin Arxeologiya fonduna daxil olur. Bu tədqiqat işinə qədər fondda toplanmış arxeoloji materiallar Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji materialları adı altında kompleks şəkildə öyrənilməmiş, elmi sistemləşdirilmə işi aparılmamışdı.

Tarixşünaslığımızda abidə-fond-ekspozisiya əlaqəsiuzun müddət lazımınca öyrənilmədiyi üçün Muzey fondları ilə abidə, öz növbəsində ekspozisiya ilə abidə və fond əlaqəsi bir növ çox hallarda itmişdir. Fondda işləməyən hər hansı bir tədqiqatçı bu çatışmazlığı görmədiyi kimi, fondda işləyib tarixşünaslıqdan xəbərdar olmayan fond işçisi də buna diqqət yetirmir. Nəticədə materialların çoxluğu içərisində itib-batmış Arxeologiya fondu maddi-mədəniyyət nümunələrinin Azərbaycan Tarixi Muzeyinin arxeoloji materialları adı altında kompleks öyrənilməsi elə həm mənbəşnaslıq, həm də tarixşünaslıq baxımından aktual məsələ kimi qalır.

Arxeoloji materialların muzeylərə cəlb edilmə formaları da araşdırma mövzusu olmamış, elmi ədəbiyyatda bu məsələyə lazımınca diqqət verilməmişdir. Əslində muzeylərin arxeoloji materiallarına kompleks baxılmalı, maddi-mədəniyyət nümunələri arxeoloji qazıntılar və ya təsadüfi tapıntılardan aşkar olunmasına görə sistemləşdirilməlidir. Bu halda fondlarda mühafizə işinin səviyyəsi yüksələr və ekspozisiyanın daha əhatəli olması təmin edilər.

Arxeoloji qazıntıların hansı elmi müəssisə tərəfindən aparılması və nəticələrinin tədqiq olunması fondlarda sistemli işi təmin etdiyi kimi, həmin elmi müəssisələrin fəaliyyət tarixinin də öyrənilməsinə xidmət edir. Bu baxımdan Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, Zaqafqaziya Elmi Asossasiyası, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu, SSRİ EA Azərbaycan filialı Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, Azərbaycan SSR EA Tarix İnstitutu, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tədqiqatlarının nəticələrinin araşdırılması aktual məsələdir.

Hal-hazırda torpaqlarımızın düşmən tapdağında olduğu, maddi-mədəniyyət abidələrimizin məhv edildiyi bir vaxtda abidələrimiz, onlardan tapılan arxeoloji materiallar haqqında yazılan hər bir iş elmi əhəmiyyətə malik olub,

aktualdır. Bu mövzunun tədqiqi üçün əsas mənbə olan materaillar Azərbaycan tarixinin daş, mis-daş, tunc, ilk dəmir və ilk antik dövrləri (qədim daş dövründən e.ə. IV əsrə qədər) abidələrində qazıntıları aparan arxeoloqların əsərlərində müəyyən qədər öyrənilmişdir. Lakin, muzeylərdə mühafizə edilən bu maddi-mədəniyyət nümunələrinin Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi elmi əhəmiyyəti problem məsələ olaraq indiyədək araşdırılmamışdır. Bu baxımdan Milli Azərbaycan Tarixi Muzeyi qədim dövrlərə aid arxeoloji materiallarının (daş, metal, saxsı, sümük və digər məmulatı) təsnifatı və təsvirinin verilməsi, materialların daxilolma sənədlərindəki, inventar kitablarındakı təsvirləri, ekspozisiyada nümayiş etdirilmə vəziyyəti, həmin maddi-mədəniyyət nümunələrinə dair indiyəqədərki tədqiqatlar və son elmi nailiyyətlərin müqayisəli şəkildə təhlil edilməsi elm tarixinin də qarşısında duran aktual məsələlərdəndir.

Bu tədqiqata qədər Muzeyin Arxeologiya fondunun mühafizə işinin təşkili səviyyəsinə və inventar kitablarına elmi-tənqidi yanaşma olmamışdır. Bu isə, nəinki fond üzrə işi çətinləşdirir, həmçinin ümummuzey işləri və fonda gələn tədqiqatçılara xidmətdə səviyyənin aşağı düşməsini şərtləndirirdi.

Milli Azərbaycan Tarixi Muzeyində aparılmış tədqiqatlar Azərbaycan tarixşünaslığında yeri və əhəmiyyəti baxımından öz lazımi elmi qiymətini almamışdır. Həmçinin, Arxeologiya fonduna gələrək buradakı arxeoloji materiallardan istifadə etmiş xarici ölkələrin (Rusiya, Gürcüstan, ABŞ, Çexiya, Polşa, Hindistan, Türkmənistan və s.) alimlərinin də fəaliyyətinə diqqət yetirilməmişdir.

Məlum olduğu kimi, arxeoloqlar materialı aşkar edir, fonda təhvil verir və fondda sonrakı vəziyyətindən demək olar ki, xəbərsiz qalırlar. Halbuki, həmin materiallar ekspozisiya və sərgilərdə Azərbaycanın qədim tarixini layiqincə əks etdirirlər. Bununla yanaşı, Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyaları arasındakı ümumi və xüsusi cəhətlər, hər ekspozisiya üçün müəyyən edilmiş tarixi-ideoloji əsaslar, Azərbaycan tarixinin çatdırılma səviyyəsi tədqiqata cəlb edilməmiş, öyrənilməmişdir. Halbuki, bu məqamlara elmi-tənqidi baxış gələcək ekspozisiya və sərgilərin təkmilləşdirilməsində mühüm rol oynaya bilər.

Tədqiqat üçün Azərbaycanda qədim insan nəsillərinin yayıldığı dövrdən e.ə. IV əsrə qədər olan tarixi mərhələ xronoloji çərçivə kimi nəzərdə tutulmuşdur. Bu xronoloji çərçivə Azərbaycanın şimal ərazisində (müasir Azərbaycan

Respublikası) yaşamış insanların – qədim azərbaycanlıların dövlətəqədərki tarixi inkişaf yolunu əhatə edir.

Tədqiqat üçün əsas mənbəmiz Arxeologiya fondunun uzun illərdən bəri toplanan zəngin materialları və onlar haqqında rəsmi qeydiyyat sənədləridir. Arxeoloji materiallar haqqında inventar kitabları 1927-ci ildən sonra tərtib olunmuşdur (30). Belə ki, kitablar birinci inventar sayından başlayaraq latın qrafikası ilə azərbaycan dilində yazılmışdır. Inventar kitablarının ümumi sayı 27 olsa da, onlardan bəziləri bu tədqiqatın xronoloji çərçivəsinə uyğun deyildir. Burada orta əsrlərə aid Qədim Gəncə, Örənqala və Bəndovan arxeoloji materiallarının qeydiyyata alındığı inventar kitablarını xüsusilə qeyd etmək lazımdır.

Bu araşdırmanın xronoloji çərçivəsinə uyğun gələn elə arxeoloji materiallar da vardır ki, onlar hələ də inventar kitablarında qeyd olunmamışdır (Xaçbulaq, II Kültəpə, Babadərviş, Sarıtəpə və s.). Bu zaman həmin arxeoloji materialları tədqiqata cəlb etmək üçün təhvil verilmə aktları əsas götürülmüşdür. Ümumilikdə inventar kitablarında qeydiyyatı aparılmış arxeoloji materialların da fonddakı vəziyyətini təhlil edərkən bu aktlara əsaslanılmışdır. Çünki, yaranmış bir çox çətinlikləri yalnız bu yolla həll etmək mümkündür.

Muzeyin XX əsrin 20-ci illərində tərtib olunmuş iki cildlik baş inventar kitabı da tədqiqata cəlb edilmişdir (29). Bu kitablar araşdırılarkən məlum olmuşdur ki, Qafqaz (Gürcüstan) Muzeyindən verilən və «Redkin lager» adı ilə Arxeologiya fondunun inventar kitabına daxil olan arxeoloji materialların bir qismi Şuşa, Zəylik, Şəmkir (Anenfeld) və Çomaqlıdandır. Həmin materiallar müəyyən edilərək tədqiq olunmuşdur.

Azərbaycan Tarixi Muzeyinin «Sənədli Mənbələr fondu»nda saxlanılan bəzi sənədlər də ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Bu hesabat-sənədlər Muzeyin ilk arxeoloji qazıntıları (1921-22-ci illər) haqqında təsəvvür yaratmağa imkan vermişdir (31; 32). «Sənədli Mənbələr fondu»nda Muzeyin ilk illərdəki ümumi fəaliyyətinə dair sənədlər də toplanmışdır. Yeri gəldikcə həmin sənədlər araşdırmaya cəlb edilmişdir.

Azərbaycan Respublikası Dövlət Arxivində Muzeyin XX əsrin 20-30-cu illərdəki fəaliyyət tarixinə dair müxtəlif sənədlər toplanmışdır. Tədqiqat işində 10, 57, 390 saylı fondların materiallarından istifadə olunmuşdur.

Arxeoloji materialların aşkar olunduğu abidələrdə tədqiqat aparmış alimlərin elmi hesabatları da xüsusi əhəmiyyət kəsb edir.

# ARXEOLOJİ MATERİALLARIN MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNƏ DAXİL OLMASI

## Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji ekspedisiyalarının materialları

Azərbaycan Tarixi Muzeyinin yarandığı ilk illərdə sistemsiz, adda-budda, əsasən təsadüfi tapıntılar yolu ilə əldə edilmiş maddi-mədəniyyət nümunələrinin Muzeyə ayrı-ayrı şəxslərin təqdim etmələri formasında cəlb edilməsinin elmi əhəmiyyətinin azlığı arxeoloji qazıntıların aparılmasını da zəruri etmişdir. Həmin dövrdə arxeoloji tədqiqat işlərinin aparılması ilə məşğul olacaq hər hansı qurum olmadığından Azərbaycan Tarixi Muzeyi bu işi öz üzərinə götürmüş, məhz bu məqsədlə Muzeyin (Muzekskurs) nəzdində Yevgeni Paxomovun sədrliyi ilə Qədim Abidələri Mühafizə Komissiyası təşkil olunmuşdur (126, 29).

Azərbaycan Tarixi Muzeyi 1920-ci ilin iyun ayında Şirvanşahlar sarayı və Qız qalasına ilk arxeoloji kəşfiyyat səfərini təşkil etmişdir (125, 3). 1921-ci ilin iyun ayında isə Gəncə qəzasına ilk arxeoloji ekspedisiya göndərilmişdir (74, 171). Bu iş 1922-ci ildə də davam etdirilmişdir. Azərbaycan SSR Xalq Maarif Komissarlığı «Muzarxiv» bölməsinin 1922-ci il may ayında Azərbaycan Dövlət Muzeyinin əməkdaşı V.Qukasova təqdim etdiyi 234 saylı mandatda (ezamiyyə vərəqi) qeyd olunmuşdur: «...Azərbaycan SSR Dövlət Muzeyi tərəfindən Gəncə qəzasına qədim abidələrin olduğu yerləri yoxlamaq və arxeoloji kəşfiyyat aparmaq üçün ezam olunur...» (31, 3).

1921-ci ildə «Muzeydən ezamiyyə və Gəncə quberniyasının Gəncə qəzasındakı kurqanlarda qazıntı aparmaq hüququ» alan V.Qukasov Gəncə qəzasının 3 kəndində yerləşən 7 kurqanda arxeoloji tədqiqat işləri aparmışdır.

Iyun ayının 1-də Gəncə qəzasının Nüzgər kəndində (indiki Şəmkir rayonu), Şamir-dərəsi adlanan yerdə Azərbaycan Tarixi Muzeyinin ilk arxeoloji qazıntısına başlanmışdır. Hesabatda qeyd olunduğuna görə, bu kurqanın uzunluğu 10 arşın (7,2 m), eni 5 arşın (3,6 m), hündürlüyü 2,5 arşın (1,8 m) olmuşdur. Ətrafına xırda daşlar düzülmüş qəbirin üstü piltə şəklində üç böyük yastı daşla örtülmüşdü. Qəbirdən aşkar edilən skeletin

başı şərqə tərəf uzadılmış vəziyyətdə olmuşdur. Qəbir avadanlığı içərisində tunc qolbaq, bıçaq, üç ədəd saç borusu və gil qab əldə edilmişdir (30, inv. № 79). Qazıntının müəllifi tapılmış əşyaların xüsusiyyətinə görə skeletin kişiyə məxsus olduğunu ehtimal etsə də (31, 5), avadanlıqdan da göründüyü kimi, daha çox qadına məxsus ola biləcəyi təəssüratı yaranır.

Nüzgər kəndində uzunluğu 7 arşın (5 m), eni 3 arşın (2,13 m), hündürlüyü 2 arşın (1,42 m) olan ikinci kurqan Kəkəlü adlı yerdə tədqiq olunmuşdur (31, 5). Qəbirin üzərini örtən böyük yastı daşların yerləşməsi birinci kurqandan fərqlənirdi. Belə ki, üç böyük yastı daş demək olar ki, qəbirin üstünü bağlamış və dördüncü yastı daş da qəsdən açıq saxlanmış yeri örtmüşdür. Bu kurqandakı skeletin də başı şərqə uzadılmışdı. Qəbirdən qolbaq, üzük və sinə bəzəkləri əldə edilmişdir (30, inv. № 75).

Uzunluğu 12 arşın (8,5 m), eni 6 arşın (4,2 m), hündürlüyü 2 arşın (1,42 m) olan üçüncü kurqan Gəncə qəzasının Qotul kəndində (indiki Xanlar rayonu) öyrənilmişdir (31, 6). Bu kurqanın qəbiristanlığı iki təbəqədən ibarət idi. Birinci təbəqədə ətrafında heç bir əşya olmayan kiçik skelet aşkar olunmuşdur. Alt təbəqədə isə uzunluğu 2,5 arşın (1,8 m), eni 1,5 arşın (1 m), dərinliyi 2 arşın (1,42 m) qübbəli qəbirə rast gəlinmişdir. Bütün qübbə daşlarla örtülmüşdür. Arxeoloqlar qəbirin hansısa döyüşçüyə məxsus olması fikrini irəli sürmüşlər. Qəbirdən tunc qolbaq və nizə əldə edilmişdir (30, inv. № 74). Qotul kəndindəki başqa kurqanlarda qazıntı aparılsa da işçi qüvvəsinin çatışmaması üzündən iş başa çatdırılmamışdır.

Dördüncü kurqan Gəncə qəzasının Çovdar kəndində (indiki Daşkəsən rayonu) tədqiq edilmişdir (31, 7). Kurqanın uzunluğu 2,5 arşın (1,8 m), eni 1,5 arşın (1 m), dərinliyi 2 arşın (1,42 m) idi (Çovdar, I kurqan). Qəbirin quruluşu yuxarıdakılara oxşar, daxildən xırda yastı daşlarla örtülmüş və yuxarıdan isə plitə şəklindəki böyük yastı daşlarla bağlanmışdı. Qadına məxsus olduğu göstərilən skeletin başı şərqə uzadılmışdı. Qəbirdən baş üçün qurşaq (dingə), boyunbağı, dörd toqqa (əslində düymə), iki sırğa, baş sancağı, baş bəzəyi, sinə bəzəyi, qolbaq və gil qab əldə edilmişdir (30, inv. № 67).

Beşinci kurqanda da oxşar quruluşlu qəbirə təsadüf olunmuşdur (Çovdar, II kurqan). Qəbirdən qolbaq, muncuqlar, düymələr, sırğa və kiçik həcmli gil qab tapılmışdır (30, inv. № 68).

Altıncı kurqanın (Çovdar, III kurqan) avadanlığı qolbaq, muncuqlar, toqqa, üzük, iki sinə bəzəyi və iki sırğadan (30, inv. № 73), yeddinci

kurqanın (Çovdar, IV kurqan) inventarı isə qolbaq, iki üzük, muncuqlar, toqqa, dəvəgözündən dörd ədəd ox ucu və gil qabdan (30, inv. № 71) ibarət olmuşdur (31, 7).

Muzeyin ekspedisiyası Nüzgər kəndində yerli sakinlərdən təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələrini də toplamışdır (31, 7; inv. № 82-83). Həmçinin, V.Qukasov hələ 1908-ci ildə adı çəkilən abidələrdə apardığı arxeoloji qazıntılar zamanı aşkar etdiyi və Arxeologiya fondunun inventar kitabında Lus kolleksiyasından daxil olduğu qeyd edilən tunc və gil məmulatından ibarət maddi-mədəniyyət nümunələrini də Muzeyə təhvil vermişdir.

1921-ci ildə Gəncə qəzasının Nüzgər, Qotul və Çovdar kəndlərindən aşkar olunmuş arxeoloji materiallar həmişə arxeoloji ədəbiyyatda Gəncə-Çovdar adı ilə qeyd olunmuş, heç vaxt onların müxtəlif abidələrdən əldə edildiyi qeyd olunmamışdır. Qazıntı hesabatının Muzeyin «Sənədli Mənbələr fondu»nda olmasına baxmayaraq, qazıntı materiallarının qeydə alındığı Arxeologiya fondunun I inventar kitabındakı məlumatlar dəqiqləşdirilməmişdir. Burada arxeoloji materialların hamısı Gəncə qəzası ümumi adı ilə verildiyindən tədqiqatçılar buna diqqət yetirməmiş, bütün materialların Çovdardan olduğunu zənn etmişlər. Araşdırmamız zamanı bu dolaşıqlıq üzə çıxarılmış, yuxarıda da göründüyü kimi, kurqan materiallarının inventar kitabındakı yeri müəyyənləşdirilmişdir.

1921-ci il Gəncə qəzası (Nüzgər, Qotul və Çovdar) arxeoloji materialları V.Qukasovun qeyd etdiyi kimi, kurqanlardan deyil, əslində daş qutu qəbirlərdən aşkar olunmuşdur. Onun qəbirlərin qazıntısını təsvir etməsindən və həmin abidələrdə sonralar aparılan arxeoloji qazıntılardan bu aydın görünür.

Nüzgər, Qotul və Çovdar abidələri Xocalı-Gədəbəy mədəniyyəti arealına daxildir. Buradan tapılmış maddi-mədəniyyət nümunələri son tunc və ilk dəmir dövründə bu ərazidə yaşamış qədim azərbaycanlıların dünyagörüşünü (axirət dünyasına inamını, qəbir tiplərinə və mərhumun basdırılma vəziyyətinə münasibətini), aralarında hiss edilən sosial bərabərsizliyi (varlı, kasıb), zövqünü (müxtəlif tunc bəzək əşyaları, muncuqlar), sənətkarlığının (metalişləmə, daşişləmə, dulusçuluq), hərb sənətinin (tunc nizə, dəvəgözüdən ox ucları) inkişaf səviyyəsini öyrənməyə imkan verir.

Azərbaycan Dövlət Muzeyi 1922-ci ilin iyun ayında yenidən Gəncə

qəzasına ekspedisiya təşkil etmişdir. Gəncə qəzasının Qızılhacılı kəndində (indiki Goranboy rayonunda) «Həsən təpəsi» adlı yerdə uzunluğu 10 sajen (21,3 m), eni təxminən 5 sajen (10,65 m), hündürlüyü isə 3 sajenə (6,4 m) bərabər kurqan qeydə alınmışdır (32, 1).

Qızılhacılı və Səfikürd kəndləri (indiki Goranboy rayonunda) arasında olan «Xanlar təpəsi» adlı yerdə isə başqa bir kurqan (uzunluğu təxminən 3 sajen (6,4 m), eni 2 sajen (4,26 m), hündürlüyü 1,5 sajenə (3,2 m) bərabər) aşkar olunmuşdur. Yerli əhali əkin işləri ilə əlaqədar olaraq təsadüfən buradan gil qab və skelet də aşkara çıxarmışdır.

Qızılhacılıdan cənubda yerləşən Xan Qərvənd kəndində (indiki Goranboy rayonunda) dağıntıya məruz qalmış qədim istehkam - «Qala yeri» abidəsinin yeri müəyyənləşdirilmiş, orada da kiçik bir kurqan qeydə alınmışdır (32, 2).

1923-cü ildə Azərbaycan arxeologiya məktəbinin ilk nümayəndəsi və yaradıcılarından, onu təşkil və tədris edənlərdən biri, arxeoloq, etnoqraf, muzeyşünas və coğrafiyaşünas alim, tarix elmləri namizədi Davud bəy Mikayıl oğlu Şərifov Azərbaycan Tarixi Muzeyinə direktor təyin olunmuşdur (53, 146). Onun direktor təyin olunmasından sonra Muzeydə həm tədqiq, həm də təbliğ sahəsində xeyli irəliləyişlər oldu.

1924-cü ildə Davud Şərifovun bilavasitə səyi nəticəsində Azərbaycan Dövlət Muzeyinə sərgilərdə qədim insanların həyat tərzini dolğun göstərə bilmək üçün Dövlət Ermitajı emalatxanasından Rusiyanın müxtəlif ərazilərində tapılmış unikal arxeoloji materialların mulyajları (30, inv. № 907-970; 1254-1302), 1925-ci ildə isə Qafqaz Muzeyindən Redkin lager, Şuşa, Anenfeld, Çomaqlı, Zəylik, Yenikənd və Bakıda aparılan qazıntılar nəticəsində aşkar olunmuş əksəriyyəti son tunc və ilk dəmir dövrünə aid olan maddi-mədəniyyət nümunələri daxil olmuşdur (29, II kitab).

1926 və 1928-ci illərdə Muzeyin 1921-1922-ci illərdə Gəncə qəzasında apardığı arxeoloji qazıntıların bir növ davamı kimi Davud Şərifov yenə də həmin qəzada arxeoloji tədqiqat işləri aparmışdır. O vaxt tələbə olan və Muzeydə yenicə işləməyə başlayan Ishaq Cəfərzadə də onunla birlikdə bu arxeoloji qazıntılarda iştirak etmişdir (36, 4). 1926-cı il ekspedisiyası zamanı təkcə Çovdar kəndində 19 daş qutu qəbir açılmış, son tunc və ilk dəmir dövrünə aid çoxlu sayda tunc silahlar, bəzək nümunələri və gil qablar aşkar olunmuşdur (7).

Davud Şərifovun hesabatlarında maraqlı cəhətlərdən biri onun

qəbirləri nisbi sıralamasında sıfırdan başlamasıdır. Buna diqqət yetirməyən tədqiqatçılar onun 18 qəbir açdığını göstərirlər. Əslində isə qəbirlərin sayı 19-dur. Qəbir avadanlıqları toplanaraq Muzeyə gətirilmiş, Arxeologiya fondunun I inventar kitabında 102-316 inventar sayı altında qeyd edilmişdir. 1926-cı il Çovdar arxeoloji materialları qara, boz və qırmızı rəngli müxtəlif qablar, tunc əşyalar – xəncər, xəncər başlıqları, iki tərəfi kəsərli bıçaq, dördkünc bizlər, düymələr, pilək dəsti, dingələr, sancaq, ayparaşəkilli və düyməvari sancaq başları, üzərində şəbəkəli naxışlar verilmiş quşformalı asmalar, spiralşəkilli və adi üzüklər, qolbaqlar, dairəvi və yastı təbəqədən sinə bəzəkləri, dəmir əşya və parçaları, əlvan metaldan düymə və muncuq, balıqqulağı, əqiq, pasta və tunc muncuqlar, daş əyircəklər, dəvəgözüdən ox ucları, dəvəgözü və çaxmaqdaşı qəlpələri, kömürləşmiş palıd qozası qırıqları, çürümüş ağac qalıqlarından ibarətdir.

1927-ci ildə Çovdar kəndinin sakinləri təsadüfən aşkar etdikləri xeyli sayda öz gözəlliyi ilə seçilən maddi-mədəniyyət nümunələrini Muzeyə göndərmişlər (30, inv. № 317-344). Təsadüfi tapıntıların zənginliyini nəzərə alan Muzey rəhbərliyi 1928-ci ilin avqust-sentyabr aylarında Çovdar kəndinə yeni arxeoloji ekspedisiya təşkil etmişdir. Davud Şərifovun apardığı arxeoloji qazıntılar nəticəsində 16 daş qutu qəbiri açılmış, əldə edilən maddi-mədəniyyət nümunələri Muzeyə gətirilmişdir. Arxeologiya fondunun III inventar kitabında 1678-1713 və 1813-1852 inventar sayları altında qeydiyyata alınan 1928-ci il Çovdar materialları qara, boz və qırmızı rəngli müxtəlif qablar, tunc əşyalar - asmalar, sırğalar, üzük-halqalar, üzəri saya, dişli və çıxıntılarla bəzənmiş, forma və hazırlanma texnikasına görə müxtəlif olan qolbaqlar, zəncir, muncuqlar, xəncər, nizə ucluqları, bıçaq, iynə, böyük tunc qazan, dəmir əşyalar - qılınc, nizə ucluqları, bıçaq, iynə və mıx, qaban dişi, dəvəgözü qəlpələri, əqiq, pasta muncuqlardan ibarətdir.

Azərbaycan Tarixi Muzeyində siklop tikintilərinin öyrənilməsinə xüsusi diqqət yetirilmiş, bu məqsədlə müxtəlif elmi tədqiqat işləri görülmüşdür. Bu sahədə Muzeyin elmi işçiləri Ishaq Cəfərzadə və sonrakı illərdə Güllü Əbilovanın əməyi böyükdür (144; 109).

Hələ 1929-cu ildə Muzey tərəfindən Kürdistan qəzasına Ishaq Cəfərzadə və Yevgeni Paxomovun iştirakı ilə ekspedisiya təşkil edilmişdir. Ekspedisiya Kiçik Qafqaz dağlarında Qoşqarçayın mənsəbində Xaçbulaq və Tərtərçayın yuxarısında Kəlbəcər bölgəsini tədqiq etməli idi. Məlum olduğu kimi, ilk dəfə

olaraq Kürdistan ekspedisiyası siklop tikintilərinin sistematik öyrənilməsinə başlamışdır (182, 7).

Kəşfiyyat qazıntıları zamanı Kəlbəcərdə 1 saylı qəbirdən pasta və əqiq muncuqlar, boz rəngli qab hissələri əldə edilmişdir (30, inv. № 1501). Kəlbəcərdə açılmış 2 saylı qəbirdən isə tunc halqa, şüşə qab qırıqları, əqiq muncuqlar və gil qab parçaları aşkar olunmuşdur (30, inv. № 1499). Gil qabların bir neçə nümunəsi isə yer üstündən toplanmışdır (30, inv. № 1500).

Azərbaycan Tarixi Muzeyi XX əsrin 20-ci illərində olduğu kimi 30-cu illərində də arxeoloji qazıntıları davam etdirmişdir. Həmin qazıntılar Yevgeni Paxomovun rəhbərliyi ilə Mingəçevirdə, Vadim Leviatovun rəhbərliyi ilə Qədim Gəncədə, Saleh Qazıyevin rəhbərliyi ilə Qəbələdə aparılmışdır. Lakin bu qazıntılar haqqında ümumi məlumatlar tədqiqatımızın xronoloji çərçivəsinə daxil olmadığından burada təfsilatı ilə qeyd olunmur. Əksinə, Muzeyin XX əsrin 40-50-ci illərində apardığı arxeoloji qazıntılar nəticəsində dövlətəqədərki tariximizə aid çoxlu sayda maddi-mədəniyyət nümunələri əldə edilmişdir.

1941-ci ildə Saleh Qazıyevin rəhbərliyi altında Mingəçevir abidəsinin kompleks öyrənilməsi işinə başlanması cəhdi edilmişdir (87, 72). Bu arxeoloji tədqiqat işləri nəticəsində Mingəçevirdə dörd qəbir tipi, sitayiş yeri və orta əsrlərə aid maddi-mədəniyyət abidələri aşkar olunmuşdur. Mingəçevirdə üç yaşayış yerinin olduğu müəyyən edilmiş, iki küp qəbir, ölülərin bükülü və uzanmış halda basdırıldığı iki torpaq qəbir, bir kurqan və orta əsrlərə aid iki sahədə qazıntı aparılmışdır. Böyük Vətən müharibəsinin başlanması (1941-ci il) ilə arxeoloji qazıntılar müvəqqəti olaraq dayandırılmışdır. 1941-ci il Mingəçevir arxeoloji qazıntılarının nəticələri Saleh Qazıyevin və Nina Minkeviç-Mustafayevanın məqalələrində öz əksini tapmış (87; 173), arxeoloji materiallar 1959-cu ilin aprel ayında Arxeologiya fonduna 65 inventar sayı altında təhvil verilmişdir.

1946-cı ilin yazında Azərbaycan Elmlər Akademiyası tərəfindən təşkil olunmuş Azərbaycan Tarixi Muzeyinin Mingəçevir arxeoloji ekspedisiyası fasiləsiz olaraq 1953-cü ilin ortalarına qədər geniş miqyasda arxeoloji tədqiqat və qazıntı işi aparmışdır. Ekspedisiyanın işinə Saleh Qazıyev rəhbərlik etmişdir. Arxeoloji qazıntılarda Azərbaycan Tarixi Muzeyinin işçilərindən Yevgeni Paxomov, Rəhim Vahidov, Qavril Ione, Tamara Qolubkina, V.Fomenko, L.Osipova, Qardaşxan Aslanov, rəssam Əli Səttar,

Tarix Institutunun işçilərindən Ishaq Cəfərzadə, Nina Minkeviç-Mustafayeva və başqaları iştirak etmişlər (84, 7).

Ekspedisiyanın yeddillik axtarış və qazıntı işləri nəticəsində Mingəçevir şəhəri və ona yaxın ərazidə mis-daş dövründən başlanmış orta əsrlərin sonuna qədər böyük bir dövrü əhatə edən dörd yaşayış yeri, bir neçə qəbiristanlıq və istehsal ocaqları aşkar edilmişdir. Bununla yanaşı, beş min illik bir müddət ərzində yerli əhalinin təsərrüfat sahələrini, məişətini və mədəni səviyyəsini əks etdirən maddi-mədəniyyət nümunələri toplanmışdır (105, 21).

Mingəçevirdə məlum olan ən qədim yaşayış yeri 1 saylı yaşayış yeridir. Bu yaşayış yeri Kür çayının sağ sahilində Qazanlıdağın ətəyində yerləşir. Arxeoloji qazıntılar nəticəsində burada üç mədəni təbəqə aşkar olunmuşdur. Bu təbəqələrin ən qədimi mis-daş dövrünün sonuna aid edilir. Birinci təbəqənin xarabalıqları üzərində yerləşən ikinci təbəqə tunc dövrünün inkişaf və son mərhələsini, üçünücü təbəqə isə ilk dəmir və antik dövrünü əhatə edir. Arxeoloji qazıntılar zamanı bu mədəni təbəqələrdən hal-hazırda Azərbaycan Tarixi Muzeyində mühafizə edilən müxtəlif əmək alətləri, saxsı məmulatı, heyvan və bitki qalıqları, müəyyən miqdarda metal əşyalar aşkar olunmuşdur. Bundan əlavə, torpaqda qazılmış müxtəlif təsərrüfat quyuları, yaşayış binaları və primitiv dulus kürələrinin qalıqları tədqiq edilmişdir. Yaşayış yerinin cənub tərəfində sahəsi 50 hektara yaxın olan böyük qəbiristanlıqda dövrlərinə müvafiq olaraq dörd tip torpaq qəbirlərinə təsadüf olunmuşdur.

Tarix Institutu yaradıldıqdan sonra Mingəçevir ekspedisiyası üzvləri orada işləməyə başlamışdır. Odur ki, Mingəçevir maddi-mədəniyyət nümunələri də Azərbaycan Tarixi Muzeyi ekspozisiyasındakı arxeoloji materialları nəzərə almasaq həmin institutun Arxeologiya fondunda toplanmışdır. Tarix Institutu Arxeologiya fondunda bəzi sanitar təmizləmə və müəyyən elmi araşdırma işləri aparıldıqdan sonra 1959-cu ildə arxeoloji materialların böyük hissəsi Muzeyin Arxeologiya fonduna daimi mühafizə üçün təhvil verilmişdir. Bu zaman Mingəçevirin 1946 (sayı 2274), 1947 (sayı 1430), 1948 (sayı 781), 1949 (sayı 1010), 1950 (sayı 1035), 1951 (sayı 89), 1952 (sayı 417), 1953-cü illər (sayı 389) arxeoloji materiallarının müəyyən hissəsi fonda daxil olmuşdur (1; 2; 3; 4; 28). Mingəçevirin digər üç yaşayış yerindən aşkar olunmuş maddi-mədəniyyət nümunələri isə bizim tədqiqatın xronoloji çərçivəsinə uyğun olmadığından burada qeyd olunmamışdır.

Hələ çöl işləri zamanı bu arxeoloji materialların üzərində səhra qeydiyyatı

aparılsa da, fondda inventarlaşması işi çox vaxt aparmış, demək olar ki, indi də davam edir. Belə ki, materialların çoxluğu bu işin mərhələlərlə aparılmasını tələb etmişdir. Bu bəzən materialın ekspozisiyada nümayiş etdirilməsi vəziyyətindən də asılı olaraq dəyişmişdir. Məsələn: monqol xalatları (30, inv. № 3020), tunc təbərzin baltalar (30, inv. № 3137-3138), tunc nizə ucluğu (30, inv. № 3140), gil qablar, daş və sümük alətlər (30, inv. № 4931-4940) və s. Lakin ekspozisiyaya verilən Mingəçevir materiallarının heç də hamısı fondun inventar kitabından keçməmişdir. Belə ki, ən yaxşı materiallar seçilmiş, inventar kitabında və üzərində fondun heç bir nömrəsi qeyd edilmədən ekspozisiyaya verilmişdir. Bu vəziyyət ilk illərdə o qədər də çətinlik yaratmasa da sonralar ekspozisiyaların yeniləşməsi zamanı xeyli problemlər yaratmışdır, bəzi hallarda qarışıq da düşmüşdür. Bu mənfi halın gələcəkdə aradan qaldırılması vacibdir.

1953-cü ildə Azərbaycan Tarixi Muzeyinin elmi işçiləri Məmmədəli Hüseynov və Qavrill Ione Sergey Zamyatinin rəhbərliyi altında Ağstafa rayonunun Qıraq-Kəsəmən kəndində, Kürün sol sahilində qısa müddətli kəşfiyyat işləri zamanı çoxlu sayda daş qəlpələr (t/t inv. № 78) və cənub filinin (Elephas meridionalis) sümüklərini aşkar etmişlər. Daş qəlpələrin hamısının insan əlində hazırlanması düşünülsə də, onların yalnız bazaltdan olanları qaşov və əl çapacağına oxşayır, qalanları isə çox xırda olub, forma verməkdə çətinlik törədir (138, 71). Maraqlıdır ki, hələ XIX əsrin II yarısında Qıraq-Kəsəmən kəndində, Kürün sol sahilində oxşar tapıntılara - cənub filinin sümüklərinə D.Simonoviç və Q.Sorokin də rast gəlmişdir (138, 72).

1953-cü ildə Sergey Zamyatinin rəhbərliyi və Məmmədəli Hüseynovun iştirakı ilə arxeoloji kəşfiyyat qazıntısı Qazax rayonunun Daşsalahlı kəndində Damcılı bulağının yaxınlığındakı mağarada da davam etdirilmiş, paleolit dövrünə aid maraqlı tapıntılar əldə edilmişdir. Belə ki, 2 m dərinlikdə, sarı gil təbəqəsindən çaxmaqdaşıdan qəlpələr və qaşovlar aşkar olunmuş, Azərbaycanda ən qədim abidələrdən birinin yeri beləcə dəqiqləşdirilmişdir (138, 72).

Azərbaycanda daş dövrünün tarixini daha geniş səviyyədə tədqiq etmək üçün Azərbaycan Tarixi Muzeyi öz paleolit ekspedisiyasını yaratmışdır. Ekspedisiyanın rəhbəri Azərbaycan daş dövrü tarixinin görkəmli tədqiqatçısı, Arxeologiya fondunun müdiri Məmmədəli Hüseynov olmuşdur. 1956-cı il iyulun 26-dan sentyabrın 8-nə qədər bu ekspedisiya Qazaxdakı Damcılı

mağarasında arxeoloji kəşfiyyat qazıntılarını davam etdirmiş, burada qoyulmuş III şurfdan əldə edilmiş arxeoloji materiallar daimi mühafizə üçün Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna təhvil verilmişdir (30, inv. № 3158-3214).

Paleolit ekspedisiyası Qazaxdakı arxeoloji qazıntılarını 1957-ci ildə də davam etdirmişdir. 1,8 m dərinlikdə sarı gil təbəqəsindən dəvəgözü və çaxmaqdaşıdan maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. 3, 7, 8-10, 14-16, 18, 19 kvadratlarda tapılmış maddi-mədəniyyət nümunələri daimi mühafizə üçün Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna təhvil verilmişdir. Həmin materiallar Azərbaycan Tarixi Muzeyinin paleolit ekspedisiyasının I kolleksiyasına daxil olub, 290 nömrədə qeyd olunmuşdur (23).

Bu ekspedisiya 1958-ci ildə Qazaxdakı arxeoloji qazıntılarına davam etmişdir. Mağaranın girəcəyi, 5-8, 12, 13 (ocaq yeri), 14, 16-18, 20-22, 24-30, 32, 35-37, 39-41, 43-53 kvadratlarda aşkar olunmuş dəvəgözü və çaxmaqdaşıdan ibarət maddi-mədəniyyət nümunələri 106 nömrədə qeyd olunaraq daimi mühafizə üçün Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna təhvil verilmişdir (30, inv. № 14144-14248). Həmin materiallar paleolit ekspedisiyasının II kolleksiyasına daxildir (23).

1958-ci ildə Məmmədəli Hüseynovun Tarix Institutuna keçməsindən sonra «Paleolit ekspedisiyası»nın fəaliyyəti orada davam etmişdir. Məmmədəli Hüseynov Arxeologiya fondunun inventar kitabına daxil edilmiş, ancaq ekspozisiyada nümayiş etdirilməyən çoxlu sayda Damcılı-Daşsalahlı, Azıx materiallarını tədqiq etmək məqsədilə müvəqqəti özündə saxlamışdır. Lakin Arxeologiya fondunun inventar kitabında qeydiyyatda olan həmin materiallar hələ də Muzeyə qaytarılmamışdır. Sözsüz ki, bu maddi-mədəniyyət nümunələri ya Muzeyə təhvil verilməli, ya da onların Muzey inventar sayları ləğv olunmalıdır.

Azərbaycan Tarixi Muzeyi Şərqiyyə Sadıqzadənin rəhbərliyi ilə Xızı, Xaçmaz və Xudat rayonlarında arxeoloji axtarışlar (22-25 may 1957-ci il) aparmış, Xudat rayonu ərazisindən tunc dövrünə aid edilən boz rəngli qablar, qayıqvari dən daşının hissəsi, tunc boyunbağı, əqiq muncuq və s. əldə edilmişdir (100, 116). Bu bölgədə həmçinin, antik və orta əsrlər dövrünə aid maraqlı abidələr qeydə alınmışdır.

Xızı, Xaçmaz və Xudat rayonlarından əldə edilmiş təsadüfi arxeoloji

materiallar [Xızıda gil kərpic və qırıqları (t/t inv. № 8), Xudatda boz rəngli qab sınıqları, insan sümükləri və qayıqvari dən daşının hissəsi (t/t inv. № 13)] Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə edilir.

Azərbaycan Tarixi Muzeyi meqalitik abidələri öyrənmək məqsədilə Güllü Əbilovanın rəhbərliyi altında Gədəbəy rayonuna tarixi-arxeoloji ekspedisiya (26 iyun-2 avqust 1957-ci il) təşkil etmişdir (109, 97). Rayonun Çardaqlı, Zəhmət, Xar-xar, Slavyanka, Maarif və Söyüdlü kəndləri ətrafında ilk dəfə olaraq bir neçə siklop tikintisi qeydə alınmış, Söyüdlü kəndinin 2 km-liyindəki Parakənd adlı yerdə, siklopun içərisində qazıntı aparılmışdır. Qazıntıdan (0,4-0,5 m dərinlikdə) müxtəlif saxsı qab qırıqları, ev heyvanlarının sümükləri aşkar olunmuşdur. Burada həmçinin, dərin quyu (0,5-0,6 m dərinlikdə) təmizlənmişdir. Quyunun ağzı iri daş lövhələrlə örtülmüşdü. Onun içərisindən dən daşı hissəsi, diskşəkilli nukleus, saxsı qab və sümük qalıqları əldə edilmişdir. Tədqiqatçıların fikrincə, həmin quyu təsərrüfat quyusu olmuşdur (109, 97). Bu quyu ilə yanaşı, ikinci bir təsərrüfat quyusunun da yerləşdiyi müəyyən edilmişdir.

1962-1963-cü illərin iyul-avqust aylarında Azərbaycan Tarixi Muzeyi Şərqiyyə Sadıqzadənin rəhbərliyi ilə Xaçbulaq yaylağına arxeoloji ekspedisiya təşkil etmişdir. Arxeoloji tədqiqat işi Azərbaycan SSR EA Tarix Institutunun elmi işçiləri ilə birlikdə aparılmışdır. Ekspedisiya zamanı bir kurqan və 11 daş qutu qəbiri öyrənilmişdir.

Kurqan Qoşqar çayının iki qolu arasında Hamamdüzü adlanan sahənin şimal-qərb hissəsində yerləşirdi. Kurqan (hündürlüyü 1,8 m) dairəvi formada daş və torpaqdan tökülmüşdür. Tökmə torpaqdan müxtəlif dərinliklərdə dəvəgözü və çaxmaqdaşı qəlpələri, qırmızı rəngli gil qab qırıqları, heyvan sümükləri, həvəng daşının bir hissəsi aşkar edilmişdir. Kurqanın cənub hissəsində şimala nisbətən daha çox daş tökülmüşdür. Şimal hissədə tökmə torpağın altından 11 müsəlman qəbri aşkar olunmuşdur. Kurqanın şimal-şərq kənarından, mərkəzindən 6 km aralı, 0,7 m dərinlikdən 1 ədəd iri əqiq muncuq (asma) və 1 ədəd dəmir gəm tapılmışdır. Gəm iki dəmir eşmə məftildən düzəldilmişdir. Uzunluğu 21 sm-dir. Kurqanın mərkəzində (2,1 m dərinlikdə) tökmə qara torpağın altından iri ölçülü təbii qaya parçaları çıxmış, cənub hissədə qara torpaq qatı götürüldükdə sarı rəngli xam torpaqda içərisi çay daşlarından təmizlənərkən su ilə dolmuş qəbir çuxuru aşkar olunmuşdur. Qəbir materiallarından yalnız 1 ədəd şüşə muncuq və pis qalmış sümük

qalıqlarına təsadüf edilmişdir (25, 6).

Xaçbulaqda I daş qutu qəbirdəki skelet dizləri bükülü, əlləri üzünə tərəf qaldırılmış, sol böyrü üstə, başı cənuba, ayaqları şimal istiqamətində basdırılmış yaşlı adama məxsusdur. Skeletin ətrafından 6 ədəd boz və qırmızı rəngli gil qab, tunc dingə qalıqları, mismarformalı sancaq, qolbaq, 7 ədəd üzük, 290 ədəd əqiq muncuq tapılmışdır (25, 7). II daş qutu qəbirdəki skelet dizləri bükülü, əlləri üzünə tərəf qaldırılmış, sol böyrü üstə, başı şimala doğru basdırılmış qadına məxsusdur. Skeletin ətrafından 6 ədəd boz və qırmızı rəngli gil qab, başı keçi formalı tunc sancaq, sırğa, 2 ədəd qolbaq, 100 ədəd əqiq və pasta muncuq aşkar olunmuşdur (25, 8). Xaçbulaq kəndinə gedən yolun ətrafında tədqiq olunan III daş qutu qəbirin üst daşlarından biri götürüldüyü üçün içərisinə şüşə, daş və torpaq dolmuşdu. Qəbirin avadanlığı 4 ədəd gil qab, 2 ədəd tunc sırğa, 7 ədəd əqiq muncuqdan ibarət olmuşdur (25, 10). IV daş qutu qəbirdə 3 ədəd gil qab, tuncdan tamam ovulmuş dingə, 2 ədəd sırğa, əqiq və pasta muncuqlar, üst daşı tamam götürülmüş V daş qutu qəbirdə isə 2 ədəd gil qab və tunc xəncər aşkar edilmişdir (25, 11). VI daş qutu qəbirdə içərisinə dolmuş torpağın altında kəllə sümüyünün izləri qalmış skeletin ətrafından 5 ədəd qara və boz rəngli qab, tuncdan 2 ədəd qolbaq, uclarına əqiq muncuq keçirilmiş 2 ədəd asma və iri əqiq muncuqlar tapılmışdır (25, 12). VII daş qutu qəbirin qarət edildiyi ehtimal olunur. Buradan çoxlu qab sınıqlarının aşkar edilməsinə baxmayaraq heç bir tam gil qab tapılmamışdır. Tuncdan kəmər qırığı, xəncər, dəmirdən isə ox ucu aşkar olunmuşdur (25, 12). VIII daş qutudan tunc xəncər və 3 ədəd gil qab, IX qəbirdən isə tuncdan xəncər, qolbaq, 2 ədəd üzük, 2 ədəd qabarıq düymə, dəvəgözündən 2 ədəd ox ucu, 40 ədəd əqiq muncuq, 2 ədəd gil qab aşkar olunmuşdur (25, 13). X daş qutuda bükülü, sol böyrü üstə, başı qərbə basdırılmış skeletin ətrafında tuncdan iynə, üzük, 3 ədəd qolbaq, 2 ədəd quşformalı və 1 ədəd qaşıqvari asma, 2 ədəd düymə, 2 ədəd sırğa, ağ mərmərdən əyircək, göy pastadan 2 ədəd möhür, gil nehrə, 2 ədəd gil qab qoyulmuşdur (25, 14). XI qəbir uşağa məxsus olub, skeleti tamam çürümüşdü. Buradan 2 ədəd tunc sırğa, qolbaq və gil qab aşkar edilmişdir (25, 15). Xaçbulaqda aşkar olunmuş bu qəbir abidələri Xocalı-Gədəbəy mədəniyyətinə aiddir.

Azərbaycan Tarixi Muzeyində Xəzər dənizinin Azərbaycan sahili boyunca sualtı abidələrin tədqiqi üzrə Viktor Kvaçidzenin rəhbərlik etdiyi Sualtı Arxeologiya mütəxəssislərindən ibarət xüsusi qrup yaradıldıqdan (1968-ci il)

sonra Azərbaycan Tarixi Muzeyi demək olar ki, əsas tapıntıları orta əsrlərə aid olan Xəzər dənizi və Kür çayı suları altındakı abidələri öyrənməyə başlamışdır (159; 25). Bu tədqiqatlar zamanı son tunc və ilk dəmir dövrünə aid ayrı-ayrı maddi-mədəniyyət nümunələri də aşkar olunmuşdur.

Azərbaycan Tarixi Muzeyinin arxeoloji tədqiqatlarına yekun vuraraq aşağıdakı əsas elmi nəticələrə gəlmək mümkündür:

- Azərbaycan Tarixi Muzeyi Azərbaycanda ilk elmi-arxeoloji tədqiqatlar (1921-ci il) aparmışdır;
- Muzey Azərbaycanda son tunc və ilk dəmir dövrü siklop tikintilərini davamlı olaraq öyrənmək məqsədilə ekspedisiyalar (1929, 1957-ci illər) təşkil etmişdir;
- Çoxəsrlik tarixə malik Mingəçevir abidələri Azərbaycan Tarixi Muzeyinin ekspedisiyaları (1935-1939, 1941, 1946-1953-cü illər) tərəfindən tədqiq olunmuşdur;
- Azərbaycan Tarixi Muzeyi ilk dəfə olaraq daş dövrünü öyrənən paleolit ekspedisiyasını (1956-1958-ci illər) yaratmışdır;
- Sualtı abidələrin tədqiqi ilə məşğul olan ilk və tək ekspedisiyanı (1968-1986-cı illər) təşkil etmişdir.

Azərbaycan Tarixi Muzeyinin arxeoloji qazıntılar aparmaq ənənəsini nəzərə alaraq gələcəkdə bu elmi-tədqiqat müəssisəsinin fondunu yeniləşdirmək və daha da zənginləşdirmək məqsədilə tarixi abidələrimizi arxeoloji cəhətdən öyrənməsinə şərait yaradılması və imkan verilməsi məqsədəuyğundur.

## Elmi-tədqiqat qurumlarının arxeoloji ekspedisiyalarının materialları

Azərbaycan Tarixi Muzeyinin yarandığı ilk illərdə əsas məqsəd bütün mümkün vasitələrdən istifadə etməklə Muzeyi materiallarla zənginləşdirmək idi. Ona görə də digər sovet respublikalarının muzeylərində mühafizə edilən Azərbaycana məxsus olan və olmayan maddi-mədəniyyət nümunələrinin ya əsli, ya da mulyajlarının Azərbaycan Tarixi Muzeyinə cəlb edilməsi sahəsində də xeyli işlər görülmüşdür.

1924-cü ildə Leninqrad Muzey emalatxanasında SSRİ-nin müxtəlif bölgələrindən Dövlət Ermitajına daxil olmuş bəzi arxeoloji materialların

mulyajları hazırlanmış və Azərbaycan Tarixi Muzeyinə göndərilmişdir. Əsli tunc olan təbərzinlər, baltacıqlar, kelt baltaları, xəncərlər, nizə ucluqları, bıçaqlar, toxalar, isgənələr, at gəmi, qolbaqlar, antropomorf və zoomorf fiqurların (30, inv. № 907-970; 1254-1295), əsli dəmir olan xəncər, isgənə, üzəngi, oraq, (30, inv. № 1296-1299), əsli daş olan əmək alətləri və asmaların (30, inv. № 917-928; 931-938; 940; 942-970; 1300; 1302), əsli sümük olan əmək alətlərinin (30, inv. № 907-916; 929-930; 939; 941) mulyajları hamısı gipsdən hazırlanmışdır.

Çar Rusiyası dövründə canişinlik mərkəzi Tiflis şəhəri olduğundan Qafqazın müxtəlif yerlərindən aşkar edilən arxeoloji materiallar bir qayda olaraq Tiflisdə yerləşən Qafqaz Muzeyinə gətirilirdi. Odur ki, həmin dövrdə Azərbaycanın qazıntılar aparılmış bölgələrindən Qafqaz Muzeyinə çoxlu sayda arxeoloji materiallar daxil olmuşdur. 1925-ci ildə Qafqaz Muzeyi bu maddi-mədəniyyət nümunələrinin müəyyən hissəsini Davud Şərifovun bilavasitə səyi nəticəsində Azərbaycan Tarixi Muzeyinə təhvil vermişdir.

Qafqaz Muzeyi materialları öz elmi dəyərini yalnız əşyanın varlığında və abidənin adında saxlaya bilmişdir. Hətta nə vaxt, necə və kim tərəfindən tapılması məlum olmayan bu materialların bu cür yarımçıq qeydiyyatının aparılması tədqiqatçının işini çətinləşdirir. Bir sözlə, əksəriyyəti saxsı məmulatından ibarət olan Redkin lager materialları XIX-XX əsrin əvvəllərində keramikanın dövrünü təyin etmə baxımından etalon kimi götürülürdüsə, indi də elmi əhəmiyyətini itirməmişdir. Amma onlar haqqında zəruri dəqiqləşdirmələrin aparılmasına ehtiyac vardır.

Təzadlı vəziyyət yaranmışdır. Arxeoloji materiallar tapıldığı yer, il, abidə və tapan şəxs adları qeyd olunmadan Arxeologiya fondunun inventar kitabında qeydə alınmışdır. Bu kitaba baxan hər hansı tədqiqatçı tapıntıların yalnız Redkin lagerdən olduğunu anlayar. Əslində isə daha çox abidənin materiallarının təhvil verildiyi təəssüratı yaranır. Məsələn: Zəylik kimi. Zəylik qazıntılarını isə soyadı Xaritonov olan şəxsin apardığı yenə inventar kitabındakı haşiyələrdən məlum olur.

1925-ci ildə tərtib olunmuş aktda Qafqaz Muzeyinin Redkin lager, Şuşa, Anenfeld, Çomaqlı, Zəylik, Göyçay qəzası Yenikənd kəndi və Bakı qəzasından aşkar olunmuş maddi-mədəniyyət nümunələrini Azərbaycan Tarixi Muzeyinə təhvil verdiyi aydın olur. Odur ki, Arxeologiya fondunun inventar kitabından istifadə edən tədqiqatçı istəmədən yanlışlığa düşə bilər.

Indiyə qədər dəqiqləşdirmə işləri aparılmadığından mütləq Tbilisi Muzeyinə müraciət edilməli, sonra bu dəqiqləşdirmələr aparılmalıdır. Bu isə ayrıca elmi-tədqiqat mövzusudur.

Qafqaz Muzeyindən daxil olmuş Redkin lagerin tunc məmulatı xəncərlər, xəncər başlıqları, nizə ucluqları, sancaqlar, dingə, boyunbağılar, qolbaqlar, ucları bitişik qolbaqlar, ucları bir-birinin üzərinə keçmiş qolbaqlar, balıqbeli formalı və ucları kənara qatlanmış qolbaqlar, ucları döyülərək kənara qatlanmış iri qolbaqlar, muncuq keçirilmiş sırğalar, quşformalı asma, kəmər, zınqırovlar, məftildən üzük-halqalar, lövhədən üzüklər, pilək və düymələr, iynələr, sümük məmulatı əyircək, alət qırığı, maral buynuzu, dəmir məmulatı iki tərəfi kəsərli xəncər, nizə ucluğu, daş məmulatı yarımkonus daş parçası, çaxmaqdaşı qəlpələri, dəvəgözü qəlpələri, çaxmaqdaşı və dəvəgözündən ox ucları, muncuqlar isə əqiq, balıqqulağı, sümük, şüşə və tuncdan ibarətdir.

Inventar kitabındakı qeydlərdən Redkin lager qəbirlərindən 55 saylı qəbri Fridrix Bayernin açdığı məlum olur (30, inv. № 1365-1366). Fridrix Bayern XIX əsrin 70-ci illərində Tiflisdəki Qafqaz Muzeyinin dəvəti ilə Qafqazda mineral kolleksiyaları toplamağa gəlmişdir. Tezliklə onun nəzərini Qafqazda diqqətdən kənarda qalmış qədim qəbirlər cəlb etmişdir. Bu dövrdə Qafqazın Marienfeld, Sartaçalax, Samtavro-Mtsxet, Kazbek və Redkin lager abidələrində aparılan arxeoloji qazıntılar onun adı ilə bağlıdır (193, 11).

40 saylı qəbirin bəzi materiallarının isə qara və qırmızı rəngli gil qablardan ibarət olduğu göstərilir (30, inv. № 1516-1518). Redkin lager arxeoloji materiallarının nisbətən dolğun təsviri verilənləri də vardır. Onlar 1-3, 5-6, 8, 10, 16-20, 22-23, 26-32, 35-43, 45-48, 54-55, 59-61, 63-70, 73, 94 saylı qəbirlərin saxsı məmulatından ibarət materiallarıdır (30, inv. № 700-906). Əslində bütün arxeoloji materiallar üçün bu cür qeydlərin aparılması vacib idi. Redkin lager gil qablarından bir neçəsi 1944-cü ildə Şamaxı və 1958-ci ildə Nuxa Muzeyinə verilmişdir.

Muzeydə az sayda olsa da Şuşa arxeoloji materillarının olması haqqında heç bir məlumat yox idi. Son zamanlar apardığım araşdırmalar zamanı mənə məlum oldu ki, Redkin lager materialları adı altında qeyd olunmuş tunc gəm (30, inv. № 1052), ox ucları (30, inv. № 1037; 1038), xəncər başlığı (30, inv. № 1057), düymələr (30, inv. № 1056; 1060), lövhəcik və ya kəmər hissəsi (30, inv. № 1058; 1051), qolbaqlar (30, inv. № 1045; 1046), çaxmaqdaşı və dəvəgözüdən ox ucları (30, inv. № 1039; 1040), əqiq və balıqqulağı muncuqlar

(30, inv. № 1053; 1059; 1054; 1055), heyvan dişləri (30, inv. № 1048; 1050) və çürümüş ağac parçasından (30, inv. № 1049) ibarət maddi-mədəniyyət nümunələri məhz Şuşadandır.

Bununla yanaşı, Redkin lager materialları kimi qeyd olunmuş Anenfeld (Şəmkir) arxeoloji materialları [xəncərlər (30, inv. № 1026; 1030), nizə ucluğu (30, inv. № 1027), ox ucluqları (30, inv. № 1025; 1031; 1034-1035), qolbaq (30, inv. № 1033), məftildən üzük-halqa (30, inv. № 1028), maqqaş (30, inv. № 1029) və müxtəlif muncuqlar], Çomaqlı arxeoloji materilları [üzərində atlı və nəbati naxışlar olan sümük dəstə (30, inv. № 1095), çaxmaqdaşından bıçaq (30, inv. № 1505), şirli qab parçaları və kərpic (30, inv. № 1096-1099), dəmir halqa parçaları (30, inv. № 1107)], Zəylik (Daşkəsən) arxeoloji materilları [tunc qolbaqlar (30, inv. № 1093; 1091) ucları bir-birinin üzərinə keçmiş qolbaqlar (30, inv. № 1089; 1090), quşformalı asma (30, inv. № 1021), təbərzinbaşlıqlı sancaq (30, inv. № 1022), dəmirdən düymə və əşyadan bir hissə (30, inv. № 1092), at gəmi (30, inv. № 1020), ağ və boz mərmərdən müxtəlif ölçülü əyircəklər (30, inv. № 1023), əqiq, daş və tunc muncuqlar (30, inv. № 1024)] dəqiqləşdirilərək seçilmişdir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması (1923-cü il) xalqımızın tarixinin öyrənilməsində mühüm rol oynamışdır. Bu cəmiyyətin respublikanın müxtəlif bölgələrinə təşkil edilmiş sistemli elmi ekspedisiyaları Azərbaycanın qədim tarixə malik ölkə olduğunu dəlillərlə sübut etməyə yönəlmişdi (194). Cəmiyyətin ekspedisiyaları zamanı aşkar edilmiş arxeoloji materiallar müxtəlif illərdə Azərbaycan Tarixi Muzeyinə daxil olmuş və hal-hazırda Arxeologiya fondunda mühafizə edilir.

Cəmiyyət tərəfindən arxeoloji ekspedisiyaların təşkil edilməsi 1926-cı ildən mütamadi hal almışdır. Həmin ekspedisiyalardan biri SSRI Dövlət Maddi-Mədəniyyət Tarixi Akademiyasının akademiki Ivan Meşşaninovun rəhbərliyi ilə Naxçıvan ərazisində yerləşən Qızılburun (Qızılvəng) abidəsində arxeoloji qazıntılar aparmışdır. Burada qədim Naxçıvan mədəniyyətinə aid zəngin materiallar toplanmışdır (169, 5).

Cəmiyyətin Qızılburunda apardığı tədqiqat işləri nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri Azərbaycan Tarixi Muzeyinə daxil olmuş, Arxeologiya fondunun II və III inventar kitablarında qeydə alınmışdır (19). Qızılburun arxeoloji materiallarının qeydiyyatı nisbətən qənaətbəxş aparılmış, hər bir tapıntı haqqında dolğun məlumatlar verilmişdir.

Bu ekspedisiya Şahtaxtı kəndi ərazisində arxeoloji tədqiqat işləri aparmışdır. Burada üzəri qara naxışlı qırmızı rəngli qabların hissələri aşkar olunmuş və özünəməxsus cizgiləri ilə seçildiyinə görə Muzeyin 30-40-cı illərdəki sərgilərində nümayiş etdirilmişdir (30, inv. № 978; 1123-1124). Xarabagilan qazıntılarından isə son tunc və ilk dəmir dövrünə aid dəvəgözüdən ox ucu və orta əsrlərə aid şüşə qolbaqların hissələri aşkar olunmuşdur (30, inv. № 1125-1126).

Ordubad bölgəsində Danagird kəndi ərazisində Ələsgər Ələkbərov tərəfindən arxeoloji tədqiqat işləri (1926-cı il) aparılmış və təsadüfi arxeoloji materiallar - tunc əşyalar (30, inv. № 689-697) toplanmışdır (112, 248).

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətində Xocalı kurqan qəbiristanlığının öyrənilməsinin (1926-cı il) xüsusi yeri vardır. Qeyd edək ki, hələ bu qazıntıya qədər Xocalı kurqanlarından Azərbaycan tarixinə dair çox maraqlı tapıntılar əldə edilmişdir. Onlardan biri Assur hökmdarı Adadnirarinin adı ilə bağlı olan əqiq muncuqdur ki, üzərində mixi yazılarla «Adadnirarinin sarayı» yazılmışdır. Tarix Muzeyi həmin muncuğun mulyajını hazırlatmış, Muzeyin elmi ekspozisiyasılarında nümayiş etdirmişdir. Tədqiqatçılar tərəfindən Xocalı kurqanlarının tarixi e.ə. II minilliyin ortaları - I minillik kimi müəyyən olunmuşdur (169, 5). Akademik Ivan Meşşaninov Xocalı kurqan qəbiristanlığını kurqanların gələcək tədqiqatı və onların daş qutu qəbirləri ilə əlaqələrini müəyyən etmək baxımından ən gözəl və ən başlıca məntəqələrdən hesab etmişdir (145, 25).

Həmin il Xocalıda qazıntını Cəmiyyət aparsa da, ekspedisiyada iştirak edən SSRI Elmlər Akademiyasının Yafəsilik Institutunun iki əməkdaşı Tatyana Passek və Boris Latıninin aşkar etdiyi 1 və 6 saylı kurqanların, 7 saylı daş qutu qəbirin maddi-mədəniyyət nümunələri elmi işlənilməsi adı ilə Leninqrada aparılmışdır. Həmin arxeoloji materiallar yenidən Bakıya, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin ünvanına göndərilmiş (1928-ci il), bu zaman bəzi materialların itməsi halları da müşahidə olunmuşdur (10).

I kurqanın həfriyyatı üzəri nöqtə və cizgilərlə bəzənmiş boz rəngli gil qab parçalarından ibarətdir (30, inv. № 1006-1013; 1403-1422). Qab sınığının birinin üzərində svastika həkk olunmuşdur (30, inv. № 1422). Qab qırıqlarının bəziləri gipslə bərpa olunmuşdur. VI kurqanın avadanlığına isə boz rəngli müxtəlif ölçülü gil qabların sınıqları daxildir (30, inv. № 992-1005;

1423-1469a). Bu qabların bəzilərinin üzəri naxışlanmışdır.

Təşkil olunmuş ekspedisiyalarda Muzeyin işçləri də fəal iştirak edirdilər. Xocalıda 5 saylı kurqan Ishaq Cəfərzadə tərəfindən açılmış, nəticəsi onun «Xocalı ekspedisiyası» məqaləsində şərh olunmuşdur (145). V kurqanın arxeoloji materialları boz rəngli gil qablardan ibarətdir. Həmin gil qablar Muzeyə daxil olduqdan sonra təmizlənmiş, əksəriyyəti bərpa olunmuş, inventarlaşdırılmışdır (30, inv. № 975-976; 980-984).

Etnoqraflar Ələsgər Ələkbərovun və Qəhrəman Qaraqaşlının iştirak etdikləri ekspedisiya (1927-ci il) Mil düzündə yerləşən abidələri öyrənməyə başladı. Azərbaycan Tarixi Muzeyində həmin ekspedisiyanın Ağdam rayonu ərazisində yerləşən Şümürlütəpə, Qalatəpə və Üzərliktəpə abidələrində üzə çıxarılmış maddi-mədəniyyət nümunələri mühafizə edilir.

Şümürlütəpədə açılmış 1 saylı qəbirin avadanlığı qara və qırmızı rəngli gil qabların hissələri (30, inv. № 1303-1307) və tunc bəzək nümunəsi parçalarından (30, inv. № 1308), 2 saylı qəbirin avadanlığı isə qara və qırmızı rəngli gil qabların qırıqları (30, inv. № 1309-1311; 1319; 1330), dəmir nizə ucluğunun parçaları (30, inv. № 1312) və ocaq qalığından (30, inv. № 1313) ibarət olmuşdur. Qalatəpə tapıntıları içərisində dəmir xəncər, tunc və dəmir üzük qırıqları (30, inv. № 1314-1315; 1317-1318), şüşə muncuqlar (30, inv. № 1316) gil qablar (30, inv. № 1332-1333) ilə yanaşı və tunc əşyalar da üstünlük təşkil edir (30, inv. № 1314-1318). Üzərliktəpədən tapılmış maddi-mədəniyyət nümunələri qum qatışıqlı qara rəngli üzəri boya ilə naxışlanmış gil qabların hissələri (30, inv. № 1320-1327) və dəvəgözü qəlpələrindən (30, inv. № 1328; 1331) ibarətdir.

Şümürlütəpə, Qalatəpə və Üzərliktəpənin maddi-mədəniyyət nümunələri Muzeyə daxil olduğu vaxt inventarlaşdırılmış və qablaşdırılmışdır. Lakin, bu arxeoloji materiallar nə əsaslı tədqiqata cəlb edilmiş, nə də keyfiyyətini itirmiş qabları indiyə kimi dəyişdirilmişdir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi işçisi K.Quluzadə Cəbrayıl qəzasının Horadiz qəsəbəsində Culfa dəmir yolu çəkilərkən təsadüfi açılmış abidələrdə tədqiqat işi (1927-ci il) aparmış və qara rəngli saxsı məmulatı əldə etmişdir (30, inv. № 1598-1603). Horadizin qara rəngli küpələrinin (hündürlükləri 15-20 sm) bir və ya bir neçə qulpu vardır. Onlar gödək boğazlı olub, qabarıq gövdəyə malikdir. Küpələrin üzəri cilalanmış və müxtəlif cür həndəsi naxışlarla bəzənmişdir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti 1927-28-ci illərdə Ayrım dağlarına ekspedisiya təşkil etmişdir. Tədqiqat işləri həm Daşkəsən, həm də Gədəbəy rayonlarında aparılmışdır. Ekspedisiya zamanı bu dağlardakı siklop tikintiləri ilk dəfə Ivan Meşaninov, Ishaq Cəfərzadə və Ələsgər Ələkbərov tərəfindən qeydiyyata alınaraq öyrənilmişdir (169, 5-6). Həmçinin, təsadüfən Daşkəsən rayonu Xaçbulaq yaylağında, Qoşqar çayının başlanğıcında, 1800-2000 m yüksəklikdə yerləşən Xaçbulaq abidəsi aşkar olunmuşdur (170, 4).

1928-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Dəstəfur rayonunun (indiki Daşkəsən rayonu) Xaçbulaq kəndində apardığı arxeoloji tədqiqat işləri zamanı tunc nizə ucluğu, şirli gil qab parçası, dəvəgözü qəlpəsi və qara rəngli qab qırıqları ilə yanaşı həmin yerdən torpaq nümunəsi də götürülmüşdür (30, inv. № 1519). Qulp əvəzi dairəvi yastı çıxığı olan, qara rəngli, şagövdəli gil qab və boz rəngli zəif bişirilmiş, kobud hazırlanmış küpə isə təsadüfən əldə edilmişdir (30, inv. № 1520-1521). Bunlarla yanaşı, burada boz rəngli badya parçaları da tapılmışdır (30, inv. № 972).

1927-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Lənkəran qəzası ərazisində də arxeoloji tədqiqatlar (Ələsgər Ələkbərov və Mövsüm Salamov) aparmış, Astaranın Təngərud və Qara Yaşnı kəndlərində maraqlı maddi-mədəniyyət nümunələri - gil qablar (30, inv. № 679), tunc yarpaqşəkilli iri nizə ucluğu (30, inv. № 1114), şüşə nümunələri (30, inv. № 1115) aşkar olunmuşdur. Həmin arxeoloji materialların bir hissəsi toplanmışdır. Tunc yarpaqşəkilli nizə ucluğu Azərbaycan Tarixi Muzeyinin bütün ekspozisiyalarının tunc dövrü bölmələrində nümayiş etdirilmişdir.

Naxçıvanın Qızılburun abidəsində arxeoloji qazıntılar aparan elmi müəssisələrdən biri Zaqafqaziya Elmi Asossasiyası olmuşdur. 1926-cı ildə təşkil olunmuş bu arxeoloji ekspedisiyaya professor Aleksandr Müller rəhbərlik etmişdir (169, 4).

Aleksandr Müllerin ikinci təpədə, monastırda, dəmiryolu karxanasında və qəbirlərdə apardığı tədqiqatlardan əldə edilmiş arxeoloji materiallar əvvəlcə Leninqradda elmi cəhətdən işlənilmiş, Aleksandr Müllerin aspirantı Aleksandr Iessen tərəfindən tipoloji təsviri verilmişdir (81). 1927-ci ildə Aleksandr Müllerin aşkar etdiyi Qızılburun tapıntıları Azərbaycan Tarixi Muzeyinə daimi mühafizə üçün göndərilmişdir (30, inv. № 603-678). Materialların üzərində qara tuşla həm Aleksandr Iessenin səhra qeydi, həm də Arxeologiya fondunun inventar sayları qeyd olunmuşdur.

Aleksandr Iessen saxsı məmulatını qəbirlərdən və yaşayış yerindən tapılmasına görə qruplaşdırmışdır. Hər iki qrupun qabları əsasən boz və qırmızı rəngli olub, bəzilərinin üzəri qırmızı boyanmış və naxışlanmışdır. Qızılburunun saxsı məmulatı xeyrə, kasa, şargövdəli küpə, çaynikformalı, «bombaformalı», güvəc, bardaq, qədəh, ayaqqabıformalı tiplərə bölünmüşdür (81, 2-16).

Aleksandr Iessen hər iki qrupdan tapılmış metal, sümük və daşdan hazırlanmış maddi-mədəniyyət nümunələrini «xırda tapıntılar» adı altında qeyd etmişdir. Qızılburunun tunc məmulatı xəncər, ox ucları, boyunbağı, sancaqlar, qolbaqlar, üzüklər, halqalar, pilək, lövhələr, düymələr və muncuqlardan ibarətdir. Üzüklər sayca çox olub, formalarına görə iri, kiçik, miniatür həcmli, spiralşəkilli və muncuq keçirilmiş tiplərə ayrılır. Dəmirdən xəncər, bıçaqlar, massiv qolbaq və xırda müxtəlif əşyaların hissələri, sürmədən aypara və muncuqlar maraqlı tapıntılardır. Qızılburun muncuqları əsasən tunc, əqiq, şüşə, sümük və pastadan hazırlanmışdır. Tapıntılar içərisində fil sümüyündən düzəldilmiş əşyalar, balıqqulağılar, qalay parçaları və II qəbirin üzərini örtən plitənin bir hissəsi isə xarici əlaqələrin göstəricisi kimi qəbul oluna bilər. Məişətdə və hərbi işlərdə dəvəgözündən hazırlanmış ox ucları və müxtəlif qəlpələrdən də istifadə olunmuşdur. Qızılburun abidəsinin maddi-mədəniyyət nümunələri son tunc və ilk dəmir dövrünə aid olub, Naxçıvan mədəniyyətinin səciyyəvi xüsusiyyətlərini daşıyır.

Elmi kadrların artması ilə əlaqədar olaraq Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazası əsasında Azərbaycan Dövlət Elmi-Tədqiqat Institutu təşkil edilmiş (1929-cu il), onun tərkibində Tarix-etnoqrafiya şöbəsi yaradılmışdır.

Azərbaycan Dövlət Elmi-Tədqiqat Institutunun ekspedisiyası (1931-ci il) Şəki şəhərinin Giləhli məhəlləsində Ələsgər Ələkbərovun rəhbərliyi ilə arxeoloji tədqiqat işləri aparmışdır. Bu zaman ilk antik dövrə məxsus qırmızı rəngli tək və iki quplu, ağzı novçalı, üzəri cızma xətlərlə bəzədilmiş gil qablar, süddanlar, kasa, təkqulplu parç, üçayaqlı miniatür həcmli qablardan ibarət saxsı məmulatı aşkar olunmuşdur (30, inv. № 1532-1540; 1550-1561). Gil qablarla yanaşı gil çıraqlara da təsadüf olunmuşdur (30, inv. № 1562-1563). Giləhlinin tunc məmulatı boyunbağılar, qolbaqlar, sırğalar, düymələr, üzüklər və ayparadan ibarət bəzək nümunələridir (30, inv. № 1564). Dəmir məmulatı içərisində nizə ucluqları və müxtəlif əmək alətləri parçaları üstünlük təşkil

edir (30, inv. № 1565).

Göründüyü kimi, Giləhli materialları ilk antik dövrün gil qablarından, dəmir silah və əmək alətlərindən, tunc bəzək nümunələrindən ibarətdir. Bu, o dövrdür ki, dəmir silah və alət, tunc isə bəzək vasitələrinin düzəldilməsində istifadə olunmuşdur. Daha çox ilk dəmir dövrünə aid edilən Giləhli boyunbağıları (4 ədəd) Dolanlar, Mollaisaqlı, Mingəçevir və Torpaqqala boyunbağıları ilə oxşarlıq təşkil etdiyindən tədqiqatçılar arasında onların ilk antik dövrə və ya ilk dəmir dövrünün sonuna məxsus olması fikri də irəli sürülür. Giləhlinin dəmir məmulatı Muzeyin bütün ekspozisiyalarında nümayiş olunmuşdur. Bununla yanaşı, Giləhli materiallarının bir neçə nümunəsi 1958-ci ildə Nuxa (Şəki) Muzeyinə həmişəlik verilmişdir (8).

SSRI EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradıldıqdan (1932-ci il) sonra Tarix-etnoqrafiya müstəqil sektor kimi bu şöbənin tərkibində olmuşdur. 1935-ci ildə SSRI EA-nın Azərbaycan filialı yaradılmışdır. Tarix-etnoqrafiya sektorunun bazasında SSRI EA Azərbaycan filialı nəzdində müstəqil Tarix, Etnoqrafiya və Arxeologiya Institutu təşkil olunmuşdur. SSRI EA Azərbaycan filialında müstəqil Tarix Institutu isə 1940-cı ildən fəaliyyətə başlamışdır.

1945-ci il martın 31-də Azərbaycan SSR Elmlər Akademiyası təşkil olunmuşdur. Tarix Institutu bundan sonra onun tərkibinə daxil edilmişdir. Sonradan Tarix Institutu Azərbaycan SSR EA Tarix və Fəlsəfə Institutuna çevrilmişdir. 1956-cı ildə Azərbaycan EA Rəyasət Heyəti yanında Fəlsəfə sektoru yaradıldıqdan sonra Institutun əvvəlki adı özünə qaytarılmışdır (210).

1936-cı ildə Ələsgər Ələkbərovun rəhbərlik etdiyi ekspedisiya Şahtaxtı, Şortəpə və Oğlanqalada kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparmışdır. Ekspedisiya zamanı Şahtaxtıdan aşkar olunan boz rəngli saxsı məmulatı tək qulplu parçlar, çaynikformalı qablar, piyalələr, küpələr, badyalar, kasalar və xeyrələrdən ibarətdir (30, inv. № 1541-1549; 1570-1571; 1573-1575; 1577-1582; 1583-1587; 1597; 1619-1635). Ümumiyyətlə, Şahtaxtı qabları ilə yaxından tanış olduqda onların boz rəngli olduğu və üzərinin cilalandığı görünür. Şahtaxtının qırmızı rəngli azsaylı saxsı məmulatı içərisində badya (30, inv. № 1572), xeyrə (30, inv. № 1582) və miniatür həcmli qablar (30, inv. № 1588) üstünlük təşkil edir. Üzərində müxtəlif zoomorf, nəbati və həndəsi bəzəklər olan iri küpə isə öz gözəlliyi və nadir tapıntı olması ilə diqqəti cəlb

etmişdir (30, inv. № 1576). Bu qab Şahtaxtıda açılmış, içərisində at skeletinə də rast gəlinmiş qəbirdən əldə edilmişdir. Həmin qəbirdən digər maraqlı tapıntı üzəri qızıl təbəqə ilə örtülmüş tunc bəzək nümunəsidir (30, inv. № 3141). Şahtaxtının bu polixrom küpəsi əksər elmi və respublika əhəmiyyətli sərgi və ekspozisiyalarda nümayiş etdirilmişdir. Bir faktı qeyd etmək yerinə düşər ki, Şahtaxtı polixrom, iri gil qabının elmi dəyərini göstərmək üçün onun 1941-ci ildə müvəqqəti verildiyi Nizami adına Ədəbiyyat Muzeyindən Azərbaycan Tarixi Muzeyinin 1956-cı ildə təşkil olunan elmi ekspozisiyasında nümayiş etdirilməsi üçün geri alınması Elmlər Akademiyası rəhbərliyi səviyyəsində həll olunmuşdur.

Şahtaxtının daş məmulatı isə orta hissəsindən boğmalı balta (30, inv. № 1589) və qayıqvari dən daşından (30, inv. № 1590) ibarətdir. Şahtaxtı maddi-mədəniyyət nümunələri bir müddət təsnif olunmamış, dövrü tam müəyyənləşdirilməmişdir. Sonralar Osman Həbibullayev həmin tapıntıların təsvirini vermiş, təsnif edərək dövrünü müəyyənləşdirmişdir. Vəli Əliyev isə Şahtaxtı tapıntılarının Naxçıvan boyalı qablar mədəniyyətindəki yerini, səciyyəvi xüsusiyyətlərini öyrənmişdir (58). Beləliklə, Şahtaxtı maddi-mədəniyyət nümunələri Azərbaycan tarixinin orta tunc dövründən son tunc və ilk dəmir dövrünə keçid mərhələsini öyrənmək üçün əsas mənbələrdəndir.

1936-cı ildə Ələsgər Ələkbərov Naxçıvan ekspedisiyası zamanı Şərur rayonunun Ibadulla kəndində Şortəpə abidəsində arxeoloji kəşfiyyat qazıntısı aparmış, 30-40 sm dərinlikdə uşaq sümükləri, 80-90 sm dərinlikdə yaşlı adama məxsus avadanlıqsız torpaq qəbri aşkar etmişdir. 1,5 m dərinlikdə isə divarları çaydaşlarından hörülmüş daş qutu qəbrə təsadüf olunmuşdur. Qəbirdən qara rəngli sadə gil qablar tapılmışdır. Muzeydə olan 1936-cı il Şortəpə maddi-mədəniyyət nümunələri qırmızı rəngli çaynikformalı qab (30, inv. № 1591), insan ayağı formasında (əslində nalşəkilli) düzəldilmiş sacayağı (30, inv. № 1593) və daş əmək alətindən (30, inv. № 1594) ibarətdir. Bir ədəd küpə isə Nəhəcirdən tapılmışdır (30, inv. № 1592).

1937-ci ildə Ishaq Cəfərzadə Xanlar rayonu Qotul kəndində iki daş qutu qəbri açmışdır. Birinci daş qutu qəbirdən əldə edilən arxeoloji materiallar qara rəngli gil qablar, tunc qolbaqlar və əqiq muncuqlardan (30, inv. № 1648-1653), ikinci qəbirin materialları isə qara rəngli gil qablar və hissələri, pasta və əqiq muncuqlar, tunc üzükdən (30, inv. № 1654-1667) ibarətdir. Qotul tapıntıları Azərbaycan tarixinin son tunc və ilk dəmir dövrünə aid olub,

Xocalı-Gədəbəy mədəniyyətinin əsas xüsuiyyətlərini daşıyır.

Ishaq Cəfərzadə 1938-ci ildə Xaçbulaqda arxeoloji tədqiqat işi aparmışdır. Qazıntı sahəsində 20-25 sm dərinlikdən orta əsrlərə aid dəvəgözü və çaxmaqdaşı qəlpələri, qara rəngli qab sınıqları, şirli gil qabın oturacağı, dəmir təbəqəsi, mıx, qayçı, qıyıq, nal parçası, heyvanın lülə sümüyü (30, inv. № 1856-1872), 40 sm dərinlikdən dəvəgözü və çaxmaqdaşı qəlpələri, qara və sarımtıl rəngli qab sınıqları, dəmirdən iynə, ox ucu, bıçaq, nal mıxı, Sasani şahı IV Hörmüzdün (579-590) gümüş pulu (30, inv. № 1873-1900), 60 sm dərinlikdən dəvəgözü və çaxmaqdaşı qəlpələri, qara və qırmızı rəngli qab sınıqları, dəmirdən halqa və nal mıxları (30, inv. № 1901-1906), 75 sm dərinlikdən isə dəvəgözü qəlpələri və ox ucu, çaxmaqdaşı parçaları, qırmızımtıl-sarı rəngli qab qırığı, mis eldəgəz pulu (30, inv. № 1907-1918), 90 sm dərinlikdən dəvəgözü və çaxmaqdaşı qəlpələri, qırmızımtıl-boz rəngli qab sınıqları (30, inv. № 1919-1928), 105 sm dərinlikdən isə dəvəgözü və çaxmaqdaşı qəlpələri, qara, qırmızı və boz rəngli qab sınıqları (30, inv. № 1929-1936) əldə olunmuşdur. Burada mədəni təbəqənin qarışdığı aydın görünür. Çünki, orta əsr maddi-mədəniyyət nümunələri ilə yanaşı, son tunc və ilk dəmir dövrünə məxsus arxeoloji materiallar da üzə çıxmışdır.

Xaçbulaqda açılmış daş qutu qəbirdən dəvəgözüdən ox ucları, tuncdan iki tərəfi kəsərli xəncər, ox ucları, qolbaqlar, spiralvari üzüklər, asmalar, içi doldurulmuş düymə, əqiq və tunc muncuqlar, qara rəngli qablar aşkar olunmuş, torpaq nümunəsi götürülmüşdür (30, inv. № 1939-1952). Buradakı torpaq qəbirdən isə çoxlu sayda qara və qırmızımtıl rəngli qab sınıqları tapılmışdır (30, inv. № 1953-1955). Içərisində orta əsrlərə aid maddi-mədəniyyət nümunələrinin olmasına baxmayaraq Xaçbulaq tapıntılarının əsas hissəsi (dəvəgözü və çaxmaqdaşı ox ucları, qəlpələr, tunc əşyalar, gil qabların böyük bir qismi və s.) son tunc və ilk dəmir dövrünə – Xocalı-Gədəbəy mədəniyyətinə aiddir.

Azərbaycanın mis-daş və ilk tunc dövrü tarixini öyrənmək üçün ən yaxşı abidələrdən biri I Kültəpədir. Burada fasilələrlə 1951-1962-ci illərdə aparılmış arxeoloji tədqiqatların nəticələrini əks etdirən maddi-mədəniyyət nümunələri bütünlüklə Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir (5).

Tarix Institutu 1951-ci ildə Osman Həbibullayevin rəhbərliyi altında I Kültəpədə arxeoloji kəşfiyyat qazıntılarına başlamışdır. Həmin il I Kültəpədə üç sahədə kəşfiyyat qazıntısı işləri aparılmışdır. Birinci sahə (50 kv. m) 1,25 m,

ikinci sahə (21 kv.m) 2,25 m, üçüncü sahə isə (22,75 kv. m) 6 m dərinliyədək qazılmışdır. Buradan boyalı qab hissələri ilə yanaşı daha qədim dövrlərə aid maddi-mədəniyyət nümunələri əldə edilmişdir.

1953 və 1955-ci illərdə Osman Həbibullayevin rəhbərlik etdiyi dəstə Örənqala ekspedisiyası tərkibində I Kültəpədə qazıntıları davam etdirmişdir. 1953-cü ildə III sahədə arxeoloji qazıntılar genişləndirilmiş (39 kv.m) və 10 m dərinliyədək qazılmışdır. 1955-ci ildə yaz və payız aylarında III sahə daha da genişləndirilmiş (65 kv.m), əvvəlcə 16,75 m, sonra isə yarıya qədər bölünərək 21,6 m dərinliyədək qazılmışdır. Buradan mis-daş dövrünə aid materiallar əldə edilmişdir. Bu arxeoloji materiallar (boz, qonur, qara və qırmızı rəngli qabların hissələri, qapaq qırıqları, ocaq dayaqlarının hissələri, gil əyircək, dən daşı və hissələri, həvəngdəstələr) Arxeologiya fondunun VII inventar kitabında qeydiyyata alınmışdır (30, inv. № 3953-4137).

1956-cı ildə təpənin qalan hissəsində qazıntılara başlanmışdır. Həmin sahə şərti olaraq 5 saylı sahə adlandırılır. Aşağı hissələrdə qazıntı sahəsi 130-150 kv.m olmuşdur. 1959-cu ildə 5 saylı sahə genişləndirilərək 310 kv.m-ə çatdırılmış və 19,5 m dərinliyədək qazılmışdır. I Kültəpədə mədəni təbəqənin ümumi qalınlığı 22,2 m-ə çatmışdır.

1959-cu ildə I Kültəpədə arxeoloji qazıntılar 13-15,7 m dərinlikdə davam etdirilmiş, ilk tunc dövrünə aid maddi-mədəniyyət nümunələri (qara və qırmızı rəngli gil qab və hissələri, diskşəkilli gil qapaqlar, gil öküz fiquru, təkər modeli, daşdan sürtgəclər, yalaqlar, gürzlər, baltalar, isgənələr, asmalar, həvənglər, daban daşı, dən daşları, daş və pasta muncuqlar, üzərində işləmə izləri olan dəvəgözü və çaxmaqdaşından qəlpələr, dəvəgözüdən konusformalı nukleuslar, bıçaqvari lövhələr, sümük bizlər, maral buynuzundan alətlər, mis biz) aşkar olunmuşdur. Bu arxeoloji materiallar 1962-ci ildə 137 inventar sayı ilə Muzeyə daimi mühafizə üçün təhvil verilmişdir (30, inv. № 13785-13838, 13971-14036).

1960-cı ildə I Kültəpə qazıntıları 15,7-17 m dərinlikdə davam etdirilmişdir. Aşkar edilən mis-daş dövrünə aid arxeoloji materiallar (əksərinin gilinə saman qatılmış qablar, boyalı qab qırıqları, gildən əyircəklər, boz daşdan sürtgəclər, həvəng və dəstələri, toppuz, yaşıl çaydaşından baltalar, isgənələr, qumdaşından və qara metalaoxşar daşdan toppuzlar, dəvəgözündən bıçaqvari lövhələr, nukleuslar, iri heyvanın lülə, kürək və qabırğa sümüyündən alətlər, kiçik heyvanın lülə sümüyündən bizlər, işlənmiş maral buynuzu, gil, daş,

sümük və mis muncuqlar) 1962-ci ildə 132 inventar sayı altında Muzeyə daxil olmuşdur (30, inv. № 13839-13915, 14071-14112).

1961-ci il I Kültəpə arxeoloji materialları 17,2-18 m dərinlikdən mis-daş dövrünə məxsus gil qab və hissələri, gil manqalın insan ayağına oxşar hissəsi, gil qab qırığından hazırlanmış ortasında deşik olan dairəvi əşyalar, gil əyircək, dəvəgözü və çaxmaqdaşıdan bıçaqvari lövhələr, dəvəgözüdən konusformalı nukleuslar, ağ mərmərdən toppuz hissəsi, daşdan ovalşəkilli sürtgəc, toppuz, sümük bizlər, heyvan dişindən asma, maral buynuzundan deşikli alət, daş, sümük, balıqqulağı və əqiqdən muncuqlar, mis ox ucu və əşya parçası aşkar olunmuşdur. Bu maddi-mədəniyyət nümunələri 1962-ci ildə 72 inventar sayı altında Muzeyə daimi mühafizə üçün təhvil verilmişdir (30, inv. № 14037-14045, 14113).

I Kültəpədə 1962-ci ilin arxeoloji qazıntıları 18,2-19,2 m dərinlikdə aparılmışdır. Əldə edilmiş arxeoloji materiallar dəvəgözüdən nukleuslar, bıçaqvari lövhələr, çaydaşından isgənə, lülə sümüyündən bizlərdir (30, inv. № 13968-13970, 14046-14070). I Kültəpənin mis-daş dövrünə aid ən alt təbəqəsindən kobud surətdə hazırlanmış sadə qablarla yanaşı boyalı qablar da aşkar edilmişdir. Boyalı qablar sadə qablara nisbətən az tapılsa da, onların burada mövcud olması həmin mədəniyyətin mis-daş dövründə Azərbaycanın müəyyən ərazisi üçün səciyyəvi olduğunu göstərir. Buradan 2 ədəd bütöv şəkildə saxlanmış və həcmcə kiçik olan küpə və 13 ədəd qab qırığı əldə edilmişdir. Tədqiqatçılar I Kültəpənin mis-daş dövrü boyalı qablarını iki qrupa ayıraraq onlardan gilinə qum qatılmış, çox səliqəli və yüksək texnika ilə hazırlanmış, yaxşı bişirilmiş, incə və böyük ustalıqla naxışlanmış birinci qrupa aid edilənlərin Yaxın Şərq ölkələrindən gətirilmə, gilinə saman qatılmış, kobud hazırlanmış, lakin yaxşı bişirilmiş, sadə və bəsit naxışlanmış ikinci qrup qabların isə yerli istehsalın nümunəsi olduğunu qeyd etmişlər (62, 6).

Məlum olduğu kimi görkəmli arxeoloq Yakob Hummelin çoxillik arxeoloji qazıntıları nəticəsində aşkar olunmuş arxeoloji materialları Xanlar Diyarşünaslıq Muzeyində toplanmışdır. 1955-ci ildə Azərbaycan Tarixi Muzeyi öz elmi ekspozisiyasını yaradarkən Xanlar Diyarşünaslıq Muzeyinin aşağıdakı materiallarını (yeni daş dövrü, son tunc-ilk dəmir dövrü və ilk orta əsrlərə aid) nümayiş etdirmək və daimi mühafizə üçün qəbul etmişdir:

- 18 ədəd dəvəgözüdən ox ucu (Xanlar, 2 saylı knyaz kurqanı);
- 18 ədəd daş əmək aləti (Gillikdağ);

- 45 ədəd yeni daş dövrü düşərgəsindən daş qəlpələr;
- 9 ədəd daşdan girdə plitələr (Gillikdağ);
- dəvəgözü qəlpəsi (Seyfəli, 127 saylı kurqan qəbri);
- dən daşı (Seyfəli, 147 saylı kurqan qəbri);
- 2 ədəd tunc bıçaq (Xanlar, 2 saylı knyaz kurqanı);
- 2 ədəd daş gürz (118 saylı bina);
- kasalar (Gəncənin cənubunda çiy kərpic qəbirdən);
- daşdan təbərzin tökmə vasitəsi (Şəmkir);
- gil qab (Gəncənin cənubunda çiy kərpic qəbirdən);
- qara rəngli xeyrə (Xanlar, 2 saylı knyaz kurqanı);
- büzməli gil qab (Xanlar, 1 saylı knyaz kurqanı);
- boyalı gil qab (Zurnabad);
- tunc yaba (Xanlar, 1 saylı knyaz kurqanı);
- vəl hissələri (Xanlar, tunc dövrünə aid qəbir).

Arxeologiya fondunun inventar kitabında Xanlar Muzeyindən gətirildiyi qeyd olunan üstündə 10 sətirlik yazı olan ağ daşın bir hissəsi haqqında da məlumat vardır (30, inv. № 4261). Daşın yazı boyunca uzunluğu 17,5 sm, 10 sətrin birlikdə eni 13 sm-dir. Lakin həmin daşı fondda tapmadım.

Muzeydə 1930-cu ildə Xanlarda 1 saylı kurqandan tapıldığı qeyd olunan tunc lövhədən hazırlanmış qalxan umbonu, hökmdar qəbirindən əldə edilmiş asma bəzəklər də mühafizə edilir.

Xanlar materialları Arxeologiya fondunun inventar kitabında qeyd olunmadığından çox qarışıqlıqlar yaranmışdır. Elə materiallar var ki, onların məhz Xanlara aid olduğu həmin materialın görünüşündən aydındır. Lakin elə materiallar da var ki, digər abidələrin maddi-mədəniyyət nümunələri ilə çox oxşardır. Bu üzdən yaranmış çətinliklərin tezliklə aradan qaldırılması vacibdir. Arxeoloji materiallar təsnif edilərkən həmin maddi-mədəniyyət nümunələrinə aydınlıq gətirməyə çalışacağıq.

Tarix İnstitutu Saleh Qazıyevin rəhbərliyi ilə Vardanlı abidəsini tədqiq etmək üçün Qəbələ rayonuna ekspedisiya (1956-cı il) təşkil etmişdir. Vardanlıdan əldə edilmiş bütün maddi-mədəniyyət nümunələri Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir (30, inv. № 4774-4894; 4900-4930).

Balaşorda təsadüfi tapıntılar nəticəsində Kür-Araz mədəniyyətinə məxsus qara rəngli qablar və qab parçaları aşkar olunaraq toplanmışdır (88, 146). Ümumiyyətlə, Saleh Qazıyev Vardanlıda on üç torpaq qəbir açmışdır. Ilk

tunc dövrünə aid olan birinci qəbir Balaşorda açılmış, qazıntı müəllifini bu nəticəyə gəlməyə qəbirin yarımşar qulplu qabları əsas vermişdir.

Son tunc və ilk dəmir dövrünə aid Böyükşorda açılmış qəbirlərin avadanlığı qara və boz rəngli xeyrə (Vardanlı tipli) və qırıqları, boz rəngli tayqulp və ikiqulp qab və sınıqları, boz rəngli üçayaqlı vaz tipli qab qırıqları, boz rəngli iri küpün ölünün altına qoyulmuş hissələri, qırmızı rəngli buynuzaoxşar kürələr və hissələri, boz rəngli sərnic və nehrələr, qırmızı rəngli şamdan sınıqları, naxışlı gil muncuq, tunc xəncər, tunc qübbəli əsa başlığı, tunc eşmə gəm, tunc naxışlı kəmər qırıqları, tunc üzük-halqalar, tunc qolbaqlar, tunc düymə qırıqları, dəmir bıçaq, dəmir alət və silah parçaları, ağac tabutun dəmir mıxları, daş antropomorf fiqur, daş alətlər və bülöv, ağ maddədən xırda muncuqlar, balıqqulağı, qarnıyarıqlar, Misir pastasından piramidaformalı muncuq, ata məxsus olan yaşma muncuqlardan ibarətdir (12). Qazıntının nəticələri Saleh Qazıyevin hesabat xarakterli məqaləsində öz əksini tapmış, sonralar bir çox elmi məqalə və monoqrafiyalarda təhlil və təsvirləri verilmişdir (88).

Tarix Institutu Örənqala ekspedisiyasının Qaratəpə dəstəsi Ömər Ismizadənin rəhbərliyi ilə Qaratəpədə arxeoloji qazıntılar (1957-ci il) aparmışdır. Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna həmin qazıntının 341 inventar sayı altında qeyd olunmuş 546 ədəd arxeoloji materialı daimi mühafizə üçün təhvil verilmişdir (6).

Böyük bir hissəsi e.ə. VII-V əsrlərə aid edilən Qaratəpə arxeoloji materialları Arxeologiya fondunun inventar kitabına hələ ki, daxil edilməmişdir. Lakin Qaratəpə materillarının saxlanma vəziyyəti digər maddi-mədəniyyət nümunələrinə nisbətən daha yaxşı olmuşdur. Belə ki, həmin materiallar ayrıca yerdə mühafizə edilmiş, Arxeologiya fondunda adi hal almış köçürülmələrdən bir növ uzaq qalmışdır.

Qaratəpə abidəsindən çoxlu sayda qayıqvari dən daşları, onlara məxsus sürtgəclər, qara rəngli gil qablar aşkar olunmuşdur. Gil qablardan biri əhəməni tipli gümüş camlara bənzədilmişdir. Zoomorf, lüləli gil qabın isə üzəri yolkavari naxışlanmışdır.

1948-ci ildə akademik Imam Mustafayev svastikatəsvirli gil pintaderi (dəc) də təqdim etməklə Sarıtəpə abidəsi haqqında Ishaq Cəfərzadəyə ilk dəfə məlumat vermişdir. 1954-cü ildə Sarıtəpədən daha 3 ədəd gil pintader və bir kiçik qab tapılmışdır. Sonralar buradan yeni iri bir pintader də əldə edilmişdir.

1957-1958-ci illərdə Ideal Nərimanovun rəhbərlik etdiyi ekspedisiya Qazax rayonunun Sarıtəpə abidəsində arxeoloji qazıntılar aparmışdır. Əldə edilmiş arxeoloji materiallar 242 nömrədə qeyd olunmuş, daimi mühafizə üçün Muzeyin Arxeologiya fonduna təhvil verilmişdir (18).

1960-cı ildə Azərbaycan Tarixi Muzeyinə Tarix Institutunun təşkil etdiyi Qazax-Sarıtəpə arxeoloji ekspedisiyasının (1959-cu il) materialları daxil olmuşdur (87, 1). Qara rəngli cilalı gil qabın heyvan fiqurlu qulpu (s.q. № 430), tünd-palıdı rəngli gil qabın qoçbaşlı yapmaları (s.q. № 433), silindrik formalı daş asma-möhür (s.q. № 431), dəmir biz (s.q. № 440), şüşə qaşlı tunc üzük (s.q. № 443), heyvanın gərçənək sümüyündən əyircək (s.q. № 444), müxtəlif gil qab və hissələri maraqlı tapıntılardandır.

Sarıtəpədə möhtəşəm saray tikintisinin olduğunu göstərən iki ədəd iri sütun altlığının aşkar edilməsi Azərbaycan tarixinin öyrənilməsində nadir hadisələrdəndir (176, 162-164). Tədqiqatçılar bu tapıntıya əsaslanaraq Əhəməni tipli Suz və Persopol abidələrində rast gəlinən sütunlu saray binalarının Azərbaycanda da tikildiyini qəbul edirlər. Hətta bəzi tədqiqatçılar Sarıtəpədə Əhəməni satrapının iqamətgahlarından birinin yerləşməsi qərarına da gəlmişlər (122, 40).

1960-cı ildə Ishaq Cəfərzadənin rəhbərliyi ilə EA-nın Tarix Institutunun təşkil etdiyi Xaçbulaq arxeoloji ekspedisiyası Qoşqar çayı üzərində böyük su anbarının tikilməsi ilə əlaqədar su altında qalacaq arxeoloji abidələrin tədqiqatına başlamışdır (149; 80, 32). 1961-ci ildə Xaçbulaq arxeoloji ekspedisiyası bir kurqan və onun 8-9 metrliyində yerləşən 3 ədəd daş qutu qəbiri tədqiq etmişdir. 1 saylı daş qutu qəbirdən qara rəngli gil qablar, en kəsiyi dairəvi, ucları aralı tunc qolbaq, nazik tunc məftildən spiralvari barmaqcıqlar, əqiq və tuncdan spiralvari muncuqlar, dəvəgözündən ox ucları və qəlpələr, 2 saylı daş qutu qəbirdən qara və boz rəngli küpə, çölmək və cam formalı qablar, tiyəsi, sulğuncu və başlığı ilə birlikdə tunc xəncər, en kəsiyi dairəvi, üzəri naxışlanmış və mis-sink ərintisindən hazırlanmış tunc qolbaq, spiralvari barmaqcıqlar, nazik tunc borucuq, dəvəgözündən ox ucları və qəlpə aşkar olunmuşdur. 3 saylı daş qutu qəbir isə boş olmuşdur. Görünür, bu tipli qəbirin hazırlanması çox vaxt apardığı üçün əvvəlcədən hazırlanan bu qəbirə naməlum səbəblərdən (bəlkə də başqa yerə köçmə ilə bağlı) meyid qoyulmamışdır (80, 34-39). Həmin maddi-mədəniyyət nümunələri Hətəm Kəsəmənlinin məqaləsində ətraflı tədqiq edilmişdir (80, 39). O, Xaçbulaq

arxeoloji materiallarını Xocalı-Gədəbəy mədəniyyətinə (e.ə. II minilliyin sonu - I minilliyin əvvəli) aid etmiş, bu dövr metalişləmə sənəti ilə bağlı bəzi məsələləri qeyd etmişdir. 1961-ci il Xaçbulaq arxeoloji ekspedisiyasının materialları daimi mühafizə üçün Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir.

1965, 1967-74-cü illərdə Hətəm Kəsəmənlinin Xaçbulaqda davam etdirdiyi arxeoloji qazıntıların materialları Azərbaycan Tarixi Muzeyinə 1978-ci ildə daxil olmuşdur (26; 27). Tərtib olunmuş aktda arxeoloji materialların inventar sayı 435 ədəd qeyd olunmuşdur (s.q. № 519-960). Xaçbulaq materialları hələ ki, fondun inventar kitabına daxil edilməmişdir. 1965-ci ildə Tarix Institutunun arxeoloji ekspedisiyası Xaçbulaq yaylağında iki siklop tikintisini - Daşlıtəpə və Göyçəli dağı qeydə almış, bir dağılmış kurqanı tədqiq etmişdir. Xaçbulaq çayının sağ sahilində, Kartoflu dağın ətəyində yerləşən dağılmış kurqanın biri yerli əhali tərəfindən dağıdılan iki daş qutu qəbri açılmışdır. E.ə. XII-X əsrlərə aid digər daş qutu qəbir Hətəm Kəsəmənli tərəfindən tədqiq olunmuşdur (162, 73). Qəbirin avadanlığı gil qablar (7 ədəd), tunc xəncər, bıçaq (2 ədəd), qolbaq, üzük, maqqaş, biz və əqiq, pasta, sümük muncuqlardan (122 ədəd) ibarət olmuşdur (s.q. № 519-530).

1967-ci ildə Xaçbulaqda təsadüfən torpaq kurqanı açılmış, tapıntı yerində olan Hətəm Kəsəmənli əldə edilmiş maddi-mədəniyyət nümunələrini yerli sakinlərdən toplamışdır (s.q. № 531-555).

1960-cı ildə Vəli Əliyev Naxçıvan şəhərindən 12 km şimalda, Yuxarı Uzunoba kəndinin 12 km-liyində II Kültəpə adlandırılan qədim yaşayış yerini müəyyənləşdirmişdir. Mis-daş dövründən ilk dəmir dövrünə qədər uzun tarixi dövrü əhatə edən bu abidədən Naxçıvan boyalı qablar mədəniyyətinə aid çoxlu yerüstü material toplanmışdır.

1961-ci ildə II Kültəpədə arxeoloji kəşfiyyat qazıntıları davam etdirilmiş və müəyyən olunmuşdur ki, hündürlüyü 11 m, uzunluğu 195 m, eni isə 120 m olan abidənin üç mədəni təbəqəsi vardır. Burada uzunluğu 200 m, eni bəzi yerlərdə 1,5 m olan çaydaşından hörülmüş divar qalığına təsadüf edilmişdir. Kəşfiyyat qazıntısı zamanı yenə də xeyli boyalı qabların hissələri aşkar olunmuşdur. Onlardan 4 ədədi daha maraqlı olub, heyvan və quş təsvirləri ilə bəzədilmişdir (55, 69).

II Kültəpədə aparılan arxeoloji tədqiqatlar (1968-ci il) nəticəsində

aşkar edilmiş maddi-mədəniyyət nümunələri Arxeologiya fonduna 1977-ci ildə təhvil verilmişdir (aktda sıra sayı № 833-1151; 1183-1228). Bunlar dən daşları, daş gürzlər, toppuzlar, bıçaqlar, həvəng və dəstələri, sürtgəclər, dəvəgözündən və çaxmaqdaşından alətlər, saxsı məmulatı, sümük və buynuz alətlər və tunc əşya qalığından ibarət olub, ilk tunc, orta tunc və son tunc və ilk dəmir dövrü mədəniyyətlərinə məxsus tapıntılardır. II Kültəpə materialları hələ ki, fondun inventar kitabına daxil edilməmişdir.

Qazax rayonu Aşağı Göyçəli kəndində yerləşən Töyrətəpə abidəsi haqqında ilk məlumatı 1954-cü ildə akademik Imam Mustafayev vermişdir. Həmin il tarix elmləri namizədi Saleh Qazıyev, 1955-ci ildə Məmmədəli Hüseynov Töyrətəpədə olmuşlar. 1958 və 1959-cu illərdə isə həmin təpə Paleolit ekspedisiyası tərəfindən yoxlanılmışdır.

1961-ci ildə Ideal Nərimanovun rəhbərliyi ilə Tarix Institutunun Qazax arxeoloji ekspedisiyası Töyrətəpə qədim yaşayış yerində əsaslı arxeoloji tədqiqat işinə başlayaraq mədəni təbəqənin qalınlığını və abidənin tarixini daha düzgün müəyyənləşdirmək məqsədilə bir daha yerüstü axtarış və kiçik sahədə kəşfiyyat qazıntısı aparmışdır (97, 16). Təpə nəzərdən keçirilərkən onun dağıdılmış hissəsində təxminən 1 m qalınlığı olan tunc dövrünə aid mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir. Bu təbəqəyə aid toplanılmış boz və qara rəngli, üzərində şüyrələmə və cızma üsulu ilə çəkilmiş naxışları və qulaqcıq formalı qulpları olan dulus çarxında hazırlanmış və ağız kənarları xaricə qatlanmış gil qab nümunələrinin əksəriyyəti formalarına, bişirilmə dərəcəsinə və naxışlarına görə son tunc dövrü abidələrinin gil qab məmulatı ilə oxşardır (97, 17). Töyrətəpədə yerüstü axtarış zamanı dəvəgözüdən biz, bazalt cinsli, uzunsov çaydaşıdan isgənə, boz rəngli çaydaşıdan həvəng, daş toppuz, xırda heyvanın lülə sümüyündən keçirmək üçün deşiyi olan əmək aləti aşkar edilmişdir (97, 17).

Töyrətəpədə 3x2 m sahədə kəşfiyyat qazıntısı aparılmışdır. Qazıntı zamanı dəvəgözüdən bıçaqvari lövhələr, qaşovlar, çaxmaqdaşıdan oraq dişi, dən daşı və qırıqları, sürtgəc və daş istehsal çıxarları, xırda heyvanın lülə sümüyündən sümük bizlər və iynə ucu, iri heyvanın lülə və kürək sümüyündən toxalar, pardaxlayıcı alətlər, lövhəciklər, oturacağı və ağız kənarı düz, gilinə saman qatılmış, pis bişirilmiş, oturacağında toxuma izləri olan banka və kasa formalı qabların ağız kənarı, oturacağı və gövdəsindən parçalar əldə edilmişdir (97, 21-25). Bu kəşfiyyat qazıntısı zamanı iki mədəni təbəqə (I - son tunc dövrü, II

- mis-daş dövrü) aşkar edilmişdir. Beləliklə müəyyən edilmişdir ki, Töyrətəpə qədim yaşayış yeri uzunmüddətli yaşayış nəticəsində əmələ gəlmiş, sakinləri əsasən əkinçiliklə məşğul olmuşdur (97, 27). 1961-ci il kəşfiyyat qazıntısının materialları daimi mühafizə üçün Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir.

Mis-daş dövrü Şomutəpə mədəniyyəti Kür çayının orta axınında mövcud olmuşdur. Ən maraqlı tapıntıları Azərbaycanın Qazax rayonundakı eneolit dövrünə aid Şomutəpə abidəsindən əldə edilmişdir. Bu mədəniyyəti ilk dəfə Ideal Nərimanov belə adlandırmış, Azərbaycan və dünya tarixşünaslığında bu adla qəbul edilmişdir (167, 7; 120, 4). Şomutəpə mədəniyyətinin əkinçi-maldar sakinləri sümük və daşdan çox mükəmməl alətlər hazırlamaları və möhrəformalı evlər tikmələri ilə məşhurdur.

Şomutəpədə arxeoloji qazıntılar 1961-1964-cü illərdə Ideal Nərimanov tərəfindən aparılmışdır. Bu qazıntılardan çoxlu sayda maddi-mədəniyyət nümunələri aşkar olunsa da onlardan yalnız bir qismi (daş isgənə və baltacıq, sümük toxalar, qaşıqlar, bizlər və oraq, daş qoymalı sümük oraq) 1973-cü ildə Muzeyin elmi ekspozisiyasının zənginləşdirilməsi məqsədilə 1972-ci ildə Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir. Lakin indiyə kimi həmin materiallar inventarlaşdırılmamışdır.

1964-cü ildə Xudat rayonunun Təpəyatağı abidəsindən aşkar olunan və Kür-Araz mədəniyyəti tipli qulpları olan böyük təsərrüfat küpü 1977-ci ildə Arxeologiya fonduna daimi mühafizə üçün təhvil verilmişdir (Af. № 539). Təpəyatağı təsərrüfat küpü ekspozisiyanın ilk tunc dövrü bölməsində nümayiş etdirilir.

1965-ci ildə Babadərvişdə (Qazax rayonu) Tarix Institutunun apardığı arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri Arxeologiya fonduna 1977-ci ildə daimi mühafizə üçün təhvil verilmişdir (aktda sıra sayı 1-10; 77-133). Babadərviş yaşayış yerində ilk arxeoloji tədqiqat işlərinə 1958-ci ildə Tarix Institutunun Qazax arxeoloji ekspedisiyası başlamış, 11x11 m-lik sahədə kəşfiyyat qazıntısı aparılmışdır. 1960-cı ilin payızında qazıntı 60 kv.m-ə qədər artırılmış, 1961-1962-ci illərdə yaşayış yerində 600 kv.m-dən çox sahə arxeoloji cəhətdən öyrənilmişdir.

Babadərviş abidəsinin əsas təbəqəsi Kür-Araz mədəniyyətinə xas əlamətləri daşıyır.

1965-ci ildə Kəkil, Ceyrançöl və Bığlıdağdan (Qazax) aşkar olunmuş

Orta Aşel dövrünə aid edilən çaxmaqdaşıdan xammal və əmək alətləri 2003-cü ildə Mənsur Mənsurov tərəfindən Muzeyə təhvil verilmişdir. Bu maddi-mədəniyyət nümunələri Muzey ekspozisiyanın paleolit bölməsində nümayiş etdirilmişdir (30, inv. № 21559-21563).

Naxçıvanda yerləşən Cəftəran abidəsində 1968-ci ildə aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilən maddi-mədəniyyət nümunələri Arxeologiya fonduna 1977-ci ldə təhvil verilmişdir (aktda sıra sayı 1152-1182). Cəftəran materialları əsasən saxsı məmulatından ibarətdir.

1969-cu ildə Qızılburunda arxeoloji axtarışlar (Vəli Əliyev) zamanı toplanılmış saxsı məmulatı əsasən qırmızı və boz rəngli, boyalı və boyasız olmasına görə fərqlənir. 1969-cu il Qızılburun materialları Arxeologiya fonduna 1977-ci ildə təhvil verilmişdir (aktda sıra sayı № 1229-1350).

1963-1965-ci illərdə Qardaşxan Aslanovun rəhbərliyi ilə Tarix Institutunun ekspedisiyası Abşeron yarımadasının müxtəlif bölgələrində arxeoloji-etnoqrafik tədqiqat işləri aparmışdır (116, 69). Bu tədqiqatlar nəticəsində Abşerondan aşkar olunmuş təsvirli daş parçalarının bir hissəsi Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir. Tunc və ilk dəmir dövrünə aid edilən bu daş parçalarının üzərində oxatan adam, marallar, uzunbuynuzlu maral, ov və s. təsvirlər həkk edilmişdir (Af. № 704-708; 722).

1960-cı ildə Tarix Institutunun paleolit ekspedisiyası Məmmədəli Hüseynovun rəhbərliyi altında Quruçay və Köndələnçay vadilərində apardığı kəşfiyyat işləri nəticəsində Azıx və Tağlar paleolit duşərgələrini aşkar etmişdir.

Azıx mağara düşərgəsi Xocavənd rayonunda, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 m yüksəklikdə yerləşir. Karst mənşəli Azıx mağarasının ümumi uzunluğu 200 m-dən, ümumi sahəsi isə 1250 kv.m-dən çoxdur. Paleolit ekspedisiyası 1960-1986-cı illərin iyun-iyul aylarında Azıx mağara düşərgəsinin cənub giriş yolunda apardığı arxeoloji qazıntılar zamanı on arxeoloji təbəqə qeydə almış və tədqiq etmişdir. Arxeoloji tədqiqatlar zamanı Azıx mağara düşərgəsinin I-II təbəqələrindən eneolit və tunc, III təbəqəsindən mustye, V təbəqədən orta aşel, VI təbəqədən qədim aşel, VII-X təbəqələrdən isə Quruçay mədəniyyətinə aid zəngin maddi mədəniyyət nümunələri tapılmışdır. Düşərgənin çöküntülərindən ümumilikdə yeddi mindən artıq daş məmulatı və iki yüz mindən çox ovlanmış heyvanların sümük məmulatı qeydə alınmışdır.

Tarixi dövrlə bağlı ən qədim tapıntılar Azıx mağara düşərgəsinin VII-X

təbəqələrindən aşkar olunmuşdur. Bu təbəqələrin çaydaşıdan müxtəlif forma və ölçülü əmək alətləri Muzey ekspozisiyasının «Quruçay mədəniyyəti» və paleolit bölmələrində nümayiş etdirilir (30, inv. № 21564-21573). Bu təbəqələrdən başqa III və V-VI təbəqələrin çaxmaqdaşıdan hazırlanmış əmək alətlərindən ibarət arxeoloji materialları da Muzeydə nisbətən çox olub, bəziləri ekspozisiyada nümayiş etdirilir (30, inv. № 21574-21585; 21616-21633).

Quruçay mədəniyyətinin Azıxda 1,2 milyon il bundan əvvəl başlayıb 700 min il əvvəl sona çatması müəyyən olunmuşdur. Bu dövrdə insanlar əsasən ovçuluq və yığıcılıqla məşğul olmuşlar. 1968-ci ilin iyul ayında arxeoloq Məmmədəli Hüseynov Azıx düşərgəsinin orta aşelə aid V təbəqəsində əmək alətləri ilə birlikdə qədim insanın alt çənə parçasını aşkar etmişdir. Bu çənə fraqmentinin sahibi 400-350 min il (bəzi alimlərə görə 200-250 min il) bundan əvvəl yaşamışdır. 1975-ci ildə Muzeyə təhvil verilən və o vaxtdan burada mühafizə edilən çənə sümüyünün (Qiymətli metallar fondu, inventar sayı – 143) ekspozisiyada nümayiş etdirilmək üçün mulyajı hazırlanmışdır (Af. № 558).

Qazıntılar zamanı daş əmək alətləri ilə yanaşı insanların ovladıqları heyvanların daşlaşmış sümükləri də tapılmışdır. Bunlardan mağara ayısının dişləri (Af. № 10-11) və çənəsi (Af. № 12), nəhəng maralın buynuzları (Af. № 13-15), müxtəlif heyvan sümükləri (Af. № 5-8), balıq sümüyü (Af. № 4) kimi nadir osteoloji qalıqlar aşkar edilmişdir.

Azərbaycan ərazisində mustye mədəniyyətinə aid ən zəngin arxeoloji abidə Tağlar mağara düşərgəsi hesab olunur. 1963-1986-cı illərdə Tarix Institutu əvvəlcə Məmmədəli Hüseynov, sonralar Əsədulla Cəfərovun rəhbərliyi ilə burada kompleks arxeoloji qazıntı işləri ararmışdır. Düşərgənin çöküntülərindən 7 mindən artıq daş məmulatı və 100 minlərlə ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır.

Tədqiqatçıların araşdırmalarına görə Yaxın Şərq və Qafqaz ərazisində Tağlar mustye düşərgəsi yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişafını və yeni-yeni əmək alətlərinin meydana gəlmə xüsusiyyətlərini öyrənmək və tədqiq etmək olur (51, 47). Eyni zamanda Tağlar düşərgəsində aparılan arxeoloji tədqiqatlar Azərbaycan ərazisində mustye mədəniyyətinin özünəməxsusluğunu arxeoloji faktlarla sübuta yetirmişdir.

Azıxla eyni vaxtda paleolit ekspedisiyası Tağlar mağarasında da

arxeoloji qazıntılar aparmışdır. Tağların on bir inventar sayı altında qeyd olunmuş çaxmaqdaşı əmək alətlərindən ibarət arxeoloji materialları Muzey ekspozisiyasının paleolit bölməsində nümayiş etdirilir (30, inv. № 21582-21592).

Paleolit ekspedisiyası Kəlbəcərdə Zar, Naxçıvanda Qazma daş dövrü mağara düşərgələrini də tədqiq etmişdir. 1986-1987-ci illərdə Zar, 1989-cu ildə Qazma düşərgəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində Mustye dövrünə aid edilən maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Həmin arxeoloji materialların hər abidədən on inventar sayı altında qeyd olunmuş dəvəgözüdən əmək alətləri hissəsi Muzeyə təhvil verilmişdir (30, inv. № 21601-21610; 21634-21643). Zar və Qazma abidələrinin arxeoloji materialları Muzey ekspozisiyasının paleolit bölməsində nümayiş etdirilir.

1971-1972-ci illərdə Qarğalartəpəsində (Qazax rayonu) Ideal Nərimanovun rəhbərliyi ilə Tarix Institutunun apardığı arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri Arxeologiya fonduna 1977-ci ildə daimi mühafizə üçün təhvil verilmişdir (27). 1971-1972-ci illərdə Qarğalartəpəsi mis-daş dövrünə aid yaşayış yerinin dağılmış hissəsində, 200 kv.m-lik sahədə arxeoloji qazıntılar aparılmışdır. Mədəni təbəqənin qalınlığı bəzi yerlərdə 3 m-ə qədər saxlanmışdır. Burada çiy kərpicdən tikilmiş divarlar aşkar olunmuşdur (180, 23). Qarğalartəpəsi maddi-mədəniyyət nümunələri, həm daş, həm də sümükdən hazırlanmış əşyalar öz zərifliyi və orijinallığı ilə seçilir. Belə ki, Qarğalartəpəsindən 984 ədəd dəvəgözündən və çaxmaqdaşından əmək aləti, 1145 ədəd istehsal çıxarı, 38 ədəd nukleus əldə edilmişdir (180, 101). Maraqlıdır ki, Qarğalartəpəsi dəvəgözündən toppuzu Cənubi Qafqazda və Ön Asiyada ilk və tək tapıntı hesab olunur (180, 114). Daş isgənələr isə sayca 9 ədəddir (180, 107) ki, Muzeydə onların dörd ədədi mühafizə edilir.

Cəlilabad rayonu Üçtəpə kəndi Əliköməktəpəsi yaşayış yerində 80 saylı torpaq qəbirindən tunc qazan aşkar olunmuşdur. E.ə. II minilliyin I rübünə aid edilən bu qazan Moskvada bərpa edildikdən sonra 1979-cu ildə Muzeyə təhvil verilmişdir (s.q. № 818).

Əliköməktəpəsi abidəsində 1974-cü ildə aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş iki ədəd iri təsərrüfat küpü Arxeologiya fonduna təhvil verilmişdir (s.q. № 470; 473). Həmin küplərdən biri ekspozisiyada ilk tunc dövrü bölməsində nümayiş etdirilir. Muzeyə daxil olmuş digər tapıntı

siyenit daşından olan baltadır (30, inv. № 21553).

Tarix Institutunun 1980-1983, 1985-ci illərdə Xarabagilanda arxeoloji qazıntılardan aşkar etdiyi maddi-mədəniyyət nümunələrinin müəyyən hissəsi 2003-cü ildə yeni ekspozisiya hazırlanarkən Solmaz Qaşqay tərəfindən 67 inventar sayı altında Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir (30, inv. № 21666-21732). Həmin maddi-mədəniyyət nümunələri 1981 və 1983-cü illərin tapıntıları olub, ox ucu tökmək üçün daş qəlib, çaxmaqdaşı və dəvəgözüdən ox ucluqları, qaşov, ağ pastadan slindrik möhürlər (içərisində urartu və mitanni tipli möhürlər də olmaqla), tunc silahlar (nizə və ox ucluqları, xəncər tiyəsi), bəzək nümunələri (sancaqlar, iri qolbaqlar, muncuqlar keçirilmiş boyunbağı, üzük və sırğalar), düymə düzümü, tunc və dəmir bəzək əşyaları (zəncir, qolbaq, üzük və asmalar), əqiq, pasta, şüşə, tunc, təbaşir və balıqqulağıdan muncuq dəstləri, boz və qırmızı rəngli qablardan (vaz, çaynikvari, küpə, üzəri yazılı dolça və s.) ibarətdir. Xarabagilan arxeoloji materialları son tunc və ilk dəmir dövründən başlayaraq orta əsrlərin sonuna qədər mərhələni əhatə edir. Tapıntılardan üzərində arami yazısı ilə dua yazılmış dolça eramızın II-III əsrlərinə aid edilir (30, inv. № 21732).

1989-cu ildə Şəmkir rayonunun Qaracəmirli kəndində aparılan arxeoloji qazıntılar nəticəsində Münəvvər Hüseynovanın aşkar etdiyi maraqlı tapıntılar – tuncdan maral fiqurlu və belşəkilli ştandartlar, at üçün əsləhə və bəzəklər, gildən quş fiqurları və qablar 10 inventar sayı altında Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir (30, inv. № 21644-21653). Kurqandan tapılmış bu maddi-mədəniyyət nümunələri ekspozisiyanın tunc dövrü bölməsində nümayiş etdirilir.

Şəki rayonu Küdürlü kəndində kurqan qazıntısından aşkar olunmuş maddi-mədəniyyət nümunələri (tunc bıçaq və bizlər, belşəkilli və təbərzinformalı tuğ başlıqları, çaxmaqdaşı və dəvəgözüdən ox ucluqları) 2003-cü ildə Tufan Axundov tərəfindən 10 inventar sayı altında qeyd edilərək Muzeyə təhvil verilmişdir (30, inv. № 21654-21663).

Ümumi olaraq belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycan Tarixi Muzeyi ilə yanaşı Azərbaycanda arxeoloji qazıntılar aparan və tapılmış maddi-mədəniyyət nümunələri Muzeyə təqdim edən elmi müəssisələr əsasən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (1923-1929), Azərbaycan Dövlət Elmi-Tədqiqat Institutu (1929-1933), SSRI EA Azərbaycan filialı Tarix, Etnoqrafiya və Arxeologiya Institutu (1935-1940), əvvəlcə SSRI

EA Azərbaycan filialı, sonralar Azərbaycan SSR EA Tarix Institutu və onun Arxeologiya və Etnoqrafiya sektoru (1940-1992) olmuşdur. Həmin müəssisələrin arxeoloji qazıntı apardığı 50-yə qədər abidənin maddi-mədəniyyət nümunələri Muzeydə mühafizə edilir. Bunlarla yanaşı, Qafqaz Muzeyi və Xanlar Diyarşünaslıq Muzeyindən çoxlu sayda maddi-mədəniyyət nümunələri daxil olmuşdur.

## Təsadüfi tapıntılar

Arxeoloji ekspedisiyaların materialları elmi cəhətdən daha əhəmiyyətli olub, Azərbaycan Tarixi Muzeyinə cəlb edilməsi də asan başa gəlir. Əksinə, təsadüfi tapıntılar nəticəsində aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin qazıntıların qeyri-elmi məqsədlərlə, kortəbii şəkildə aparılmasına görə elmi dəyəri nisbətən azdır. Lakin bəzi hallarda təsadüfi tapıntıların elmi əhəmiyyətini artıran amillər də mövcuddur. Belə ki, bu zaman yeni tarixi abidələr aşkarlanır, üzə çıxarılır. Arxeoloqların kəşfiyyat xarakterli səfərlər təşkil edərək bu cür aşkarlanma hallarını tezləşdirmək istəkləri də həmişə uğurlu olmur. Məsələn: 2000-ci ilə kimi Ağsu rayonunun Gəgəli kəndində yerləşən Nərgizava abidəsi haqqında arxeologiya elmində heç bir təsəvvür yox idi. Halbuki, kənd antik və ilk orta əsrlər dövrünün çoxtipli qəbirlərə malik qəbiristanlığı üzərində salınmış, təsərrüfat əhəmiyyətli qazıntılar nəticəsində nekropol aşkarlanmışdır. Bu cür misallar çoxdur.

Təsadüfi tapıntıların əhəmiyyətini artıran əlamətlərdən biri onların əsasən unikal vəziyyətdə olmasıdır. Belə ki, əşyanı tapan şəxs ən gözəl, ustalıqla və zövqlə hazırlanmış nümunələri seçib saxlayır. Əgər düşünsək ki, muzey işinin əsaslarından biri tarixi soyuq, quru faktlar yığınından qurtararaq canlı, zövqləri oxşayacaq formada insanlara çatdırmaqdır. Onda muzeydə bu cür maddi-mədəniyyət nümunələrinə nə qədər ehtiyac duyulduğu anlaşılar. Daş heykəllər, gil və tunc bütlər, antik pullar, bəzək nümunələri, gümüş, tunc və şüşə qablar, gil möhürlər, silahlar, at əsləhəsi və s. arxeoloji materialların ən gözəl nümunələri təsadüfi tapıntılardan məlumdur.

Təsadüfi tapıntıların Azərbaycan Tarixi Muzeyinə daxil olması yolları müxtəlifdir: hədiyyə, əvəzi ödənilməklə və müsadirə.

Maddi-mədəniyyət nümunələri əsasən fərdi şəxslər və elmi müəssisələr

tərəfindən hədiyyə verilir. 1920-ci ildən başlayaraq fərdi şəxslərin hədiyyəsi şəklində çoxlu sayda tapıntılar Muzeyə təhvil verilmişdir. Bəzi hallarda fərdi şəxs tapdığı arxeoloji materialların dəyərinin ödənilməsini istəyir. Muzeyin bu cür hallar üçün nəzərdə tutulmuş fondu həmin maddi-mədəniyyət nümunələrini əvəzini ödəyərək alır.

Indiyədək Azərbaycan Tarixi Muzeyində toplanmış təsadüfi tapıntı materiallarının elmi cəhətdən öyrənilməsi sahəsində müəyyən işlər görülsə də onların sistemləşdirilməsi işi aparılmamış, kompleks tədqiq olunmamışdır. Nəzərə alsaq ki, həmin materialların böyük əksəriyyəti ekspozisiyalarda nümayiş etdirilir və tariximizin ictimaiyyətə çatdırılmasında bilavasitə iştirak edir, onda bu işin olduqca əhəmiyyətli olması aydınlaşar. Odur ki, bu tədqiqat işimizdə əsas məqsədlərdən biri kimi məhz həmin materialların da təsnifatını aparmağı və əlaqəli təhlilə cəlb etməyi qarşıya qoydum.

Təsadüfi tapıntı materillarının sistemləşdirilməsi, Azərbaycan tarixinin öyrənilməsində elmi əhəmiyyətinin müəyyən edilməsi üçün tapıldığı illərə əsaslanaraq təhlil və təsvirlər aparılmışdır.

Azərbaycan Tarixi Muzeyindəki təsadüfi tapıntı materialları Azərbaycanın müxtəlif bölgələrindən və bir sıra xarici ölkələrdən daxil olmuşdur.

Xarici ölkələrdən aşkar olunmuş arxeoloji materialların bir hissəsi Şimali Iranda, Qum yaxınlığındakı qazıntılardandır. Bu tapıntıları Azərbaycan Tarixi Muzeyinə Birlinski, A.I.Uşkov və V.Skinder təqdim etmişdir. Hamısı gildən hazırlanmış, müxtəlif formalı qab və qab parçalarından, çıraqlardan ibarət olub, orta əsrlərə məxsus maddi-mədəniyyət nümunələridir. Lakin üç ədəd boz-qara rəngli gil qab istisnadır (30, inv. № 38-40). Belə ki, həmin saxsı məmulatı tunc dövrünə, e.ə. 2800 - e.ə. 2300-cü illərə aiddir (199, 308).

Sonralar Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvü olan A.I.Uşkovun Muzeyə təqdim etdiyi arxeoloji materialların bir hissəsi Türkiyədə Məlazgird qazıntılarından olub, orta əsrlərə məxsus gil qab və çıraqlardan ibarətdir. Qırmızı və sarı rəngli, əsasən yaxşı bişirilmiş piyalə, kasa formalı qabların, çıraqların içərisinə, ağzının kənarına, bəzən bayırına yaşıl, sarı, ağ şir çəkilmişdir. Saxsı məmulatının üzəri əksərən saya olub, bəzən kəsmə və ya üfüqi xətlərlə naxışlanmışdır (30, inv. № 41-49). Məlazgird çıraqlarının bəzi nümunələri muzey ekspozisiyalarında nümayiş etdirilmişdir (30, inv. № 48).

Azərbaycan Tarixi Muzeyinin ilk arxeoloji materialları 1920-ci ildə iyun

ayının 26-da Aleksandr Benkendorfun [Onun Azərbaycan Tarixi Muzeyinin kitabxanasında Bakı neft mədənlərində qulluqçu və fəhlə məskənlərinin yaxşılaşdırılması tədbirləri haqqında məruzə-kitabçası (B 4657) və Sənədli Mənbələr fondunda Bakı şəhərindəki Ticarət Evinə həsr edilmiş albomu vardır (№ 242) evindən daxil olmuşdur. Bu maddi-mədəniyyət nümunələri Avropa ölkələrindən əldə olunmuş və daş dövrünə aid edilən maddi-mədəniyyət nümunələridir (30, inv. № 1-37).

Fransa ərazisindən aşkar olunmuş boz rəngli çaxmaqdaşından hazırlanmış əmək aləti Azərbaycan Tarixi Muzeyinə daxil olan ilk arxeoloji materialdır (30, inv. № 1). Onun bir tərəfi kəsərli olub, yaxşı işlənmişdir. Uzunluğu 8,3 sm, eni 5,4 sm-dir.

Fransa ərazisi qədim daş dövrünün yaxşı öyrənildiyi yerlərdəndir. Belə ki, paleolit maddi-mədəniyyət abidələri öyrənilərkən ilk dəfə Fransada öyrənildiyinə görə Şell, Aşell, Mustye abidələrinin materialları etalon kimi götürülür (181, 40-50).

Aleksandr Benkendorfun Fransadan əldə etdiyi arxeoloji materiallar hamısı çaxmaqdaşından hazırlanmış, Şell-Aşell, Mustye mədəniyyətləri dövrünü əhatə edir. Yaxşı işlənmiş həmin əmək alətlərinin oxşarları Azərbaycandan da məlum olub, qədim daş dövrünə aid edilir (140).

Aleksandr Benkendorfun Isveçrə ərazisindən əldə etdiyi yeni daş dövrünə aid edilən maddi-mədəniyyət nümunələri öz rəngarəngliyi ilə seçilir. Bu tapıntıların (maral buynuzundan bıçaq dəstəsi, çay daşından iri və xırda isgənələr, çaxmaqdaşından qaşov, bıçaqvari lövhə, quş sümüyündən biz, qara məsaməli əhəng daşından və gildən əyircəklər) oxşarları Azərbaycan ərazisində əsasən mis-daş dövrü abidələrindən məlumdur (108, 284-288).

Bir tərəfi yaxşı işlənmiş ağ rəngli çaxmaqdaşından iri qaşov Ingiltərə ərazisindən əldə edilmiş, Aleksandr Benkendorfun kolleksiyasına daxil olmuşdur (30, inv. № 35). Bu aləti də qədim daş dövrünə aid etmək olar.

A.I.Uşkov Rusiyanın Kuban vilayəti, Beslenyevski kəndindən aşkar olunmuş tunc xəncər, qolbaq, sırğa, sədəf və tuncdan 4 ədəd muncuğu (30, inv. № 55), həmçinin Dağıstandan tapılmış dəmir cida ucluğunu (30, inv. № 1118) Azərbaycan Tarixi Muzeyinə təhvil vermişdir. 1929-cu ildə Dərbənddə təsadüfən tapılmış gil sferokonus Muzeyə təqdim edilmişdir (30, inv. № 1811).

A.I.Uşkov isə Gürcüstanın Osetiya bölgəsindən tapılmış şəbəkəformalı

asma bəzəyi Azərbaycan Tarixi Muzeyinə təqdim etmişdir (30, inv. № 100). Tunc lövhə və xırda düyməciklərdən düzbucaqlı formada hazırlanmış şəbəkənin iki tərəfindən uzun buynuzu, mələyən ağzı, uzunsov boynu sxematik verilmiş altı ədəd keçi başı çıxarılmışdır. Aşağıda bərkitmək üçün dörd ədəd xırda deşik açılmış, yuxarıda isə üç ədəd yarım halqa birləşdirilmişdir. Bu tunc şəbəkə daha çox son tunc və ilk dəmir dövrü maddi-mədəniyyətini xatırladır.

1921-ci ildə Bolineyski Qazaxın şimal-qərb tərəfindən aşkar olunmuş tunc bəzək nümunələrini (30, inv. № 53) və tam işlənməmiş daş toppuzu (30, inv. № 54) Muzeyə təhvil vermişdir. Bu cür daş toppuzlar sonralar da Gəncə-Qazax bölgəsindən tapılmışdır.

Muzeyin 1926-cı il ekspedisiyası Gəncə qəzasında olarkən bir neçə abidədən təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələrini yerli sakinlərdən toplamışdır. Şərqiyyə Sadıqzadə Çovdar materillarının bir qismini ayrıca məqaləsində təsnif etmişdir (185). Lakin gil qablar, tunc bəzək nümunələri və silahlardan ibarət olan Çovdar təsadüfi tapıntıları tamamilə əhatə olunmamışdır (30, inv. № 317-344; 501-578).

Xanlar rayonu Hacıkənd kəndində «Dağdağan» adlı yerdən dəmir qılınc və nizə ucluğu, qırmızı rəngli bardaq əldə edilmişdir (30, inv. № 475-477). Zurnabad kəndində su stansiyası üçün arx yerindən isə qırmızı, boz və qara rəngli gil qablar (30, inv. № 478-481; 484), balıqqulağı (30, inv. № 482), tunc halqa (30, inv. № 483) aşkar olunmuşdur. 1926-cı il Muzey ekspedisiyası Xanlar rayonu Qotul kəndində təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş daş, gil və tunc əşyalardan ibarət arxeoloji materialları da toplamışdır (30, inv. № 485-501).

1927-ci ildə Çovdar kəndində təsadüfi tapıntılar nəticəsində çoxlu sayda əksəriyyəti tuncdan olan maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Həmin materialların Azərbaycan Tarixi Muzeyinə təhvil verilməsi 1928-ci ildə Muzeyin bura yenidən ekspedisiya təşkil etməsinə imkan vermişdir.

1927-ci ildə Muzeyə Misir təsvirlərini xatırladan tunc heykəl-büt daxil olmuşdur. Davud Şərifovun şifahi məlumatına əsasən onun Gəncə qəzası Dananab kəndindən tapıldığı məlumdur (30, inv. № 1134).

1927-ci ildə Füzuli rayonu Horadiz qəsəbəsində Culfa dəmir yolu çəkilərkən təsadüfən açılmış abidənin materialları Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi işçisi K.Quluzadə tərəfindən toplanmışdır. Əldə edilmiş maddi-mədəniyyət nümunələri qara rəngli saxsı məmulatından

ibarətdir (30, inv. № 1598-1603).

1928-ci ildə Naxçıvanda təsadüfi tapıntılar nəticəsində duz mədənlərində işlədildiyi ehtimal olunan çaydaşından hazırlanmış yuxarı və mərkəzi hissələri sapa bərkitmək üçün boğmalı olan baltalar aşkar olunmuşdur (30, inv. № 1470-1477). Həmin il Şahbuzdan əldə edilmiş qırmızı rəngli badya (30, inv. № 1014) və 1927-ci ildə Naxçıvan şəhərində Köhnə Şah bağçasından tapılmış qırmızı rəngli şirli miniatür həcmli qab (30, inv. № 1015) da Muzeyə təhvil verilmişdir.

1928-ci ildə Dağlıq Qarabağın Xankəndi yaxınlığındakı Ballıca kəndində arx qazarkən tunc xəncər dəstəyi (30, inv. № 1495), 2 ədəd xəncər (30, inv. № 1496-1497), 4 hissədən ibarət dingə (30, inv. № 1498) və qulplu küpənin bir hissəsi aşkar olunmuşdur.

1928-ci ildə Tovuz sement zavodunda partlayış zamanı şirli və şirsiz müxtəlif forma və ölçülü gil qablar, gil çıraqlar, tunc bəzək nümunələri və balıqqulağılardan ibarət maddi-mədəniyyət nümunələri aşkara çıxmışdır (30, inv. № 1231-1245; 1506-1513).

1929-cu ildə Ağdam şəhəri ətrafındakı Bağat yaxınlığından təsadüfən aşkar edilmiş maddi-mədəniyyət nümunələri içərisində gil qablarla yanaşı daş qabların olması xüsusilə maraqlıdır. Onlardan biri üçayaqlı badya (30, inv. № 1227), digəri isə qazançadır (30, inv. № 1469b). Gil qablardan biri isə öz unikallığı ilə seçilir.

1929-cu ildə Astarada dənizə yaxın yerdən təsadüfən aşkar olunmuş ağzı təbərzin formalı cilalı qara daş baltacıq maraq doğurur (30, inv. № 1514). Baltanın sapını taxmaq üçün baş hissəsi yumru olan küpü vardır. Professor V.V.Boqaçev daşın növünü bazalt kimi təyin etmişdir. Ishaq Cəfərzadə həmin baltacığı neolit dövrünə (148, 19), Osman Həbibullayev isə mis-daş dövründən sonraya, ilk tunc dövrünə aid etmişdir (108, 110).

1930 və 1933-cü illərdə Xocavənd rayonu Dolanlar kəndindən aşkar olunmuş öz unikallığı ilə seçilən və yaxşı saxlanılmış maddi-mədəniyyət nümunələri kənd sakinləri tərəfindən Muzeyə təhvil verilmişdir (10; inv. № 1135-1213; 1480-1494). 1933-cü ildə tapıntı yerində SSRI EA Zaqafqaziya Filialının Azərbaycan bölməsinin Karyagin (indiki Füzuli rayonu) və Laçın rayonlarında yaşayış yerlərini öyrənən ekspedisiyası da olmuşdur.

1949-cu ildə Nina Minkeviç-Mustafayeva Dolanlar arxeoloji tapıntılarını ilk dəfə tədqiq, təhlil və təsnif edərək nəşr etdirmişdir (172, 50-70). O, bu

məqaləsində Dolanlar materiallarını dəmirin silah və əmək aləti, tuncun bəzək nümunələrinin hazırlanma vasitəsi kimi istifadə olunduğu dövrlərə, e.ə. VI-I əsrlərə, Xocalı-Gədəbəy mədəniyyətinə həsr etdiyi məqaləsində isə Dolanlar materiallarını bu mədəniyyətin Qarabağ qrupunun son mərhələsinə e.ə. VII əsrə aid etmişdir (172, 68; 5, 119). Düşünürəm ki, Mollaisaqlı, Mingəçevir, Giləhli və Torpaqqalanın Dolanlardan tapılmış tunc boyunbağılarla analogiyasına əsaslanaraq bu abidələrin bu tip tapıntılarının ilk antik dövrə, e.ə. V-IV əsrlərə aid olduğunu qəbul etmək daha doğru olardı. Ümumiyyətlə, Dolanlardan daxil olmuş bütün əşyalar tunc və dəmir olmaqla (7 ədəd at dişi və 2 ədəd gil qab parçası istisna edilməklə) iki hissəyə bölünür.

1935-ci ildə Daşkəsən rayonundan qırmızımtıl-boz rəngli ördəkboğazlı qab (30, inv. № 1606) və badya (30, inv. № 1607), iki tərəfi kəsərli tunc xəncər (30, inv. № 1608) və nizə ucluğu (30, inv. № 1610), əqiq muncuq (30, inv. № 1609) təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş və Muzeyə təhvil verilmişdir.

1937-ci ildə Qotul kəndində inşiaat üçün daş çıxarılan zaman tapılmış maddi-mədəniyyət nümunələri qara rəngli küpədən və pələng fiquruna bənzər qab qulpundan ibarətdir (30, inv. № 1646-1647). Qazıntı yerinə gələn Ishaq Cəfərzadə burada iki daş qutu qəbir də açmışdır.

1939-cu ildə Astara rayonunun Lovain kəndi yaxınlığında təxminən 50-yə qədər balta və kərkidən ibarət dəfinə aşkar olunmuşdur. Onların əksəriyyəti itmiş, elm aləminə yalnız 3-ü məlum olmuşdur. Həmin baltalardan biri isə nə vaxtsa Azərbaycan Tarixi Muzeyinə təqdim olunmuşdur (t/t inv. № 95). Bu haqda ilk dəfə Fərman Mahmudovun məqaləsində bəhs olunmuşdur (168, 67). Lovain baltaları özünəməxsus xüsusiyyətlərə malikdir. 1967-ci ildə Muzeyə daxil olan qırmızı rəngli aşsüzən və şirli qab isə Astara rayonunun Ərkivan kəndində tapılmışdır.

1941-ci ildə Cəlilabad rayonunun Novoqolovka kəndi yaxınlığındakı Uzuntəpə abidəsindən təsadüfən son tunc və ilk dəmir dövrünə aid edilən çox maraqlı tapıntılar əldə edilmişdir (30, inv. № 3021-3117, 3144). Həmin maddi-mədəniyyət nümunələri tunc, dəmir, gil və daş əşyalardan ibarətdir. Bu tapıntılar ilk dəfə Ishaq Cəfərzadə tərəfindən tədqiq olunmuşdur (147).

1950-ci ildə Karyagin (Cəbrayıl) rayonunun Molla-Məhərrəmli kəndindən aşkar olunmuş maddi-mədəniyyət nümunələri – tunc toppuz və sancaq, zoomorf gil qab (Şək. 9.2) öz gözəlliyi və elmi dəyəri ilə çox seçilir

(30, inv. № 3139). Həmin maddi-mədəniyyət nümunələri ilk dəmir dövrünə aid edilir.

Qazax rayonunun Çaylı kəndində orta məktəbin yaxınlığında təsadüfi qazıntılar nəticəsində son tunc və ilk dəmir dövrünə aid çoxlu qəbirlər dağıdılmışdır. Habelə, kirəmit zavodu yaxınlığındakı təpədə torpaq götürülən zaman da çoxlu maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Burada rast gəlinmiş gil, kömür, xılt, mis külçələri qalıqları Çaylıda istehsal yerlərinin olması mülahizəsini söyləməyə əsas vermişdir (86, 162). 1950-ci ildə Çaylı kəndindən zoomorf qulplu tunc qab tapılmışdır (30, inv. № 3152; şək. 7.4)). Ilk dəmir dövrü məişətini öyrənmək baxımından elmi əhəmiyyət kəsb edən bu qabın mis külçəsi ilə birlikdə tapılması burada misgərxananın olmasını da göstərir. Metalişləmədə istifadə olunduğu düşünülən bir ədəd dəstəkli daş çömçə və onunla yanaşı təhvil verilən bir ədəd qabformalı daş həvəng 1952-ci ildə Qazax rayonundan tapılmışdır (30, inv. № 3142-3143).

1955-ci ildə Qazax rayonu Əli-Bayramlı kəndi yaxınlığındakı kərpic zavodunda görülən işlər zamanı son tunc və ilk dəmir dövrünə aid edilə bilən maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Həmin tapıntılar boz rəngli gil qab və sınıqlarından, daş əmək alətləri, dəvəgözü qəlpələri, sümük əyircək, heyvan buynuzu və tunc qolbaqlardan ibarətdir. Gil qabların sınıqları içərisində müxtəlif elementlərlə bəzədilmiş qulplar xüsusilə seçilir.

1958-ci ildə Avey dağının ətəyində Damcılı bulağının yanında təsadüfən iki ədəd tunc təbərzin balta əldə edilmişdir. Həmin baltalar yalnız həcmlərinə görə bir-birindən fərqlənirlər.

Qazax rayonu Qazaxbəyli kəndində Eşşəktəpə adlı yerdən təsadüfi tapıntılar və Tarix Institutunun arxeoloji qazıntıları nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri (tunc xəncər, nizə ucluğu, düymələr, qolbaqlar və hissələri, toqqa qırığı, dəmir bıçaq, xəncər, sümük əyircək, yaşma asmalar) VII inventar kitabında qeydiyyata alınmışdır (17; inv. № 4207-4231). Qazaxbəylinin saxsı məmulatı tək qulplu qablardan və qab hissələrindən ibarət olub, boz, qara və sarı rənglidir (30, inv. № 4234-4260). Cabbar Xəlilov və Ideal Nərimanov Qazaxbəylidə arxeoloji qazıntılar aparmış, yeddi ədəd dağıdılmış qəbiri tədqiq etmişlər. Tədqiqatçılar Qazaxbəyli tapıntılarını dəmir dövrünün inkişaf etmiş mərhələsinə, e.ə. VII-VI əsrələrə aid etmişdir (67, 36).

1960-cı ildə maraqlı materiallar verən kurqanlardan biri təsadüfən

Şəmkir rayonunun Qasım-Ismayılov kəndində açılmışdır. Tapıntı yerinə Tarix Institutunun elmi işçiləri Ideal Nərimanov, Qüdrət Ismayılov və Mansur Mansurov ezam olunmuşdur. Onların həm sakinlərdən, həm də kurqanın qalıqları içərisindən topladığı gil və daş qablar, tunc əşyalar və bəzək nümunələrindən ibarət arxeoloji materiallar Muzeyə daimi mühafizə üçün təhvil verilmişdir (87, 2). Ideal Nərimanov həmin tapıntıları təhlil etdiyi məqaləsində maddi-mədəniyyət nümunələrini e.ə. VIII-VII əsrlərə - ilk dəmir dövrünə aid etmişdir (179, 714).

1960-cı ildə Daşkəsən şəhərinin 2 saylı orta məktəbinin təcrübə sahəsində ağac əkmək məqsədilə çala qazılarkən tunc təbərzin balta aşkar edilmişdir (t/t. inv. № 26).

1963-cü ildə Tovuz rayonunun Ibrahimhacılı kəndində dağılmış daş qutu qəbirdən aşkar edilmiş tuncdan kişi və qadın heykəl-bütü Hətəm Kəsəmənli tərəfindən Muzeyə təhvil verilmişdir (22). 1968-ci ildə Ibrahimhacılıdan daha bir tunc kişi fiquru və əhəngdaşından silindrik formalı möhür tapılmışdır. Ibrahimhacılıdan aşkar edilmiş tunc antropomorf fiqurlar üç kişi heykəl-bütündən ibarətdir (Şək. 2.10). Bu fiqurlar əsasən son tunc və ilk dəmir dövrünə aid edilir. Ibrahimhacılıdan tapılmış əhəngdaşından silindrik formalı möhürün uzunluğu 4,4 sm, hündürlüyü 1,7 sm-dir. Möhürün kənarında 15 işarə təsvir edilmişdir.

1963-cü ildə Şəmkir rayonunun Nüzgər kəndində dəmirçixana yaxınlığında təsərrüfat işləri görülərkən nadir əşyalar - tunc təbərzin balta, qılınc (Şək. 4.1), xəncər, bıçaq, biz, mıx, düymə və üzük aşkar olunmuşdur (t/t inv. № 96). Tapıntılar haqqında ilkin məlumat verən Nəsimi Quliyev həmin materialları təsvir etmiş və Xocalı-Gədəbəy mədəniyyəti dövrünə aid etmişdir (89).

1964-ci ildə Yardımlı rayonunun Bozayran kəndində daş qutu qəbirdən iki ədəd gil qab, iki ədəd tunc nizə ucluğu, dəmir bıçaq hissəsi və dəmir nizə ucluğunun dəstəyi, iki ədəd tunc qolbaq aşkar olunmuşdur (t/t inv. № 107-111).

1964-cu ildə Tovuz rayonunun Qəribli kəndi yaxınlığından məktəblilərin aşkar etdiyi daş heykəl və tunc xəncər Arxeologiya fonduna təhvil verilmişdir (t/t inv. № 114). Tədqiqatçılar daş heykəli antik, tunc xəcəri isə son tunc və ilk dəmir dövrünə aid edirlər (65, 57).

1966-cı ildə Azərbaycan Tarixi Muzeyinə Gədəbəy rayonunun Böyük

Qaramurad kəndində maraqlı maddi-mədəniyyət nümunələrinin aşkar olunduğu haqqında məlumat verilmişdir. Məlumatın yoxlanılması məqsədilə Qələndər Aslanov həmin kəndə ezam olunmuşdur. Məlum olmuşdur ki, maddi-mədəniyyət nümunələri Böyük Qalaçadakı son tunc dövrünə aid siklop tikintisindən aşkar edilmişdir. Üst və alt mədəni təbəqələr qarışdığından ərazinin torpağı 50-60 sm dərinlikdə təmizlənmişdir. Buradan çoxlu maddi-mədəniyyət nümunələri kömür, kül qalığı, heyvan sümüyü, dəvəgözündən və gildən hazırlanmış müxtəlif məişət əşyalarının qalıqları, dən daşlarının və təbərzin balta hazırlamaq üçün daş qəlibin hissələri əldə edilmişdir (45, 51).

1967-ci ildə Xaçbulaqda təsadüfən torpaq kurqanı açılmışdır. Tapıntı yerində olan Hətəm Kəsəmənli əldə edilmiş maddi-mədəniyyət nümunələrini yerli sakinlərdən toplamışdır. Bunlar müxtəlif formalı, qara və boz rəngli saxsı qablardan, dəmir və tuncdan hazırlanmış nizə uclarından, tunc xəncər və onun qınından, müxtəlif formalı tunc qolbaq, sancaq və asmalardan ibarətdir (s.q. № 531-555). Əldə edilmiş materiallar Xocalı-Gədəbəy mədəniyyətinə məxsus olub, e.ə. IX-VIII əsrlərə aid edilir (161, 44).

1968-ci ildə Qax rayonu Ləkit-Kötüklü kəndi yaxınlığından tapılmış tunc tur fiquru və qolbaq da maraqlı tapıntılardandır (30, inv. № 16136-16137). AMEA-nın müxbir üzvü Vəli Əliyev Ləkit-Kötüklü tapıntılarına ayrıca məqalə həsr etmişdir.

1973-cü ildə Dəvəçi rayonunun Məşrif kəndində yer şumlanarkən dəfinə şəklində 9 ədəd müxtəlif həcm və formalı tunc təbərzin balta aşkar olunmuşdur (46, 26). Baltalar döymə üsulla hazırlanmış, nazik mis təbəqəsindən düzəldilən iri həcmli qabın içərisinə qoyulmuşdur (Af. 684). Muzeyin tapıntı yerinə ezam olunmuş elmi işçiləri həmin baltalardan 6 ədədini əldə edə bilmiş (Af. № 685, 686, 687, 688), qalanları sakinlər tərəfindən aparılmışdır. Bu baltalar haqqında Gennadi Ağayev və Viktor Kvaçidze ilk dəfə məlumat vermiş, Qələndər Aslanov isə təsnif etmişdir (110; 69).

1992-ci ildə Biləsuvar rayonu Bəydili kəndi yaxınlığından III-IV əsrlərə aid sikkə dəfinəsi aşkar olunmuşdur. Dəfinə ilə yanaşı son tunc və ilk dəmir dövrünə aid miniatür həcmli tunc təbərzin və üzərində işləmə izi olan tunc təbəqə tapılmışdır.

1997-ci ildə Nərgizava qədim yaşayış yeri və ona məxsus qəbiristanlıq AMEA-nın müxbir üzvü Vəli Əliyev və Fariz Xəlilov tərəfindən ilk dəfə qeydə alınmış, burada təsərrüfat işləri görülərkən təsadüfən aşkara çıxarılan

maddi-mədəniyyət nümunələrinin bir hissəsi toplanaraq elmi cəhətdən tədqiq olunmuşdur (72). Gil qablar, tunc qolbaqlar, üzüklər, asmalar (iki at başlı, diskvari, antropomorf), maral-qartal təsvirli kəmər başlığı (Şək. 5.1), zınqırov və daş heykəl-büt 2002-ci ildə, tunc qolbaqlar, üzüklər, zınqırovlar, atlı fiquru, iki quş başlı asma, süddanbiçimli və miniatürhəcmli gil qablar isə 2003-cü ildə Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Fariz Xəlilov tərəfindən Muzeyə təhvil verilmişdir (t/t. inv. № 208-243; 266-284). Bütün tapıntılar antik dövrün maddi-mədəniyyətini səciyyələndirir.

Qusardan digər təsadüfi tapıntı ilk tunc dövrünə aid edilən çaydaşıdan hazırlanmış baltacıqdır (Şək. 1.8). Onun küpündə deşik açılmasına çalışılsa da yarımçıq qalmışdır. Küt ağızlıdır (30, inv. № 21663).

2000-ci ildə Çaylıda təsadüfi tapıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri (tunc yəhərvari dəstəli qılınc və üzük, iki ədəd dəmir nizə ucluğu, iki ədəd pasta və əqiq muncuq dəsti, boz rəngli qablar) Muzeyə təhvil verilmişdir (t/t. inv. № 174-183). Çaylının bütün arxeoloji materialları son tunc və ilk dəmir dövrü maddi-mədəniyyətini əks etdirir.

2001-ci ildə Azərbaycan Tarixi Muzeyinə Hacı Zeynalabdin Tağıyev küçəsində yerləşən antikvar mağazadan müsadirə edilmiş 20 adda maddi-mədəniyyət nümunəsi daxil olmuşdur (t/t. inv. № 188-207). Əsasən unikal formada hazırlanmış tunc əşyalar (nizə ucluğu, armudformalı zınqırov, Luristan tipli balta, qab, gəm, qolbaqlar, bir cüt sırğa, üzük və asmalar) balıqqulağı dəsti və süddanbiçimli gil qablardan ibarət olan bu arxeoloji materialların tapıldığı yer və şərait məlum deyildir. Amma onlara ümumi diqqət yetirdikdə müxtəlif yerlərdən əldə edildiyi anlaşılır. Süddanbiçimli gil qabların isə unikal forması onların Mollaisaqlıdan aşkar olunduğunu deməyə əsas verir.

2002-ci ilin avqust ayında Ismayıllı rayonunun Mollaisaqlı kəndində təsadüfi tapıntı nəticəsində küp içərisində tunc bəzək nümunələrindən ibarət dəfinə aşkar olunmuşdur. Həmin dəfinənin 22 adda arxeoloji materialları (tuncdan iri boyunbağı, zınqırov, qolbaq, muncuq dəsti, atlı, qoç, öküz, maral fiquru, saç üçün vasitə və iri zınqırovlu-əmudlu çərçivə asmalar) Muzeyə təhvil verilmişdir (t/t inv. № 244-265). Mollaisaqlı materialları ilk dəfə Gennadi Ağayev və Viktor Kvaçidze tərəfindən nəşr edilmiş, tunc dövrünün maddi-mədəniyyət nümunələri kimi xarakterizə olunmuşdur (160, 11). Lakin Fazil Osmanov tapıntı yerində olduqdan və dəfinə küpünün qalıqlarını gördükdən

sonra onların ilk antik dövrə aid olduğu qənaətinə gəlmişdir. Qafqaz Albaniyası maddi-mədəniyyətindən bəhs edən magistr dissertasiyamda mən də bu ənənəni gözləyərək Mollaisaqlı dəfinəsi materiallarını ilk antik dövrünə aid etmişəm. Muzeyin 2003-cü il ekspozisiyasında da həmin tapıntılar Qafqaz Albaniyasının antik dövrü maddi-mədəniyyət nümunələri içərisində nümayiş etdirilmişdir.

2003-cü ildə Şəmkir rayonunun Bayramlı kəndində Kür hövzəsindən tapılmış yarpaqşəkilli, iki paralel çıxıntılı, maili, aypara formalı, dəstəsi düz, hamar, ucunda deşiyi olan tunc bıçaq Muzeyin elmi işçisi Viktor Kvaçidze tərəfindən təhvil verilmişdir (30, inv. № 21763). Digər Şəmkir tapıntıları kimi bu bıçaq da son tunc və ilk dəmir dövrünə aid edilmişdir.

Azərbaycanın müxtəlif bölgələrindən Azərbaycan Tarixi Muzeyinə daxil olmuş çoxlu sayda təsadüfi tapıntı materialları ilk dəfə sistemləşdirilmiş, kompleks halda tapılma illərinə əsasən xronoloji qaydada tədqiqata cəlb edilmişdir. Azərbaycan tarixinin öyrənilməsində həmin maddi-mədəniyyət nümunələrinin yeri müəyyən olunmuşdur.

# AZƏRBAYCAN TARİXİ MUZEYİ ARXEOLOJİ MATERİALLARININ TƏSNİFATI

## Daş məmulatı

Azərbaycan Tarixi Muzeyi arxeoloji materiallarının təsnifatını verərkən artıq arxeoloji ədəbiyyatda qəbul olunmuş qaydaya əsaslanaraq tipoloji bölgülər aparmaq qərara alınmışdır. Təsvirlərin verilməsi məsələsində ekspozisiyadakı arxeoloji materiallar əsas götürülmüşdür. Bundan məqsəd hələ də ekspozisiyada öz yerini doğru-dürüst almayan arxeoloji materialları sistemləşdirərək onların kompleks tədqiqini təşkil etməklə yerlərini birdəfəlik müəyyənləşdirməkdir. Bu təsnifat və təsvirlərə yeri gəldikcə Arxeologiya fondunda mühafizə edilən maddi-mədəniyyət nümunələri də əlavə edilmişdir. Həmin əlavələr sayəsində gələcəkdə ekspozisiyanın zənginləşdirilməsi və təkmilləşdirilməsi səviyyəsini yüksəltmək mümkün olacaqdır. Beləliklə, maddi-mədəniyyət nümunələri çoxluğundan asılı olaraq daş, metal, gil və digər məmulatlar kimi təsnif edilmişdir.

Daş alətlərin təsnifatına insanın inkişaf tarixinin nəzəri əsaslarına qısa baxışdan sonra keçmək daha məqsədəuyğun hesab edilmişdir. Ümumiyyətlə, qədim insanlar haqqında qədimdən müxtəlif nəzəriyyələr olmuşdur. Belə nəzəriyyələrdən biri Azərbaycan tarixşünaslığında da əhəmiyyətli yer tutan təkamül nəzəriyyəsidir. Hələ də antropologiya elmi insanın meymundan, insanabənzər meymundan yoxsa meymunla eyni kökdən əmələ gəldiyini sübut edə bilməmişdir. Bununla belə, müasir dövr tədqiqatçıları Homo sapiensin neandertallarla yanaşı yaşadığı qənaətinə gəlmişlər. Rus bioloqu Lev Jivotovski bu haqda Homo sapienslə neandertalların sadəcə çox fərqli irqlər olduğunu və müasir nomenklaturada göstərildiyi kimi bizim Homo sapiens sapiens, neandertalların isə Homo sapiens neanderthalensis adlandırıla biləcəyini qeyd etmişdir (150). Amerikan antropolqu Uilyam Hauels isə neandertalların yoxa çıxdığı vaxta kimi, yaxud hətta daha əvvəl bütün dünyada nəinki müasir insan tipinin kifayət qədər yayılması, habelə artıq müasir irqlərin də formalaşmasına dair əlamətlərin olduğunu göstərir (61, 54).

Təkamül nəzəriyyəsinin əleyhdarları isə təkamül nəzəriyyəsi

tərəfdarlarının insanın atası kimi önə sürdükləri kəllə və sümük parçalarının ya nəsli tükənmiş meymun növlərinə, ya da qədim dövrlərdə yaşamış və yox olmuş əsl insan irqlərinə aid olduğunu iddia edirlər. Onlara görə, insan təkamül prosesi keçirməmiş, bugünkü mükəmməl quruluşu ilə yaradılmışdır.

Qədim insanları ibtidai hesab edən tədqiqatçılar onların öz dövrlərinin mükəmməl ustaları olduğunu da qəbul edirlər. Fransız arxeoloqu Fransua Bord insanın həqiqətən həmin uzaq zamanlarda kifayət qədər bacarıqlı usta olduğunu və öz sərəncamındakı materialın öhdəsindən müvəffəqiyyətlə gəldiyini qeyd edir (50, 55).

Azərbaycan da qədim insanların yayıldığı və yaşadığı yerlərdəndir. Burada aşkar olunan mağaralar və açıq düşərgələr bunu aydın göstərir. Milli Azərbaycan Tarixi Muzeyinə qədim insanların ustalıqla hazırladıqları maddi-mədəniyyət nümunələri hələ 1920-ci ildən daxil olmağa başlamışdır. Arxeologiya fondunun inventar kitabında ilk say da çaxmaqdaşıdan əmək aləti ilə başlayır. Lakin, həmin arxeoloji materiallar Azərbaycana məxsus olmayıb, Avropa ölkələrindən tapılmışdır (73).

1956-cı ildə Azərbaycan Tarixi Muzeyinin elmi ekspozisiyasında qədim insanların daş alətlərini nümayiş etdirmək üçün Gürcüstan Dövlət Muzeyindən də bir neçə daş məmulatı alınmışdır. Bütün bunlar Azərbaycanda daş dövrünün zəif öyrənilməsi ilə əlaqədar idi. Hələ 1881-ci ildə Tiflis şəhərində V Arxeoloji qurultayda Zaqafqaziya ərazisində və o cümlədən Azərbaycanda ibtidai insanların yaşamadığı, bu ərazilərdə qədim insan düşərgələrinin olmadığı barədə qərar çıxarılmışdı. Uzun müddət bu qərar qüvvədə qalmışdır. 1953-cü ilə qədər Azərbaycan tarixinə aid yazılmış bəzi əsərlərdə bu qərarın düzgün olduğunu söyləyən alimlər də var idi (51, 23).

Bu boşluğu doldurmaq və şübhələri aradan qaldırmaq üçün Arxeologiya fondunun sabiq müdiri Məmmədəli Hüseynovun səyləri nəticəsində Azərbaycan Tarixi Muzeyinin «Palelolit ekspedisiyası» yaradılmışdır. Onun Qazax rayonu Daşsalahlı kəndindəki Damcılı mağara düşərgəsində apardığı arxeoloji qazıntılarının materialları «Kolleksiya № 1» və «Kolleksiya № 2» adı altında Muzeyə daxil olmuşdur. Az sonra Məmmədəli Hüseynovun sayəsində Azıx mağarası da elm aləminə məlum olmuşdur. 1960-1962-ci illərdə aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar olunan Azıx arxeoloji materialları da Muzeyə təhvil verilmiş və Arxeologiya fondu inventar kitabına salınmışdır (11). Beləcə, Muzey bir neçə il ərzində daş dövrü arxeoloji

materialları ilə zənginləşmişdir. Lakin, bu zənginlik az müddət davam etmişdir. Belə ki, Məmmədəli Hüseynov Azıx və Daşsalahlının ekspozisiyada nümayiş etdirilməyən daş dövrünə aid Damcılı və Azıx maddi-mədəniyyət nümunələrini artıq «Palelolit ekspedisiyası»nın fəaliyyət göstərdiyi Tarix Institutuna aparmış, onların taleyi bir növ həll edilməmiş qalmışdır. Bununla da Muzeydə paleolit tapıntılarının çeşidi azalmışdır.

Azərbaycanda ən qədim daş alətlər Azıx mağarasında tapılmışdır (41, 8). Mağaranın girişi səviyyəsindən 12-14 m dərinlikdə yerləşən alt qatlarda çoxu çay daşlarından düzəldilən kobud çapma alətləri, o sıradan ağzında itiləyici qopartma işləri aparılmış protoçopper, protoçoppinq və ərsinlər, bunlarla yanaşı nüvəvari və ya bir ucu şişlənmiş kubvari alətlər, qəlpələr, iri ölçülü 4-5 kq-dan ağır çopper və çoppinqlər tapılmışdır. Işlənməkdən çoxunun səthi sürtülüb pardaxlanmışdır. Burada tapılan bəzi alətlər tipoloji baxımdan alt paleolitin səciyyəvi aləti olan əl çapacaqlarının prototipi hesab edilir. Həmin qatların daş məmulatına istehsal tullantıları və alət hazırlamaq üçün Quruçay dərəsindən yığılıb mağaraya gətirilən təbii çay daşları da daxildir. Hazırda Muzeydə Quruçay mədəniyyəti sakinlərinə aid 10 ədəd çaydaşıdan bəsit əmək alətləri mühafizə edilir (30, inv. № 21564-21573).

Qədim Aşel dövrü (700-500 min il əvvəl) daş məmulatı daha təkmil texnika ilə hazırlanmışdır. Onlar çaxmaqdaşı, felzit və bazaltdan olub, tipoloji baxımdan alt təbəqələrin daş alətləri ilə uzlaşır. Burada çopperlər və çoppinqlərlə yanaşı yeni alətlər - əl çapacaqları, dişli-gəzli, bizburun və başqaları meydana çıxır. Azıx mağarasının orta Aşel dövrü (400-200 mln il əvvəl) alətləri daha müxtəlif olub, hazırlanma texnikası isə daha yüksəkdir. Çox halda alətlərin bütün səthi boyu qopartmalar apararaq onların ölçülərini azaltmış, ələ yatımlılığını, davamlılığını və kəsərliliyini artırmışlar. Itiuclular, cilalayıcı alətlər, burğular və bizlər kimi yeni alətlər yaranmışdır. Azərbaycan Tarixi Muzeyində Azıx mağarasından aşkar olunmuş qədim Aşel və orta Aşel mədəniyyətlərinə aid çaydaşı və çaxmaqdaşıdan əl çapacaqları, qaşov tipli, itiuclu əmək alətləri, xammal və nukleuslar, Azərbaycanın qədim sakinlərinin ətini istifadə etdikləri mağara ayısı, nəhəng maral və hətta balığın sümükləri mühafizə edilir (30, inv. № 14372; 14381; 14386; 14429; 21616-21631).

Azıxda qədim daş dövrünün müxtəlif mərhələlər üzrə mədəniyyət nümunələri ilə yanaşı, qədim insanın çənə qırığı da aşkar edilmişdir. Azıx sakininin çənəsi Azərbaycan EA-nın müxbir üzvü, professor Dəmir Hacıyev

və görkəmli Azərbaycan antropolqu Rəbiyyə Qasımova tərəfindən tədqiq edilib öyrənilmişdir. Dəmir Hacıyevin fikrincə, dişlərin xırdalığına, incəliyinə, düzülüş qaydasına görə Azıx sakini dünyada ən nadir tapıntıdır, həm də müasir insanın əcdadına daha yaxındır (66, 14). Məmmədəli Hüseynov göstərir ki, Azıx sakini əvvəllər qeyd edildiyi kimi 250-300 min il deyil, təxminən 400 min ildən qabaq yaşaya bilərdi. Daha doğrusu, Avropada vaxtı ilə baş vermiş mindel-riss buzlaqarası dövrün əvvəlinə uyğun gələ bilər. Buradan aşkar edilmiş daş alətlər və paleontoloji qalıqlar da həmin müddəanı sübut edir (66, 14). Bunun ardınca Məmmədəli Hüseynov yenidən Azıx sakininin dişlərinə və müəyyən antropoloji xüsusiyyətinə görə fiziki quruluş cəhətdən 250-300 min il əvvəl mindel-riss dövründə yaşamış Svanskomb (Cənubi Ingiltərə) adamına daha yaxın olduğunu qeyd etmişdir (66, 14).

Tapıntının müfəssəl təsvirini verən və müqayisəli morfoloji tədqiq edən antropolq Rəbiyyə Qasımova Azıx sakinini fiziki tipcə Avropa neandertallarının (paleoantropların, yəni qədim insanların) erkən qrupuna aid etmişdir. O, Azərbaycan Tarixi Muzeyinin «Qiymətli metallar» fondunda mühafizə edilən çənə qırığının pasportunda beşinci təbəqənin beşinci horizontunda tapıldığının qeyd olunmasını səhv hesab etmişdir (82, 12). Belə ki, çənə qırığı aşkar olunarkən tapıntı haqqında Azərbaycan Dövlət Tibb Inistitutunun elmi nəşrində verilən məlumatda qədim Azıx sakininin sümük qalığının beşinci təbəqənin üçüncü horizontunda (130, 15), Məmmədəli Hüseynovun 1985-ci ildə nəşr etdirdiyi monoqrafiyasında isə beşinci təbəqənin dördüncü horizontunda tapıldığı göstərilmişdir (140, 15). Beləliklə, antropoloqların 250 min il tarix müəyyən etdikləri Azıx sakininin çənə sümüyü 100-150 min il qədimləşərək 350-400 min il əvvələ aid olunmuşdur. Maraqlıdır ki, Rəbiyyə Qasımova Azıx sakininin mütləq yaşının 200-250 min ilə yaxın olduğunu qeyd etmiş və onun neandertalların erinqodorf adlanan qrupuna daha yaxın hesab etmişdir (82, 13).

Azərbaycan Tarixi Muzeyində bu çənə sümüyünün mulyajı hazırlanmışdır. Həmin mulyaj Muzey ekspozisiyasının daş dövrü bölməsində nümayiş etdirilir.

Azərbaycanda Aşel mədəniyyətinə aid müxtəlif daş əmək alətləri Qazax rayonu ərazisində qədim daş dövrünün açıq düşərgələrində də əldə edilmişdir. Çaxmaqdaşı və bazaltdan hazırlanmış bu əmək alətləri Kəkil, Ceyrançöl və Bığlıdağdan aşkar olunmuşdur (30, inv. № 21560-21563). Onların bir neçəsi

2003-cü ildə Muzeyə daxil olmuş və 2004-cü il ekspozisiyasında nümayiş etdirilmişdir.

Orta Paleolit dövrünün böyük uğurlarından biri levallua texnikası ilə çoxsaylı əmək alətlərinin hazırlanmasıdır. Bu üsul ilə çaxmaqdaşı və dəvəgözü nüvələrindən nazik, uzun qəlpə və lövhələr qoparılması alətlərin işə yararlılığını artırırdı. Mustye mədəniyyəti çevrəşəkilli, üçbucaqvari nüvələr, dişli-gəzli ərsinlər, lövhəvari bıçaqlar, mişarlayıcı alətlər və bizlərlə təmsil olunur. Itiuclular və qaşovlar isə Mustye mədəniyyəti üçün səciyyəvi alətlərdir. Tağlar mağarasında bütün alətlərin 9/10-u itiuclu və qaşovlardır (41, 12).

Muzeydə mühafizə edilən Mustye mədəniyyətinə aid arxeoloji materiallar Azıx və Tağlar mağaralarında aparılmış arxeoloji qazıntılardan əldə edilmişdir. Bu materialların hamısı Muzey ekspozisiyasının daş dövrü bölməsində nümayiş etdirilir. Tağlar mağara düşərgəsindən 11 ədəd çaxmaqdaşıdan hazırlanmış itiuclu vardır (30, inv. № 21582-21592). Bu, Tağlar itiucluları yarpaqşəkilli, enli və uzunsov, gödək və əyməlidir (65, 16). Tədqiqatçıların araşdırmalarına görə, Yaxın Şərq və Qafqaz ərazisində Tağlar mustye düşərgəsi yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişafını və yeni-yeni əmək alətlərinin meydana gəlmə xüsusiyyətlərini öyrənmək və tədqiq etmək olur (51, 47).

Üst Paleolitdən başlayaraq alətlər kiçik ölçüdə hazırlanmışdır. Orta daş və yeni daş dövrlərində də davam edən bu ənənə texnika və təsərrüfatda baş verən dəyişikliklərlə bağlıdır. Mezolit texnikası üçün kiçik həndəsi fiqurlar (üçbucaq, seqment, trapes və s.) şəklində mikrolit alətlərin istehsalı səciyyəvidir. Onlar həm çaxmaqdaşı, həm də dəvəgözüdən hazırlanmışdır. Karandaşvari nüvələrdən qoparılmış bu lövhəcikləri ağac və ya sümük sulğunca geydirib qətranla bərkitməklə istənilən quraşdırma alət hazırlanırdı. Mikrolitlərlə yanaşı çoxlu miqdarda mikroçıxarlar da aşkar olunmuşdur. Azərbaycan Tarixi Muzeyində mühafizə edilən mikrolit alətlər əsasən Damcılıdan aşkar olunmuşdur.

Istehsal təsərrüfatının, onun aparıcı sahələri olan əkinçilik və maldarlığın meydana gəlməsi neolit dövrünün ən böyük uğuru, əsil çevriliş oldu (41, 18). Maldar tayfaların icmanın digər üzvlərindən ayrılması üçün istehsal təsərrüfatına keçilməsi ilə başlanğıc qoyuldu. Məhsuldar qüvvələrin inkişafında, təbiət və cəmiyyətin kökündən dəyişdirilməsi işində aparıcı rol

oynayan bu irəliləyiş «neolit inqilabı» adlanır. Keyfiyyət dəyişikliklərinə nail olmuş qədim insan daşı cilalamağı, burğu üsulu ilə deşməyi, gil qab istehsalını mənimsəmiş, toxuculuqla məşğul olmağa başlamışdır.

Azərbaycan Tarixi Muzeyində mühafizə edilən yeni daş dövrünün daş məmulatı Xanlar, Gillikdağ və Damcılıdan aşkar olunmuşdur. Azərbaycanda yeni daş dövrü maddi-mədəniyyət nümunələrinin az tapılmasına baxmayaraq əldə olan materiallar da xüsusi şəraitdə mühafizə edilməmişdir. Gillikdağ tapıntıları hələ də inventarlaşdırılmamış, hətta bəzi materialların harada yerləşdiyi və hansı materialların Gillikdağdan olduğu naməlum qalmışdır. Ümumilikdə Xanlar muzeyindən Azərbaycan Tarixi Muzeyinə yeni daş dövrünə aid olduğu şübhə doğurmayan 74 ədəd daş alət və onlara aid qəlpələr daxil olmuşdur. Onlardan 27 ədədi Xanlar ətrafındakı Gillikdağdan, 45 ədədi neolit düşərgəsindən, 2 ədədi isə Xanlarda 118 saylı binadan tapılmış daş alət və qəlpələrdən ibarətdir. Bu maddi-mədəniyyət nümunələri Yakob Hummel tərəfindən aşkar olunmuş və elmi hesabatlarında əksini tapmışdır (133; 135; 136). Azərbaycan Tarixi Muzeyinə daxil olan materialların təsvirini isə Məmmədəli Hüseynov vermişdir (138, 70-71; 139, 17). Lakin hələ də Gillikdağ materiallarını tam öyrənilmiş hesab etmək olmaz. Bunu Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlərdə yeni daş dövründən bəhs edilərkən Gillikdağ materiallarına kifayət qədər toxunulduğu halda (40, 26; 41, 18) Azərbaycan tarixinin sonuncu akademik nəşrində Gillikdağ adının heç çəkilməməsindən də görmək mümkündür (42, 85-91).

Damcılı materiallarına gəldikdə isə onlar elə cür qarışıq hala (burada həmin materialların lazımi şəkildə tədqiq olunmamasını da qeyd etmək olar) düşüb ki, Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun inventar kitabında qeyd olunmalarına və hesabatlarının burada olmasına baxmayaraq onların nəinki dövrünü müəyyənləşdirmək, heç saxlandıqları yeri belə tapmaq çətindir. Belə ki, Məmmədəli Hüseynov onların əksəriyyətini Tarix Institutuna aparmışdır. Hal-hazırda həmin arxeoloji materiallar Arxeologiya və Etnoqrafiya Institutundadır.

Məlumdur ki, tarixdə ən böyük hadisələrdən biri misin kəşfi olmuşdur. Daş alətlərlə yanaşı mis alətlərin də hazırlanmasına əsaslanan alimlər bizdən 8000-6000 il əvvəlki misin kəşf olunduğu tarixi mərhələni mis-daş dövrü adlandırmışlar. Mis-daş dövründə də əmək alətləri daha çox daş və sümükdən hazırlanmışdır. Mis alət və bəzəklərin çox az tapılması misin yumşaqlığı və

ona qatışıqların əlavə edilməməsi ilə əlaqələndirilmiş, daş alətlərin hələ də sıradan çıxmadığı qəbul olunmuşdur.

Yeni daş dövrü hadisələri isə mis-daş dövründə davam etmiş, «Neolit inqilabı»nın gətirdiyi yeniliklər inkişaf etdirilmişdir. Toxa əkinçiliyi və maldarlıq paralel məşğuliyyət sahəsi olmuşdur. Qədim sakinlər toxuculuq, dulusçuluq, daş-sümük-metalişləmə kimi sənətlərin daxil olduğu sənətkarlıqla da geniş məşğul olmuşlar. Mis-daş dövrü daşişləmə sənətkarlığının inkişafı nəticəsində daş alətlərin hazırlanma texnologiyası daha da təkmilləşmiş, ənənəvi əmək alətləri sırasına yeniləri də əlavə olunmuşdur.

Mis-daş dövrü abidələri dünya mədəniyyət tarixinin öyrənilməsi üçün maraqlı arxeoloji materiallar vermişdir. Azərbaycanda mis-daş dövrünün tarixi Naxçıvan, Qazax, Mil-Qarabağ, Muğan bölgələrindəki abidələrdə aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq tədqiq olunmuşdur. Bu arxeoloji qazıntılar Osman Həbibullayev, Vəli Əliyev, Ideal Nərimanov, Qardaşxan Ismayılov və Fərman Mahmudovun rəhbərliyi ilə aparılmış, Azərbaycanın mis-daş dövrü mədəniyyət tarixinə yeni-yeni tapıntılar bəxş edilmişdir.

Muzeydə mis-daş dövrünə aid 1953-1964-cü illər I Kültəpə, 1963-1964-cü illər Töyrətəpə, 1962-ci il Şomutəpə, 1965-ci il Babadərviş və 1971-1972-ci illər Qarğalartəpəsi abidələrindən aşkar edilmiş arxeoloji materiallar mühafizə olunur. I Kültəpə və Qarğalartəpəsi maddi-mədəniyyət nümunələrindən fərqli olaraq, digər mis-daş dövrü arxeoloji materialları inventar kitabına salınmamış, Qarğalartəpəsi materiallarının invetarlaşdırılması isə yarımçıq qalmışdır.

Azərbaycanın mis-daş dövrü tarixi qazıntıları aparan arxeoloqların və bu sahənin müxtəlif elmi məsələlərini tədqiq edən alimlərin əsərlərində yetərincə öyrənilmişdir. Lakin, öyrənilmiş problematik məsələlərin Muzeydə olan mis-daş dövrü maddi-mədəniyyət nümunələrinin mühafizəsinə və nümayişinə göstərdiyi təsiri, onların Azərbaycan tarixindəki mənbə kimi əhəmiyyətini müəyyən edərək Muzeydə tətbiqinin səmərəliliyinin artırılması işi görülməmiş qalmışdır.

Mis-daş dövrünü metalın daha çox istifadə olunduğu və əmək alətləri hazırlamaq üçün əsas vasitəyə çevrildiyi tunc dövrü əvəz etmişdir. Azərbaycan tarixinin tunc dövrü e.ə. IV minilliyin ortaları – e.ə. I minilliyin əvvəllərini əhatə etmişdir. Tunc dövrünün əsas tarixi hadisəsi misin tərkibinə qalay,

mərgümüş, sürmə, qurğuşun, nikel qatmaqla tuncun alınması və onun sayəsində baş verən ictimai-iqtisadi dəyişikliklərdir.

Əkinçiliklə məşğul olan qədim insanlar torpağı şumlamaq üçün toxalardan istifadə etmişlər. Azərbaycan Tarixi Muzeyində mühafizə edilən yeni daş dövrünün daş toxaları Gillikdağdan aşkar olunmuşdur. Lakin Azərbaycan ərazisində digər dövrlərə aid daş toxalar aşkar olunsa da, onların heç bir nümunəsi Azərbaycan Tarixi Muzeyində mühafizə edilmir.

Qədim dövrün əkinçiləri taxılı quraşdırma oraqlar vasitəsilə biçirdilər. Qeyd edək ki, bütöv halda daş oraqlara rast gəlinməmişdir. Doğrudur, Osman Həbibullayevin istifadə vəzifəsi məlum olmayan kimi qeyd etdiyi 1955-ci ildə I Kültəpədən aşkar olunmuş daş alətlərdən birini Muzey ekspozisiyasında daş oraq kimi nümayiş etdirilir (s.q. № 260). Amma, əslində bu alət oraq kimi çox ağır və kobuddur. Güman ki, uzunluğu 27,3 sm olan həmin alət dəhrə kimi istifadə olunmuşdur.

Mis-daş dövrünün məlum oraqları həm daş, həm də sümüyün və ya ağacın birgə istifadəsi ilə düzəldilirdi. Çaxmaqdaşı və ya dəvəgözüdən bir tərəfi işlənmiş qəlpələr sümük əsasın içinə yapışdırılır, bir neçə dişdən ibarət, o dövr üçün mükəmməl oraq alınırdı. Bir tərəfi yapışdırıcıya bulaşıq, digər tərəfi isə kəsməni təmin etmək üçün işlənən oraq dişləri Qarğalartəpəsindən çoxlu sayda daxil olmuşdur (78 səhra qeydi sayı ilə). Digər abidələrdən daxil olmuş dəvəgözü və çaxmaqdaşı qəlpələrinin böyük əksəriyyəti haqqında da eyni məqsədlə istifadə edildikləri düşünülür (114, 96). Bütün bu deyilənlər Şomutəpə yaşayış yerindən daş dişli quraşdırma oraq tapıntısı ilə bir daha dəqiqləşmişdir (Af. № 628). Şomutəpə orağının sümük əsasına yapışdırıcı ilə daş qəlpələr yerləşdirilmişdir (Şək. 1.6). Bu nadir tapıntı olub, Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında nümayiş etdirilir.

Taxılı yığmış qədim insanlar onun üyüdülməsi – əzilməsi işini, emalını dən daşları vasitəsilə görürdülər. Öyrəndiyimiz tarixi mərhələnin - həm mis-daş, həm tunc, həm də ilk dəmir dövrünün dən daşları demək olar ki, bir-birinə oxşar olub, Azərbaycan Tarixi Muzeyində mühafizə edilənləri I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qarğalartəpəsi, Sarıtəpədən məlumdur.

Yığılmış məhsul dən daşları ilə əzilərək üyüdülürdü. Onlar qayıqvari və ya yastı altlıqdan, dənəzən sürtgəcdən ibarətdir (Şək. 1.12). Həm dən daşı altlıqları, həm də sürtgəclər əsasən boz rəngli çaydaşıdan hazırlanmışdır. Qarğalartəpəsi dən daşı altlıqlarından biri sürtgəci ilə birlikdə tapılmışdır

(s.q. № 672). Dən daşlarının yaşayış yerlərindən çoxlu sayda tapılması oturaq yaşayış tərzinin əsas göstəricilərindəndir.

Azərbaycanın qədim sakinləri əzmə işlərini ortası oyuq, qabformalı daş həvənglər vasitəsilə də aparırdılar. Onlar həvəngləri bir qayda olaraq çaydaşı, qumdaşı, bazaltdan hazırlayırdılar. Belə həvənglər çox zaman eyni növ daşdan olan dəstələrlə birlikdə əldə edilir. Qarğalartəpəsindən 3 ədəd belə həvəngdəstə tapılmışdır. Diametri 9x9 sm olan bir ədəd qabformalı dəstəsiz həvəng isə Qazax rayonu ərazisində təsadüfən tapılmışdır (30, inv. № 3143).

I Kültəpədən aşkar olunmuş həvəngdəstələrin böyük bir qrupu ilk illərdə yeni-daş dövrünün maddi-mədəniyyət nümunələri kimi 1956-cı il Azərbaycan Tarixi Muzeyi ekspozisiyasında nümayiş etdirilmişdir. Lakin sonralar həmin tapıntıların mis-daş dövrünə aid olduğu aydınlaşmış, bu dəqiqləşdirmələr Muzey ekspozisiyasında da aparılmışdır.

Naxçıvanın mis-daş dövrü abidələrindən daha çox balta, gürz və isgənələr tapıldığı halda Gəncə-Qazax bölgəsi mis-daş dövrü abidələrindən daha çox isgənələr əldə edilmişdir. Belə ki, Muzeydə Qarğalartəpəsindən 1972-ci ildə aşkar olunmuş dörd ədəd (s.q. № 73; 323; 344; 374), Şomutəpədən bir ədəd (s.q. № 11) və Töyrətəpədən bir ədəd (s.q. № 72) daş isgənə mühafizə edilir ki, həmin isgənələrin hamısı ekspozisiyada nümayiş etdirilir. Bundan başqa, Muzeydə I Kültəpədən aşkar edilmiş daş isgənələrlə yanaşı Isveçrədən əldə edilmiş daş isgənələr də mühafizə edilir. Qeyd edək ki, mis-daş dövrünün isgənələri əksərən yaşıl rəngli çaydaşıdan hazırlanmışdır.

Mis-daş dövrü yaşayış yerləri və qəbirlərindən əmək alətləri ilə yanaşı, silah kimi istifadə olunduğu düşünülən daş toppuz başlıqları da əldə edilmişdir. Mis-daş dövründən başlayaraq rast gəlinən daş toppuz başlıqları həm deşikli və yarımdeşikli olmasına, həm də materialının tərkibinə görə fərqlənir. Deşikli toppuz başlıqları hazır, yarımdeşikli toppuz başlıqları isə yarımfabrikatdır. Bu cür toppuz başlıqlarına mis-daş dövrü forması şəklində tunc və ilk dəmir dövründə də rast gəlinmişdir. Toppuz başlıqları şarşəkilli, armudvari və slindrik formalarda hazırlanmışdır. Muzeydə mühafizə edilən mis-daş dövrü toppuz başlıqları I Kültəpə və Töyrətəpədəndir. Töyrətəpə toppuz başlığı böz rəngli və qara məsaməli daşdan olub, bir tərəfində az, digər tərəfində isə nisbətən çox dərin çökək vardır (s.q. № 1). I Kültəpədə qəbirlərdən (71 saylı) də toppuz başlıqları aşkar olunmuşdur.

Toppuz başlıqları ilə yanaşı I Kültəpədə dəvəgözüdən ox ucuna oxşar

qırıqlar da aşkar olunmuşdur (30, inv. № 14872).

Mis-daş dövründə dəvəgözü və çaxmaqdaşıdan əmək alətləri düzəltmək üçün xüsusi nukleuslardan istifadə olunmuşdur (Şək. 1.1). Muzeydə I Kültəpədən aşkar olunmuş çoxlu sayda dəvəgözü nukleusları mühafizə edilir. Əsasən konusvari formada olan bu nukleusların ümumi sayı 23 ədəd olub, yeddi ədədi iri, beş ədədi orta, qalanları isə kiçik ölçülüdür (108, 52). Osman Həbibullayevin nukleuslar üçün müəyyən etdiyi ölçülər çərçivəsi belədir:

- iri nukleusların hündürlüyü 14,8-10,6 sm, zərbə sahəsinin diametri 11,7x9,3 sm, 9,3x8 sm, 6x5,5 sm (14143/15,05; 14144/15,8; 14113/17,8; 14046/18,2; 14057/18,2; 14061/18,2);
- orta həcmli nukleusların hündürlüyü 9,6-8,2 sm, zərbə sahəsinin diametri 4,8x4x3,4 sm (13838/15,05; 13871/17; 13940/17,6; 13941/17,6);
- kiçik nukleusların hündürlüyü 5,2-5,7 sm, zərbə sahəsinin diametri 6,2x3,6-5,2x4,7 sm (13869/16,8; 13870/17; 13959/18).

Muzeydə olan nukleusların müvafiq inventar sayları və dərinliklərini qeyd edərkən onların bəzən bu çərçivəyə uyğun gəlmədiyi hallar da müşahidə edilmişdir. Məsələn: hündürlüyü 12 sm, zərbə sahəsinin diametri 3 sm olan 13838/15,05 saylı nukleus kimi. I Kültəpə nukleuslarının oxşarlarına Azərbaycanın Töyrətəpə və Şomutəpə mis-daş dövrü abidələri ilə yanaşı, Qafqazın və Ön Asiyanın bəzi abidələrində də rast gəlinmişdir (108, 53).

Mis-daş dövrü qəbirlərindən də nukleuslar əldə edilmişdir. Onlar həm dəvəgözü, həm də çaxmaqdaşıdandır. Qara-qəhvəyi rəngli dəvəgözüdən konusşəkilli nukleus 40 saylı qəbirdən (17,2 m dərinlikdə) aşkar olunmuşdur (30, inv. № 13871). Onun uzunluğu 9,5 sm, zərbə sahəsinin diametri 4,6 sm-dir.

Çaxmaqdaşı nukleuslardan biri I Kültəpədə 68 saylı qəbirdən (20,4 m dərinlikdə) tapılmışdır (30, inv. № 14839). Onun rəngi boz-qəhvəyi rəngli olub, hər tərəfindən müxtəlif ölçüdə qəlpələr qopardılmışdır (108, 41).

Çaxmaqdaşı və dəvəgözü nukleuslarının daha çox daxil olduğu ikinci abidə Qarğalartəpəsidir. Buradan Muzeyə 12 ədəd nukleus daxil olmuşdur. Ümumiyyətlə, nukleuslar mis-daş dövrü sənətkarlarının, daş ustalarının əlindən yarımçıq qalmış iş prosesinin göstəricisidir.

Mis-daş dövrü Azərbaycan sakinlərinin istifadə etdikləri əmək alətləri içərisində dəvəgözü və çaxmaqdaşıdan hazırlanmış bıçaq-lövhələr üstünlük təşkil edir (Şək. 1.2-3). Muzeydə olan bu tip əmək alətlər çoxlu sayda olub,

I Kültəpə, Töyrətəpə, Şomutəpə, Qarğalartəpəsi və Babadərvişdən daxil olmuşdur.

Daşişləmə sənətkarlığı ilə məşğul olan ustalar hələ də əmək alətləri hazırlama prosesində daha çox dəvəgözü və çaxmaqdaşıdan istifadə etmişlər. I Kültəpədə təpənin cənub hissəsindən aşkar olunmuş çoxlu sayda dəvəgözü qəlpələri həmin əmək prosesinin bariz göstəricilərindən olub, onların daha çox burada hazırlandığını göstərir (108, 104). Bu təbəqədə 1 ədəd dəvəgözüdən nukleus (108, tabl. XIII, 12), bəlli sayda dəvəgözü və çaxmaqdaşıdan bıçaqvari, seqmentvari və trapesiyaşəkilli lövhələr, qaşovlar əldə edilmişdir.

Metal dövrünün başlanması ilə bütün dünyada baş verən dəyişikliklər tezliklə Azərbaycanda əks olunurdu. Artıq e.ə. IV minillikdə qədim azərbaycanlılar tuncun alınmasına yiyələndilər və tunc əşyaların istehsalına başladılar. Azərbaycanın tunc dövrü tarixi üç mərhələyə bölünür: ilk tunc dövrü, orta tunc dövrü, son tunc və ilk dəmir dövrü.

Qədim azərbaycanlıların həyat tərzində baş verən iqtisadi, ictimai və siyasi dəyişiklikləri, qonşu tayfa və dövlətlərlə əlaqələrini öyrənmək baxımından Kür-Araz mədəniyyəti abidələri, bu dövrün maddi-mədəniyyət nümunələri mühüm elmi əhəmiyyət kəsb edir. E.ə. III minillikdə bütün Cənubi Qafqaz üçün səciyyəvi olan Kür-Araz mədəniyyəti Şimali Qafqaz, Cənubi Azərbaycan, Anadolu, Suriya və Fələstində də yayılmışdır. Tədqiqatçılar Kür-Araz mədəniyyətinin yaranması və inkişafında qədim azərbaycanlıların əsas rol oynadığı qənaətinə gəlmişlər (59, 11).

Metallurgiya və metalişləmə sənətkarlığının inkişafına baxmayaraq ilk tunc dövründə hələ də daş alətlərə tələbat çox idi. Daşişləmə sənətkarlığı ilə məşğul olanlar müxtəlif texnoloji vasitələrdən istifadə edərək dövrünün mükəmməl daş alətlərini hazırlamışlar.

Azərbaycan Tarixi Muzeyində Kür-Araz mədəniyyəti maddi-mədəniyyət nümunələri əsasən I Kültəpənin 3,5-4,5 m-dən 12,4-13 m-ə qədər dərinliyi əhatə edən II təbəqəsindən aşkar olunmuş arxeoloji materialları ilə təmsil olunmuşdur. Bununla belə, II Kültəpə, Babadərviş, Mingəçevir, Xınıslı, Təpəyatağı, Şortəpə abidələrindən də ilk tunc dövrü arxeoloji materialları daxil olmuşdur.

I Kültəpənin II təbəqəsindən I təbəqəyə nisbətən az olmasına baxmayaraq, çoxlu sayda daş əmək alətləri aşkar olunmuşdur. Ilk tunc dövründə tədricən metaldan hazırlanmış əmək alətləri daş alətləri sıxışdırdığından təsərrüfatda

daha çox metal əşyalardan istifadə olunduğu təsəvvürü yaranır (108, 104).

Orta tunc dövrü e.ə. III minilliyin sonu - II minilliyin birinci yarısına aid edilir. Bu zaman təsərrüfat, sənətkarlıq daha çoxsahəli olmuş, mülki və ictimai təbəqələşmə dərinləşmişdir. Yaxın Şərq dövlətləri ilə iqtisadi əlaqələr artmışdır. Kür-Araz mədəniyyəti bütövlüyünün hələ e.ə. III minilliyin ikinci yarısında pozulması Cənubi Qafqazda böyük tayfa birlikləri yaşayan əraziyə uyğun gələn arxeoloji mədəniyyətlər, o cümlədən Şimali Azərbaycanda Üzərliktəpə və Qızılburun mədəniyyətlərinin yaranmasına gətirib çıxarmışdır (41, 26).

Son tunc və ilk dəmir dövründə istehsalda və Azərbaycan tayfalarının ictimai həyatında mühüm irəliləyişlər baş vermişdir. Tuncun emalı yüksək çiçəklənmə mərhələsinə çatmışdır. Dulus çarxından geniş istifadə edilmişdir. Xış əkinçiliyi inkişaf etmiş, vəldən geniş istifadə olunmuşdur. Dağlıq bölgələrin maldar tayfaları metal emalı sahəsində böyük ustalıq səviyyəsinə çatmışdır. Yaylaq maldarlığının təşəkkülü prosesi başa çatmış, düzənliklərdə əkinçilik təsərrüfatı intensiv surətdə yüksəlmiş, bağçılıq və üzümçülük inkişaf etmişdir. Dəmirin mənimsənilməsi bu dövrün mühüm hadisəsi idi. Bu dövrdə ayrı-ayrı tayfa qruplarının birləşməsi prosesi güclənmiş, tayfa ittifaqlarının yaranması davam etmişdir.

Muzeydə I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Mingəçevir, Xanlar, Xocalı, Çovdar, Ağdam, Dolanlar, Xaçbulaq, Uzuntəpə, Əliköməktəpəsi, Seyfəli, Qaracəmirli, Məşrif, Küdürlü, Lovain, Qusar və başqa tunc dövrü abidələrindən təsadüfi və arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri mühafizə və nümayiş edilir. Bu abidələrdə aparılan arxeoloji qazıntıların nəticələri Ivan Meşşaninov, Davud Şərifov, Ishaq Cəfərzadə, Ələsgər Ələkbərov, Yakob Hummel, Saleh Qazıyev, Osman Həbibullayev, Fərman Mahmudov, Vəli Əliyev, Hətəm Kəsəmənli, Solmaz Qaşqay, Qələndər Aslanov, Bəhlul Ibrahimov, Münəvvər Hüseynova, Viktor Kvaçidze, Gennadi Ağayev, Tufan Axundov və başqa arxeoloqların elmi əsərlərində öz əksini tapmışdır.

Ilk dəmir və ilk antik dövrlərində əsas əmək alətləri və silahların tunc ilə yanaşı dəmirdən hazırlanmasına xüsusi diqqət yetirilmişdir. Artıq dəmir alətlərin möhkəmliyinə və ucuz başa gəlməsinə artan inam bu sahədəki tələbatın dəmirlə ödənməsinə imkan verirdi. Tədricən tunc alətləri dəmir alətlər əvəz edir, tunc yalnız zərif işlərdə tətbiq edilirdi.

Əkinçiliyin getdikcə inkişaf etdiyi tunc dövründə metal oraqlarla yanaşı, daş qoymalı oraqlardan da geniş istifadə olunmuşdur. Bunu I və II Kültəpənin ilk tunc dövrü təbəqəsindən aşkar olunmuş çaxmaqdaşıdan hazırlanmış oraq dişlərindən də görmək mümkündür. Osman Həbibullayev bunların içərisindən orağın mərkəz və son hissəsinin dişlərini də müəyyən etmişdir (108, 106).

Tunc dövründə yığılmış taxıl məhsulları mis-daş dövründə olduğu kimi oxşar dən daşlarında əzilərək un halına salınmışdır. I Kültəpənin ilk tunc dövrü təbəqəsində aşkar olunmuş dən daşları qırmızı tuf, qranit-porfir, qranodiorit-porfir növlü daşlardan hazırlanmışdır. Orta tunc dövrünə aid edilən qayıqvari dən daşlarından biri Şahtaxtıdan tapılmışdır (30, inv. № 1590).

Sarıtəpədən aşkar olunmuş qayıqvari dən daşları isə son tunc və ilk dəmir dövrünə aid olub, onlardan beş ədədi Azərbaycan Tarixi Muzeyində mühafizə edilir (s.q. № 215; 223-224; 304-305). Sarıtəpə dən daşlarından birinin uzunluğu 23 sm, eni 10 sm, digərinin uzunluğu 37 sm, eni 13 sm-dir.

Ilk tunc dövründə baltacıqlardan istifadə geniş yayılmışdır. Azərbaycan Tarixi Muzeyində mühafizə edilən müxtəlif forma və işlənmə texnikasına məxsus daş baltacıqlar I Kültəpə, Astara və Qusardan məlumdur. I Kültəpənin II təbəqəsindən aşkar olunan baltacıq porfirit növlü daşdan hazırlanmışdır (108, tabl. XIV, 1). Onun üzəri işlənmiş və cilalanmışdır. Sap keçirmək üçün deşik açılmışdır. Ağzı təbərzin formalı cilalı qara daş baltacıq isə Astarada dənizə yaxın yerdən təsadüfən aşkar olunmuşdur (30, inv. № 1514). Onun sap taxmaq üçün baş hissəsi yumru olan küpü vardır. Professor V.V.Boqaçev daşın növünü bazalt kimi təyin etmişdir. Ishaq Cəfərzadə həmin baltacığı neolit dövrünə (148, 19), Osman Həbibullayev isə mis-daş dövründən sonraya, ilk tunc dövrünə aid etmişdir (108, 110). Qusarda təsadüfən aşkar olunan çaydaşıdan hazırlanmış baltacıq da ilk tunc dövrünə aid edilir (30, inv. № 21663). Həmin baltacığın bir tərəfində sap keçirmək üçün deşik açılmış, digər tərəfində isə açılmasına cəhd edilmişdir (Şək. 1.8). Ağız hissəsi kobuddur. Küp hissəsi isə bir qədər işlənmişdir. Hündürlüyü 10,5 sm-dir. Orta tunc dövrünə aid edilən siyenit daşından baltacıq Əliköməktəpəsindən aşkar olunmuşdur (30, inv. № 21553). Onun üzəri çox işlənərək asimmetrik formaya salınmışdır (Şək. 1.7). Kabarda-pyatiqorsk tipli baltalara aiddir. Küpü girdə olub, altında ucuna doğru şam ağacı təsvirli naxış verilmişdir. Hündürlüyü 11,7 sm-dir.

I Kültəpənin ilk tunc dövrü təbəqəsindən səkkiz ədəd daş gürz əldə edilmişdir. Şarformalı, konusvari və düzbucaqlı olan bu gürzlər müxtəlif növlü daşlardan hazırlanmış, üzəri texnikasından asılı olaraq müxtəlif cür işlənmişdir. Daş gürzlərin ya ortasında, ya da yuxarı hissəsində sap bərkitmək üçün boğmalar vardır (Şək. 1.5). Belə gürzlərin birində isə bu cür boğmaya iki yerdə təsadüf olunur.

Azərbaycan Tarixi Muzeyində I Kültəpədən başqa Naxçıvan daş duz mədənlərindən toplanmış səkkiz ədəd (30, inv. № 1470-1477), Ələsgər Ələkbərovun Şahtaxtıda ən aşağı təbəqədən aşkar etdiyi bir ədəd (30, inv. № 1589), Vəli Əliyevin II Kültəpədən əldə etdiyi iyirmi bir ədəd (Şək. 1.4), Yakob Hummelin Xanlarda 118 saylı binadan aşkar etdiyi iki ədəd daş gürz mühafizə edilir. Bütün daş gürzlər bir-birinə oxşar olub, müəyyən xırda fərqli əlamətləri və müxtəlif növ daşlardan hazırlanması ilə seçilir.

Naxçıvan daş gürzlərini təsnif edən Məmmədəli Hüseynov onları formalarına görə dörd tipə ayırmışdır: bir tərəfi iti uclu; iki tərəfi iti külüngvari; hər iki ucu yastı və hamar, ağır; dəstəsi özündə olan dəstəkli gürzlər. O, Naxçıvan daş gürzlərinin yalnız Naxçıvan duz mədənlərində işlədildiyi qənaətinə gəlmişdir (64, 142).

Osman Həbibullayev daş gürzləri dövrləşdirərkən ondan əvvəl müəyyən edilmiş dövrləşdirmələri təhlil edərək belə nəticəyə gəlmişdir ki, daş gürzlər mis-daş dövründə meydana çıxmış və ilk dəmir dövrünə qədər davam etmişdir (108, 112). Onun təsbitinə görə, Naxçıvanda daş gürzlərdən duz mədənlərinin, Xanlarda isə çaxmaqdaşı mədənlərinin işlənilməsində istifadə olunmuşdur (108, 113). Belə ki, duzun çıxarılması zamanı şiş uclu sümük, ağac və daş alətlərlə duz laylarının arası boşaldılır, gürz, balta və çəkiclərlə vurulub asanlıqla parçalanırdı (60, 85). Vəli Əliyev Naxçıvanın qədim duz mədənlərindən bəhs edən məqaləsində tunc dövründə Naxçıvan sakinlərinin təsərrüfat həyatında, onların qonşu Cənubi Qafqaz tayfaları və Yaxın Şərq ölkələri ilə ticarət əlaqələrində duz istehsalının mühüm rol oynadığını qeyd edərək, tədqiq olunan duz mədənindən həmin dövrdə təxminən 11500 ton duz çıxarıldığı qənaətinə gəlmişdir (60, 87).

Azərbaycan Tarixi Muzeyində I Kültəpənin ilk tunc dövrü təbəqəsindən aşkar olunmuş üç ədəd daş isgənə mühafizə edilir. Onlar yaşıl və boz rəngli çaydaşıdan hazırlanmış, üzəri yaxşı işlənmiş və cilalanmışdır (108, tabl. XIV, 2-3). Ölçüləri müxtəlif olan bu isgənələr mis-daş dövrü oxşarlarına nisbətən kiçikdir.

Mis-daş dövründə olduğu kimi, ilk tunc dövründə də Azərbaycan sakinləri silah kimi daş toppuzlardan istifadə etmişlər. Belə toppuzlardan beş ədədi Mingəçevirdə Kür-Araz mədəniyyətinə məxsus yaşayış yerindən aşkar olunmuşdur (117, 31). Demək olar ki, hamısı eyni ölçüdə olan bu toppuzlar armudvari və şarformalı olub, ortasında ip və ya kəndir keçirmək üçün uzununa deşik vardır (s.q. № 829/47; 835/47). Mingəçevirin daş toppuzları Muzeyin bütün ekspozisiyalarında nümayiş etdirilmişdir.

Hələ 1921-ci ildə Qazaxın şimal-qərb tərəfindən tunc bəzək nümunələri ilə yanaşı aşkar olunmuş daş toppuzun bir tərəfində yarıya qədər deşik açılmış, toppuzun hazırlanması başa çatdırılmamışdır (30, inv. № 54). Bu cür tam işlənilməmiş daş toppuzlar sonralar da Gəncə-Qazax bölgəsindən tapılmışdır.

Son tunc və ilk dəmir dövrü daş toppuzları Uzuntəpə və Mingəçevirdən əldə edilmişdir. Son tunc və ilk dəmir dövründə də müxtəlif tərkibli və formalı özündən əvvəlki dövrlərin toppuzlarını xatırladan daş toppuzlar əldə edilmişdir. Mərmər toppuzlardan biri isə Uzuntəpədən məlumdur (30, inv. № 3144).

Mis-daş dövründə olduğu kimi dəvəgözüdən bıçaqvari lövhələr ilk tunc dövrü məişətində də əhəmiyyətli yer tutmuşdur (108, 105). Qeyd edək ki, I Kültəpənin bu təbəqəsinin daş alətləri Muzey ekspozisiyalarında öz lazımi əksini tapmamışdır. Hətta bu təbəqənin eyni tip əmək alətləri mis-daş dövrü əmək alətlərinə qarışmış, ayırd edilməz hala gəlmişdir.

Şuşadan əldə edilmiş dəvəgözüdən sap yeri olan qaşov çox maraqlıdır (30, inv. № 1041). Onun ucu işlənmişdir. Yuxarısında sap keçirmək üçün deşik-küp açılmışdır. Küpün dairəsinin bir hissəsi sınmışdır. Uzunluğu 5,5 sm, küpün uzunluğu 3,3 sm-dir. Şuşanın digər dəvəgözüdən hazırlanmış qaşovu üçbucaqşəkilli olub, iki tərəfdən kənarları işlənmişdir (30, inv. № 1043). Uzunluğu 3,7 sm, ən enli yerdə eni 2,7 sm-dir.

Çaxmaqdaşıdan hazırlanmış, keçirmək üçün mili olan ox ucu I Kültəpənin ilk tunc dövrü təbəqəsindən aşkar olunmuş yeganə nümunədir. Osman Həbibullayev ucu azca qopmuş və üzəri işlənməmiş bu ox ucunun üzərində hələ işin başa çatmadığı və ya üzərinin yad təbəqə ilə örtüldüyü qərarına gəlmişdir (108, tabl. XIII, 29).

Dəvəgözü və çaxmaqdaşıdan hazırlanan ox ucları mis-daş dövründə olduğu kimi tunc və ilk dəmir dövründə də geniş yayılmışdır. Ox ucları

badamvari və yarpaqşəkilli formada, ucu şiş hazırlanır, arxasında sap keçirmək üçün içinə doğru dördbucaqlı çıxıntı qoyulurdu (Şək. 1.9-11). Bəzən isə əsas hissədən sapa keçməsi üçün mil çıxarılırdı. Üzəri usta tərəfindən yaxşı işlənir və dişəklənirdi.

Muzeydə Küdürlüdən orta tunc dövrünə aid, Çovdar, Redkin lager, Şuşa, Xarabagilan, Xaçbulaq, Mingəçevir, Qızılburun, Xanlardan isə son tunc və ilk dəmir dövrünə aid dəvəgözü və çaxmaqdaşıdan ox ucları mühafizə edilir.

Muzeydə beş ədəd metal alət tökmək üçün daş qəliblər mühafizə edilir:

1. Şəmkir təbərzin-balta tökmə qəlibi [(s.q. № 853) (Şək. 2.11)];
2. Mingəçevir kərkiformalı balta tökmə qəlibi (s.q. № 902);
3. Böyük Qaramurad qumdaşıdan təbərzin-balta tökmə qəlibi;
4. Mingəçevir qumdaşıdan maral fiquru tökmə qəlibi (s.q. № 1163);
5. Xarabagilan ox ucu tökmə qəlibi.

Bütün qəliblər son tunc və ilk dəmir dövrü ustaları tərəfindən istifadə olunmuşdur. Bu qəliblərlə yanaşı, Qazaxdan metal tökülməsində istifadə olunduğu güman edilən 1 ədəd dəstəli daş çömçə də tapılmışdır (inv. 3142). Çömçənin diametri 10x10,5 sm, dəstəyinin uzunluğu 9 sm-dir. Metalişləmə sənətinin inkişafının qabarıq göstərilməsi baxımından ekspozisiyanın tunc dövrünə aid bölməsində nümayiş etdirilir.

Son tunc və ilk dəmir dövründə daşişləmə sənətinin inkişafını göstərən əlamətlər daş qabların hazırlanmasında aydın görünür. Daş qablar tufdan və əhəngdaşıdan hazırlanmasına görə fərqlənir.

Tufdan hazırlanmış tünd-qəhvəyi rəngli daş qabların iki nümunəsi Qasım-Ismayılovdan məlumdur (179, 711). Onlardan biri vazformalı olub, uzunsov, konusvari altlığı vardır (Şək. 1.13). Usta qaba zəriflik və müqəddəslik verməsi məqsədilə vazın bir tərəfindən qoçbaşlı qulp əvəzedicisi olan çıxıntı çıxarmışdır. Vazın hündürlüyü 8,5 sm, ağzının diametri 18,5 sm-dir (s.q. № 7/1960). Qasım-Ismayılovdan tapılmış ikinci daş qab-xeyrə alçaq, lakin dabanlı oturacağa malikdir. Onun ağzının diametri 20x17 sm, oturacaq diametri 5 sm, hündürlüyü 3 sm-dir (s.q. № 6/1960).

Qasım-Ismayılov tuf qablarına oxşar nümunələr Mingəçevirin kurqan və torpaq qəbirlərindən də məlumdur (158, 20; 93, 105). Mingəçevirin zoomorf elementləri (iki ədəd qoç başı) olan tuf vaztipli qabının hündürlüyü 5 sm olub, oturacağı dabanlıdır (Af. № 298). Mingəçevir tuf qabları Qasım-Ismayılov tuf qablarından gümüşlə inkrustasiya olunmasına görə fərqlənir. Mingəçevirdən

tapılmış tuf parçın isə hündürlüyü 10 sm-dir (Af. № 299). Onun oturacağı dabanlı, ağzı geniş olub, gövdəsindən beş ədəd çıxıntı çıxarılmışdır. Bütöv qalmış bu tapıntılarla yanaşı Mingəçevirdən bir sıra tuf qab parçaları da məlumdur. Çox böyük sənətkarlıqla hazırlandığı diqqəti cəlb edən qırmızı rəngli belə tuf vaz oturacaqlarından biri II kurqanın mərkəzi kamerasından aşkar olunmuşdur (30, inv. № 11785).

Daşişləmə sənətinin inkişafında nəzərə çarpan bu cür irəliləyişlər təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş ayrı-ayrı nümunələrdə də aydın görünür. Bu cür daş qablar Ağdam şəhəri yaxınlığından da əldə edilmişdir. Ancaq onlar tufdan deyil, qara məsaməli və sarıya çalan əhəngdaşıdan hazırlanmışlar. Üçayaqlı daş vazın hündürlüyü 7 sm, ağzının diametri 28,5 sm-dir (30, inv. № 1227).

Qırmızı və boz rəngli daşlardan hazırlanmış asmalar dairəvi və ovar formadadır. Onların üzəri yaxşı cilalanmış, bir tərəfində isə sap keçirib asmaq üçün ikitərəfli deşik açılmışdır (73, 106). Muzeydə mühafizə edilən bu cür daş asmalar I Kültəpənin mis-daş və tunc dövrü təbəqələrindən (30, inv. № 13785; 13792), II Kültəpənin orta tunc dövrü təbəqəsindən (s.q. № 71) aşkar olunmuşdur.

Mingəçevirdə II kurqandan altı ədəd daş asma-halqa tapılmışdır (s.q. № 214). Onlar qırmızı rəngli tuf və boz rəngli mərmərləşmiş əhəng süxurundan hazırlanmışdır. Diametrləri 2-2,5 sm-dir.

Toxuculuq alətlərinin bizə gəlib çatmış ən yaxşı nümunələri daş, sümük, gil əyircəklərdir. Əyircəklərin funksiyası ip hazırlama işini həyata keçirməkdir. Bunun üçün əyircəklər iylərin bir tərəfinə keçirilir. Onlar ip yumağının üzərinə yığıldığı yastı oturacağa, iyin keçirildiyi dairəvi deşiyə və üzəri bəzi hallarda bəzədilmiş konusvari əks tərəfə malik olurlar.

Ilk tunc dövrü daş əyircəklərindən ikisi Babadərvişdən aşkar olunmuşdur. Onlardan biri boz, digəri qara rənglidir (s.q. № 544; 599). Qara rəngli əyircəyin konusvari hissəsi həndəsi naxışlarla bəzədilmişdir.

Azərbaycan Tarixi Muzeyində mühafizə edilən təsvirli daş parçalarının altı ədədi Abşeronda Bəndüstü abidəsindən aşkar olunmuşdur (116, 69). Tunc və ilk dəmir dövrünə aid edilən bu daş parçalarının üzərində heyvan, oxatan adam, marallar, uzunbuynuzlu maral, ovçu və şikarı təsvirləri həkk edilmişdir (Af. № 704-708; 722).

Sənətkar daş parçalarında dövrünün insanlarının təsərrüfat həyatını və dini

təsəvvürlərini əks etdirməyə çalışmışdır. Məlumdur ki, qaya və daş üzərində təsvirlər ovçu-yığıcı həyat tərzi ilə əlaqəli olub, şamanlığın göstəricisidir. Belə ki, oturaq əkinçi tayfaların meydana gəlməsi ilə birlikdə qayaüstü təsvirlər aradan çıxmış, məbədlər və ruhanilər daha önə keçmişlər (17, 5-6). Abşeronun tunc dövrü sakinləri maldarlıq və onunla yanaşı, ovçuluqla məşğul olmuş, yarımköçəri həyat tərzi keçirmişlər. Onlar ov zamanı müxtəlif silahlardan istifadə etmişlər.

Mingəçevirdə təsadüfən insan ayağını xatırladan bir ədəd çaydaşı da tapılmışdır (s.q. № 265).

Sarıtəpədə möhtəşəm saray tikintisinin olduğunu göstərən iki ədəd iri sütun əsasının əldə edilməsi Azərbaycan tarixinin öyrənilməsində nadir hadisələrdəndir (176, 162-164). Tədqiqatçılar bu tapıntıya əsaslanaraq Əhəməni tipli Suz və Persopol abidələrində rast gəlinən sütunlu saray binalarının Azərbaycanda da tikildiyini qəbul edirlər. Hətta bəzi tədqiqatçılar Sarıtəpədə Əhəməni satrapının iqamətgahlarından birinin yerləşməsi qərarına da gəlmişlər (122, 40). Daşdan hazırlanmış bu sütun əsaslarının hündürlüyü 48 sm, diametri 72 sm-dir (Şək. 1.14-15).

Beləliklə, Azərbaycan Tarixi Muzeyində Azıxın ən bəsit Quruçay çapacaqlarından Sarıtəpənin möhtəşəm sütun altlıqlarına qədər inkişaf yolu keçmiş Azərbaycan daşişləmə sənətkarlığı nümunələrinin mühafizə edildiyi məlum olur. Indiyə kimi Azərbaycan Tarixi Muzeyində saxlanılan daş məmulatı xüsusi tədqiqata cəlb edilməmiş və Azərbaycanda daşişləmə sənətkarlığının tarixi ardıcıllıqla, ayrıca öyrənilməmişdir. Burada daşişləmə sənətkarlığı nümunələri ayrı-ayrı maddi-mədəniyyət nümunələri halında tarixi ardıcıllığı gözləməklə təsnif və təhlil edilir, Azərbaycan tarixinin öyrənilməsində elmi əhəmiyyəti faktik materiallar əsasında dəlillərlə müəyyən olunur.

## Metal əşyalar

Mis-daş dövrünün əsas hadisəsi misin kəşfi olmuşdur. Metalla ilkin tanışlıq əmək alətləri hazırlanması üçün daha davamlı və sərfəli xammal axtarışı ilə əlaqələndirilir. Ilk vaxtlar mis külçələrindən soyuq döymə üsulu ilə müxtəlif əşyalar hazırlanmışdır.

Azərbaycan Tarixi Muzeyində mis-daş dövrünün metal məmulatı I

Kültəpədən tapılmış mis alət və bəzək vasitələri ilə təmsil olunmuşdur. Osman Həbibullayev əvvəlcə onların sayını yeddi, daha sonra altı ədəd göstərmişdir (108, 78). Misdən biz və ox ucunun tapılması onun müxtəlif fəaliyyət sahələrinə aid əmək alətləri hazırlanmasında geniş istifadə olunduğunu göstərir. 17,2 m dərinlikdən aşkar olunmuş rombşəkilli ox ucunun (30, inv. № 14120) ölçüsü 6x3sm-dir. Mis ox ucu I Kültəpənin mis-daş dövrü təbəqəsindən tapılmış tək metal silah olması xüsusiyyətinə malikdir. 17,6 m dərinlikdən aşkar edilmiş kiçik ölçülü mis muncuq və mis məftilin bir parçası isə bəzək vasitələri kimi istifadə edilmişdir (30, inv. № 13945). Mis əşyaların hamısının üstü cəng atmışdır.

Qeyd etmək lazımdır ki, mis muncuq məsələsində Osman Həbibullayevin məlumatlarında təzad var. Belə ki, o, 17,8 m dərinlikdə 56 saylı qəbirdən aşkar etdiyi 106 ədəd muncuqdan birini mis muncuq kimi qeyd etsə də (108, 44), mis-daş dövrünün mis məmulatından bəhs edərkən həmin mis muncuğu 17 m dərinlikdə üzə çıxmış 33 saylı qəbirdən tapdığını göstərmişdir. Buna baxmayaraq, 33 saylı qəbirin avadanlığını təsvir edərkən mis muncuğun adını çəkmir. Əksinə, 33 saylı qəbirin üzə çıxma dərinliyini 16 m əvəzinə 17 m yazır. Burada belə dəqiqləşdirmə aparmaq mümkündür ki, mis-daş dövrünə aid iki mis muncuqdan biri 17,8 m dərinlikdə 56 saylı qəbirdən, digəri isə 17 m dərinlikdən aşkar olunmuşdur.

Muzeydə mühafizə edilən tunc dövrünün yüksək istehsal səviyyəli metal məmulatı diqqəti xüsusilə cəlb edir. Bu dövrün elə bir abidəsi yoxdur ki, oradan metal əşyalar daxil olmasın. Metal əşyalar tunc, dəmir, qızıl, gümüş, sürmə və qurğuşundan hazırlanmasına görə fərqlənir.

Tunc dövrü insanlarının da məişətində ən işlək alətlərdən biri bu gün olduğu kimi bıçaqlar idi. Hələ daş dövründə artıq yuxarıda da qeyd olunduğu kimi, daş bıçaq-lövhələrdən istifadə edilirdi (Şək. 2.1-3). Tunc dövründə isə metaldan daha kəsərli və möhkəm bıçaqlar düzəldilməyə başlandı. Tunc bıçaqlar tiyəsi dəstəyə taxılan və bərkidilən sulğuncu ilə birlikdə hazırlanırdı. Əsasən bir tərəfi kəsərli olan tiyələr müxtəlif forma və ölçüdə düzəldilirdi. Əksər hallarda tiyənin ucu yaxşı kəsməni təmin etmək üçün yuxarı əyilirdi. Bıçağın dəstəyi kimi çox zaman üzərində deşik açılmış sulğunca ağac və sümük keçirilirdi. Bu materiallar torpaqda pis saxlandığından qazıntılarda yalnız tunc tiyələr əldə edilir. Lakin istisna kimi sümük dəstəli tiyələr və saplaqlar üzərində mıxlar da tapılır.

Muzeydə mühafizə edilən orta tunc dövrünə aid bıçaqlar Küdürlü, son tunc və ilk dəmir dövrü sakinlərinin istifadə etdiyi tunc bıçaqlar isə Uzuntəpə, Mingəçevir, Çovdar, Xanlar, Xaçbulaq, Nüzgər qəbirlərindən əldə edilmişdir (89, 86).

Dəmirin istifadəsinə e.ə. II minilliyin əvvəllərində Şərqdə başlanmış, burada istehsal prosesinə cəlb edilmişdir. Ondan ilk vaxtlarda xırda bəzəklər hazırlanmışdır. E.ə. XIV əsrdən etibarən dəmir Misir, Ikiçayarası, Egey dənizi ətrafında yayılmağa başlamışdır. Azərbaycanda isə dəmirdən istifadə e.ə. VIII-VI əsrlərdə tamamilə mənimsənilmişdir. Aşkar olunmuş maddi-mədəniyyət nümunələri içərisində bu dövrdən başlayaraq dəmir əmək alətləri xüsusi yer tutur.

Dəmir bıçaqların məişətə girməsi ilə tunc bıçaqlara tələbat getdikcə azalmağa başladı. Ilk dəmir dövründə tunc və dəmir bıçaqlar yanaşı işlədilsə də, ilk antik dövrdən başlayaraq, yalnız dəmir bıçaqlardan istifadənin üstünlük təşkil etdiyi arxeoloji qazıntılardakı tapıntılardan məlum olur. Dəmir bıçaqlar əyməli, oraqvari və düz düzəldilirdi. Mingəçevirdə müxtəlif dövrlərə aid dəmir bıçaqlar və onların hissələri çox tapılmışdır.

Oraqvari bıçaqlardan biri II kurqandan aşkar olunmuşdur (30, inv. № 11737). Bu bıçağın uzunluğu 8 sm, eni 3 sm-dir. Bıçağın üzərində ağac dəstəyinin izləri də qalmışdır. «Qədim Mingəçevir» əsərinin müəllifləri bu oraqvari dəmir bıçağın sonralar kurqanı qarət edən uzanmış qəbir sahiblərindən – skiflərdən qaldığını ehtimal etmişlər (117, 96).

Toxuculuqda tikmə işi üçün istifadə edilən əsas vasitələr kimi ta qədimdən biz və iynələr məlumdur. Ilk bizlər daş, ağac və sümükdən hazırlansa da, metal əldə edildikdən sonra tədricən dövrünə görə daha çox tunc və dəmirdən düzəldilmişdir. Bizlər iti uclu, uzunsov hazırlanır, müxtəlif ölçüdə olurdu. Onların bir tərəfi əsasən dördkünc hazırlanırdı. Eyni formada olan iynələr isə nisbətən kiçik ölçülü olması və ip keçirilən ilgəyə malik olması ilə fərqlənir.

Muzeyə son tunc və ilk dəmir dövrünə aid tunc biz və iynələr Qızılburun, Çovdar, Xaçbulaq, Qasım Ismayılov, Nüzgər və Mingəçevirdən daxil olmuşdur.

Mingəçevir tunc bizlərinin uzunluğu 5-15 sm, diametri isə 2-5 mm-dir. Bu bizlərin bir ucu, bəzən isə iki ucu da şiş hazırlanmışdır. Mingəçevir dairəvi kəsikli tunc iynələrinin isə uzunluğu 8-10 sm, diametri 1-2 mm-dir (117, 77). Qasım Ismayılovdan tapılmış iynənin uzunluğu isə 3,6 sm-dir (s.q. № 5/1960).

Maraqlı, nadir bizlərdən biri Nüzgərdən tapılmışdır (89, 86). Bizin silindrik sapı və döymə üsulu ilə dördkünc formaya salınmış tiyəsi vardır. Sapının baş tərəfində ip keçirmək üçün deşik açılmışdır. Tiyə hissəsinə yolkavari naxışlar vurulmuşdur. Ümumi uzunluğu 16 sm, tiyəsinin qalınlığı 0,5 sm, sapının diametri 0,8 sm-dir.

Muzeydə həm təsərrüfat, həm də silah məqsədi ilə istifadə olunan tunc yabaların Uzuntəpə, Xanlar, Mingəçevir, Əmirvar və Qasım Ismayılovda torpaq qəbir və kurqanlardan aşkar olunmuş beş nümunəsi mühafizə olunur. Tunc yabalar son tunc və ilk dəmir dövrünə aid edilir (47, 75). Onların hamısı iki dişlidir. Yabalarda ağac sap keçirdikdən sonra çıxmaması üçün mıx vurmaq məqsədilə sulğuncun kəsik hissəsinin hər iki ucuna yaxın deşik açılmışdır.

Uzuntəpə yabasının ümumi uzunluğu 54 sm, dişlərinin uzunluğu 38 sm, onların arasındakı məsafə 15 sm-dir. Bu yabanın dişlərinin uc tərəfi yumru, oturacaqda dördkünc düzəldilmişdir. Yabanın boruşəkilli saplağının ucu konusvaridir. Qasım-Ismayılov tunc yabasının hər iki dişinin ucundan bir qədər sınmışdır (s.q. № 8/1960). Əmirvar tunc yabasının dişləri döyülərək itilənmişdir. Yabanın dəstəyi bir qədər sınmış və azca içəriyə əyilmişdir. Onun ümumi uzunluğu 48 sm-dir. Mingəçevir yabasının uzunluğu 45 sm, dişinin uzunluğu 40 sm, dişinin qalınlığı 2 sm, dişləri arasındakı məsafə isə 15-20 sm-dir.

Xanlar tunc yabası adlandırdığım yaba bir qədər müəmmalıdır (Af. № 862). Belə ki, Muzeydə Dovşanlı yabasına oxşar bir yaba vardır (Şək. 3.1). Ancaq, Dovşanlıdan Muzeyə arxeoloji material daxil olması haqqında heç bir sənəd yoxdur. Əksinə, 1955-ci ildə Xanlar Diyarşünaslıq Muzeyindən Yakob Hummelin Xanlarda 1 saylı knyaz kurqanı adlandırdığı qəbirdən (əslində 1934-cü ildə 2 saylı kurqandan tapılmışdır) aşkar etdiyi tunc yaba daxil olmuşdur (134, 15). Həmin yaba isə fondda olmadığından Dovşanlı yabasına oxşar yabanın Xanlar yabası olduğu qənaətindəyəm. Bu yabanın təsvirini Qələndər Aslanov yabalara dair məqaləsində vermişdir (47, 69-70). Uzunluğu 95 sm, saplaq hissəsinin uzunluğu 35 sm, onun ucuna sağanaq kimi keçirilmiş hissəsinin uzunluğu 6 sm, diametri 5,5 sm, oyuq hissəsinin diametri 4,1 sm, dişlərinin uzunluğu 60 sm, onların arasındakı məsafə 16 sm, dişlərinin orta qalınlığı 1 sm, yabanın ağırlığı 2,7 kq-dır. Yakob Hummel həmin yabanı həcminə görə nə əmək aləti, nə də hərbi silah olduğunu qeyd etmişdir. O, «yabanı» «tanınmış şəxslərin embleması» (hakimiyyət rəmzi) adlandırmışdır.

Son tunc və ilk dəmir dövründə tunc baltalar məişətdə və hərb sənətində geniş işlədilmişdir. Muzeydə mühafizə edilən baltaların hamısı təsadüfi tapıntı nəticəsində aşkar olunmuşdur. Fərman Mahmudov və Qələndər Aslanovun təsnifatına əsaslansaq Muzeydə talış, e.ə. XII əsrin sonu-XI əsrin əvvəllərinə aid məşrif və e.ə. XII-IX əsrlərə aid cənubi qafqaz tipli baltaların mühafizə və nümayiş etdirildiyi müəyyən olur (168; 46).

Talış tipli tunc balta Lovaində tunc balta dəfinəsindən aşkar olunmuşdur. Talışın dağlıq və dağətəyi hissələrindən əldə edilən bu tip baltalar formaca eyni olub, ölçülərinə görə bir-birindən fərqlənir. Onların arxa hissəsi iti olub, böyük küpü vardır. Sap keçirmək üçün hazırlanmış ovalşəkilli deşiyi yuxarı tərəfdən bir qədər genişdir. Baltaların altıtilli düz gövdəsi və seqmentvari gödək ağızları vardır (168, 73). Muzeydəki talış tipli baltanın səthi məsaməlidir. Onun uzunluğu 15,8 sm, ağzının diametri 6 sm-dir. Talış tipli baltaları e.ə. XVI-XIV əsrlərə aid edən Şefferdən fərqli olaraq Fərman Mahmudov həmin dövrə bu tip baltaların qədim formalarını aid edir (168, 72).

Muzeydə məşrif tipli balta üç ədəddir. Qələndər Aslanov onları ayrıca, dördüncü tipə ayırmışdır. Məşrif tipli baltalar simmetriyalı olub, uzun tiyələrə malikdir. Cənubi Qafqaz tipli baltalardan öz forma və quruluşlarına görə fərqlənən məşrif tipli baltalar uzunsov formada bir növ paza oxşar şəkildə hazırlanmışdır. Onların tiyələrinin ucu bir qədər enli, küpə doğru və küpdə daxil olmaqla ensizləşən formadadır. Tökmə üsulla hazırlandıqdan sonra üzərində döymə işləri aparılmadığından kobud görünürlər (46, 29).

Məşrif tipli baltalar koban tipli baltalar və cənubi qafqaz təbəzin-baltaları arasında bir növ aralıq, keçid forması yaradır. Qələndər Aslanovun fikrincə, son tunc dövründə göstərilən ərazidə yaşamış tayfalarla Şimali Qafqaz və Qərbi Azərbaycan tayfaları arasında iqtisadi-mədəni əlaqələr mövcud olmuş, yerli usta koban mədəniyyətinin təsiri ilə yeni sənət əsəri yaratmışdır (46, 30).

Küpünün üzəri saya və naxışlı, baş tərəfi isə düyməvari çıxıntılı olan təbərzinlər cənubi qafqaz təbərzin-baltaları kimi məlumdur [(46, 25-26), (Şək. 2.12)]. Onlar Məşrif, Mingəçevir, Daşkəsən, Avaztəpə və Nüzgərdən aşkar olunmuşdur (89, 84). Azərbaycanda cənubi qafqaz təbərzin-baltalarının yayılma xəritəsinə diqqət yetirilsə, onların əsasən Xocalı-Gədəbəy mədəniyyətinə mənsub tayfaların yaşadığı ərazidə cəmləşdiyini görərik. Məlum olduğu kimi, bu ərazilər mis yataqları ilə çox zəngindir və qədimdən istismar olunmasını sübut edən izlərə rast gəlinmişdir. Xocalı-

gədəbəylilərin cənubi qafqaz təbərzin-baltalarının kütləvi istehsalı ilə məşğul olduğunu söyləməyə hər cür maddi sübut vardır. Belə ki, Şəmkir və Böyük Qaramuraddan metal tökmə qəlibləri tapılmışdır. Cənubi Qafqaz tipli təbərzin-baltaların əsasında xocalı-gədəbəylilər medalyon hissələri təbərzin formalı olan asmalar düzəltmiş və qüvvət, güc rəmzi kimi istifadə etmişlər (117, 76). Mingəçevir və Xaçbulaqdan tapılmış bu cür asmaların beş ədədi Muzeydə mühafizə edilir.

Xocalı-gədəbəylilər kimi Şəki bölgəsinin qədim sakinləri də təbərzin baltaların gücü, qüvvəti təcəssüm etdirdiyini düşünmüşlər. Belə ki, onların hakimiyyət rəmzi kimi istifadə etdikləri Küdürlü kurqanından tapılmış təbərzin-balta formalı tuğ-bayraq başlığı bunu deməyə əsas verir.

Muzeydə mühafizə edilən Cəlilabad rayonundan aşkar olunmuş miniatür həcmli tunc təbərzin asma çox maraqlıdır. Onun ölçüsü 4,5x2,8 sm olub, öz kiçikliyi ilə diqqəti cəlb edir. Təbərzin asma nümunəsinin Biləsuvar rayonu Bəydili kəndində Sasani sikkə dəfinəsini araşdırmağa gedən Muzeyin ekspedisiya rəhbəri Əli Rəcəbli tərəfindən müəyyən edilərək Arxeologiya fonduna verildiyi məlumdur. Əli Rəcəblinin həmin təbərzin asmanın ayrıca aşkar edildiyi haqqında şifahi qeydi onun son tunc və ilk dəmir dövrü maddi-mədəniyyət nümunəsi olmasına dair düşüncələrimizi artırır.

Pazformalı, yastı kərkiyəoxşar yuxarı hissəsində dörd çıxığı olan tunc «balta» Qazaxbəylidə dağılmış qəbirlərin birindən tapılmışdır (30, inv. № 4210). Onun ağırlığı 372 q, hündürlüyü 19 sm, tiyəsinin eni 8 sm, ən qalın yerdə qalınlığı 1 sm-dir. Saleh Qazıyev bu tip alətlər haqqında tədqiqatçıların mülahizələrini qeyd etdikdən sonra Qazaxbəyli tunc alətini toxa hesab etmiş, onun ancaq yer qazmaq üçün yaradığını göstərmişdir (86, 150).

Öz unikal formaları ilə diqqəti xüsusilə cəlb edən tuğ-bayraq başlıqlarının tunc dövründə dövlətçilik rəmzləri kimi istifadə olunduğu ehtimal edilir. Tarixdən məlumdur ki, tuğ-bayraqlar qədim xalqlarda xüsusilə, türklərdə geniş yayılmışdır. Tuğlar hökmdar tərəfindən əyanlara hakimiyyət rəmzi mənasında verilirdi. Tuğ-bayraqlar haqqında ümumi təsəvvür yaratmaq üçün əvvəlcə osmanlı tuğlarını nəzərdən keçirək. Osmanlılarda tuğ at quyruğu tüklərindən sənətkarlıqla hazırlanırdı. Çoxlu sayda tük qırmızı rəngə boyandıqdan sonra başına ağ və qara rəngdə zərif tüklərdən düzəldilən saçaqlı başlıq qoyulurdu. Bütün bunların üzərinə misdən qızıl işləməli böyük bir kürə, bəzən də onun üzərinə aypara yerləşdirilirdi. Kürə günəşi, aypara ayı, at tükləri də günəşin

şüalarını təmsil edirdi. Tuğ mizraq şəklində götürülürdü.

Tunc dövrünün tuğ-bayraq başlıqlarının ikisi Qaracəmirli kurqanlarından məlumdur (142, 57). Tökmə üsulla hazırlanan tuğ-bayraq başlığı iki hissədən ibarət olub, iri halqaya birləşdirilmiş maral bədənlidir. Onun döyüş arabasına bərkidildiyi, döyüşlər zamanı tuğ-bayraq rolunu oynadığı düşünülür.

Belşəkilli tuğ-bayraq başlığı lövhədən yarımdairəvi formada döyülərək hazırlanmışdır (Şək. 2.6). Onun hər iki üzündə günəş və həndəsi naxışlar cızılmışdır. Yuxarı hissəsində uzunsov deşik açılan dəstəsi ilə birlikdə uzunluğu 21 sm-dir. Yarımdairəvi digər tuğ başlığı Küdürlü kurqanından tapılmışdır. O, Qaracəmirli tuğ başlığı ilə tam oxşardır. Onun da uzunluğu 21 sm olub, tunc lövhədən döyülərək düzəldilmişdir. Belşəkilli bu tuğ başlığı yalnız saya olması ilə fərqlənir.

Müxtəlif dövrlərdə daş toppuz başlıqlarından istifadə olunduğu artıq qeyd olunmuşdur. Tunc və ilk dəmir dövründə daş toppuzlarla yanaşı, həm tunc, həm də dəmir toppuz geniş istifadə olunmuşdur. Toppuzlara ağac dəstə keçirmək üçün onların ortası bir və ya iki tərəfdən dairəvi, dördbucaqlı və s. formada deşikli hazırlanırdı. Muzeydə Qızılburun, Mingəçevirdən aşkar olunmuş tunc toppuzlar mühafizə edilir.

Dolanların tunc toppuzu əmud formasında olub, üzərində eninə 3 cərgə olmaqla 9 ədəd çıxıntı vardır (30, inv. № 1200). Ağac dəstək keçən sulğunca malikdir. Ağacı bərkitmək üçün mıx yeri də vardır. Ucu yumrudur. Uzunluğu 9 sm-dir.

Mingəçevirdə tunc toppuz, nizə və əsa başlıqları digər abidələrə nisbətdə çox əldə edilmişdir. Tunc əsa başlıqları toppuz başlıqlarına nisbətən iri və uzunsovdur. Onların baş hissəsi günbəzvari hazırlanmışdır. Əsa başlıqları həm toppuz, həm də nizə başlıqlarından üzərində müxtəlif bəzək və təsvirlərin olması ilə fərqlənir. Təsvirlərdə şir və başqa heyvanlar verilmişdir. Mingəçevirdə təkcə II kurqandan səkkizdən çox sulğuncu uzun əsa başlığı aşkar olunmuşdur (30, inv. № 11732; 11734-11736; 11741). Onların uzunluğu 12-13 sm, ən enli yerdə diametri 4-4,5 sm-dir. Əsa başlıqlarının ikisinin üzərində it və ya şir, ikisində çiçək çələngi və «həyat ağacı», birində svastika, digərlərində isə həndəsi naxışlar təsvir olunmuşdur (117, 96). Sulğuncu qısa, tacşəkilli əsa başlıqlarının üç ədədi Mingəçevirdə II kurqandan aşkar olunmuşdur (30, inv. № 11733). Bu əsa başlıqlarının uzunluğu 5,5 sm, diametri 4-5 sm-dir (117, 96).

Mingəçevirdə II kurqandan aşkar olunan əsa başlıqlarından biri balıq başı formasındadır (s.q. № 200). Balığın ağzının açıqlığına əsaslanan «Qədim Mingəçevir» əsərinin müəllifləri onun gil su qabının və ya dəri tuluğun ağız hissəsi ola biləcəyini ehtimal etmişlər (117, 97). Biz isə bu mülahizədən imtina etmədən balıq başlı borunun əsa başlığı ola biləcəyini güman edirik.

Tunc nizə başlıqları nizə ucluğunun əks istiqamətində, dəstənin arxasına keçirilirdi. Bu dəstənin möhkəmliyini artırır, nizədən istifadə edən döyüşçünün əlini yara olmaqdan qoruyurdu. Onların baş hissəsi əsa başlıqlarında olduğu kimi günbəzvari və ya yarımdairəvi hazırlanırdı. Bəzən hər iki tərəfdən birdən çox deşiklər açılırdı ki, başlığı dəstənin arxasına yaxşı bərkitmək olsun.

Azərbaycan Tarixi Muzeyində tədqiq etdiyimiz dövrün qalxanları mühafizə edilməsə də qalxanvari umbonları – ön çıxıntılar mühafizə edilir (Şək. 2.7). Qalxanvari umbonlar Mingəçevir, Xanlar və Xaçbulaqdan aşkar olunmuşdur. Mingəçevirdə II kurqandan aşkar olunmuş qalxanvari umbonların diametrləri 4,5-6 sm-dir (30, inv. № 11755). Onlar diskşəkilli, dairəvidir (117, 97).

Son tunc və ilk dəmir dövrü sakinləri döyüşlərdə müdafiə məqsədilə tunc kəmərlər geyinmişlər. Bu kəmərlər müxtəlif formada, enli və ensiz hazırlanır, bəzən kəməri geyənin qüvvəsini artıracağı düşüncəsi ilə naxışlanırdı. Bu məqsədlə kəmərlərin bəzilərində həm yuxarı, həm də aşağı hissədə 2 cərgə paralel qabartmalar vurulurdu. Kəmərin uclarını bərkitmək üçün hər iki tərəfdə deşik açılırdı.

Tədqiqatçılardan R.Virxov tunc kəmərləri üzərinin naxışlanmasına və məzmununa görə üç qrupa bölmüşdür. Cabbar Xəlilov isə tunc kəmərlər üçün bu üç qrupu qəbul etmiş və Mingəçevirdən tapılmış kəmərin üzərindəki nəbati təsvirinə görə fərqlənən kəməri isə ayrıca dördüncü qrupa aid etmişdir (69, 70). Muzeydə Çovdar, Qazax, Mingəçevirdən aşkar olunmuş tunc kəmərlər mühafizə edilir.

1963-cü ildə Qazaxda dəmir dövrünə aid torpaq qəbirdən aşkar olunmuş tunc kəmər Muzeydə mühafizə edilən kəmərlərin ən maraqlısıdır (30, inv. № 21735). Kəmər uzunluğu 86 sm, eni isə 16 sm olan tunc lövhədən ibarətdir (Şək. 5.2). Ucları yarımdairəvidir. Hər iki ucunda kəməri beldə iplə bağlamaq üçün deşik açılmışdır. Kəmərin üzəri iri dişli, ağzı geniş açılmış, qulaqları şəklənmiş, incə belli, iri caynaqlı və pəncəli canavar təsirləri, eyni formalı

balıq rəsmləri, yolkavari zolaqlardan ibarət həndəsi naxışlarla bəzədilmişdir. Yolkavari zolaqlar bir cərgədə baş-başa zərb edilmiş bucaq əmələ gətirən batıq çərtmələrdən ibarətdir. Kəmərin üzərindəki təsvirlər zərb və cızma üsulu ilə işlənmişdir (98, 27).

Kəmər və toqqalara keçirilən müxtəlif formalı metal başlıqlara tunc dövründən başlayaraq rast gəlinir (Şək. 2.8). Azərbaycan sakinləri antik dövrdə tunc toqqa başlıqları, ilk orta əsrlərdə isə tunc və dəmir toqqa başlıqları və dilləri istifadə etmişlər.

Nərgizavadan tapılmış tunc toqqa başlığı tökmə üsulla hazırlanmışdır (Şək. 5.1). Uzunluğu 12,5 sm-dir. Oval formalı yastı lentvari çərçivə içərisində yerləşən iri şaxəli buynuzlu maral fiquru qaçan vəziyyətində təsvir olunmuşdur. Onun buynuzları, gözü, ağzı, burunu, ayağı aydın verilmişdir. Maral boynunu geri çevirərək arxasındakı qartala baxır. Qartalın dimdiyi, gözü, uçuşa hazır qanadı, parçalamağa hazır caynağı ustalıqla təsvir edilmişdir. Lakin onlarda düşmən münasibət görünmür. Hətta simmetriyanı saxlayan birləşdirmələr adi birləşdirmə olmayıb, vəhdət anlayışını xarakterizə edir. Belə ki, gözəllik və xeyirxahlıq təcəssümü maralın – qadının güc və qüvvət təcəssümü qartal – kişi kimi hamisi vardır. Ağsu rayon tarix-diyarşünaslıq Muzeyində bu tip tunc toqqa başlığının daha iki nümunəsi mühafizə edilir.

Öz təsvir xüsusiyyətlərinə Nərgizava tapıntısı skif maddi-mədəniyyət nümunələrini xatırladır. Belə ki, skif «heyvani üslub»unda maral və qartalın özünəməxsus yeri var.

Əliköməktəpəsində aparılan arxeoloji qazıntılardan da məlum olduğu kimi, Azərbaycan, hələ e.ə. V minillikdə atın ilk əhliləşdirildiyi yerlərdəndir. Qədim insanlar ata sədaqət və axirət dünyasında atı ilə birlikdə olma rəmzi kimi öldükdən sonra atları ilə dəfn olunmuşlar. Daha çox skiflərə məxsus olan bu ənənəyə Azərbaycan ərazisindəki kurqanlarda hələ onlardan qabaq da rast gəlinmişdir. Qəbrə ya ələhəli və əsləhəsiz atlar, ya da yalnız at əsləhələri qoyulmuşdur. Belə qəbirlərin aşkar olunması ictimai təbəqələşməni, süvari qoşun növünün formalaşmasını göstərir. Belə qəbirlərin aşkar edildiyi Şahtaxtı, Mingəçevir, Xaçbulaq, Vardanlı abidələrindən daxil olmuş arxeoloji materiallar içərisində at əsləhəsi və bəzəkləri xüsusilə seçilir (30, inv. № 11763). Arxeoloji qazıntılarla yanaşı, Uzuntəpə və Dolanlardan təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş xüsusi zövq və ustalıqla hazırlanmış at əsləhəsi və bəzəklər də Azərbaycan Tarixi Muzeyində mühafizə edilir.

At əsləhəsi içərisində gəmlər öz forma və gözəlliklərinə görə daha çox fərqlənirlər. Atın ağzına salınaraq onun ram edilməsinə şərait yaradan metal gəmlər əsasən tuncdan və dəmirdən tökmə üsulla hazırlanmışdır. Tunc gəmlər yaxşı saxlandığı halda, dəmir gəmlərin çox vaxt hissələri tapılır. Onlar ortada bir-birinə keçən halqalara, uclarında isə cilovu bərkitmək üçün deşiklərə malik olurlar.

Muzeydə mühafizə edilən tunc gəmləri belə qruplaşdırmaq mümkündür:

1. Ön asiya tiplilərə təqlid yolu ilə oxşadılmışlar;
2. Dolanlar tipli (e.ə. VII-VI əsrlər);
3. Luristan tipli;
4. Eşmə gəmlər.

Azərbaycanda I qrupa məxsus tunc gəmlərin daha çox istifadə olunduğu onların demək olar ki, çox tapılmasına görə müəyyən edilir. Mingəçevirdə kurqanlardan belə gəmlər əldə edilmişdir. Bu tip gəmlərdən biri Şuşadan da tapılmışdır.

Mingəçevirdə II kurqandan nisbətən incə və zərif düzəldilən eşmə tunc gəmlər də aşkar olunmuşdur (30, inv. № 11763). Eşmə gəmlərin uzunluğu 20 sm-dir. Bu tip gəmlər çox sadə üsulla, iki hissənin birləşməsindən düzəldilmişdir. Onlar çox ağır olub, qayışın bağlanması üçün yanlarında iri həlqələri vardır. Uzuntəpə və Vardanlıdan tapılmış gəmlər də eşmə gəmlərdəndir (Şək. 3.6). Dəmir gəmlərdən biri Xaçbulaqda kurqandan aşkar olunmuşdur. Gəm iki halqalı olub, eşmə məftildən düzəldilmişdir.

Maraqlı tunc gəmlərdən biri isə Qaracəmirli kurqanından tapılmış Luristan tipli at gəmidir (30, inv. № 21746). Bu gəmin baş hissəsi begemot, arxa tərəfləri isə şir bədəni formasında düzəldilmişdir (Şək. 3.7). Gəmin uzunluğu 20 sm, əfsanəvi heyvanın uzunluğu 13 sm-dir. Bu tip gəmlərə Iranda çox rast gəlinir. Belə gəmlərdən biri at formasındadır (207, Luristan bronze horse bit - FZ.031). Həsənluda dörd atın da dəfn edildiyi qəbirdən isə at, qoyun, atlı formasında da Luristan tipli gəmlər tapılmışdır. Bu qəbirin avadanlığına əsaslanan tədqiqatçılar onları skiflərə və ya irandilli tayfalara aid ola biləcəyini qeyd etmişlər (164, 76). Maraqlıdır ki, Həsənluda daha bir qəbirdə dörd atın da dəfn edildiyi qəbirdən skif tipli ox ucları ilə birlikdə skif tipli sümük gəm də əldə edilmişdir (203). Bu, onu göstərir ki, tarixi hadisələrin də dəstəklədiyi kimi, Həsənlu at dəfnli qəbirləri heç də irandillilərin yox, skiflərindir.

E.ə. VII-IV əsrələrin metal məmulatı içərisində hələlik Azərbaycanda

yeganə tapıntı olan dolanlar tipli tunc gəm xüsusilə seçilir. Iki hissədən ibarət olan bu tunc gəm bir-birinə birləşdirilərək orta hissədə halqa forması yaradır. Onun qaytarğan keçən yan hissələri isə bütöv olub, bir qədər ətrafa əyilmiş və üzərində qayış keçirmək üçün dörd ədəd deşik açılmışdır. Bu gəmin üzəri tor şəkilli naxışlarla bəzədilmişdir. Oxşar gəmlərə Gürcüstan, Ermənistan və Ukrayna abidələrində də rast gəlinsə də onların dövrünü bu tip gəmlərin daha çox yayıldığı və yaxşı öyrənildiyi Ön Asiya abidələrinə əsasən vermək mümkün olmuşdur. Belə ki, ön asiya tipli tunc gəmləri bu tip gəmlərin əvəz etməsinin xronoloji ardıcıllığı bir çox Assuriya relyeflərindən də görünür.

Skiflərə aid edilən tuncdan hazırlanmış at əsləhələri içərisində quş dimdiyi formasında düzəldilənləri xüsusilə fərqlənir (Şək. 3.4-5). Muzeydə saxlanan iki ədəd quş dimdikli at bəzəyi Azərbaycanda yeganə nümunələr olub, Mingəçevirdən əldə edilmişdir (30, inv. № 21739). Bu tip at əsləhələri Türkiyədə Ərzincanın Üzümlü ilçəsi yaxınlığındakı məşhur Urartu mərkəzlərindən olan Altıntəpədən və Samsun ətrafından da aşkar olunmuşdur (204, şək. 6). Yırtıcı quş dimdiyini xatırlatmasına əsaslanaraq türk tədqiqatçıları bu tip əsləhələri skiflərə aid etmişlər (211).

Son tunc və ilk dəmir dövrünə aid edilən Mingəçevir kurqanlarının hamısından yəhərli və bəzəkli atların skeletləri də əldə edilmişdir (110, 19). Kurqanlardan tapılmış at bəzəkləri halqalar, düymələrdən ibarətdir (30, inv. № 11761).

At bəzəkləri içərisində Xanlarda Yakob Hummelin tədqiq etdiyi 1 saylı kurqandan tapılan tunc asmalar diqqəti xüsusilə cəlb edir. Onlardan biri daha yüksək ustalıqla hazırlanmış qaşıq formalı asmadır. Onun yuxarı hisəsində bir, aşağı hissəsində üç ədəd ilgəyi vardır. Aşağı ilgəklərdən öz növbəsində zəncir vasitəsilə quş fiquru formalı kiçik asmalar asılmışdır. Həmin kurqandan tapılan digər gözəl sənət nümunəsi zınqırovşəkilli tunc asma da maraqlıdır. Onun səthi üzərində şəbəkələrdən ibarət üçbucaqlar kəsilmişdir. Bunun aşağı hissəsində dörd dairəvi ilgək düzəldilmiş və həmin ilgəklərdən nazik zəncirlə altı ədəd xırda zınqırov asılmışdır. Xanların bu kurqanından tapılan üçüncü asmanın baş tərəfində bir, çiyin hissəsində iki, aşağı hissəsində isə dörd ədəd ilgək düzəldilmişdir. Üzəri yüksək sənətkarlıqla spiralvari naxışlarla bəzədilmiş bu asmanın çiyin hissəsindən iki piramidaformalı zınqırov, ayaq tərəfindən isə dörd ədəd quş fiquru formalı kiçik asmaların hamısı nazik zəncirlə asılmışdır.

Son tunc dövrünün yeni növ hücum silahlarından biri üzbəüz döyüş üçün əlverişli və etibarlı sayılan qılınclar olmuşdur. Azərbaycanda iri silah forması olan qılınclardan daha çox varlı döyüşçülər, sərkərdələr istifadə etmişdir.

Azərbaycan Tarixi Muzeyində Əmirvar, Uzuntəpə, Mingəçevir, Nüzgərdən aşkar olunmuş qılınclar mühafizə edilir.

Daşkəsən rayonu Əmirvar kəndində təsadüfi açılmış kurqandan tapılan qılınc ucu ovalvari qılınclara aiddir. Tökmə üsulu ilə hazırlanmış bu qılıncın dəstəyinin hər iki üzünə yastı ağac qoyulduqdan sonra dəstəyin nazik tunc təbəqədən olan hissəsi ağacın üstünü örtənədək ağız-ağıza əyilib bərkidilmişdir. Onun dəstəyinin uzunluğu 11,5 sm, tiyəsinin uzunluğu 56 sm, ümumi uzunluğu isə 67,5 sm-dir. Onun çiyin hissədə eni 6 sm, ucda isə 2 sm-dir. Dəstəyin başlıq hissəsi şəbəkəli naxışlarla bəzədilmişdir. Tiyənin isə hər iki üzü ortadan qabarıq olub, uzunluğu boyunca yuxarıdan birləşən 8 cərgəli novu vardır. Novlar tiyənin çiyin hissəsindən başlanıb, uca 17,5 sm qalanadək davam edir. Bu novların qılıncla çapma zamanı ona möhkəmlik vermək üçün düzəldilmişdir (48, 56). Bununla belə, eyni tip bəzək növləri Xocalı-Gədəbəy mədəniyyətinə məxsus gil qabların üzərində müşahidə edilir.

Uzuntəpənin döymə üsulla hazırlanmış tunc qılıncları xüsusilə fərqlənir. Onlardan 5 ədədinin iki tərəfi kəsərli olub, ensiz, uzundur. Tunc dəstəkləri isə yəhərvaridir. Maraqlıdır ki, Uzuntəpə qılınclarının əksəriyyəti əyilmiş, qırılmışdır. Bu əyilmələrin həmin zamanın döyüşlərindən yadigar qaldığı düşünülür.

Uzuntəpənin uzun tunc qılınclarından 15 ədədinin yalnız tiyəsi qalmışdır. Onlar eynitipli olub, uzunluqlarına görə fərqlənir (42 sm-dən 81,5 sm-ə qədər). Bütün tiyələr dəstəksiz olduğundan onların ağac və ya sümük sulğunca malik olduğu fərz edilir. Həmin sulğunclara isə tunc başlıqların geydirildiyi düşünülür (147, 26). Bu tiyələrdən bəziləri sınmış və tam hazırlanmamışdır.

Mingəçevirdə sağsahil qəbiristanlıq sahəsində təsadüfi tapıntı nəticəsində 3 ədəd tunc qılınc əldə edilmişdir (Şək. 4.2). Qılınclar cənubi qafqaz tipli olub, «Qədim Mingəçevir» əsərinin müəllifləri tərəfindən həmin tipin Xocalı-Gədəbəy məhəlli forması kimi qeyd olunmuşdur (117, 78). Tiyələri enlidir. Onların uzunluğu 69-70 sm, eni isə dəstəyə yaxın yerdə 8-10 sm-dir. Ucları yarımdairəvidir. Hər iki üzündə yuxarıdan başlayaraq aşağıda birləşən şaquli xətlər çəkilmişdir. Mingəçevir qılınclarına vurulmuş bəzəklər Xocalı-Gədəbəy mədəniyyətinə məxsus gil qablar üzərində tez-tez rast gəlinir. Belə

qablardan biri Daşsalahlıdan məlumdur.

Xocalı-Gədəbəy tipli qılınclardan biri Nüzgərdən təsadüfən aşkar olunmuşdur (Şək. 4.1). Nüzgər qılıncının hər iki üzü beş ədəd novşəkilli xətlə bəzədilmişdir. Dəstəklə tiyənin birləşdiyi hissədən iki ədəd batıq üfüqi xətt keçir. Bu xətlərin arasındakı sahə kiçik nöqtələrlə, ondan 0,5 sm aşağıda isə cızma üsulu ilə spiralvari xətlərlə naxışlanmışdır. Tiyənin dəstəyə yaxın yerində hər iki üzdə günəş, keçi və şir təsvirləri vardır. Günəş şüalarının onların üzərinə düşməsi nöqtələrlə göstərilmişdir. Qılıncın ümumi uzunluğu 72 sm, tiyəsinin dəstəyə yaxın hissədə eni 7,5 sm, ucunda eni 2 sm-dir (89, 86).

Son tunc dövründə tunc qılınclar geniş yayıldığı halda, ilk dəmir dövründə həm tunc, həm tunc dəstəli dəmir, həm də dəmir qılınclar daha çox istifadə olunmuşdur. Muzeydə mühafizə edilən tunc və dəmir qılıncların, ayrıca tiyələrin əksəriyyəti Uzuntəpə və Mingəçevirdəndir.

Ilk dəmir dövründə dəmir qılıncların tunc dəstəli hazırlanması ənənəsi geniş yayılmışdır. Dəmir qılıncların tunc dəstəsinin başlığı yəhərvari, ucu çıxıntılı girdə və s. formalarda hazırlanmışdır.

Muzeydə mühafizə edilən dəstəsinin başlığı yəhərvari olan qılıncların ilk və çox nümunəsi Uzuntəpədən məlumdur. Uzuntəpə qılıncları forma və hazırlanma xüsusiyyətinə görə Muğan mədəniyyəti üçün səciyyəvi olub, Ishaq Cəfərzadə tərəfindən iki qrupa ayrılmışdır. Birinci qrup qılıncların həm dəstəyi, həm də tiyəsi tuncdan hazırlandığı halda (Şək. 4.3), ikinci qrupu fərqləndirən əsas əlamət tiyənin dəmirdən, dəstənin tuncdan hazırlanmasıdır (Şək. 4.4). Onların Luristan tipli adlandırılmasına Fərman Mahmudov qarşı çıxmış, dəstəsi yəhərvari başlıqlı qılıncların ilk dəfə Muğanda formalaşdığını nəzərə alaraq Muğan tipli adlandırılmasını daha əsaslı hesab etmişdir.

Uzuntəpə materialları sayəsində onların özündən əvvəlki eyni tip tunc qılınclara bənzədildiyi anlayışı da ortaya çıxmışdır. Uzuntəpə-Muğan tipli tunc dəstəli dəmir qılıncların tipik xüsusiyyəti massiv tunc dəstənin ikidişli yaba formasında dəmir tiyəyə geydirilərək hazırlanmasıdır. Tiyənin ucu şiş, iki tərəfi də kəsərlidir. Dəstənin başlığı naxışlı və ya saya yəhərvari formadadır. Uzuntəpə-Muğan tipli tunc dəstəli dəmir qılınclar Çaylı və Dovşanqoludan da məlumdur (188, 228; inv. № 21738; Af. № 1509).

Məlumdur ki, Mingəçevir dəmir qılıncları ilk dəmir dövrü uzanmış və dizdən az bükülü skeleti olan qəbirlərə qoyulmuşdur. Ilk dəmir dövrü dəmir

qılıncları əsasən tunc dəstəli hazırlanırdı (Şək. 4.5). Onlar tunc, ağac qınlara qoyulurdu.

Qazaxbəylidə IV qəbirdən əldə edilmiş tunc dəstəli və dəmir tiyəli qılıncın uzunluğu 73 sm olub, aşağısı tunc, yuxarısı dəri və ya ağacdan olan qının içinə qoyulmuşdur (30, inv. № 4208). Bu tip qılıncları urartu mənşəli hesab edən tədqiqatçılardan fərqli olaraq Cabbar Xəlilov qədim azərbaycanlıların bu qılınclardan geniş istifadə etdiyini göstərmişdir (67, 34).

Ilk tunc dövründən işlədilən silah növlərindən olduğuna dair tapıntılara az rast gəlinsə də, xəncərlərin məişətdə istifadə olunan bıçaqlar əsasında formalaşdığı ehtimal edilir. Muzeydə ilk tunc dövrünün xəncərləri mühafizə edilmir. Belə ki, Azərbaycanda bu dövr xəncərlərinin tapıldığı abidələrdən Muzeyə material daxil olmamışdır.

Orta tunc dövrünün sonlarına (e.ə. XV-XIV əsrlər) aid bir xəncər nümunəsi Qaracəmirlidə 1 saylı kurqandan məlumdur (189, 235). Madrid Surxayevin ön asiya tipli xəncərlərin klassik variantına aid etdiyi bu xəncərin ümumi uzunluğu 45 sm, dəstəyinin uzunluğu 10 sm, tiyəsinin uzunluğu 33 sm, kəmərinin ölçüsü 3x2sm-dir. Onun uzunmüddətli istifadədə olduğu xəncərin həm dəstəyi, həm də tiyəsi üzərindəki zərbə izlərindən görünür.

Muzeydə mühafizə edilən xəncərlər son tunc və ilk dəmir dövrünün müxtəlif forma və ölçülü tunc və dəmir xəncərləridir (Şək. 4.6-9).

Son tunc və ilk dəmir dövrü tunc xəncərləri sulğunclu və sulğuncsuz olmasına görə fərqlənir. Saleh Qazıyev sulğunclu xəncərlərdə əsasən üç formanı ayırmışdır: sulğuncları deşiksiz, bir deşikli, iki və ya çox deşikli (84, 10). Sulğunclar ya ağac saplara keçirilmiş, ya da tiyə ilə birlikdə tökülən dəstəyə ağac təbəqələr bərkidilmişdir. Elə xəncərlər var ki, onlarda sulğunclar dəstələrə keçirilmir. Belə ki, onların ətrafı bir qədər qalxıq olduğu üçün dəstə bu sulğunclara qatlanma vasitəsilə rəbt edilir. Bu da dəstəyə salınmış ağac təbəqənin buradan çıxmaması üçündür. Bu tip xəncərlərin həm tiyəsi, həm də dəstəsi qəlibdə tökmə üsulu ilə hazırlanmışdır. Tökmə xəncərlər bəzi hallarda ön asiya tipli xəncərləri təqlid yolu ilə düzəldilmişdir (147, tablo V (2)).

Xəncərlərin əsasən hər iki tərəfi kəsərli olur. Onlar uclarının şiş və dairəvi olmasına görə də fərqlənir. Ucu şiş xəncərlər daha çox istifadə olunmuşdur. Ucu şiş olmayan xəncərlər də vardır (84, tablo I (17)). Tunc xəncərlərin çoxu ortadan qabarıq hazırlanır. Bəzi xəncərlərin üzərinə bu hissədə naxışlar da vurulur.

Xəncərlərin bəzilərində dəstə və tiyə arasında metaldan bəndlər vardır. Bu bəndlərin üzəri bir qayda olaraq, xüsusi zövqlə naxışlanır. Naxışlar oturacaqları bir-birinin əksinə düzülmüş üçbucaqlar (21, 38), bir və ya bir neçə deşik (84, 10) formasında olur.

Xəncərlərin başına keçirmək üçün xüsusi qübbələr olmuşdur. Bu qübbələr əsasən kəsik konusvari formada düzəldilmiş, üzəri üçbucaq, dördbucaq şəbəkələnmişdir. Bəzi hallarda qübbələrin şəbəkələri ağacla inkrustasiya olunmuşdur (21, 38).

Qübbəli və qübbəsiz sulğunclu tunc xəncərlər Xocalı-Gədəbəy mədəniyyətinin əsas əlamətlərindən hesab olunur. Cənubi Qafqazın mərkəz hissəsində yerləşən Azərbaycan abidələri - Şuşa, Çovdar, Ballıca, Xaçbulaq, Mingəçevir, Nüzgər ilə yanaşı, Qızılburun, Uzuntəpə, Vardanlı kimi bu bölgədən kənar ərazilərimizdə də aşkar olunmuşdur. Qübbələr xəncərlərlə bir yerdə tapıldığı kimi, ayrıca da əldə edilmişdir.

Saleh Qazıyevin nəzərdə tutduğu sulğuncsuz xəncərlər isə Mingəçevir və Şəmkirdən məlumdur (84, tablo I (16)). Mingəçevirdə II kurqanın I giriş kamerasından luristan (ön asiya) tipli tunc xəncər aşkar olunmuşdur (117, 100; inv. № 138).

Ümumiyyətlə, Mingəçevirdə əllidən çox tunc xəncər aşkar olunmuşdur. Onların müxtəlif formada hazırlanmasına əsaslanan «Qədim Mingəçevir» əsərinin müəllifləri həmin xəncərləri dörd qrupa ayırmışlar (117, 78).

Qədim Azərbaycan sakinləri ilk dəmir dövründən başlayaraq hərbi işdə keyfiyyəti və davamlılığı seçilən dəmir xəncərlərdən daha çox istifadə etmişlər. Mingəçevir dəmir xəncərləri ilk dəmir dövründən başlayaraq skeleti uzanmış və bundan sonrakı dizdən az bükülü olan, daha sonralar küp, taxta qutu, katakomba qəbirlərə qoyulmuşdur. Dəmir xəncərlər əsasən eyni formalı olub, bir növ özündən əvvəlki tunc xəncərləri xatırladır (110, 17). Dəstəsiz tapıldıqlarına görə, dəstəsinin ağacdan olduğu qənaətinə gəldiyimiz dəmir xəncərlərlə yanaşı, dəstəsi sümük (s.q. № 954/46; 1483/46) və tuncdan olanlara da rast gəlinir. Bəzən dəmir xəncərləri tunc qına qoyurdular (s.q. № 563/46; 2418/46; 2767/46).

Dəmir xəncərlərdən biri Mingəçevirdə II kurqandan tapılmışdır (30, inv. № 11737). Yarpaqşəkilli xəncərin uzunluğu 24 sm, eni 4 sm-dir. «Qədim Mingəçevir» əsərinin müəllifləri akinak tipli bu dəmir xəncərin də sonralar (e.ə. V-IV əsrlərdə) kurqanı qarət edən uzanmış qəbir sahiblərindən –

skiflərdən qaldığını ehtimal etmişlər (117, 96).

Uzuntəpənin dəmir xəncərləri iki ədəd olub, tunc dəstəklidir (30, inv. № 3082; 3090). Onların mühafizə edilən hissələrinin uzunluğu 19 sm və 24,5 sm-dir.

Tunc və ilk dəmir dövründə Azərbaycan sakinlərinin silahları içərisində nizə və cida ucları xüsusi yer tutmuşdur (Şək. 3.2-3). Nizə və cida ucları iki əsas hissədən ibarətdir: yarpaqşəkilli ucluq və sap keçirilən sulğunc. Nizələr və cidalar eyni formada hazırlansalar da, ölçülərinə görə fərqlənirlər. Belə ki, cidalar nisbətən kiçik ölçülü olur. Sulğunclarında bir qayda olaraq ağac dəstəni bərkitmək üçün mıx yeri kimi deşik və ya deşiklər vardır.

Azərbaycanda ilk nizə ucu I Kültəpədən məlumdur. Muzeydə son tunc və ilk dəmir dövründə Çovdar, Mingəçevir, Xaçbulaq, Uzuntəpə, Lovain sakinlərinin istifadə etdiyi tunc nizə və cida ucları mühafizə edilir.

Tunc dövründə Azərbaycan sakinləri cənubi qafqaz tipli tunc ox uclarından istifadə etmişlər. Cənubi qafqaz tipli ox ucları qanadlarına və sap keçirilən milinə görə fərqlənir (Şək. 4.10-16). Belə ki, ox uclarının qanadları açıq və qapalı, mili isə uzun və qısa olur. Ox ucları tökmə və ya tunc lövhədən döymə üsulu ilə hazırlanırdı. Bəzən ucluqdan milə simmetrik olaraq qabarıq xətt keçirdi.

Saleh Qazıyev Qədim Mingəçevir tunc ox uclarını təxmini olaraq beş qrupa bölmüşdür:

1. Mili qısa, qanadları qapalı;
2. Mili qısa, qanadları açıq;
3. Mili uzun, qanadları qapalı;
4. Mili uzun, qanadları açıq;
5. Mili uzun, qanadları açıq və enli.

Azərbaycanın cənubi qafqaz tipli tunc ox ucları üçün Qədim Mingəçevir tunc ox uclarına dair bu təsnifat daha mükəmməldir. Digər tədqiqatçılar bu təsnifatı bu və başqa dərəcədə təkrarlamışlar.

Muzeydə mühafizə edilən cənubi qafqaz tipli tunc ox ucları Qızılburun, Uzuntəpə, Mingəçevir, Xaçbulaq, Xarabagilandan əldə edilmişdir.

Mingəçevirdə II kurqanın mərkəzi kamerasından dörd ədəd (30, inv. № 11739), II kurqanın I giriş kamerasından iki ədəd (30, inv. № 11706) cənubi qafqaz tipli ox ucu aşkar olunmuşdur.

Qafqazda skiflərin yaşamasına və skif mədəniyyətinin təsirinə ən yaxşı

dəlil skif tipli ox uclarıdır (Şək. 4.17-20). Azərbaycan Tarixi Muzeyində yalnız Mingəçevirdən tapılmış skif tipli ox ucları mühafizə edilir. Saleh Qazıyev onları e.ə. VII-e.ə. IV əsrlərə aid etmiş və iki qrupa bölmüşdür:

1.Yastı və məhmizli;

2. Üçtilli və məhmizsiz.

Maraqlıdır ki, skif tipli ox ucları ilə birlikdə bəzən cənubi qafqaz tipli ox ucları da tapılmışdır. Cənubi Azərbaycan və Anadoluda da çoxlu sayda bu tip ox ucları əldə edilmişdir.

Mingəçevirin skif tipli ox ucları əsasən uzanmış skeleti olan qəbirlərdən tapılmışdır (30, inv. № 11680; s.q. № 1684/46; 491-493/50; 377/51).

Azərbaycan Tarixi Muzeyində mühafizə edilən tunc asmaların əksəriyyəti disk, aypara, zoomorf, zınqırov, təbərzin və eynək fiqurları formasındadır.

Son tunc və ilk dəmir dövrünün bəzək vasitələri içərisində diskşəkilli asmalar çoxluq təşkil edir (102, 80). Diskşəkilli asmalar medalyon formasında olub, sinədən asılırdı. Onlar dairəvi tunc təbəqədən və məftildən hazırlanmış, bəzilərinin üzəri şəbəkəşəkilli düzəldilmişdir. Yuxarı tərəfində asmaq üçün ilgək yeri qoyulmuşdur. Diametrləri 3-15 sm-dir. Diskşəkilli asmalar üzərindəki naxışlara və ölçülərinə görə fərqlənir. Azərbaycan Tarixi Muzeyində mühafizə edilən diskşəkilli asmalar Qızılburun, Mingəçevir, Çovdar və Dolanlarda kurqan, torpaq və daş qutu qəbirlərdən aşkar olunmuşdur (30, inv. № 1787).

Mingəçevirdə II kurqanın mərkəzi və III, X-XI giriş kameralarından (30, inv. № 11712; 11789; 11794), III kurqanın qadın qəbrindən (30, inv. № 11835) diskşəkilli asmalar əldə olunmuşdur. Bəzi diskşəkilli asmaların üzəri kəsmə naxışlarla bəzədilmişdir.

Tunc təbəqədən hazırlanmış rombşəkilli asmalar da son tunc və ilk dəmir dövründə geniş yayılmışdır. Mingəçevirdə II kurqanın III giriş kamerasından (30, inv. № 11714) tapılmışdır.

Son tunc və ilk dəmir dövrünə aid maraqlı tunc asma formalarından biri eynəklərdir. Eynəkşəkilli tunc asmalar sinə bəzəkləri olub, nazik tunc məftildən hazırlanmışdır. Məftil qoşa spiral şəklində sarınmış və ortadan qatlanmışdır (99, 7). Muzeydə mühafizə edilən eynəkşəkilli asmaların ikisi Naxçıvandan (biri Qızılburundan (30, inv. № 1798), digəri isə Danagirddən (30, inv. № 693) olmaqla), digər ikisi isə Mingəçevirdən aşkar olunmuşdur. Asmaların ikisində (Qızılburun və Mingəçevir) spiral içəriyə, digər ikisində

isə xaricə qatlanmışdır (Danagird və Mingəçevir). Hazırlanma texnikaları hamısında eyni olub, ölçüləri müxtəlifdir. Belə ki, Mingəçevir asmalarının hündürlükləri 5 və 10 sm, diametrləri isə 3-5 sm-dir.

Qeyd etmək lazımdır ki, inventar kitabındakı məlumatla «Qədim Mingəçevir» əsərinin müəlliflərinin qeydləri arasında ziddiyyət var. Belə ki, inventar kitabında həmin asmalardan birinin II kurqandan tapıldığı qeyd olunur (30, inv. № 11787/330). «Qədim Mingəçevir» əsərinin müəllifləri isə asmaların hər ikisinin 26 saylı torpaq qəbirdən tapıldığını qeyd edirlər (117, 49). Səhra qeydi göstəricisi ilə kurqan materiallarının səhra qeydi göstəriciləri ardıcıl olduğundan Mingəçevir eynəkşəkilli asmalarından birinin II kurqandan, digərinin isə 26 saylı torpaq qəbirdən tapıldığını qəbul etmək daha doğrudur. Bununla bir abidədən fərqli eynəkşəkilli asmaların tapılmasının səbəbi də müəyyənləşmiş olar.

Azərbaycan Tarixi Muzeyində dörd ədəd son tunc və ilk dəmir dövrünə aid tunc antropomorf fiqur mühafizə edilir. Onların üçü Ibrahimhacılıdan, biri isə Dananabdandır. Ibrahimhacılı tunc antropomorf fiqurları kişi cinsiyyət üzvü və bədəni ilə təsvir edilmişdir (Şək. 2.10). Cinsiyyət üzvü verilmiş fiqurlardan biri nisbətən böyükdür (30, inv. № 14959). Ayaqları kürsiyyə üzərindədir. Qucaqlama vəziyyətindədir. Gözləri və qulaqları deşik açılaraq, ağızı isə çərtilərək nəzərə çarpdırılmışdır. Boynu uzundur. Fiqurun uzunluğu 10,3 sm-dir.

Başında yeşik olan, cinsiyyəti üzvünün aydın verildiyi kişi fiqurlarından biri Metropoliten Muzeyində mühafizə edilir [Harris Brisbane Dick Fund, (55.142)]. Şumerlərin II Erkən Sülalə (e.ə. 2700-2600) dövrünə aid edilən həmin fiqur Ikiçayarasından aşkar olunmuşdur. Ibrahimhacılıdan tapılmış kişi fiqurunun baş və bədən hissəsi həmin fiqurla müqayisədə daha çox sxematik üslubda hazırlanmışdır. Ikiçayarası fiquru isə realistik üslubda olub, həm də xeyli böyükdür (37,8 sm). Şumer incəsənəti və ideoloiyasını özündə cəmləşdirən həmin fiqurun məbəddə vəzifəli hansısa müqəddəsin rəmzi olduğu hesab edilir (209). Təxminən 1500-1800 il sonra düzəldilmiş və istifadə olunmuş Ibrahimhacılı fiquru da dini mahiyyət daşımışdır. Görünür, daha seksual təsvir olunması onun övladı olmayan, sonsuz qadınlara yardım edən hansısa müqəddəsin rəmzi olduğunu göstərir.

Ibrahimhacılıdan tapılmış digər tunc fiqur ədəbiyyatda daha çox qadına bənzədilir (198, 95). Lakin diqqətlə nəzər yetirdikdən və duruşundan onun

da kişiyə aid olduğu məlum olur (30, inv. № 14949). Belə ki, bu fiqur daha çox pəhləvan təsvirini verir. Onun əllərinin vəziyyəti, əzələlərinin qabarıq, boynunun arxa hissəsinin kürəyi ilə bərabər verilməsi onun kişi olduğunun göstəricisidir. Qarın hissəsindəki deşik isə göbəyi ola bilər. Gözləri deşik açılaraq düzəldilmişdir. Uzunluğu 4 sm-dir.

Dananabdan tapılmış tunc fiqur pişik başlı insan formasındadır. Misirin Bast ilahəsini xatırladan bu tunc fiqur son tunc və ilk dəmir dövründə Azərbaycanın inkişaf etmiş Xocalı-Gədəbəy mədəniyyəti sakinlərinin xarici ölkələrlə əlaqələrinin ən yaxşı göstəricilərindəndir (121). Misirdə II sülalə dövründə meydana çıxan Ra allahının qızı və arvadı, Ptax allahının arvadı Bast məhsuldarlıq, gözəllik, nəzakət ilahəsi kimi tanınır. Onun heykəlcikləri evlərdə bəd ruhların qovulması məqsədi ilə saxlanılırdı. Qədim misirlilər e.ə. I əsrə qədər Bast ilahəsinə sitayiş etmişlər.

Dəmir dövrünün ilkin mərhələsinə aid zoomorf asmalardan ən maraqlısı Dolanlardan təsadüfən aşkar edilmişdir (30, inv. № 1480). Bu tunc asma əks istiqamətlərə yönəlmiş iki maral başının təsvir olunduğu əsasdan və asmaq üçün vasitə olan uclarına zınqırov keçirilmiş on bir zəncirdən ibarətdir. Ümumi uzunluğu 31,5 sm, maralın buynuzundan ayağının ucuna qədər 15 sm, çəkisi 648,96 q-dır. Bu nadir tapıntını Nina Minkeviç-Mustafayeva VII-VI əsrlərə aid edir. Şərqiyyə Sadıqzadə onu qədim Azərbaycan bəzəkləri kimi, Qələndər Aslanov isə at bəzəyi kimi təqdim edir.

Elə zoomorf asmalar da var ki, onlar ilgəkli, ayaqlı, üzəri şəbəkəli quşlardan ibarətdir (Şək. 2.9). Belə quşformalı asmalar çoxlu sayda Çovdar və Xaçbulaqdan məlumdur.

Son tunc və ilk dəmir dövründə boyuna keçirilən və sinəyə xüsusi gözəllik vermək məqsədilə ucuna medalyon taxılan tunc və dəmir boyunbağılardan istifadə edilməsi geniş yayılmışdır. Tunc boyunbağılar ortadan yoğun, uclara doğru nazikdir. Boyuna keçərkən ucları bayıra qatlanmış və asmaq üçün deşik əmələ gəlmişdir.

Muzeydə mühafizə edilən tunc boyunbağılar Dolanlar, Mingəçevirdən tapılmışdır. Dolanlar boyunbağıları Nina Minkeviç-Mustafayeva tərəfindən ucu birləşdirilməmiş massiv qolbaqlar kimi təsnif edilmişdir (30, inv. № 1489; 1165; 1158). Onların çox iri və ağır olmasına, qolda dayana biləcəyi yerin olmadığına əsaslanaraq, həmçinin Şərqiyyə Sadıqzadənin təsnifatını (99, VII tablo; 8, 85), yeni Mollaisaqlı tapıntılarını əsas götürərək həmin nümunələri

boyunbağı kimi qeyd edirik. Boyunbağılar saya və burmalı olmasına görə fərqlənir.

Burmalı boyunbağılar Dolanlar, Giləhli, Mollaisaqlı, Mingəçevir və Torpaqqaladan məlumdur (30, inv. № 1564). Bir-biri ilə yaxın oxşarlıq təşkil etdiyindən eyni metalişləmə emalatxanasında hazırlanması təsəvvürü yaradan burmalı boyunbağılar tədqiqatçılar tərəfindən daha çox ilk dəmir dövrünə aid edilir. Amma tapıldıqları abidələrə nəzər saldıqda onların ilk antik dövrə və ya ilk dəmir dövrünün sonuna məxsus olması haqqında düşüncələri artırır.

Dolanların tunc təbəqədən hazırlanmış lövhəcikləri paltarların üzərinə tikilir, həm bəzək, həm də zireh rolunu oynayırdı (30, inv. № 1168-1179). Həmin lövhəciklər dişli və saya olması ilə fərqlənir. Biri isə qarmaqlıdır (30, inv. № 1174).

Son tunc və ilk dəmir dövrü Azərbaycan sakinləri geyimdə bəzək və digər məqsədlərlə düymələrdən çox istifadə etmişlər. Düymələr öz müxtəliflikləri və zəriflikləri ilə fərqlənirlər. Onlar daha çox konusvari şəkildə düzəldilirdi. Bəzilərinin üzərində üfüqi xətlər qabardılır, ağzının kənarı isə kiçik nöqtələrlə əhatələnirdi. Içərisində ip keçirmək üçün yarımdairəvi ilgək olurdu. Bir çox hallarda düymələrin içərisi boz rəngli kütlə ilə doldurulurdu.

Azərbaycan Tarixi Muzeyində mühafizə edilən son tunc və ilk dəmir dövrü düymələri Mingəçevir, Nüzgər abidələrindən aşkar olunmuşdur (89, 88).

Dolanlardan 66 ədəd tunc piləkdən ibarət düzüm də əldə edilmişdir (30, inv. № 1191).

Qızıl, gümüş və tunc lövhədən döymə üsulu ilə hazırlanan dingə-tacların bəziləri ortadan enli, uclara doğru ensiz, bəziləri isə eyni ölçülüdür. Uclarında açılan dairəvi deşiyə ip keçirilərək birləşdirilənləri və istehsal prosesində bitişik hazırlananları da vardır. Bəzi dingə-tacların üzəri paralel xətlər və nöqtələrlə bəzədilmişdir. Dingə-taclar allahlar və insanlar üçün nəzir, təqdimat, şəxsiyyət göstəricisi, bəzək vasitəsi mənasında sevgini biruzə vermək üçün şəxsi həyatda, doğumda, mərasimlərdə, xəstəlikdə, ölümdə və dəfndə istifadə olunurdu. Pliniyə görə, dingə-taclar əvvəllər tanrı rəmzi olmuşdur. Belə ki, bütlər, müqəddəs sitayiş yerləri, qurbanlıq heyvanlar və evlər taclandırılırdı. Dingə-taclar rütbə və bəzək vasitəsi kimi sonralar istifadə olunmağa başlanmışdır. Azərbaycanda da dingə-taclar daha çox varlı şəxslər, əyan qəbirlərindən aşkar olunmuşdur (102, 75).

Azərbaycanda əsasən uclarında açılmış dairəvi deşiyə ip keçirilərək birləşdirilən dingə-taclar işlək olmuşdur (Şək. 2.5). Bu dingə-tacların bir çox nümunəsi Xocalı-Gədəbəy mədəniyyəti arealından - Çovdar, Xaçbulaq, Qızılburun, Redkin lager, Ballıca, Mingəçevir və Dolanlardan tapılmışdır. Şərqiyyə Sadıqzadə bu tip dingə-tacları dairəvi uclu və düz uclu olmasına görə fərqləndirmişdir (102, 74).

Son tunc və ilk dəmir dövründə saça xüsusi gözəllik vermək məqsədilə saç borularından istifadə olunmuşdur. Saç boruları çox da enli olmayan tunc təbəqədən uzunluğu boyunca üz-üzə qatlanaraq hazırlanmışdır. Muzeydə mühafizə edilən saç boruları Xocalı-Gədəbəy mədəniyyəti arealından - Nüzgər, Mingəçevir, Çovdardan aşkar olunmuşdur.

Metal iynə-sancaqlar mis-daş dövründən etibarən insanların bəzək vasitələri içərisində əhəmiyyətli yer tutmuşdur. Bu iynə-sancaqlar tökmə, döymə və məftildən qıvırma üsulu ilə hazırlanırdı. Troya qazıntılarında bu cür iynə-sancaq tökmə qəlibi də aşkar olunmuşdur. Tökmə üsulla hazırlanmış iynə-sancaqların başlığı əsasən piramida, qoşa spiral, çəngəl, halqa, toppuz, zoomorf, nəbati və s. formalı olurdu. Bəzən bura qiymətli daş və muncuqlar da keçirilirdi. Yaşayış yerlərindən tapılanları olsa da, iynə-sancaqların əksəri qəbirlərdən məlumdur. Onlar əsasən skeletin baş və döş hissəsindən tapıldığına görə saç və paltar iynə-sancaqları hesab edilirlər. Iri iynə-sancaqlar paltarlara, kiçiklər isə saça aid edilmişdir. Iynə-sancaqların paltara, saça vurulması və qəbrə bu cür qoyulması əsasən nəzərdən saxlamaq, haldan qorumaq və s. kimi dini təsəvvürlərlə bağlıdır.

Azərbaycanda ilk metal iynə-sancaqlar I Kültəpədə mis-daş və ilk tunc dövrü təbəqələrindən məlumdur. Onlar sayca az və qırıq tapılmalarına baxmayaraq ən qədim tapıntı olduqlarından mühüm elmi əhəmiyyət kəsb edirlər. Bu iynə-sancaqlar misdən hazırlanmış, başları spiral formasında burulmuşdur. Ucları sivridir.

Son tunc və ilk dəmir dövrünə aid edilən, başlığı qalxan, tək və qoşa spiral, bir neçə yerdə boğmalı, yastı və yuvarlaq, zoomorf formada xüsusi zövqlə hazırlanan, uzunluğu 10-17 sm olan iynə-sancaqlar Qızılburun, Çovdar, Mingəçevir, Xaçbulaq, Uzuntəpədən məlumdur. Bəzi istisnaları çıxmaqla, yuxarı hissəsində, başlıqların aşağısında sap keçirmək üçün deşiyi olan iynə-sancaqların ucu isə sivridir.

Son tunc və ilk dəmir dövründə iynə-sancaqların xüsusi başlıqları da

olmuşdur. Bu başlıqların ən çox yayılmış forması ayparaşəkillilərdir. Bu tip sancaq başlıqları tunc təbəqədən döyülərək ucları dəyirmi, ortasında asmaq, keçirmək üçün ilgəyi olan, nisbətən qalın formada hazırlanmışdır. Muzeydə Nüzgər, Çovdardan aşkar olunmuş ayparaşəkilli tunc sancaq başlıqları mühafizə edilir. Iynə-sancaqların yastı halqa kimi başlıqları da olmuşdur.

Halqaşəkilli tunc bəzəklərin elə formalıları vardır ki, onların ucu nazilərək halqanın içinə ilanyolu formasında uzanmışdır. Sırğa kimi istifadə edildiyi ehtimal olunan ilanyolu formalı bəzəklər son tunc və ilk dəmir dövrü abidələrindən çoxlu sayda əldə edilmişdir. Belə halqalardan biri Qotulda 1 saylı daş qutu qəbirdən tapılmışdır (30, inv. № 1651). Onun ağzı açıq saxlanmışdır. Diametri 7 sm-dir. Bu tip sırğaların çox iriləri də vardır. Onlardan biri Çovdarda daş qutu qəbirdən aşkar olunmuşdur (30, inv. № 544). Tunc məftildən deşikli uc hissəsi ilan başı formasında hazırlanmışdır. Getdikcə dairəvi şəkil alan sırğanın əsas hissəsindən ortada en kəsiyində dördkünc olan ilan yolu ayrılır. Qulaq asması kimi çox iri olub, diametri 12,8 sm-dir. Ilan yolu hissəsinin uzunluğu 10 sm-dir.

Əl, bəzən də ayaq barmaqlarına taxılan üzük halqaları en kəsiyinə görə dairə, yarımdairə, kvadrat, nazik lent formalarında olur. Üzüklər adi-halqaşəkilli, spiralşəkilli və qaşlı olmasına görə fərqlənir. Qaşlı üzüklərdə qabartma və oyma üsulla süjet və ya fiqurların yerləşdirilməsi üçün qaş yeri hazırlanır. Bu qaş yerinə müxtəlif minerallar qoyulur. Üzüklərin rəmzi məna daşıması onların sehirli hesab olunmalarından qaynaqlanmışdır. Bəzək vasitəsi kimi istifadə olunması ilə yanaşı, şəxsiyyət göstəricisi mənasında hökmdar və xalq, din xadimləri və allahlar arasındakı əlaqəni də rəmziləşdirmiş, evlilik birliyi və bağlılığını təmsil edən məna da qazanmışdır.

Qaşlı üzüklər Mingəçevirdə II kurqanın I giriş kamerasından bir ədəd (30, inv. № 11707) əldə edilmişdir.

Tunc üzük-halqalar Qotul (30, inv. № 1667), Vardanlı (30, inv. № 4900; 4911; 4926), Mingəçevir (30, inv. № 11707) abidələrindən aşkar olunmuşdur.

Spiralşəkilli üzüklər Mingəçevir (30, inv. № 11754; 11707) və Nüzgərdən əldə edilmişdir. Spiralşəkilli üzüklərin diametrləri 1,8-2,5 sm-dir.

Insanların bəzək vasitəsi kimi qollarına taxaraq istifadə etdikləri qolbaqlar tunc dövründən başlayaraq həmişə işlək olmuşdur. Urartu tunc lövhələri üzərində həm kişilərin, həm də qadınların bir və ya hər iki qoluna qolbaq taxdığı təsvir olunmuşdur. Kişilər əsasən bir, qadınlar isə iki, üç və daha çox

qolbaq taxmışlar. Hətta tanrı, ilahə və qanadlı cinlərin də qolbaq taxdıqları görünür.

Qolbaqlar əsasən tökmə və tunc məftildən döymə üsulu ilə düzəldilirdi. Onlar zərif hazırlanır, ucları birləşir, birləşmir və bir-birinin üstünə keçirdi. Qolbaqların üzəri bəzən naxışlanır, bəzi hallarda isə saya olurdu. Naxışlama məqsədilə qolbaqların üzərində cızma, deşmə və lehimləmə işləri aparılırdı. Qolbaqlar en kəsiyində dairəvi, yarımdairəvi və dördkünc olurdu.

Adi, en kəsiyi dairəvi və üzəri saya qolbaqlar qədimdə çox yayılmışdır. Həmin qolbaqlar Mingəçevirdə II kurqandan, həmin kurqanın I giriş kamerasından çoxlu sayda aşkar olunmuşdur (30, inv. № 11708).

Muzeydə orta hissəsi içəriyə əyməli, balıqbeli formasında hazırlanan son tunc və ilk dəmir dövrü tunc qolbaqları da mühafizə edilir. Bu tip qolbaqlar əsasən Qızılburun və Mingəçevirdən məlumdur.

Balıqbeli formalı qolbaqların ikisi Qotulda 1 saylı daş qutu qəbirdəndir (30, inv. № 1650). Qolbaqların ucları açıq, en kəsiyi dairəvidir. Diametrləri 6 sm-dir.

AzFAN-ın aşkar edərək Muzeyə verdiyi lakin, yeri məlum olmayan iri massiv qolbaq tipli qolbaqların hərbi məqsədlə istifadə olunduğu düşünülür. Dolanlar materialları haqqında xüsusi məqaləsində Nina Minkeviç-Mustafayeva həmin qolbağın ilk dəfə təsvirvə təhlilini vermişdir.

Çovdar və Redkin lagerin tunc qolbaqlarının xeyli hissəsi öz kəsmə naxışları ilə diqqəti cəlb etmişdir (Şək. 2.4). Odur ki, Ədəbiyyat və Şamaxı muzeylərinə bu qolbaqlardan verilmiş, Muzeyin bütün ekspozisiyalarında nümayiş etdirilmişdir. Ivan Meşşaninov Çovdar tapıntılarının «Resler tipi» ilə analogiya təşkil etdiyini və e.ə. I minilliyin əvvəllərinə aid olduğunu qeyd etmişdir (16, 5).

En kəsiyi yarımdairəvi qolbaqlardan biri Qasım Ismayılovdan məlumdur (30, inv. № 2/1960).

E.ə. VII-VI əsrlərin qolbaqları Vardanlıda torpaq qəbirlərdən məlumdur (30, inv. № 4901; 4907-4909; 4924-4925; 4928).

Azərbaycan Tarixi Muzeyində Sarıtəpədən tapılmış bir ədəd şirbaşlı tunc qolbaq mühafizə edilir. Bu qolbağın tunc və gümüşdən olan oxşarları Anadoluda və Qafqazda Urartu abidələrindən daha çox tapılmışdır (Van Muzeyi inv. № 5.1.75; 2.1.77; 9.4.77; 3.2.81). Şirbaşlı qolbaqların baş qismi gövdənin bir növ davamıdır. Qum qəliblərdə töküldükdən sonra incə uclu

əl alətləri ilə şirin baş hissəsinə məxsus detallar işlənmişdir. Şir başlarının tədricən formasını dəyişərək panter və ilan başlarına bənzədildiyi və bu tip qolbaqların hazırlanmasına daha çox üstünlük verildiyi görünür. Azərbaycan Tarixi Muzeyində mühafizə edilən ilanbaşlı gümüş və tunc qolbaqlar Mingəçevirdəndir. Itbaşlı qolbaq isə Mingəçevirdən tapılmışdır (s.q. № 1646/47).

Metal qabların sayı çox olmasa da, tunc dövründən başlayaraq məxsus olduqları dövrün metalişləmə sənətini və ev avadanlığı içərisində tutduğu yeri, oynadığı rolu xarakterizə etmək baxımından böyük elmi dəyəri vardır. Muzeydə tunc və ilk dəmir dövrünə aid 9 ədəd mis, tunc, gümüş qablar və hissələri mühafizə edilir.

Muzeydə ən qədim metal qab orta tunc dövrünə aid edələn bir ədəd böyük mis qazandır. Bu qazan Əliköməktəpəsində 8 saylı torpaq qəbirdən tapılmışdır. Qazan nisbətən hündür olub, uzunsovdur. Oturacağı enli və qabarıqdır (diametri 32,5 sm). Qazan oturacaqdan orta hissəyə doğru ensizləşir və yenidən ağzına doğru genəlir. Ağzı genişdir (diametri 29,3x27,3 sm). Ağzının kənarına rəbt edilmiş iki qulpu var. Bu qazan bir növ orta əsr sərinclərini də xatırladır. Qazanın saxlanma vəziyyəti pis olduğundan Moskvada bərpa edilmişdir.

Son tunc və ilk dəmir dövrünə aid iki ədəd iri tunc qazan Çovdarda daş qutu qəbirlərdən tapılmışdır (30, inv. № 529, 1702). Qazanlardan biri təsadüfi tapıntı, digəri isə Davud Şərifovun arxeoloji qazıntıları nəticəsində əldə edilmişdir. Qazanların hər ikisi eyni formada olub, bir növ tiyanı xatırladırlar. Oturacağından ağzına doğru ensizləşdiklərindən konusvari forma almışlar. Oturacaq və ağız diametrləri 40-50 sm arasında dəyişir. Ağızlarının kənarına iki qulp rəbt edilmişdir. Qulplar hərəkətlidir. Qazanın birinin üzəri son tunc və ilk dəmir dövründə geniş yayılmış təsvirlərdən olan spirallarla bəzədilmişdir.

Son tunc və ilk dəmir dövrünün iri həcmli mis qablarından biri Məşrifdə təsadüfi tapıntı nəticəsində aşkar olunmuşdur. Bu tunc qabın içərisinə 9 ədəd təbərzin balta qoyularaq basdırılmışdır. Qab, iki ayrı mis təbəqədən ibarət olub, ağız-ağıza qoyularaq bir-birinə qadaqlama üsulu ilə birləşdirilmişdir (46, 26). Usta qabın oturacağını da bu üsulla hazırlamış, ağzına doğru genişləndirərək konusvari formaya salmışdır. Qabın hündürlüyü 13 sm-dir.

Ilk dəmir dövrünə aid zoomorf qulplu mis qazan Çaylıda təsadüfi tapıntı nəticəsində əldə edilmişdir (86, 162). Ağzının diametri 15 sm, hündürlüyü

17 sm-dir (Şək. 7.4). Qabın bəzi hissələri töküldüyündən yüngül bərpa edilmişdir. Bu qabın mis külçəsi ilə birlikdə tapılması isə həmin yerdə misgərxananın olmasını göstərir. Çaylı tipli mis qabların ümumilikdə 67 ədədi Kiyevdən, Şimali və Cənubi Qafqaz abidələrindən, Azərbaycanda isə hələ ki, yalnız Çaylıdan əldə edilmişdir.

Ilk dəmir dövrünə aid tunc cam Dolanlarda təsadüfi tapıntı nəticəsində aşkar edilmişdir. Camın hündürlüyü 4,3 sm, ağzının diametri 17,5 sm, oturacaq diametri 12 sm-dir. Içərisi naxışlı olub, on dörd şüalı günəş təsvir edilmişdir. Həmin camın gil oxşarı Qaratəpədən məlumdur (Şək. 7.5).

Ilk dəmir dövrünə aid üç ədəd gümüş cam Mingəçevirdə uzanmış skeleti olan qəbirlərdən əldə edilmişdir. Bu camlardan biri çoxlu sayda «skif» tipli tunc ox ucları, sümük ox ucları və bəzək şeyləri, dəmir at gəmi, ucları it başlı tunc qolbaqla birlikdə tapılmışdır (s.q. № 47/1638 – 76/100). Camlar ortadan boğmalıdır. Onların oturacağı girdə, geniş ağzı kənara açıq və mailidir. Bu camların əhəməni metalişləmə sənətkarlığının nümunəsi olması haqqındakı düşüncələrə əgər camların hazırlanma texnikası haqq qazandırırsa da, tapıldıqları qəbirlərin tipi və dövrü heç də imkan vermir. Belə ki, bu camların əhəmənilərdən əvvəlki dövrlərə aid olduğunu, bilavasitə və ya dolayısı ilə skif mədəniyyətindən qaynaqlandığını qəbul etmək daha doğru olardı. Bu fikri, gümüş camlardan birinin «skif» tipli ox ucları, it başlı tunc qolbaq və dəmir at gəmi ilə birlikdə tapılması da dəstəkləyir. Bu tip camların Cənubi Qafqazın digər bölgələrində, Cənubi Rusiyada, Iranda, Türkiyədə, Balkanlarda, xüsusilə Əhəməni imperiyası hüdudlarında yayılması bu bölgələrdə skif mədəniyyəti təsirinin göstəricisi də ola bilər. Bu tip gümüş camların gil oxşarları (mingəçevir tipli gil camlar) sonralar küp qəbirləri dövründə düzəldilmişdir (118, 39).

Azərbaycan Tarixi Muzeyində I Kültəpə, Mingəçevir, Uzuntəpə, Çovdar, Qızılburun, Dolanlar, Qaracəmirli, Xanlar, Vardanlı, Redkin lager, Şuşa, Xaçbulaq və digər tunc və dəmir dövrü abidələrindən aşkar olunmuş möhtəşəm və nadir metal əşyalar mühafizə edilir. Həmin maddi-mədəniyyət nümunələrinin Muzey materialları kimi təsnifatı, onların tədqiqata və təbliğata qazandırılması aktual məsələ olub, burada bu problemin qismən həllinə çalışılmışdır.

## Saxsı məmulatı

Dünyada hələ üst paleolit dövründə, təxminən 22 min əvvəl gildən bir sıra heykəlciklərin hazırlanmasında istifadə olunmuşdur. Bu əhəmiyyətli materialdan qab-qacağın hazırlanması isə təxminən 8200 il əvvəl Anadolu, Şimali Suriya və Ikiçayarasında meydana çıxmışdır. Neolit dövründə gildən həm qab-qacaq hazırlanmış, həm də evlərin suvanması, ocaq, səki və kərpic divarların düzəldilməsində istifadə edilmişdir.

Gil qabların istehsalına başlanması tarixdə neolit inqilabı ilə əlaqələndirilir. Azərbaycanda neolit dövrünə aid gil qablara və ya hissələrinə rast gəlinməsə də, bu, burada dulusçuluğun daha sonralar yaranması ehtimalını nə yaratmır, nə də qüvvətləndirmir.

Mis-daş dövrünün saxsı məmulatı içərisində qazan və ya qazanaoxşar gil qablar üstünlük təşkil edir. Qazanlar I Kültəpə və Babadərviş abidələrindən aşkar olunmuş, Muzeyə təhvil verilmişdir. Onların bütöv formada tapılanları və ya bərpa edilənləri ilə yanaşı çoxlu sayda hissələri-sınıqları da Arxeologiya fondunda mühafizə edilir.

Tədqiq olunan dövrdə ən çox istifadə olunan gil qablardan biri kasalardır. Kasaların hələ mis-daş və tunc dövründən Azərbaycanda geniş yayıldığı məlumdur. Kasalar dabanlı və dabansız-yastı oturacaqlı olması ilə fərqlənir. Mis-daş dövrü kasalarından üç ədədi I Kültəpədə 69 saylı qəbirdən aşkar olunmuşdur (30, inv. № 14848; 14850). Qırmızı rəngli bu kasalar saman qatışıqlı gildən kobud hazırlanmış, yaxşı bişirilmişdir. Oturacağı yastı, ağzı düzdür. Müxtəlif ölçüdədirlər (108, 41). Qırmızı rəngli saman qatışıqlı gildən kobud hazırlanmış kasalardan biri 66 saylı qəbirdən tək halda, 65 saylı qəbirdən isə çəlləkvari gil qabla birlikdə əldə edilmişdir (108, 42).

Mis-daş dövründən başlayaraq dulusçuların daha çox hazırladıqları qab formalarından biri çəlləkvari qablardır. Belə qablardan biri bütöv halda I Kültəpədə 65 saylı qəbirdən tapılmışdır. Bu çəlləkvari qabın gilinə saman qatılmış, kobud və asimmetrik hazırlanmışdır. Oturacağı yastı və geniş olub, yaxşı bişirilməmişdir (108, 42).

Boz rəngli çəlləkvari gil qabların hündürlüyü əsasən 24 sm-dir (Af. № 286). Bəzilərinin üzərində müxtəlif bəzəklər cızılmış və barmaqla dairələr basılmışdır. Çəlləkvari gil qabların ağzı kənara qatlanmış vəziyyətdədir. Bu tip

qablar Mingəçevirin ilk dəmir dövrü məişət qablarından olub, ekspozisiyanın e.ə. VIII-IV əsrlərə aid bölməsində nümayiş etdirilir.

Iri təsərrüfat küpləri və onların parçaları ilk tunc dövrü abidələrinin hamısından, salamat qalmışları isə Təpəyatağı və Babadərvişdən məlumdur. Təpəyatağından tapılmış təsərrüfat küpü boz rənglidir. Onun yarımşar formalı üç qulpu, uzunsov və geniş boğazı vardır (s.q. № 198). Digər ilk tunc dövrü təsərrüfat küplərində olduğu kimi bu küpün də ağzı kənara qatlanmışdır. Hündürlüyü 70 sm-dir.

Babadərvişdən aşkar olunmuş təsərrüfat küpü isə orta həcmli olub, qırmızı rənglidir. Onun çiynində yarımşar formalı iki qulpu vardır. Oturacağı yastı, gövdəsi qabarıqdır. Küpün boğazı dar və kənara qatlanmış vəziyyətdədir. Hündürlüyü 48 sm-dir (s.q. № 502).

Ilk tunc dövrü saxsı məmulatını səciyyələndirən əsas əlamətlərdən biri yarımşar formalı qulplardır (Şək. 6.1). Bu cür qulplara təsərrüfat küpləri, məişət qabları, nehrələr, ocaq qurğularında rast gəlinir.

Ilk tunc dövrünün aşkar olunmuş maddi-mədəniyyət nümunələri içərisində əsas yeri saxsı məmulatı tutur. Ilk tunc dövrünün saxsı məmulatının tədqiqinə müxtəlif monoqrafiyalarda yer ayrılsa da, sistemli olaraq Səfər Aşurov tərəfindən öyrənilmişdir (49). Odur ki, gil qablar, fiqurlar və ocaq qurğularından ibarət saxsı məmulatını təsnif edərkən onun bölgüləri əsas götürülmüşdür.

Kür-Araz mədəniyyəti daşıyıcıları məişətdə əsasən küpə, çölmək, nehrə, slindrikformalı, qazan, kasa tipli qablardan istifadə etmiş, qabların ağzını çox zaman diskşəkilli qapaqlarla örtmüşlər. Ilk tunc dövrü qabları və onların qırıqları I Kültəpə, Babadərviş, Mingəçevir, Vardanlı və Xınıslıdan daxil olmuşdur. Babadərviş qabları qırmızı, boz və qara rəngli olub, bir, iki və üç qulplu hazırlanmışdır.

Mis-daş dövründə qablarda qabarıq şəkildə olan qəribə naxışlar diqqəti daha çox cəlb etmişdir. Belə naxışlı qablar Babadərvişdən məlumdur. Qüdrət Ismayılov e. ə. IV minilliyin qabları üzərindəki qabarıq işarələrin bəzək məqsədi ilə vurulan naxış deyil, təsvirli yazılar – piktoqramlar olduğu fikrini irəli sürmüşdür. Piktoqrafiya Kür-Araz mədəniyyətinin mühüm əlamətlərindən olub, Azərbaycanda da digər xalqlarda olduğu kimi, yazı mədəniyyətinin ilk mərhələsini təşkil edir (79, 25).

Babadərviş qara rəngli cilalı qablarının birinin üzərindəki piktoqram

xüsusiyyətli rəsmin sənətşünaslar tərəfindən açılışı verilməyə çalışılmışdır (Şək. 6.4). Təsvirdə iki buynuzlu keçi görünür. Lakin həmin buynuzun sağ tərəfindəki ox və kamana bənzər sxematik təsvir onları «bir ovçu iki keçi öldürmüşdür» mənasını çıxarmağa sövq etmişdir. Görünür qab üzərində piktoqramın yazılmasından məqsəd ovçunun igidliyini qəbilə üzvlərinə bildirmək idi (79, 25).

Mingəçevirdə ilk tunc dövrü qəbirlərindən 4 ədəd gil qabın əldə edildiyi məlumdur. Qabların hamısı iki qulpludur. Həmin qablardan ikisi (30, inv. № 29/1108; 899) hələ 1956-cı il ekspozisiyasında eneolit qabları kimi nümayiş etdirilsə də, indi onların mühafizə vəziyyəti sual altındadır. Belə ki, zamanında üzərində heç bir qeydiyyatın aparılmamasından bu qabların I Kültəpə qablarına qarışdığı görünür.

Vardanlıda Balaşor ərazisində açılmış 1 saylı qəbirin avadanlığı və yerüstü axtarışların nəticələri yarımşar qulplu gil qab və qab sınıqlarının aşkar olunması ilə diqqəti cəlb etmişdir. Saleh Qazıyev Balaşor tədqiqat sahəsini və həmin gil qabları ilk tunc dövrünə aid etmişdir (88, 149). Yarımşar qulplu qablardan biri daha yaxşı saxlanmışdır. Onun gili sarımtıl rəngli, üzəri cilalı, səthinin bişmə dərəcəsi müxtəlif olub, iki yarımşar qulpa malikdir. Vardanlının digər ilk tunc dövrü sarımtıl, cilalı gil qabı parç formalı olub, enli ağızlı, düz oturacaqlı və tək yarımşar qulpludur.

Oturacağına doğru konusvari şəkil alan, qıfformalı, ağzı geniş boz rəngli gil qab Xınıslıdan tapılmışdır (30, inv. № 21511). Onun Kür-Araz mədəniyyəti tipli yarımşar tək qulpu vardır. Hündürlüyü 10 sm-dir.

Kür-Araz mədəniyyəti saxsı məmulatı içərisində müxtəlif forma və ölçülü ocaq qurğuları xüsusilə fərqlənir (Şək. 6.3). Səfər Aşurov bu ocaq qurğularını və mövcud elmi mülahizələri analiz edərək onları belə qruplaşdırmışdır:

1. Dördkünc formalı ocaq qurğuları;
2. Dairəvi manqal formalı ocaq qurğuları;
3. Nalşəkilli ocaq qurğuları;
4. Buynuzvari çıxıntılı dördkünc ocaq qurğuları;
5. Slindrik formalı ocaq qurğuları (49, 73).

I Kültəpədən bu ocaq qurğularının hamısından tapılsa da, Muzeydə yalnız sonuncu dörd qrupu mühafizə edilir. Belə ki, I qrup ocaq qurğuları evlərin döşəməsində düzəldildiyindən onları götürmək mümkün olmamış və Muzeyə təhvil verilməmişdir.

Nalşəkilli ocaq qurğularından biri Şortəpədən məlumdur. Arxeologiya fondu inventar kitabında insan ayağı formasında düzəldilmiş sacayağı (30, inv. № 1593) kimi qeyd olunan bu ocaq qurğusu əslində nalşəkillidir (49, 78).

II qrup manqallar I Kültəpə və Babadərvişdən məlumdur (II tablo - 1). Babadərvişdən isə üç ədəd II qrup dairəvi manqal formalı (Şenqavit tipli) ocaq qurğuları daxil olmuşdur. Onlardan birinin içəriyə üç çıxıntısı və altında deşiyi vardır (s.q. № 516). Tədqiqatçılar bu manqalların ikili – həm təsərrüfat, həm də dini xüsusiyyət daşıdığını qeyd edirlər (49, 78).

Vardanlı və Mingəçevirdən tapılmış sacayağıların yuxarı hissəsi öküz buynuzuna bənzər, aşağısı isə konusformalıdır. Içi boş olan və buynuz hissəsi üstdən cızma xətlərlə naxışlanan sacayağıların tərkibinə qum qatılmış gili boz rəngdədir (93, 106). Vardanlı tipli çox bükülü skeleti olan dağılmış qəbirdən tapılan Mingəçevir sacayağılarını tədqiqatçılar son tunc və ilk dəmir dövrünə aid edirlər (110, 17).

Kür-Araz mədəniyyəti dövrünün əsas təsərrüfat sahələrindən olan maldarlığın öyrənilməsində yaşayış yerlərindən tapılmış gil heyvan fiqurları da böyük əhəmiyyətə malikdir. Ilkin dini təsəvvürlərlə – heyvanlara sitayişlə əlaqədar düzəldilən bu fiqurlar Yaxın Şərq və Cənubi Qafqazın bir çox abidələrindən məlumdur (76, 98). Muzeydə mühafizə edilən bu dövrün gil fiqurları isə I Kültəpə və Babadərvişdən aşkar olunmuşdur. I Kültəpə heyvan fiqurlarının əksəri öküz (21 ədəd), qalanları qoyun, keçi və itdir (3 ədəd).

Babadərviş heyvan fiqurları isə iki ədəd olub, it və keçidir (s.q. № 609-610). It fiqurunun üzəri qara rənglidir. Başı və qabaq ayaqları sınmışdır. Uzunluğu 3,4 sm, hündürlüyü 2,2 sm-dir. Quyruğu yuxarıya doğru çıxıntıdan ibarətdir. Kobud hazırlansa da itə aid olduğu bir sıra əlamətlərdən – gövdə, ayaq və quyruğundan görünür. Babadərvişdən it sümükləri və it dişinin izi qalmış hevan sümüklərinin tapılması itdən ev heyvanı kimi geniş istifadə olunduğunu göstərir (76, 96). Qırmızı rəngli və kiçik ölçülü olan keçi fiqurunun uzunluğu 2 sm, hündürlüyü 1,5 sm-dir. Beli nazik şəkildə verilmişdir. Quyruğu və ayaqları kiçik çıxıntılardan ibarətdir. Oda düşdüyündən fiqur bərkimiş və qırmızı rəng almışdır.

Mis-daş və ilk tunc dövrü dulusçuluğu ilə yanaşı, o dövr Azərbaycan sakinlərinin dini təsəvvürlərini öyrənmək baxımından Babadərviş və I Kültəpədən aşkar olunmuş gil heyvan fiqurlarının elmi əhəmiyyəti böyükdür. Bu haqda Osman Həbibullayev, Səfər Aşurov öz əsərlərində bəhs etmişlər.

Azərbaycanın mis-daş dövrü sakinləri saya gil qablarla yanaşı, boyalı qablardan da istifadə etmişlər (Şək. 6.2). Tədqiqatçılar mis-daş dövrü boyalı gil qablarını gətirilmə və yerli istehsalın məhsulu olmasına görə iki qrupa bölürlər (62, 10). Gətirilmə boyalı qabların gilinə qum qatılmış, çox səliqəli və yüksək texnika ilə hazırlanmış, yaxşı bişirilmiş, incə və böyük ustalıqla naxışlanmışdır. Azərbaycan Tarixi Muzeyində I Kültəpədən tapılmış mis-daş dövrünün gətirilmə boyalı qabları mühafizə edilir. Belə qablardan biri bütöv halda tapılmış, nəfis və simmetrik şəkildə hazırlanmışdır (s.q. № 28/1962). Yaxşı bişirilmiş və qırmızı rəngdədir. Onun divarları nazik, gövdəsi bir qədər basıq olub, şarşəkillidir. Oturacağı yastı və enli, boğazı geniş və qısa, ağzının kənarı düzdür. Qabın boğazı qırmızı rənglə örtülmüş, çiyin hissəsi və gövdəsinin aşağısı qəhvəyi rəngli enli xətlə əhatə olunmuşdur. Bu xətlərin arasına yuxarıdan aşağıya və sağdan sola bir qədər maili vəziyyətdə nazik xətlər çəkilmişdir. Həmin xətlərin arasına isə bir cərgə nöqtəşəkilli naxış vurulmuşdur. Içəridən ağzının kənarı üfüqi xətlə əhatə olunmuş, bundan altda bir-birinə bitişmiş yarımdairələr çəkilmişdir (62, 6).

I Kültəpədə 71 saylı qəbirdən (20,8 m dərinlikdən) bir ədəd gətirilmə hesab olunan boyalı gil qab aşkar olunmuşdur (30, inv. № 14847). Gilinə qum qatılmış və əldə çox səliqəli hazırlanmışdır. Qab sarımtıl rəngli olub, divarı qalındır. Yaxşı bişirilmişdir. Gövdəsi qabarıq, oturacağı yastı, ağzı kənara meyllidir. Qabın üzərində qara rənglə şaquli olaraq səkkiz ədəd düz və dörd ədəd dalğalı xətt təsvir olunmuşdur (108, 40).

I Kültəpədən ümumilikdə mis-daş dövrünə aid iki ədəd bütöv gətirilmə boyalı qab, dörd ədəd bu tip boyalı qabların qırığı, iki ədəd isə boyalı qapağın sınığı aşkar olunmuşdur. Buradakı digər boyalı qab parçaları yerli istehsalın məhsulu olub, gətirilmə qabların təsiri altında, lakin təqlid etmədən saman qatışıqlı gildən kobud şəkildə hazırlanmışdır. Bu tip boyalı qablar da yaxşı bişirilmişdir. Naxışları çox sadə və bəsitdir. Onların umumi sayı yeddi ədəddir (62, 9).

Mis-daş dövrü dulusçuluq sənətində boyalı qabların istehsalı geniş yayılma imkanı tapmasa da, I Kültəpədən tapılmış qab və qab qırıqları tədqiqatçılara Azərbaycanın mis-daş dövrü boyalı qablarını Xələf mədəniyyətinin yayıldığı ucqar bölgələrdən birinə aid etməyə və onun lokal variantı olduğunu deməyə imkan vermişdir (62, 14).

Cənubi Qafqaz dulusçuları Ön Asiya boyalı qabları ilə tanış olduqdan

sonra bu cür yerli saxsı məmulatı hazırlamağa başlamışlar. Həmin boyalı qablarda Ön Asiya boyalı qablarının təsiri aydın hiss olunur. Belə ki, bu qablar üçün səciyyəvi olan bəzi naxışlar (bitişik üçbucaqlar, romblar və s.) Cənubi Qafqaz boyalı qablarında (Qızılburun - Azərbaycan, Təzəkənd - Ermənistan) yerli dulusçuluq üçün səciyyəvi naxışlarla birlikdə verilmişdir. Məlumdur ki, Cənubi Qafqazda boyalı qablar mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələrin xeyli genişləndiyi bir şəraitdə əsasən yerli zəmin əsasında inkişaf etmişdir (58, 46).

Azərbaycanın tunc və ilk dəmir dövrü boyalı qablarını görkəmli arxeoloq Vəli Əliyev tədqiq etmişdir. O, forma və üzərindəki naxışların işlənmə xüsusiyyətinə görə fərqlənən boyalı qabların Azərbaycanda uzun müddət mövcud olduğunu və dörd mərhələdən keçdiyini qeyd etmişdir:

1. Üzəri qırmızı anqobla örtülmüş və qara rəngli nazik xətlərlə, həndəsi və quş rəsmləri ilə naxışlanmış gil qablar və digər əşyalar. Bura insan və heyvan rəsmli qablar da daxildir.

2. Üzəri açıq-qırmızı, sarı və ağ anqobla örtülmüş, qara, qırmızı, qəhvəyi rənglərdə çox səliqəli şəkildə həndəsi motivlərlə naxışlanmış gil məmulatı.

3. Naxışları həm monoxrom, həm də polixrom rənglərlə səliqəsiz şəkildə həndəsi motivlərdə çəkilən qablar.

4. Çaynikvari boyalı qablar (Şək. 6.7). Üzəri mürəkkəb kompozisiyalı heyvan rəsmləri ilə bəzədilmiş, sənətkarlıq baxımından yüksək ustalıqla hazırlanmış ayrı-ayrı qablar da (Şahtaxtı, II Kültəpə kimi) bu mərhələyə aiddir (56, 62).

Cənubi Qafqazda, eləcə də Azərbaycanda Orta Tunc dövründə hazırlanmış birinci mərhələnin boyalı qabları forma və naxışlarının motivinə görə bəsit olub, son dövrlərin boyalı qablarından seçilir. Bu qablar monoxrom (bir rəngli) naxışlıdır. Onların uzəri qırmızı anqobla örtülmüş, gövdəsinin yuxarı hissəsi tünd qara rəngli həndəsi motivlərlə, nazik xətlərlə çox simmetrik naxışlanmışdır (Şək. 6.5-6). Görünür, bu dövrdə ustalar ya fırça, ya da başqa bir alətdən istifadə etmişlər (58, 47). Azərbaycan Tarixi Muzeyində I Kültəpənin III təbəqəsinin II layından, II Kültəpədən, Qızılburundan aşkar olunmuş monoxrom boyalı qablar mühafizə olunur. I Kültəpədən əsasən sınıq halda aşkar edilmiş monoxrom boyalı küpələrin naxışlanmasında həndəsi motivlər, düz və dalğalı xətlər nəzərə çarpır. Burada üçbucaqlar bir-birinin içərisində çəkilmiş və dairələrdən istifadə edilməmişdir. Bəzi küpələrdə düz və dalğalı

xətlər növbə ilə bir-birini əvəz edir. Bu motivdə naxışlanmış küpə qırıqlarına II Kültəpə yaşayış yerində də rast gəlinir. Bu mərhələnin son dövrlərinə aid edilə bilən boyalı qablardan biri Qızılburundan tapılmışdır. Naxışının yerləşdirilməsi və motivinə görə bu küpə ikinci mərhələ üçün səciyyəvi olan polixrom boyalı qablarla yaxınlıq təşkil edir. Onun üzəri sınıq xətt, romb və qoşa üçbucaqlarla bəzədilmişdir (58, 49).

Ikinci mərhələnin qabları daha kiçik, həm də girdə şəkildə hazırlanırdı. Naxçıvan rayonundan tapılmış belə qabların üzərindəki insan, heyvan və quş rəsmləri qara, qırmızı, ağ, qəhvəyi, sarı və s. boyalarla çəkilir, üstü qırmızı, sarı və ağ anqobla örtülürdü. Dolça və dövrə şəklində olan bu qabların ornamentləri qara və qırmızı boyalarla çəkilirdi. Naxışlar isə düzbusaqlı, üçbusaqlı və romb kimi motivlərdən tərtib edilirdi. Qobustan petroqliflərində gördüyümüz «yallı» tipli rəqs təsvirlərinə bu keramikada da rast kəlirik.

Şahtaxtıdan tapılmış polixrom rəsmli böyük qab (e. ə. XV-XII əsrlər) da ikinci mərhələyə aiddir. Müxtəlif cinsli heyvan və quş rəsmləri ilə bəzədilmiş bu küpənin üzəri üç zolağa ayrılmışdır. Üst zolaqda bir-birinin arxasında qu quşları təsvir edilir. Ikinci zolaq nisbətən enli olub, şaquli istiqamətdə çəkilən həndəsi formalı naxışlarla iki hissəyə bölünmüşdür. Birinci hissədə keçilər, onların üzərinə hücum edən canavar, digər vəhşi heyvan və quşlar, həmçinin su quşları çəkilmişdir. Ikinci hissədə isə həmin heyvan-lardan əlavə, keçilərlə qarşı-qarşıya vəhşi eşşək və ya at təsvir edilmişdir. Üçüncü zolaqda bir-biri ilə bağlı olan və üfüqi vəziyyətdə küpəni əhatə edən romb şəkilləri çəkilmişdir (IV tablo, 7-ci şəkil).

Azərbaycanda boyalı qablar mədəniyyətinin tarixi ilə bağlı müxtəlif fikirlər olsa da, I Kültəpə tapıntıları nisbətən düzgün dövrləşdirməni müəyyən etməyə imkan vermişdir. Osman Həbibullayev və Vəli Əliyev abidənin mədəni təbəqəsi əsasında boyalı qabların yuxarıda qeyd olunan ilk mərhələsini e.ə. XVII-XV əsrlərə, II mərhələsini e.ə. XV-XII əsrlərə, III mərhələsini e.ə. XII-X əsrlərə, IV mərhələsini isə IX-VIII əsrlərə aid etmişlər (56, 63).

Azərbaycanın tunc dövrü saxsı məmulatı içərisində qara və boz rəngli, üzəri cilalı, naxışlı və naxışsız Xocalı-Gədəbəy mədəniyyəti saxsı məmulatı xüsusilə seçilir. Xocalı-Gədəbəy mədəniyyətinin bu maraqlı və özünəməxsus saxsı məmulatını Münəvvər Hüseynova tədqiq etmiş, təsnifatını vermişdir (141).

Qədim Azərbaycanın cilalı qara rəngli saxsı məmulatı əsasən mis-daş dövründən hazırlanmağa başlamış, Xocalı-Gədəbəy mədəniyyəti dövründə

isə inkişaf zirvəsinə çatmışdır. Mis-daş dövründə dulusçular kürələrdə yüksək istilik əldə edə bilmədiklərindən və qara saxsı məmulatı texnologiyası hələ lazımınca məlum olmadığından ilk nümunələr kobud idi. Onların plastik forması yöndəmsiz, qara rəngləri qarışıq, dekorativ motivləri isə son dərəcə ibtidai şəkildə alınmışdır (79, 24).

Muzeydə mühafizə edilən ən iri təsərrüfat küpü Sarıtəpədən gətirilmişdir. Boz rəngli olub, küpün yuxarı hissəsində bəzi həndəsi naxışlar cızılmışdır (Af. № 2649). Sarıtəpə küpü son tunc və ilk dəmir dövrü maddi-mədəniyyət nümunəsi kimi ekspozisiyada nümayiş etdirilir. Həmin dövr təsərrüfat küplərindən biri Horadizdən məlumdur. Horadizin orta həcmli təsərrüfat küpü qara rəngdə olub, qabarıq gövdəyə, qısa boğaza, kənara qatlanmış ağıza malikdir (30, inv. № 1603). Üzərində iki yerdə kəmər formasında qabartma vardır. Hündürlüyü – 84 sm-dir.

Maldarlığın inkişafının, maldarlıq məhsullarının emalının ən yaxşı əyani göstəricisi nehrələrdir. Nehrələr gildən müxtəlif ölçülərdə, əsasən bir qulplu və bir tərəfi deşikli hazırlanmışdır. Muzeydə tədqiq etdiyimiz dövrün Qasım Ismayılov, Vardanlı və Sarıtəpədən aşkar olunan yalnız boz rəngli nehrələri mühafizə edilir. Vardanlı nehrələri özlərinin kiçik formada hazırlanmasına görə fərqlənir (Şək. 7.2). Onlar əsasən iki qulplu, deşikli və deşiksiz olur.

Hündürlüyü 42 sm, oturacaq diametri 13 sm olan nehrələrdən biri Qasım Ismayılovdan aşkar olunmuşdur (s.q. № 1/1960). Boz rəngli hazırlanan bu nehrənin üzəri cilalanmış, torşəkilli, batıq dalğavari və düz xətli naxışlarla bəzədilmişdir. Boğazından aşağıda iki yerdə deşik açılmışdır.

Sarıtəpədə açılmış yaşayış binasının divarına yaxın yerdə döşəmənin üzərindən üfiqi qulpu və ondan bir az aralı deşikli çıxığı olan gil nehrənin bir hissəsi əldə edilmişdir.

Azərbaycan Tarixi Muzeyində Qızılburun və Mingəçevirdən aşkar edilmiş ayaqqabıformalı gil qablar mühafizə edilir (Şək. 8.5). Bu gil qablar Xocalı-Gədəbəy və Naxçıvan mədəniyyətini yaradan azərbaycanlıların həm geyim zövqünü, həm də ayaqqabı haqda düşüncələrini öyrənmək üçün ən yaxşı maddi-mədəniyyət nümunələridir. Azərbaycandan tapılan ayaqqabıformalı gil qablar Qavril Ione tərəfindən ayrıca tədqiq edilmişdir (154, 36-60).

Qafqaz uzunboğaz çəkmələrinə oxşar 7 ədəd saxsı qabı Qavril Ione şərti olaraq 4 qrupa ayırır:

1. Uzunboğaz, altı yastı, dabansız və burnu yuxarıya əyilmiş ayaqqabını

xatırladan saxsı qablar (3 ədəd). Bu qablar digərlərindən öz incəlikləri, xarici görünüşlərinin diqqətlə işlənilməsi və özlərinə məxsus gözəllikləri ilə fərqlənir.

2. Öz ölçüsü və tipi etibarilə çust və çarığa oxşar saxsı qab (1 ədəd).

3. Ontilli stəkana oxşayan qab. Bu qab eyni zamanda yüngül çust geydirilmiş sol ayağa oxşayır. Onun boğaz hissəsi həndəsi xətlərlə bəzədilmişdir. Işlənilməsi kobuddur (1 ədəd).

4. Ölçü və hazılanma üsulları eyni olan 3 ədəd gil qab insan ayağına oxşadılaraq düzəldilmiş üzərinə həndəsi təsvirlər vurulmuşdur. Heykəltəraşlıq nöqteyi-nəzərindən bəzək nümunələri sadə və kobuddur.

Qızılburundan Aleksandr Müllerin aşkar etdiyi ayaqqabıformalı gil qab qırmızı rənglidir. Hamısı boz rəngli olan Mingəçevirdə çox bükülü torpaq qəbirlərdən aşkar olunmuş ayaqqabıformalı gil qabların çarığa bənzəyən quruluşları vardır. Onlar içinin boş və dolu olmasına görə fərqlənirlər.

Maraqlıdır ki, ayaqqabıformalı gil qablara yalnız qəbirlərdə rast gəlinir. Bu, tədqiqatçılar tərəfindən dəfn ayini - ölünü sanki «o biri dünyaya» yola salmaq və ona «yaxşı yol» arzulamaq kimi izah olunmuşdur (154, 60). Zənnimcə, qəbirlərə ayaqqabı formasında hazırlanmış qabların qoyulması ayininin mövzusu real həyatdan alına və mərhumun sənəti ilə də bağlı ola bilərdi.

Qədim dövrün ən böyük ixtiralarından hesab olunan arabaların vətəni kimi, üç mərkəzin adı çəkilir: Ikiçayarası, Qafqaz və ya Zaqros, Avrasiya çölü. Trialet kurqanlarından tapılan arabalar və Kür-Araz mədəniyyəti materialları Qafqazın arabaların vətəni olması haqqında qənaətə gəlməyə imkan vermişdir (147, 29). Alaçıq və evformalı araba modellərinin bir neçə nümunəsinə Mingəçevir arxeoloji qazıntılarında rast gəlinmişdir (Şək. 8.3-4, 6).

Kasalar çoxlu sayda Mingəçevirdə II kurqandan (s.q. № 276), II kurqanın I giriş kamerasından (s.q. № 144; 146-147; 151) aşkar olunmuşdur.

Içərisini tamam əhatə etmiş səkkizguşəli ulduzun cızıldığı dabanlı kasalardan biri Mingəçevirdən tapılmışdır (s.q. № 3326).

Xeyrələrin bir qrupu daha çox Vardanlıdan tapıldığına görə Vardanlı tipi adlandırılmışdır. Boz rəngli olan Vardanlı xeyrələri Mingəçevirdən də çoxlu sayda əldə edilmişdir (30, inv. № 13740; 13784).

Azərbaycan ərazisindəki əksər abidələrdə tunc dövründən başlayaraq təsadüf olunur. Tunc dövrünün kiçik həcmli küpələri əsasən boz rənglidir.

Geniş ağıza, qabarıq gövdəyə və yastı oturacağa malik olan bu tip küpələrin üzərində bəzən qırıq xətlərdən ibarət naxışlar cızılır (Af. № 300). Sarıtəpə və kiçik gil küpələri ekspozisiyanın uyğun bölmələrində nümayiş etdirilir.

Küpələr çoxlu sayda Mingəçevir kurqanlarından da aşkar olunmuşdur (s.q. № 274).

Su qablarından ən sadəsi dolçalardır. Onlar yastı oturacağa, qabarıq gövdəyə, nisbətən dar boğaza, boğazından başlayaraq getdikcə kənara qatlanan və genişlənən ağıza, ağzının kənarı ilə gövdəsini birləşdirən tək qulpa malikdir. Son tunc və ilk dəmir dövrü dolçaları əsasən boz, qara, qırmızı, qonur rəngli olub, üzəri cilalanmışdır. Dolçalara bəzən suyun dalğalanmasını və ya sakit durmasını xatırladan naxışlar vurulmuşdur.

Qasım Ismayılovdan üç ədəd tayqulp-dolça aşkar olunmuşdur (s.q. № 9-11/1960). Bu dolçalardan birinin üzəri torşəkilli və dalğavari naxışlarla, digərinin üzəri isə yapma düyməciklərlə bəzədilmişdir. Bardaqlar çoxlu sayda Mingəçevir kurqanlarından da aşkar olunmuşdur (s.q. № 275).

Muzeydə Mingəçevirdən aşkar olunmuş «assuriya tipli» şirli qablar və hissələri mühafizə edilir. II kurqandan tapılmış şirli bardaqlardan birinin çiynində simmetrik olaraq üç qulpu vardır (s.q. № 263). Yüksək keyfiyyətli gildən hazırlanaraq yaxşı bişirilən bardağın divarları qalın olub, üzəri tamamilə boyanaraq şirlənmişdir. Üzərinə müxtəlif naxışlar vurulmuşdur. Hündürlüyü 17,5 sm, gövdəsinin diametri 18,5 sm, ağzının diametri 6 sm-dir (128, 32). Həmin kurqandan daha bir neçə şirli qab parçası da əldə edilmişdir (s.q. № 263).

Çaynikvari gil qablara Azərbaycanın bir sıra son tunc-ilk dəmir və antik dövrü abidələrində rast gəlinir. Onlar əsasən boz rəngli olub, bəzilərinin üzəri qırmızı və qara boya ilə həndəsi naxışlanırdı. Gövdələri üstdən bir qədər basıq olub, ortadan qabarıq düzəldilirdi. Ağızları isə geniş və bir qədər içəriyə yığılmış vəziyyətdədir. Uzun və ya nisbətən qısa lülələri ördək dimdiyini xatırladır. Lüləsinin ördək dimdiyi formasında hazırlanması məişətdə su üçün istifadə edildiyi ilə əlaqədar olduğu düşünülür.

Muzeydə Qızılburun, Şahtaxtı, Şortəpə, Uzuntəpə və Xarabagilandan aşkar olunmuş çaynikvari gil qablar mühafizə edilir. Bunlardan Qızılburun və Xarabagilanın çaynikvari gil qabları Muzey ekspozisiyanın ilk dəmir dövrü bölməsində nümayiş etdirilir (30, inv. № 1526).

II inventar kitabının 1522-1531 və 1566-1569 inventar sayları altında

qırmızı və qara rəngli üzəri xüsusi bədii tərtibatla bəzədilmiş kuzə, küpə, qulplu parçlar və çaynikformalı qablar qeyd olunmuşdur.

Boz rəngli iri çaynikvari Uzuntəpə qabının ilgəkvari tək qulpu vardır (30, inv. № 3111). Quş boğazı kimi irəli uzadılmış lüləsi olan qabın qabarıq gövdəsində relyef xətlər verilmişdir. Hündürlüyü 32 sm-dir.

Gil qablardakı zoomorf əlamətlər müxtəlif formalarda təzahür edirdi:

1. Zoomorf təsvirli gil qablar;
2. Zoomorf formalı gil qablar;
3. Zoomorf qulplu gil qablar.

Usta heyvanı qabın üzərinə ya həkk edir, ya qabı heyvan formasında düzəldir, ya da qaba heyvan formalı qulp qoyurdu.

Zoomorf təsvirli gil qabların ən yaxşı nümunələrindən biri Qaracəmirlidən məlumdur (142, 56). Qaracəmirli qabı iri həcmli (hündürlüyü 34 sm) küp olub, üzərində heyvanların ön planda qabarıq verildiyi bütöv bir ayin təsvir olunmuşdur. Küp qara rəngli olub, heyvan və digər təsvirlər ağ pasta ilə inkrustasiya olunmuşdur. Təsvirlər cızma üsulu ilə həkk edilmişdir. Qabın ağzı kənara qatlaq, oturacağı isə yastıdır. Gövdəsi qabarıq olub, çiynində təsvirlərin verildiyi iki cərgə kəmər şəklində fərq etdirilmişdir. Birinci cərgədə sxematik şəkildə maral, ikinci cərgədə isə öküz təsvir olunmuşdur. Birinci cərgədə səma cisimlərindən dairəvi şəkildə onbirguşəli ulduz, ikinci cərgədə svastika şəklində günəş təsvir edilmişdir. Görünür, usta düşüncəsindəki fantaziyanı maraqlı kompozisiyalar yaradaraq qab üzərinə köçürməklə həmin qaba müqəddəslik gətirməyə çalışmışdır. Qabın sahibi olan əyanı öldükdən sonra da axirətdə müşaiyət etsin deyə qəbrinə qoyulmuşdur. Bu qab Xocalı-Gədəbəy mədəniyyəti tipli qabların ən qədimlərindən (e.ə. 1500) hesab oluna bilər (186, 56). Ola bilsin ki, Xocalı-Gədəbəy mədəniyyətinə sahib olan qədim azərbaycanlıların bir hissəsi öz soykökünü marallarla bağlamışdır. Bunu Qaracəmirlidən aşkar olunmuş maralbədənli tunc tuğ-bayraq da sübut edir.

Üzəri ağ pasta ilə inkrustasiya olunmuş gil qablar Xocalı-Gədəbəy mədəniyyəti saxsı məmulatı içərisində xüsusilə seçilir (Şək. 7.3). Qara rəngli saxsı məmulatının bədii şəklə düşməsi üçün Xocalı-Gədəbəy mədəniyyəti dulusçuları qabların üzərini cızma təsvirlərlə naxışlayır və cızılmış yerləri ağ maddə ilə inkrustasiya edirdilər.

Xocalı-Gədəbəy mədəniyyəti qablarının naxışlanmasında ən çox tətbiq

edilən həndəsi təsvirlərin eyni qəbildən digər təsvirlərlə müqayisəli təhlilini verən Münəvvər Hüseynova onların dirilik ağacının rəmzi təsviri olmasını göstərir. Dirilik ağacı təsvirinin ov səhnəsi ilə birlikdə çəkilməsi və onun elementlərinin insan təsvirlərində tətbiqi sübut edir ki, bunlar hər şeydən əvvəl, məhsuldarlıq ayini ilə bağlı olmuşdur (141, 93). Üzərində başdan-başa dirilik ağacı təsviri olan zoomorf gil qablardan biri e.ə. VII-VI əsrlərə aid olub, Qaratəpədən məlumdur (Şək. 7.6). Onun tək qulpu, quş dimdiyini və pipiyini xatırladan lüləsi vardır.

Mingəçevirdə son tunc və ilk dəmir dövrünə aid edilən 3 saylı kurqandan tapılmış alabaxtaformalı boz rəngli gil qabda baş, göz, quyruq, qanad və ayaqlar çox zərifliklə hazırlanmışdır (Şək. 9.1). Onun belində, qanadları arasında qabın ağzı, ağzın quyruq tərəfində isə tək qulpu düzəldilmişdir (110, 20; 93, 107).

Ilk dəmir dövrünə aid zoomorf formalı qablardan biri Füzuli rayonunun Molla-Məhərrəmli kəndindən təsadüfən tapılmışdır (Şək. 9.2). Quş formalı həmin qab girdə şəkildə olub, üçayaqlı düzəldilmişdir. Qanadları və quyruğu aydın nəzərə çarpdırılmışdır. Quşun bel hissəsində qabın kənara meylli ağzı düzəldilmişdir (184, 94).

Zoomorf fiqurlar bəzən gil və daş qablarda qulp əvəzedicisi rolunu oynamışdır (Şək. 6.8). Görünür, belə qulplar hazırlamaqda ustanın məqsədi yalnız qaba gözəllik, zəriflik vermək olmamışdır. Qablara müxtəlif inamlarla bağlı olan heyvanlara bənzədilmiş qulpların qoyulması həm də dini ayinlərlə, qaba müqəddəslik gətirmək düşüncəsi ilə əlaqəli olmuşdur. Qotul kəndindən tapılmış pələng fiquruna bənzər qab qulpu qara rənglidir (30, inv. № 1647). Onun ayaqları ilə əlləri arasında qalan boşluq qab qulpunun deşiyini təşkil edir. Pələngin üzəri sığanmışdır. Pələngin uzunluğu 6,5 sm, hündürlüyü isə 3,5 sm-dir.

Mingəçevirin gil əyircəkləri əsasən qırmızı rənglidir (30, inv. № 13506; 13688). Bəzilərinin üzəri naxışlanmışdır. Müxtəlif forma və ölçüdə hazırlanmışdır. Bir qayda olaraq əyircəklərin orta hissəsi qabarıqdır.

Qırmızı rəngli olub, Uzuntəpə qəndili şaquli qulpa malik olub, gövdəsində və qulpu üzərində yapma bəzəkləri vardır (30, inv. № 3105). Içərisində his əlamətləri vardır. Hündürlüyü – 15,5 sm-dir.

Gil pintaderlərə Azərbaycanda son tunc və ilk dəmir dövrü abidələrində – Mingəçevir, Sarıtəpə, Şomutəpə, Töyrətəpə və Babadərvişdə rast gəlinmişdir

(57). Azərbaycan Tarixi Muzeyində Mingəçevir və Sarıtəpədən aşkar olunmuş gil pintaderlər mühafizə edilir.

Gil pintaderlər kvadratşəkilli və dairəviformalı olur. Onların dəstəkləri əsasən qısa düzəldilmişdir. Işlək üzləri mürəkkəb və bəsit şəkilli svastika, batıq nöqtələr və çərtmələrlə naxışlanmışdır. Sarıtəpə pintaderləri tədqiq edildiyi zaman məlum olmuşdur ki, bunların üzərindəki naxışlar müəyyən bir üsulla düzəldilmişdir (86, 158). Bu sadə üsulların nəticəsində mürəkkəb pintaderlər alınmışdır (Şək. 8.2). Pintaderlərdən biri sarımtıl rəngdə olub, yaxşı bişirilmişdir. Pintaderin boyu dəstəklə 5 sm, eni və uzunluğu 6 sm-dir. Bu möhürün içərisində qabarıq düzəlmiş çıxıntılar biri o birinin əksinə olaraq hazırlanmışdır. Bu üsulla düzəlmiş sadə pintaderlərin daxilində svastikayaoxşar, çox qarışıq görünən şəkil yaranmışdır. Saleh Qazıyevin fikrincə, usta bu pintaderləri düzəldərkən svastika şəkli düzəltməyi qarşısına məqsəd qoymamışdır (86, 158). Kvadrat şəklində düzəlmiş bütün Sarıtəpə pintaderlərində bu üsulun tətbiqi nəzərə çarpır.

Çoxlu sayda tapılmış Sarıtəpə gil pintaderlərindən göründüyü kimi, son tunc və ilk dəmir dövründə şumer, assur, xald, midiya, əhəməni və s. xalqlar kimi qədim azərbaycanlılar da möhür tipli əşyalardan istifadə etməyə başlamışlar. Saleh Qazıyevin fikrincə, pintader-möhürlərlə əsasən, anbarlar, qiymətli şeylər, evlər, toxunulması qadağan edilmiş yerlər və s. möhürlənmişdir (86, 158). Məlumdur ki, möhürlər haqqında mövhumi inanclar da yaranmışdır. Belə ki, əgər bir şəxsdə möhür olarsa, ona şər qüvvələr toxuna bilməz. Pintaderlərin çörək üzünü naxışlamaq və ya dəri, yun parçaya naxış vurmaq kimi funksiyaların olduğu haqqında mülahizələr də vardır. Vəli Əliyev isə gil möhürlərin daha çox atəşgahlardan tapılmasına və üzərlərində od, günəş rəmzi sayılan svastika naxışlarının olmasına əsaslanaraq onları Azərbaycanın qədim tayfalarının ideologiyası ilə əlaqələndirmişdir (57, 121). Bir çox tədqiqatçıların fikrincə, pintaderlərin məqsədi haqqındakı ən düzgün mülahizə də elə budur (44, 90).

Xarabagilandan aşkar olunmuş gil qəlib də çox maraqlıdır. Həmin qəlibdə ox ucu hazırlanmışdır (Şək. 8.1). Qəlibin oxun uc hissəsinin töküldüyü yer salamat qalmışdır. Əridilmiş metalı kiçik kanalcıq vasitəsilə ucdan tökdükləri qəlibin formasından bəlli olur.

Azərbaycan sakinlərinin mis-daş dövründən başlayaraq e.ə. IV əsrə qədər istehal və istehlak etdikləri müxtəlif çeşid və keyfiyyətli saxsı məmulatı

Azərbaycan Tarixi Muzeyində mühafizə edilir. Burada mis-daş dövrünün I Kültəpə, Kür-Araz mədəniyyətinin yarımşar qulplu saxsı məmulatı, Boyalı qablar mədəniyyətinin xarakterik gil qabları, Xocalı-Gədəbəy mədəniyyətinin yastı çıxıntılı, ağ pasta ilə inkrustasiya olunmuş əsasən boz və qara rəngli gil qabları, ilk dəmir dövrünün zoomorf saxsı məmulatı və s. maddi-mədəniyyət nümunələri təsvir və təhlil edilir.

## Sümük alətlər və müxtəlif əşyalar

Mis-daş dövründə sümükişləmə sənətkarlığının daha da inkişaf etdiyi görünür. Bəsit yolla sümük əmək alətləri hazırlamaqla yanaşı, mürəkkəb işlər də görülürdü. Bəzək əşyaları və yeni növ əmək alətlərinin düzəldilməsi xeyli vaxt və zəhmət tələb edirdi.

Sümük pardaxlayıcılar mis-daş dövrü Azərbaycan sakinlərinin əmək alətləri içərisində geniş yer tutur və onların zövqünün inkişafından xəbər verir. Belə ki, pardaxlayıcılar bir çox işlərdə, o cümlədən, təmizləmə və cilalamada əsas əmək aləti olub, hazırladıqları şeyə təmizliklə yanaşı zəriflik də gətirirdi. Pardaxlayıcılar iri heyvanın lülə, kürək, qabırğa sümüyündən və maral buynuzundan hazırlanır, bir tərəfindən əl tutmaq, qarşı tərəfindən isə işlətmək üçün istifadə olunurdu. Işlək pardaxlayıcılarda işlənmə izləri indi də hiss edilir. Bəzən əl tutulan yerdə iş görülməyən zamanlarda asmaq üçün deşik də açılırdı.

Mis-daş dövrü Azərbaycan sakinləri alətlərin cilalanmasında, dərinin artıqlardan təmizlənməsində, ümumiyyətlə, müxtəlif pardaxlama işlərində xüsusi sümük alətlərdən istifadə etmişlər. Bu tip pardaxlayıcı alətlər iribuynuzlu heyvanların lülə sümüyü və maral buynuzundan hazırlanırdı.

Mis-daş dövrü Azərbaycan sakinləri deşmə və tikmə işlərində deşici alətlər və bizlərdən geniş istifadə etmişlər. Bunu çoxlu sayda tapılan sümük bizlər də göstərir. I Kültəpə sakinləri deşici alət və bizləri iribuynuzlu və xırda buynuzlu heyvanların lülə sümüyündən, ceyran buynuzundan (30, inv. № 15125/16,8; 14125; 14126/16,8) və iri quşun sümüyündən hazırlamışlar (108, 62). Bizlər burada müxtəlif dərinliklərdən çoxlu sayda (177 ədəd) əldə edilmişdir. Onların ölçüsü mühafizə vəziyyətindən asılı olaraq 5-17 sm arasında dəyişir. Belə bizlərdən biri 57 saylı qəbirdən aşkar olunmuşdur (30, inv. № 13950).

Muzeydə Babadərviş və Şomutəpədən aşkar olunmuş sümük bizlər

də mühafizə edilir. Qarğalartəpəsindən isə 105 ədəd sümük biz aşkar olunmuşdur.

Həm mis-daş, həm də tunc dövründə deşici alətlər heyvan sümükləri ilə yanaşı maral və ceyran buynuzlarından da hazırlanmışdır. Muzeydə mühafizə edilən maral buynuzundan deşici alətlər Naxçıvanda I Kültəpənin mis-daş dövrü təbəqəsindən (30, inv. № 13786; 13793; 13798; 13879; 13930; 14124) və II Kültəpənin orta tunc dövrü təbəqəsindən əldə edilmişdir (s.q. № 308; 315).

Vəli Əliyev II Kültəpədən əldə edilmiş maral buynuzlarını yaşayış yerinin yaxınlığında yerləşən qədim mədəndən duz çıxarılmasında istifadə olunduğunu qeyd etmişdir (60, 85).

Mis-daş dövrü əkinçiliyi şum zamanı işlədilən alətin adı ilə toxa əkinçiliyi adlanır. Azərbaycanın qədim toxaları hazırlandığı materiala əsasən üç qrupa bölünür: daş, sümük və buynuz (143, 89). Muzeydə mis-daş dövrünün daş toxaları mühafizə edilmir. Əksinə, sümük toxalar çoxdur. Qədim Azərbaycan sakinləri toxaları bir qayda olaraq, iribuynuzlu heyvanların lülə və kürək sümüyündən, maral buynuzundan hazırlamışlar (108, 64; 20, 24). Belə ki, lülə sümüyü çəpinə kəsilir, kəsilən üz hamarlanır, alətin ucu paz şəklini alırdı. Sümüyün epifizi oyulduqdan sonra bu oyuğa sap keçirməklə torpağın işlənilməsində istifadə edilirdi. Sap keçirmək üçün kürək sümüklərində deşik açılırdı. Muzeydə I Kültəpə (30, inv. № 13786/14,8; 13825/15,05; 13868/16,5; 13865/16,6; 13859/16,6; 13867/16,8; 13887/16,8; 13885/17; 13899/17; 13930/17,4), Şomutəpə (s.q. № 165/1962; 169/1962; 239/1962; 263/1962) və Qarğalartəpəsinin (s.q. № 23; 24; 44; 112; 154-156; 158; 195-196; 341; 557; 376-377; 379; 385; 395; 401; 420; 441-442; 505;509; 541-543; 587; 600-601; 639; 663-664; 666-667; 678; 685) müxtəlif forma, ölçü və vəziyyətli sümük, buynuz toxaları mühafizə edilir.

Azərbaycan Tarixi Muzeyində mis-daş dövrünə məxsus daş qoymalı oraqların əsasını təşkil edən sümük alətlər mühafizə edilir.

Daş qoymalı oraq əsaslarından biri I Kültəpədə ər və arvadın birlikdə dəfn olunduğu 75 saylı qəbirdən (21,2 m dərinlikdə) aşkar olunmuşdur (108, 39). Bu oraq əsası maral buynuzundan hazırlanmışdır. Onun bir ucu oraq dişlərinin yerləşdirilməsi üçün çərtilərək açılmışdır. Hətta həmin hissədə daşlaşmış qalıqlar da müşahidə olunur. Oraq əsasının mühafizə edilmiş hissəsinin uzunluğu 24,4 sm-dir. Qeyd etmək lazımdır ki, bu buynuz oraq əsası Muzeyə

daxil olduğu vaxtdan inventarlaşdırılmamış, son iki ekspozisiyada isə səhvən Şomutəpə adı ilə verilmişdir (Af. № 55).

Skiflərə məxsus at əsləhələrinin tuncdan düzəldilənləri ilə yanaşı sümükdən çox unikal formada hazırlanan nümunələri də vardır. Azərbaycan ərazisində skiflərin yerləşməsi faktı Manna və Kimmer-Skif-Sak padşahlığı araşdırmaları əsasında sübut edilmişdir. Sümük qaytarğan və at bəzəkləri bu sübutu daha da qüvvətləndirir. Hələlik yalnız Mingəçevirdə, skeleti zəif bükülü sadə torpaq qəbirdən tapılmış sümük qaytarğanlar uzun müddət musiqi alətləri hesab olunmuşdur (s.q. № 1132). Lakin, həmin qaytarğanların təhlilini verən A.Terenojkin onların at əsləhəsi olduğunu müəyyən etmişdir. Son ekspozisiyada həmin sümük əşyalar at qaytarğanları kimi təqdim olunmuşdur. Onların at qaytarğanları olması haqqındakı düşüncələrimizi isə 2001-ci ildə Cənubi Azərbaycanda, Mannanın Həsənlu və Nuşi-Can yaşayış yerlərində aparılan qazıntılardan aşkar edilən heyvani üslubda bəzədilmiş sümük at əsləhələri dəstəkləyir (203, şək. 4/1-2; 6). Bu tapıntılar at skeletləri və skif ox ucluqları ilə birlikdə əldə edilmişdir. Digər qoçbaşlı sümük at əsləhəsi isə Türkiyədə, Vanın Gürpınar ilçəsi yaxınlığındakı Urartu mərkəzlərindən biri olan Çavuştəpə (Sardurihinili) qalasının divarları önündə aparılan arxeoloji qazıntılar nəticəsində skif ox ucluqları ilə birlikdə aşkar olunmuşdur (201, şək. 41).

Beləliklə, Mingəçevirin maddi-mədəniyyət nümunələri içərisində hələ də dəqiq elmi qiymətini almamış tapıntıların müqayisəli təhlili skiflərin bu yerlərə nəinki işğalçı kimi gəldiklərini, hətta bu torpaqlarda məskunlaşıb xalqımızın formalaşmasında əhəmiyyətli rol oynadıqları haqqında elmi konsepsiyanı da sübuta yetirəcəkdir.

At yüyəninə aid edilən digər sümük vasitələr isə II kurqandan xüsusi ardıcıllıqla düzülmüş şəkildə əldə olunmuşdur (s.q. № 211). «Qədim Mingəçevir» əsərinin müəllifləri həmin sümük lövhəcik və halqaların at əsləhəsinə aid dəri qayışın və dəfn olunanın paltarının tikmə bəzəkləri olduğunu qeyd etmişlər (117, 96). Özünəməxsus şəkildə düzülən sümük lövhəciklər düzbucaq, üçbucaq, rombşəkilli formalarda olub, simmetrik və təkrarolunun həndəsi fiquru əmələ gətirir (117, şək. 70). Onların yaxınlığındakı sümük halqalar isə tarım çəkib bağlamaq vəzifəsini yetirmişdir. Lövhəciklərin qalınlığı 0,4-0,5 sm, eni 1-3 sm, uzunluğu 6-10 sm-dir. Bəzi lövhəciklərin üzəri naxışlanmışdır. Sümük halqalar isə iribuynuzlu

heyvanların lülə sümüyündən hazırlanmışdır (30, inv. № 11740). Bu halqaların diametrləri 4-5 sm-dir. Halqalar en kəsiyində romşəkillidir (117, şək. 69q).

Mis-daş dövründən başlayaraq qədim Azərbaycan sakinləri əmək alətləri ilə yanaşı sümükdən bəzək vasitələri də hazırlanmış və istifadə etmişlər. Bu bəzəklərdən daha çox asma kimi istifadə olunmuşdur.

Sümük asmaların bəziləri qaban dişindən hazırlanmışdır. Belə asmalardan biri I Kültəpədə 17,6 m dərinlikdə 51 saylı qəbirdən, digəri isə 17,2 m dərnlikdə 43 saylı qəbirdən tapılmışdır. Onlardan birinin ucunda, digərinin isə ortasında asmaq üçün deşik açılmışdır. Sümük lövhəciklərin üzərində naxışları vardır (30, inv. № 13516).

Mingəçevirdə V kurqandan tapılmış sümük halqanın diametri 7 sm, qalınlığı 0,4-sm-dir (s.q. № 3098).

Şuşadan aşkar olunmuş sümük ox ucu dördbucaqlı, sapa keçən sulğuncu isə dairəvi formada hazırlanmışdır (30, inv. № 1042). Uca doğru ensizləşir və nazilir. Uzunluğu 4 sm, ən enli yerdə eni 1 sm-dir.

Azərbaycanda ilk nümunələri mis-daş dövründən məlum olan əyircəklərin böyük bir hissəsi sümükdən hazırlanmışdır. Sümük əyircəklər çox zaman heyvanın oynaq sümüyündən düzəldilirdi. Sümük əyircəklərin Muzeydə mühafizə edilənlərinin bir qismi I Kültəpədəndir (s.q. № 5/1958; 37/1958).

Babadərvişdə mis-daş və ilk tunc dövrü təbəqələrindən aşkar olunmuş əyircəklərin də çoxu sümükdəndir. Onların Muzeyə təhvil verilənlərinin ümumi sayı səkkiz ədəddir (s.q. № 478; 487; 498; 516; 587; 593; 611; 617).

Son tunc və ilk dəmir dövrünə məxsus sümük əyircəklər isə Qazax rayonunda Qazaxbəyli (30, inv. № 4229) və Sarıtəpə (s.q. № 393/1958) abidələrindən məlumdur.

Tarixən insanların boyun, qulaq, qol və qıçlarını bəzəməsində muncuqların özünəməxsus yeri olmuşdur. Ilk muncuqların hazırlanması hələ daş dövründən məlumdur. Görünür, muncuğun hər iki dünyada nəzər və xəstəlikdən qorumasına inam qədim Azərbaycan sakinlərində də olmuşdur. I Kültəpədə 33 saylı qəbirdən 37 (inventar kitabında 34) ədəd (30, inv. № 13897), 35 saylı qəbirdən 26 ədəd (30, inv. № 13898), 40 saylı qəbirdən 185 ədəd (30, inv. № 13896), 43 saylı qəbirdən 10 ədəd (30, inv. № 14121), 46 saylı qəbirdən 35 ədəd (30, inv. № 13924), 50 saylı qəbirdən 2 ədəd (30, inv. № 13934), 51 saylı qəbirdən 9 ədəd (30, inv. № 13937), 53 saylı qəbirdən

ümumi sayı 314 ədəd (30, inv. № 13944), 56 saylı qəbirdən bir ədədi mis 106 ədəd (30, inv. № 13954), 60 saylı qəbirdən 125 ədəd (30, inv. № 13962), ana və yeni doğulmuş əkiz uşaqlarının dəfn olunduğu 61 saylı qəbirdən 51 ədəd (30, inv. № 13963), 63 saylı uşaq qəbrindən 8 ədəd (30, inv. № 13969), 64 saylı qəbirdən 130 ədəd (30, inv. № 13970), 68 saylı qəbirdən 36 ədəd (30, inv. № 14860), 69 saylı qəbirdən 290 ədəd (30, inv. № 14859), 75 saylı qəbirdən 77 ədəd əqiq, pasta, firuzə, sümük, balıqqulağı, adi ağ və qara rəngli daş muncuqlar əldə edilmişdir. Göründüyü kimi, mis-daş dövrü sakinləri müxtəlif tərkibli muncuqlardan istifadə etmişlər.

Tunc dövründə muncuqlar tunc, əqiq, pasta, balıqqulağı və şüşədən hazırlanmışdır. Bu dövrün demək olar ki, bütün qəbirlərindən muncuqlar aşkar olunmuşdur. Muzeydə Xaçbulaq, Çovdar, Seyfəlli, Qızılburun, Mingəçevirdən daxil olmuş minlərlə tunc dövrü muncuqları mühafizə edilir.

Qızılburunda son tunc və ilk dəmir dövrünə aid daş qutu qəbirlərdən çoxlu sayda muncuqlar əldə edilmişdir. Onlar müxtəlif formada olub, bəzilərinin üzəri naxışlıdır. Əksəriyyəti qırmızı rəngli əqiqdəndir (30, inv. № 1718). Bəzən əqiq muncuqları tunc və dəmir məftildən keçirərək boyunbağı, qolbaq və sırğa da düzəltmişlər. Pasta muncuqlar daha çox silindrik formada hazırlanmışdır (30, inv. № 1718; 1725; 1735). Nisbətən iri, boruşəkilli pasta muncuqların bəzilərinin hər iki ucu dairəvi cızma xətlərlə əhatələnərək, üzəri bir-birinin içərisində yerləşmiş bucaqlar, sınıq xətlər və torla naxışlanmışdır. Qızılburun qəbirlərindən az miqdarda tunc boruşəkilli muncuqlar da tapılmışdır (30, inv. № 1723).

Mingəçevirdə II kurqanın mərkəzi və I-III giriş kameralarından (30, inv. № 11709-11711; 11713; 11758), V kurqandan (s.q. № 3195-3196; 3248) çoxlu sayda əqiq və pasta muncuqlar əldə edilmişdir. Təkcə V kurqandan 400 ədəd əqiq, pasta və tunc muncuq aşkar olunmuşdur (117, 115). Əqiq muncuqlar əsasən qırmızı, tünd-qırmızı, qəhvəyi rəngli olub, diskşəkilli, dairəvi «doğranmış»dır. Ağ və göy rəngli pastadan hazırlanan muncuqlar isə diskşəkilli, dairəvi, fiqurlu, düzbucaqlı, silindrik formalardadır.

Ilk dəmir dövrünə aid edilən, əqiq, pasta və balıqbulağılardan hazırlanmış çoxlu sayda muncuq düzümləri Xarabagilandan tapılmışdır.

Ağstafa rayonu Pirili kəndi ərazisində (Qabaqtəpə) təsadüfi tapıntılar zamanı aşkar edilmiş donuz dişi və balıqqulağıdan asmalar Arxeologiya fonduna təhvil verilmişdir (30, inv. № 4232-4233).

Son tunc və ilk dəmir dövründə istifadə olunan balıqqulağı-kaurilər Mingəçevirdə II, IV-V kurqanlardan (30, inv. № 11752; 11778, s.q. № 2115/1947; 3099/1947), skeleti bükülü olan torpaq qəbirlərdən (30, inv. № 11899) və təsadüfən (30, inv. № 11499) əldə edilmişdir.

Son tunc və ilk dəmir dövrü Azərbaycan sakinlərinin Ön Asiya və Misir ilə ticarət əlaqələri saxladıqları məlumdur. Bu əlaqələrin mövcudluğu Azərbaycandan tapılan Misir pastasından hazırlanmış muncuqlardan da görünür. Misir pastasından hazırlanmış muncuqlardan biri Qasım Ismayılovdan məlumdur (s.q. № 4/1960).

Şüşə məmulatı istehsalı tunc dövründə, e.ə. III minilliyin sonlarında Mesopotamiyada kəşf olunmuşdur. Bu kəşfin izləri muncuq, silindir möhür, çubuq, divar fayansları və digər kiçik əşyalarda aydın görünür. Ilk mərhələdə şüşə yarıdəyərli və dəyərli daşlara alternativ olaraq istehsal edilmişdir. Odur ki, bütün ilk mərhələ şüşələri şəffaf olmayıb, olduqca parlaq rənglərdə istehsal edilmişdir. Bu zaman şüşə soyuqkən işlənmiş və zərgərlərin istifadə etdiyi texnika ilə kəsilmişdir.

Xanlar materialları içərisində üzərində insan dəfn edilmiş vəl böyük əhəmiyyət kəsb edir. Vəl 2 saylı kurqanın ətrafındakı qəbirlərin birindən (Yakob Hummelin təsvirinə görə IV qəbirdən) aşkar olunmuşdur. Vəlin üzərinə skelet, ətrafına isə ikisi baş tərəfdə, dördü isə ayaq tərəfdə olmaqla altı ədəd qara rəngli gil qab qoyulmuşdur. Yakob Hummel həmin qəbrin təsvirini vermiş və dövrünü son tunc dövrü kimi müəyyən etmişdir (219).

Həmin vəl 1956-cı ildə Azərbaycan Tarixi Muzeyinə həmişəlik verilmişdir. Uzun müddət ekspozisiyada nümayiş etdirilən bu vəlin Arxeologiya fonduda heç bir qeydiyyat sənədi yoxdur. Ekspozisiyadakı vəllər Etnoqrafiya fondunun inventar sayları altında qeyd olunmuşdur. Onlardan birinin tapıldığı yer məlum deyil, ikincisinin isə Qazaxbəylidən olduğu göstərilmişdir. Arxeologiya fondunun müdirlərindən Şərqiyyə Sadıqzadənin məqaləsində həmin vəl haqqında xüsusi bəhs olunsa da onun hansı vəl olduğu hələ də mənə aydın olmur. Ehtimal ki, gələcəkdə bu məsələ də həllini tapacaqdır.

Azərbaycan Tarixi Muzeyində çoxlu sayda sümük, ağac və müxtəlif minerallardan hazırlanmış maddi-mədəniyyət nümunələri mühafizə edilir. Sümük toxalar, bizlər, at qaytarğanları, ox ucları, ağac vəl, müxtəlif muncuqlar və s. Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik olub, bir sıra elmi məsələlərin həllində əsas rol oynayır.

# ARXEOLOJİ MATERİALLARIN FONDDA YERLƏŞDİRİLMƏSİ, TƏDQİQİ VƏ TƏBLİĞİ

## Arxeoloji materialların fondda mühafizə vəziyyəti

Arxeoloji qazıntılar və təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri Azərbaycan Tarixi Muzeyinin baş mühafizə kitabında qeydiyyata alındıqdan sonra müvafiq fondlara verilir. Arxeoloji materialların əsas hissəsi Arxeologiya fondunda toplanmışdır. Bununla yanaşı, Numizmatika, Etnoqrafiya və Xüsusi fondlarında da arxeoloji materiallar mühafizə olunur.

Elə arxeoloji materiallar da var ki, baş inventar kitabında qeyd olunmadan Arxeologiya fonduna verilmişdir. Ümumiyyətlə, tədqiqat zamanı 1950-ci illərin sonlarından bu yana arxeoloji materialların baş inventar kitabına daxil edilməsi işinin zəif aparıldığını müşahidə etmişəm. Hətta elə komplekslər var ki, baş inventar kitabına heç düşməmişdir. Son zamanlar bu mənfi hal demək olar ki, aradan qaldırılmış, Muzeyə gələn yeni materialların baş inventar kitabından keçməsi işi birdəfəlik həll edilmiş, indiyə qədər keçməyən arxeoloji materialların isə tezliklə keçirilməsi nəzərdə tutulmuşdur.

Tarixşünaslığımızda abidə-fond-ekspozisiya əlaqəsi öyrənilmədiyindən Muzey fondları ilə abidə, öz növbəsində ekspozisiya ilə abidə və fond əlaqəsi bir növ qırılmışdır. Fondda işləməyən istənilən tədqiqatçı bu çatışmazlığı görmədiyi kimi, fondda işləyib tarixşünaslıqdan xəbərdar olmayan fond işçisi də buna diqqət yetirmir. Nəticədə, indi daha çox hiss edilən və yaxın gələcəkdə çətinlik yaradacaq materialların çoxluğu içərisində itib-batmış Arxeologiya fondunun maddi-mədəniyyət nümunələri diqqətdən bir növ kənarda qalır. Odur ki, bu tədqiqat işində də Arxeologiya fondu materialları üzərində elmi əhəmiyyətli sistemləşdirmə və ümumiləşdirmə işlərini aparmaqla bu vəziyyətin aradan qaldırılmasına nail olmağın mümkünlüyü prizmasından yanaşılmışdır.

1920-ci ildən başlayaraq təsadüfi tapıntılar və arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş maddi-mədəniyyət nümunələri, arxeoloji materiallar Azərbaycan Tarixi Muzeyi Tarix-etnoqrafiya şöbəsinin Arxeologiya yarımşöbəsinə daxil olmuşdur. 1930-cu ilə kimi bu adla adlanan Arxeologiya

fondu həmin ildən Muzeydə yenidən struktur dəyişikliyi ilə əlaqədar olaraq Azərbaycanın Maddi Mədəniyyəti şöbəsinin tərkibində olmuşdur. 1934-cü ildən Muzeydə şöbələrin yeniləşdirilməsi baxımdan müəyyən işlər görülmüş, qədim və orta əsrləri əhatə edən Vadim Leviatovun rəhbərlik etdiyi feodalizm sektoru yaradılmışdır (33, 3). Qeyd edək ki, həmin şöbə köçəri-maldar təsərrüfatı, yarımköçəri təsərrüfat, oturaq-əkinçi təsərrüfatı, sənətkar kəndi, ticarət şəhəri, sənaye şəhəri (kapitalizm və sosializm formasiyalarına görə) yarımşöbələrinə ayrılırdı (34, 2-3).

Arxeologiya fondunun ilk müdiri Yevgeni Paxomov olmuşdur. Sonralar onu bu vəzifədə Ishaq Cəfərzadə, Vadim Leviatov, Nina Minkeviç-Mustafayeva, Məmmədəli Hüseynov, Şərqiyyə Sadıqzadə əvəz etmişdir. 1974-cü ildən fondun müdiri Gennadi Ağayevdir.

Görkəmli Azərbaycan arxeoloqlarının əməyi sayəsində 23 mindən artıq materialın toplandığı Arxeologiya fondunda daş, mis-daş, tunc, ilk dəmir, antik və orta əsrlər dövrünü xarakterizə edən maddi-mədəniyyət nümunələri mühafizə edilir. Azərbaycan Tarixi Muzeyinin bütün ekspozisiya və sərgilərində fondun arxeoloji materialları da nümayiş etdirilmişdir. Muzeyin 1956, 1980, 2004-cü illərdə ictimaiyyətin üzünə açılmış ekspozisiyalarında Arxeologiya fondunun Azərbaycan tarixinin ən qədimdən son orta əsrlərə qədər dövrünü əhatə edən maddi-mədəniyyət nümunələri arxeologiya elminin son nailiyyətləri əsasında nümayiş etdirilmişdir (19; 9).

Arxeologiya fondunun inventar kitabında ilk maddi-mədəniyyət nümunəsi kimi qədim daş dövrünə aid çaxmaqdaşıdan əmək aləti qeyd olunmuşdur (30, inv. № 1). Fransadan tapılmış həmin əmək aləti 1920-ci il mayın 25-də Aleksandr Benkendorfun evindən qəbul edilmişdir. Benkendorfun kolleksiyasının ardınca Birlinskinin (1920), A.I.Uşkovun (1920), V.Skinderin (1921), Y.Paxomovun (1921) kolleksiyalarındakı maddi-mədəniyyət nümunələri fondun bünövrəsini təşkil etmişdir. Bu maddi-mədəniyyət nümunələri əsasən xarici ölkələrdən aşkar olunmuşdur (73, 171).

Muzeyin yaranmasının ilk illərindən fondların mühafizə işinin sanki arxa planda qalması təəsuratı yaransa da, müəyyən işlər görülmüş, zəif də olsa bərpa və xüsusi inventarlaşdırma aparılmışdır. Bəzi hallarda kameral təsvirlər də verilmişdir. Ishaq Cəfərzadənin fondun müdiri olduğu illərdə isə 1920-ci ildən daxil olmuş bütün arxeoloji materiallar inventarlaşdırılmış, elmi

cəhətdən kameral təsvirləri verilmişdir.

Ishaq Cəfərzadənin Arxeologiya fondunun formalaşması və ümumi fond qaydalarının müəyyən edilməsində rolu böyükdür. O, 1927-ci ildə Muzeyə cəlb edilmiş maddi-mədəniyyət nümunələrinin mühafizəsinin təşkilində səmərəliliyi artırmaq məqsədilə Leninqrada, 1929-cu ildə isə Ukraynaya ezam edilmişdir. Oradakı muzeylər və muzey işi ilə yaxından tanış olan Ishaq Cəfərzadə hətta keramika məmulatlarının təmizlənməsi və yapışdırılması (bərpa edilməsi) işini də öyrənmişdir. Qısamüddətli ezamiyyətdən sonra o, öyrəndiklərini Bakıda, Azərbaycan Tarixi Muzeyində ciddi cəhdlə tətbiq edərək Arxeologiya fondunu ayağa qaldırmışdır (169, 7; 54, 118). 1927-ci ildə Aleksandr Müllerin Qızılburun və Davud Şərifovun Nuxa qəzasından aşkar etdikləri maddi-mədəniyyət nümunələrinin kameral təsviri verilmiş, pasportları tərtib olunmuşdur. Bəzi tunc və saxsı məmulatı təqribi bərpa olunmuş, kimyəvi analizləri aparılmışdır (36, 6). 1928-ci ildə arxeoloji materialların bərpa edilməsi üçün Tarix-etnoqrafiya şöbəsinin nəzdində kiçik laboratoriya da yaradılmışdır. Yenicə yaradılmasına baxmayaraq həmin il bu laboratoriyada 170 ədəd gil qab bərpa edilmiş, 200-ə qədər tunc əşya torpaqdan və kənar maddələrdən təmizlənmişdir (35, 337).

Həmin illərdə arxeoloji materialların mühafizəsi işinə xüsusi diqqət yetirilməyə başlanmışdı. Arxeoloji materiallar (əsasən metal, daş, sümük əşyalar və saxsı məmulatının parçaları, muncuqlar) kartonlar üzərinə bərkidilir, inventar sayları dairəvi, bir növ düymə şəklində, yalnız bu məqsədlə xüsusi hazırlanmış kağızlar üzərində iki dildə (rus və ərəb qrafikası ilə Azərbaycan) qeyd edilir, sapla uyğun materiala bağlanırdı. Bəzən xüsusi tərtib olunmuş kağızlar üzərində inventar göstəriciləri qeyd edilir, yapışqanla materialın üzərinə yapışdırılırdı. Heç bir halda arxeoloji materialın bilavasitə üzərində yazı yazılmırdı. Bəzi hallarda xüsusi qutular hazırlanır, qutunun üst hissəsi içindəki materialı görmək məqsədilə qalın sellofan ilə örtülürdü. Təkcə 1928-ci ildə 1926-cı il Çovdar ekspedisiyasının arxeoloji materialları 62 karton lövhə üzərində montaj edilmiş, 3 qəbirin avadanlığı vitrində yerləşdirilmiş, qalan materiallar Hacı Zeynalabdin Tağıyevin keçmişdə kassasının yerləşdiyi otaqda qurulmuş fond otağında 12 şkafda yerləşdirilmişdir (35, 337).

1935-ci ildən başlayaraq arxeoloji materialların mühafizəsində yeni mərhələ başlayır. Materiallar daha kartonlar üzərinə bərkidilmir, qutulara yığılırdı. Ancaq hələ də mühafizə işi qənaətbəxş deyildi. Ildən-ilə materialların

çoxalması onların mühafizəsini təşkil etməyi xüsusi nəzarətə götürməyi tələb edirdi.

Mühafizə işində dönüş 50-60-cı illərdə başlanmış, arxeoloji materialların ölçüsünə görə xüsusi karton qutular hazırlanmış, nömrələr materialların və qutuların üzərinə yazılmış, hansı abidədən tapılmasından asılı olaraq şkaflarda qruplaşdırılmışdır. Bu işlərin görülməsində Şərqiyyə Sadıqzadənin xüsusi xidməti olmuş, Gennadi Ağayevin rəhbərliyi ilə davam etdirilmişdir. Ancaq məlum olmuşdur ki, bu qutular da effektli deyildir. Zirzəmidə yerləşdirilmiş arxeoloji materialların olduğu qutular bəzi hallarda nəm çəkmiş, son zamanlarda isə zirzəmiyə su dolması nəticəsində tam yararsız hala düşmüşdür.

Ümumiyyətlə, 90-cı illər mühafizə işində tənəzzül dövrüdür. Demək olar ki, heç bir yenilik olmamış, zirzəmidən arxeoloji materialların çıxarılması, yeni arxeoloji materialların təhvil verilməsi və köhnə ekspozisiya materiallarının fonda gətirilməsindən az müddət keçdikdən sonra yenidən ekspozisiyaya göndərilməsi və yeni ekspozisiyanın zənginləşdirilməsi ilə əlaqədar olaraq fondda mühafizə işi aşağı düşmüşdür. Arxeoloji materialların üst-üstə yığılması isə ən acınacaqlı haldır. Son zamanlar Azərbaycan Respublikası prezidenti Ilham Əliyevin sərəncamı ilə Muzeydə aparılan yenidənqurma işlərinə Arxeologiya fondunda mühafizə işinə yenidən baxılması da daxildir.

Norveç krallığı Stavanger Arxeologiya Muzeyində mühafizə işinin əsas təşkilatçısı və mütəxəssisi Bitten Bakke ilə söhbətlər zamanı yaxşı vəziyyətdə olan materiallar üçün xüsusi fond otağının olması, otaqlardakı şkafların təbii taxtadan hazırlanması, otaqda temperaturun aşağı səviyyədə saxlanması, otağın ehtiyac olmadan açılmaması, rütubətin 50-60 % səviyyədə saxlanması, pis vəziyyətdə olan materiallar üçün isə ayrıca otağın ayrılması, həmin materialların konservasiya olunmasından sonra xüsusi otağa keçirilməsi və s. məsləhət görülmüşdür (208).

Ümumiyyətlə, fondun yerləşdiyi otaqların bir daha hər hansı fövqaladə hal baş verməzsə dəyişdirilməyəcəyinə qərar vermək, çarəsizlikdən hazırlanmış şkaf əvəzi taxçaların arxeoloji materialların toplanması məqsədilə düzəldilmiş xüsusi, standartlara uyğun olan, siyirtməli və bütün divarı tutacaq şkaflarla dəyişdirilməsi, arxeoloji materialların tək-tək, xüsusi qutularda yerləşdirilməsi, yeni pasport vərəqlərinin çap edilməsi, nömrələri və məlumatları materialın üzərində gözlə görülməyən və ya çətin görünən yerlərdə qeyd etmək və s. kimi görülməsi vacib olan işlərin yerinə yetirilməsinə ehtiyac vardır. Inanırıq

ki, Azərbaycan Tarixi Muzeyində Azərbaycan Respublikası prezidenti Ilham Əliyevin xüsusi tapşırığı və sərəncamı ilə aparılan bərpa işlərindən sonra fondda yaranmış bu gərginlik halları da aradan qalxacaqdır.

Arxeologiya fondunda arxeoloji materiallar 20 inventar kitabında qeyd olunmuşdur. Bizim tədqiq etdiyimiz tarixi mərhələnin (ən qədim dövrdən e.ə. IV əsrə qədər) arxeoloji materiallarının qeydiyyata alındığı kitabların təsviri aşağıdakı kimidir:

I kitabda maddi-mədəniyyət nümunələri 1120 inventar sayı altında təsvir olunmuşdur (30, inv. № 1-1120). Kitab ilk dəfə tərtib olunmağa başlandığından bəzi çatışmazlıqları olmaqla yanaşı bəzi hallarda elmi baxımdan dolğun təsvirləri ilə maraq doğurur. Bu kitabda əsasən Qəbələ, Yaloylutəpə, Çovdar, Qotul, Nüzgər, Zurnabad, Laçın, Qızılburun, Danagird, Qafqaz Muzeyi, Xocalı, Şamaxı, Şirvanşahlar sarayı və xarici ölkələrdən aşkar olunmuş arxeoloji materialların qeydiyyatı aparılmışdır. I inventar kitabı 1930-cu ildə tamamlanmış, muzey rəhbərliyi tərəfindən son vərəqinə surquclu möhür vurularaq təsdiq edilmişdir.

II kitabda maddi-mədəniyyət nümunələri 514 inventar sayı altında qeyd olunmuşdur (30, inv. № 1121-1635). Burada əsasən Şahtaxtı, Xarabagilan, Qızılburun, Xocalı, Horadiz, Xaçbulaq, Dolanlar, Qafqaz Muzeyi, Ağdam, Tovuz, Şirvanşahlar sarayı, Nuxa-Giləhlidən arxeoloji qazıntılar və təsadüfi tapıntılar nəticəsində aşkar edilmiş materiallar toplanmışdır. Bəzi maddi-mədəniyyət nümunələrinin isə tapıldığı yerlər məlum olmadığından qeyd edilməmişdir (30, inv. № 1214-1218; 1221-1224). Bu kitablarda bəzi arxeoloji materiallar səhvən ikinci dəfə göstərilmişdir. 1940-cı ildə həmin inventar sayları müəyyən edilərək ləğv olunmuşdur.

III kitabda Şahtaxtı (30, inv. № 1636-1641), Qızılburun (30, inv. № 1642-1645; 1714-1801), Qotul (30, inv. № 1646-1667), Bakı (30, inv. № 1669-1677; 1802-1810), Çovdar (30, inv. № 1678-1713; 1812-1850), Dərbənd (30, inv. № 1811) və Xaçbulaq (30, inv. № 1851-1855) arxeoloji materialları 220 inventar sayı altında qeyd olunmuşdur (30, inv. № 1636-1855). Kitab 1938-1939-cu illərdə yazılmışdır. I, II və III inventar kitablarının Ishaq Cəfərzadənin nəzarəti altında tərtib olunduğu içərisindəki qeydlərdən aydın olur.

IV kitabda 1938-ci il Xaçbulaq (30, inv. № 1856-1958) və 1938-ci il Qədim Gəncə (30, inv. № 1968-2328) arxeoloji materialları 468 inventar sayı altında

təsvir olunmuşdur. Arxeoloji materiallarla yanaşı burada ekspozisiyada nümayiş etdirilməsi üçün hazırlanmış arxeoloji abidələrin maketləri də qeydiyyata alınmışdır (30, inv. № 1959-1962). Xaçbulaq materiallarının 1939-cu ildə yazılmasına başlanmış, 23 noyabr 1946-cı ildə bitirilmişdir.

VI kitabda 1941-ci il Uzuntəpə (30, inv. № 3022-3116; 3144), 1955-ci il I Kültəpə (30, inv. № 3239-3489), 1953-cü il I Kültəpə (30, inv. № 3490-3616), VII kitabda 1955-ci il I Kültəpə (30, inv. № 3953-4137), 1955-1956-cı illər Qazaxbəyli (30, inv. № 4207-4260), 1956-cı il Vardanlı (30, inv. № 4274-4946), XII kitabda 1955-ci il Qaratəpə (30, inv. №9982-10075), 1946-cı il Mingəçevir (30, inv. № 10457-10785), XIII kitabda 1946-cı il Mingəçevir (30, inv. № 10786-11894) arxeoloji materialları qeydiyyata alınmış, ümumi təsvirləri verilmişdir. XIII kitabda səhra qeydi kitabındakı qeydlərlə uyğun gəlməyən məqamlar da vardır. Belə ki, bir sıra arxeoloji materialların tapıldıqları yerlər qeyd edilərkən qarışıqlar düşmüşdür. Belə faktlar bu kitabda yetərincədir. Bunun əsas səbəbi az müddətdə bu qədər çox qeydlərin aparılması olmalıdır.

XIV kitabda 1946-cı il Mingəçevir (30, inv. №11895-11951), 1947-ci il Mingəçevir (30, inv. № 11952-12001) və 1949-cu il Mingəçevir (30, inv. № 12002-12035), XV kitabda 1949-cu il Mingəçevir, XVIII kitabda Mingəçevir (30, inv. № 13392-13784), I Kültəpə (30, inv. № 13785-14141; 14143-14144), Daşsalahlı (30, inv. № 14145-14310) və Azıx (30, inv. № 14311-14397) arxeoloji materialları qeydiyyata alınmış, ümumi təsvirləri verilmişdir.

XIX kitabda Azıx (30, inv. № 14398-14677), Gülüstan (30, inv. № 14678-14815), Torpaqqala (30, inv. № 14816-14833), I Kültəpə (30, inv. № 14834-14887), Ismayıllı, Mollaisaqlı, Qalagah, Kənzə, Hacatamlı, Ağsu, Nüydi, Ərəbmehdibəy və Xanlar (30, inv. № 14888-14911; 14921-14947; 14950-15156), Bərdə (30, inv. № 14912), Ovculu (30, inv. № 14913), Yardımlı (30, inv. № 14914), Bakı şəhəri (30, inv. № 14915), Ərkivan (30, inv. № 14916-14917), Ibrahimhacılı (30, inv. № 14918-14919; 14948-14949), Nizami adına Ədəbiyyat Muzeyi (30, inv. № 15157-15173) və Tatlı (30, inv. № 15174) arxeoloji materialları 777 inventar sayı altında qeydiyyata alınmış, ümumi təsvirləri verilmişdir (30, inv. № 14398-15174). Kitabın yazılmasına 23 iyul 1964-cü ildə başlanmış, 27 oktyabr 1972-ci ildə bitirilmişdir. Azıx materialları Muzeyin inventar kitabında qeyd olunsa da görkəmli arxeoloq Məmmədəli Hüseynov ekspozisiyada olmayan materialların hamısını aparmışdır. Həmin

materiallar indi fondda olmasa da inventar saylarının ləğv olunması haqqında heç bir akt tərtib olunmamışdır.

XXVII kitabda 1972-ci il Qarğalartəpəsi (30, inv. № 20963-21384), Əliköməktəpəsi (30, inv. № 21553), 1965-ci il Kəkil, Ceyrançöl və Əlibayramlı (30, inv. № 21559-21563), Azıx (30, inv. № 21564-21581; 21616-21633), Tağlar (30, inv. № 21582-21599), Zar (30, inv. № 21601-21610), Qazma (30, inv. № 21634-21643), Qaracəmirli (30, inv. № 21644-21653; 21743-21746), Küdürlü (30, inv. № 21654-21662), Qusar (30, inv. № 21663), Bəlləbur (30, inv. № 21664), Təzəkənd (30, inv. № 21665), Xarabagilan (30, inv. № 21732), Mingəçevir (30, inv. № 21734; 21736-21737; 21739-21740), Çaylı (30, inv. № 21738), Astanlı (30, inv. № 21750-21762) arxeoloji materialları qeydiyyata alınmış, ümumi təsvirləri verilmişdir.

Inventar kitabları zamanın tələblərinə uyğunlaşdırılmalıdır. Bu, əsasən özünü inventar kitablarının yenidən yazılması və kompüterləşdirmə işinin aparılmasında göstərir. Inventar kitablarının müasir tələblər əsasında yenidən yazılmasını çoxlu sayda inventar saylarının ləğv edilməsi, çox materialların aşağı səviyyədə inventarlaşdırılması, kitabların köhnəlməsi, xeyli materialın dövlət dilində qeyd olunmaması və s. şərtləndirir. Müasir tələblər dedikdə inventar kitablarının kompyuterdə yerləşdirilməsi və yerləşdirilmiş informasiya resusrslarından istifadənin asanlaşdırılması nəzərdə tutulur.

Beləliklə, Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə işinin XX əsrn 20-ci illərindən başlayaraq səmərəli təşkilinə səy göstərilmiş, Ishaq Cəfərzadənin rəhbərliyi ilə böyük işlər görülmüşdür. Daxil olmuş materialların qeydiyyatında və onların yerləşdirilməsində sistem yaradılmışdır. Lakin bir sıra obyektiv və subyektiv səbəblər üzündən baş verən çatışmazlıqlar da vardır ki, bu da özünü daha çox XX əsrin II yarısında əsasən materialların qeydiyyatında göstərmişdir. Xeyli materiallar nə Azərbaycan Tarixi Muzeyinin baş inventar kitabından, nə də Arxeologiya fondunun inventar kitabından keçmişdir. Hətta Arxeologiya fondunun bəzi inventar kitabları tərtib olunsa da onlar heç kim tərəfindən təsdiq olunmamışdır. Son illərdə qeydiyyat işlərində irəliləyiş olsa da hələ ki, qənaətbəxş deyildir. Bu sahədə dönüş yaratmaq üçün hər şeydən əvvəl planlı işə ehtiyac vardır.

## Muzey arxeoloji materiallarının elmi tədqiqi

Azərbaycan Tarixi Muzeyi yarandığı vaxtdan bu və digər səviyyədə fondların materialları elmi cəhətdən öyrənilir, təhlil edilir, mühafizə və bərpa olunur, ekspozisiyada nümayiş etdirilir, həmçinin materiallar üzərində elmi-tədqiqat işləri aparılır və nəşrə hazırlanır.

Azərbaycan Tarixi Muzeyinin ilk nəşri 1927-ci ildə «Azqosmuzeyin materialları» adı altında Davud Şərifovun səyi nəticəsində reallaşmışdır (196). I buraxılış Azərbaycan Tarixi Muzeyinin Nuxa qəzasında apardığı qazıntıların elmi hesabatı mahiyyətindədir. Həmin qazıntıların materialları antik və orta əsrlərə aid edilmişdir. Təəssüf ki, uzun müddət bu nəşrlərin davamı olmamışdır.

Azərbaycan Tarixi Muzeyi Muzeydə toplanılmış maddi-mədəniyyət nümunələrini elmi cəhətdən öyrənmək və tədqiq etmək məqsədilə 1949-cu ildə «Azərbaycanın maddi-mədəniyyəti» adlı məqalə və hesabatlar toplusunun nəşrinə başladı. Üç cildi Azərbaycan Tarixi Muzeyinin adı ilə nəşr olunmuş bu toplunun nəşr olunmasına təkan verən amil Azərbaycan Tarixi Muzeyinin Mingəçevirdə apardığı arxeoloji qazıntılarla sıx bağlıdır. Təsadüfi deyil ki, bu ilk üç nəşr bilavasitə Mingəçevir qazıntılarına həsr edilmişdir. Bununla yanaşı, topluda Dolanlar, Şirvanşahlar sarayı kimi abidələrin də həfriyyatı haqqında maraqlı elmi məqalələr vardır. Arxeoloji materiallarla yanaşı, etnoqrafik və numizmatik mövzularda da elmi məqalələr topluya salınmışdır. Rus dilində yazılmış hər bir məqalənin sonunda Azərbaycan dilində geniş xülasə verilmişdir.

«Azərbaycanın maddi-mədəniyyəti» toplusunun I cildi 1949-cu ildə nəşr edilmişdir. Topluda Mingəçevir ekspedisiyanın rəhbəri Saleh Qazıyevin 2 məqaləsi nəşr olunmuşdur. Bu məqalələrdən biri 1941-ci il, digəri isə 1946-1948-ci illərin qazıntılarına həsr edilmişdir (87). Qeyd etmək lazımdır ki, Azərbaycan tarixinin öyrənilməsində Saleh Qazıyevin bu məqalələrinin özünəməxsus yeri vardır. Bu məqalələrdən tarixi dövrləşdirmələrin aparılmasında geniş istifadə olunur.

I cilddəki qədim dövrün arxeoloji materiallarından bəhs edən digər məqalə Nina Minkeviç-Mustafayevaya məxsusdur (172). Həmin məqalə hələ 1930 və 1933-cü illərdə Xocavənd royonunun Dolanlar kəndində təsadüfən aşkar olunmuş maddi-mədəniyyət nümunələrinin təsnifatından

bəhs edir. Ümumi məlumat verildikdən sonra arxeoloji materiallar qolbaqlar, üzüklər, sırğalar, muncuqlar, asmalar, güzgü, toqqalar, tunc lövhədən əşyalar, dingələr, boyunbağı, gəm, tunc bəzəklər, başlıqlar, dəmir nizələr və bıçaqlar kimi qruplaşdırılmışdır. Məqalənin sonunda sonralar əhəməni tipli olduğu müəyyən edilən tunc qab haqqında ayrıca bəhs olunmuşdur. Nina Minkeviç-Mustafayeva Dolanlar materiallarını düzgün olaraq silahların dəmirdən, bəzək şeylərinin tuncdan hazırlanmasına əsaslanaraq dövrləşdirsə də, səhvən e.ə. VI-I əsrlərə aid etmişdir. Ümumilikdə bu məqalə Dolanlar materialları haqqında ilk və tək əsər olduğundan böyük əhəmiyyət kəsb edir.

Nina Minkeviç-Mustafayevanın bu cilddəki ikinci məqaləsi 1941-ci il Mingəçevir qazıntılarına həsr olunmuşdur (173). Bu məqalədə Kür çayının sağ sahilindəki qəbiristanlıqda açılmış iki torpaq qəbirdən bəhs olunmuş, onların avadanlığı təsnif və təhlil edilmiş, dövrləri müəyyənləşdirilmişdir.

1951-ci ildə nəşr edilmiş «Azərbaycanın maddi-mədəniyyəti» toplusunun II cildində I cilddən fərqli olaraq hesabat xarakterli məqalələrdən daha çox elmi təhlillər və təsnifatların aparıldığı məqalələr toplanmışdır. Bu məqalələr böyük elmi əhəmiyyətə malik olub, öyrəndiyimiz dövrün dəyərli mənbələridir.

Saleh Qazıyevin əsasən Mingəçevirin tunc və dəmir dövrü silahlarından (84), Qavril Ionenin Mingəçevirdə müxtəlif dövrləri əhatə edən üç növ dulusçuluq kürəsindən (152), Tamara Qolubkinanın Mingəçevirin müxtəlif dövrlərə aid zoomorf saxsı məmulatından (132) bəhs edən məqalələri indi də tədqiqatçıların stolüstü materialıdır.

Muzeyin hazırladığı «Azərbaycanın maddi-mədəniyyəti» toplusunun III cildi 1953-cü ildə nəşr olunmuşdur. Bu topluda arxeoloji materiallardan bəhs edən Qavril Ionenin «Mingəçevirdə gildən hazırlanmış ayaqqabı şəkilli qablar» (154), Qardaşxan Aslanovun «Mingəçevirdə tapılmış daş alətlər» (115), V.Fomenkonun «Mingəçevirdə 63 nömrəli torpaq qəbir» (191), Qavril Ionenin «Mingəçevirdə tapılmış «skif» tipli müxtəlif ox ucları» (153) məqalələri toplanmışdır.

Azərbaycan Tarixi Muzeyi III cildin nəşrindən sonra elmi toplusunu «Azərbaycan tarixinə dair materiallar» adı ilə nəşr etmişdir. «Azərbaycanın maddi-mədəniyyəti» toplusunun nəşri isə 1962-ci ildən başlayaraq Azərbaycan SSR EA Tarix Institutu tərəfindən davam etdirilmişdir.

«Azərbaycan tarixinə dair materiallar» toplusunun II cildi 1957-ci

ildə nəşr olunmuşdur. Topluda Muzeyin Azərbaycan tarixinin ən qədim zamanlardan X əsrə qədər dövrünü əhatə edən ekspozisiyasına həsr edilmiş 1956-cı il mart elmi sessiyasının məruzə və xəbərləri toplanmışdır. Burada Məmməd Qazıyevin «Azərbaycan Tarixi Muzeyinin ən qədim zamanlardan X əsrə qədər olan dövrü əhatə edən ekspozisiyanın elmi əsasları və vəzifələri» (84), Aleksandr Iessenin «1953-1955-ci illər Örənqala ekspedisiyanın Azərbaycan tarixinə aid əldə etdiyi yeni materiallar» (151), Məmmədəli Hüseynovun «Azərbaycanda daş dövrünün öyrənilməsi» (138), Osman Həbibullayevin «Kültəpə arxeoloji qazıntılarının ilk nəticələri» (107), V.Fomenkonun «Mingəçevir arxeoloji qazıntılarından tapılmış «bir-biri ilə əlaqəli» qablar» (192), Şərqiyyə Ishaqova «Muzeyin arxeoloji materialları ilə XIX-XX əsrlər Azərbaycan etnoqrafiyası arasındakı əlaqə haqqında» (77), Teymur Bünyadov və Məmmədəli Hüseynovun «1955-ci ildə Ağstafa və Qazax rayonlarında aparılan arxeoloji qazıntıların nəticələri» (127) məqalələri tədqiq etdiyimiz dövrün əsas elmi bazasını təşkil edir.

«Azərbaycan tarixinə dair materiallar» toplusunun III cildi 1960-cı ildə nəşr olunmuşdur. Bu toplunun «Məqalələr və xəbərlər» bölməsində Məmməd Qazıyevin «Azərbaycan SSR Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyi respublikanın mühüm elmi-tədqiqat və mədəni-maarif ocağıdır» (83), Məmmədəli Hüseynovun «Daş dövrünün əmək alətləri (arxeoloji fondun materiallarına əsasən)» (139), «Ekspedisiyalar və elmi səfərlər haqqında hesabat» bölməsində Güllü Əbilovanın «1957-ci ildə Gədəbəy rayonunda aparılmış arxeoloji ekspedisiyanın qısa hesabatı» (109), Şərqiyyə Sadıqzadənin «Xızı, Xaçmaz və Xudat rayonlarına elmi ezamiyyət haqqında (qısa hesabat)» (100), «Muzey işçilərinin I Respublika seminarının materialları» bölməsində Əhməd Hüseynovun «Muzeylərdə eksponatların toplanılması və fond işlərinin təşkili haqqında» məqaləsi verilmişdir. Bu məqalələr bütünlüklə Muzeyin arxeoloji materialları, ekspedisiyaları və Arxeologiya fondu ilə bağlıdır.

«Azərbaycan tarixinə dair materiallar» toplusunun sonrakı saylarında arxeoloji materialların öyrənilmə və tədqiq edilməsinə həsr olunmuş məqalələr zəngin Arxeologiya fondu qarşısında çox azdır. Belə ki, 1963-cü ildə nəşr olunmuş VI cilddə Şərqiyyə Sadıqzadənin «Yardımlı rayonundan tapılmış arxeoloji materiallar» (35), Rauf Məmmədovun «Naxçıvan şəhərinin X-XII əsrlər tarixindən» (141), 1968-ci ildə nəşr olunmuş VII

cilddə Şərqiyyə Sadıqzadənin «Xaçbulaqda Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin tədqiqi (1962-1963-cü illər)» (35), 1973-cü ildə nəşr olunmuş VIII cilddə Şərqiyyə Sadıqzadə və Nina Minkeviç-Mustafayevanın «Heyvan və quş fiqurlu qədim Azərbaycan bəzəkləri» (186) məqalələri verilmişdir. Göründüyü kimi, arxeoloji materialların Muzeydə işlənilməsi səviyyəsi bu dövrdə xeyli aşağı düşmüşdür.

1971-ci ildə Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun müdiri Şərqiyyə Sadıqzadənin son tunc və ilk dəmir dövrünün bəzək əşyalarının tədqiqatına həsr olunmuş «Qədim Azərbaycan bəzəkləri» kitab-albomu nəşr olunmuşdur (99). Kitab-albom Azərbaycan tarixinin öyrənilməsində və Muzey materiallarının təbliğ olunmasında mühüm əhəmiyyətə malikdir. Əsər üç dildə – Azərbaycan, rus və ingilis dillərindədir. Şərqiyyə Sadıqzadənin uzun illər gərgin elmi tədqiqatları bu əsərdə öz dəqiq, dolğun və konkret yerini tutmuş, rəngli tablolarla daha da zənginləşmişdir.

Bundan başqa, Muzeydə toplanmış qiymətli metallardan bəhs edən, Xəzər dənizində aparılmış tədqiqatların nəticələrini ümumiləşdirən və Arxeologiya fondu maetillarının ümumi şəkildə təsvirləri verilən rəngli şəkilli üç ədəd kataloq da nəşr olunmuşdur (118). Bu gün bir çox internet səhifələrində, Azərbaycandan bəhs edən ümumiləşdirilmiş işlərdə məhz həmin kataloqların şəkillərindən və məlumatlarından istifadə olunur.

1998-ci ildə Muzeyin yenidən dirçəlməsində xüsusi əməyi olmuş AMEA-nın müxbir üzvü Nailə Vəlixanlının direktor təyin edilməsindən sonra bilavasitə onun səyi nəticəsində Muzeydə elmi-tədqiqat işinin səviyyəsi yüksəlmişdir. Bu yüksəlmədən Arxeologiya fondu arxeoloji materialları da öz nəsibini almışdır. Belə ki, 2001-2005-ci illərdə nəşr olunmuş «Azərbaycan Tarixi Muzeyi» adlı toplularda arxeoloji materialların öyrənilməsinə xüsusi diqqət yetirilmişdir (106).

Arxeologiya fondunda mühafizə edilən zəngin arxeoloji materiallar gənc Azərbaycan arxeoloqlarının, tarixçi alimlərin və tarixlə maraqlanan ziyalıların diqqət mərkəzindədir. Müxtəlif institutların aspirantları, elmi işçilər tez-tez fonda gəlir, onları maraqlandıran arxeoloji materiallarla yerindəcə tanış olurlar.

Bununla yanaşı, Arxeologiya fondunun arxeoloji materialları xarici ölkə tədqiqatçılarının diqqətini də cəlb etdiyindən, onlar mütamadi olaraq fonda gəlmiş, tapıntılar haqqında məlumat və məsləhət almışlar. Fonda gələn

xarici ölkə alimlərindən bəziləri bunlardır: Rusiyanın adlı-sanlı alimləri – Qafqazın mis-daş və tunc dövrü tarixinin, Kür-Araz mədəniyyətinin görkəmli tədqiqatçısı Rauf Munçayev (175), V.M.Masson, Q.Kuşnaryeva, A.Yerusalimskaya, antik və ilk orta əsrlər dövrü, o cümlədən qədim fibulalar üzrə mütəxəssis Anatoli Ambroz (113), Ural və Ural ətrafının paleolitdən son orta əsrlərə qədər uzun bir tarixi dövrünü tədqiq edən Otto Bader (123), I.I.Artemnikov, V.A.Safronov, I.I.Koropkov, B.Q.Yerisyan, Şərq incəsənətinin görkəmli tədqiqatçısı T.X.Starodub, V.P.Lyubin, O.M.Davudov, T.B.Kiquradze, D.D.Qoqeliya, K.M.Esakiya, T.Sakfaralidze, V.E.Artilakva, Q.Mirtsuxulava, M.Z.Ketsxoveli, M.V.Menabde, M.A.Zamtaradze (Gürcüstan), Cənubi qafqaz tunc dövrü maddi mədəniyyət abidələrini öyrənən, əslən erməni olan Karen Rubinson (ABŞ, Kolumbiya universiteti), R.Renada (Gettingen), M.Deka (Polşa), K.Yan (Avstriya), M.Klisskiy (Çexoslovakiya), A.Xocagəldiyev (Türkmənistan), Hindistanın qədim dövr tarixinin tədqiqatçısı, professor Ram Şarman Şarma və başqaları. Həmçinin fondun seçmə materialları bir sıra xarici ölkələrdə (Fransa, Hollandiya və b.) «Azərbaycanın maddi-mədəniyyəti» adlı sərgilərdə nümayiş etdirilmişdir.

Beləliklə, Azərbaycan Tarixi Muzeyində arxeoloji materialların tədqiqinə xüsusi diqqət yetirilmiş, elə ilk illərdən nəşrlərə başlanmışdır. Bu sahədə Davud Şərifov və Ishaq Cəfərzadənin başlatdığı elmi fəaliyyət Muzeydə ənənə halını almış, hətta XX əsrin 50-ci illərində «Azərbaycanın Maddi Mədəniyyəti» topluları ilə daha da genişlənmişdir. Arxeoloji materiallar «Azərbaycan tarixinə dair materiallar» toplusunun ilk cildlərində oxucuların diqqətinə qabarıq şəkildə çatdırılsa da, onların Muzeydə tədqiqi həmin toplunun sonrakı cildlərində aşağı səviyyəyə düşmüşdür. Muzeyin elmi işçiləri toplularla yanaşı, arxeoloji materialların təhlil və əsasən rəngli təsvirlərinin verildiyi kataloqlar da hazırlamışlar. Hazırda «Azərbaycan Tarixi Muzeyi» adı ilə nəşr olunan Muzey toplusunda Arxeologiya fondunda mühafizə edilən arxeoloji materialların tədqiqinə xüsusi diqqət yetirilir və bu işə bütün fond işçiləri cəlb edilir.

## Arxeoloji materialların ekspozisiyada, sərgilərdə nümayişi və təbliği

Azərbaycan Tarixi Muzeyi əsas elmi-tədqiqat mərkəzlərindən olduğu kimi, Azərbaycan tarixinin təbliğ edilməsində də mühüm rola malikdir. Təbliğ olunma işinin əsasında elmi ekspozisiya və sərgilərin təşkil olunması durur. Odur ki, 1920-ci ildən başlayaraq Muzeydə toplanan maddi-mədəniyyət nümunələri kiçik elmi ekspozisiya və sərgilərdə nümayiş etdirilmişdir (24).

1935-ci ildə Muzeyin direktoru Mövsüm Salamov Muzeyin tarixi haqqında qısa məlumat xarakterli məruzəsində qeyd edir ki, «1930-cu ilə qədər Muzey burjua muzeylərində olduğu kimi materialların toplanması və onların nümayişi ilə məşğul olmuşdur» (34, 2). I Muzeylər qurultayından sonra isə Azərbaycan Dövlət Muzeyinin ekspozisiyasının dialektik materializm əsasında yenidən qurulması planlaşdırılmış və xeyli işlər görülmüşdü (34, 3).

Arxiv sənədlərindən aydın olur ki, 1934-cü ildə Azərbaycan Tarixi Muzeyində beş sərgi təşkil olunmuşdur. Onlardan ən maraqlısı fars şairi Firdövsinin yubiley sərgisi idi (34, 4).

1937-ci ildə Azərbaycan Tarixi Muzeyi Böyük Sosializm Inqilabının 20 illiyinə həsr edilmiş sərgi hazırlamışdır. Sərgi Şirvanşahlar sarayında təşkil edilmişdir. Həmin sərginin «Azərbaycanın arxeoloji mədəniyyəti» bölməsində o dövrün son nailiyyətləri əsasında Xocalı və Qızılburun mədəniyyətinə aid nümunələr, Mingəçevir və Örənqalanın yenicə aşkar edilmiş tapıntıları, Qəbələ və Qədim Gəncə materialları nümayiş etdirilmişdir (129; 157, 46).

1941-ci ildə SSRI Elmlər Akademiyası Azərbaycan filialının təşkil etdiyi «Azərbaycanın X-XIII əsr şəhərlərinin tarixi»nə dair sərgidə Muzeyin orta əsrlərə aid Qədim Gəncə (1938-40), Bərdə, Örənqala materialları ilə yanaşı, Dolanlar və Uzuntəpə abidələrindən aşkar olunmuş arxeoloji materiallar da nümayiş etdirilmişdir.

1956-cı ildə Muzeyin direktoru Məmməd Qazıyevin rəhbərliyi altında ilk geniş həcmli elmi ekspozisiya açılmışdır. Bu ekspozisiya ən qədim zamanlardan X əsrə qədər olan dövrü əhatə edən əsl muzey eksponatları əsasında 28 zalda qurulmuşdur.

Ekspozisiyanın giriş zalında əsas və köməkçi eksponatlar Azərbaycanın təbii sərvətləri və coğrafi şəraitinə həsr edilmişdir. Burada Arxeologiya

fondunun həm Binəqədi gölündən tapılmış vəhşi at, öküz və kərgədanın kəllə sümüklərindən, həm də Qıraq-Kəsəməndən (Ağstafa) aşkar edilmiş cənub filinin baldır və omba sümüklərinin daşlaşmış qalıqlarından ibarət maddi-mədəniyyət nümunələri nümayiş etdirilmişdir (91, 7).

Daş və mis-daş dövrləri arxeologiya elminin XX əsrin 50-ci illərindəki son nailiyyətləri əsasında təqdim edilmişdir. Belə ki, həm Daşsalahlı, həm də I Kültəpə abidələri elmə yenicə məlum olmuş və ilkin materialları (çaxmaqdaşıdan və dəvəgözüdən əmək alətləri) ekspozisiyaya cəlb edilmişdir. Burada həmçinin Xanlar, Şəmkir, Naxçıvan şəhərindən arxeoloji materiallar da nümayiş etdirilmişdir. Qeyd etmək lazımdır ki, bəzi mis-daş dövrü və Kür-Araz mədəniyyətinə aid I Kültəpə materialları isə yanlışlıqla neolit dövrü tapıntıları adı altında təqdim edilmişdir (91, 52-53). Daş dövrünü daha uğurlu nümayiş etdirə bilmək üçün S.N.Canaşia adına Gürcüstan Dövlət Muzeyi Sakajia və Mqvimevi abidələrindən tapılmış daş əmək alətlərini 9 inventar sayı altında Azərbaycan Tarixi Muzeyinə bağışlamışdır.

Tunc dövrü zalında e.ə. III-I minilliklərə aid edilən maddi-mədəniyyət nümunələri nümayiş etdirilmişdir. Tunc dövrünü, dövrün əsas hadisəsi olan tuncun istehsalını, əkinçilik və maldarlığın inkişafını göstərən arxeoloji materialların nisbətən çoxluğu bu dövrü daha yaxşı xarakterizə etməyə şərait yaratmışdır. Şəmkir və Mingəçevirdən tunc alətlər tökmək üçün daş qəliblərin tapılması yerli tunc istehsalının olduğu haqqında fikirləri qüvvətləndirmişdir. Xocalı kurqanından tapılmış gil qabın üzərindəki buğda yapması, Xanlardan aşkar edilmiş üzərində skelet olan vəl əkinçiliyin inkişafının dəlillərindən biri kimi göstərilmişdir (91, 12). Azərbaycanda tunc dövrü əkinçiliyinin inkişafını göstərən tapıntılar içərisində buğda dənələri, un qalıqları, dən daşları da xüsusilə maraqlıdır.

1956-cı il ekspozisiyasında Ismayıllı, Mingəçevir, Uzuntəpə, Dolanlardan tapılan at gəmləri və at bəzəkləri tunc dövründə maldarlığın, xüsusilə atçılığın inkişafından xəbər verən maddi-mədəniyyət nümunələri kimi nümayiş etdirilmişdir. Köçəri maldarlığın elementləri Mingəçevirdən tapılan gil araba modellərində də izlənilir (91, 12).

Dövrün silahları öz müxtəlifliyi və rəngarəngliyi ilə seçilir. Burada nizə ucluqları, qılınclar, xəncərlər, baltalar, yabalar, toppuzlar, əsa, nizə və xəncər başlıqları, ox ucluqları nümayiş etdirilir.

Elmi muzey ekspozisiyası cəmiyyətin və xalqın tarixinin əsl muzey

eksponatları əsasında, onun bünövrəsini təbii-coğrafi, arxeoloji (əsli və ya maket şəklində), etnoqrafik sənədlər və habelə bir sıra köməkçi eksponatlar (xəritə, sxem, tablo və s.) üzərində qurulmuşdur. Muzey, Azərbaycan tarixi məsələlərini qəti və konkret elmi məzmunda izah etmək məqsədilə öz ekspozisiyasını formaca kütləvi qurmuş, ayrı-ayrı faktların və hadisələrin daha əyani və aydın şəkildə nümayiş etdirilməsinə çalışmışdır.

Ekspozisiyanı daha maraqlı faktlarla canlandırmaq və tamaşaçılara çatdırmaq üçün köməkçi vasitələrdən – maketlər, şəkillər, mulyajlardan istifadə edilmişdir. Həmin vasitələr məhz bu məqsədlə yaradılmışdır. Xanlarda tunc dövrünün təsərrüfat evi (müəllifi: A.I.Şeçkov; inv. № 3221), Daşsalahlı mağarası (müəllifi: A.I.Şeçkov; inv. № 3145), Qobustan qayaları üzərində keçi təsvirləri (müəllifi: A.I.Şeçkov; inv. № 3146), Xaçbulaq qədim siklop tikintisi (müəllifi: A.I.Şeçkov; inv. № 3222), Mingəçevirdə katakomba qəbri (müəllifi: A.I.Şeçkov; inv. № 3223), Mingəçevir qazıntılarının stratiqrafiyası (müəllifi: Əlimuxtar; inv. № 3235) kimi maketlər, qədim Binəqədi gölünün təbiət tarixinin təsviri (müəllifi: H.Cabbarlı; inv. № 3219) kimi rəsm əsərləri tarixin öyrənilməsində əyani vəsaitlər olub, məhz arxeoloji tapıntılar əsasında düzəldilmişdir.

Həmin dövrlərdə Azərbaycanın iqtisadi cəhətdən inkişafı ilə yanaşı, xalqın siyasi və mədəni tarixinə, azərbaycanlıların əcdadı hesab edilən midiyalıların, atropatenlərin və albanların Assuriya, Roma, Sasani və Ərəb işğalçılarına qarşı apardığı mübarizələr də qabarıq göstərilməyə çalışılmışdır. Azərbaycanın bu dövrə aid olan zəngin maddi-mədəniyyət abidələri, ərazinin ən qədim zamanlardakı tarixi və inkişafı haqqında əyani təsəvvür yaradılmışdır (84, 8).

Ekspozisiyanın əsasını Mingəçevirdə, Örənqalada, I Kültəpədə, Xocalıda və digər rayonlarda arxeoloqların, etnoqrafların, tarixçilərin mühüm tədqiqat işləri nəticəsində əldə etdikləri külli-miqdarda arxeoloji abidələr təşkil edir. Ekspozisiyada əsl muzey eksponatları ilə yanaşı verilən tarixi hadisələrin və iqtisadi əlaqələrin xəritəsi, Azərbaycan tarixinə aid mühüm hadisələrin sxemi, tablolar, maketlər və s. bu kimi köməkçi materiallar ekspozisiyanı Azərbaycan tarixinə həsr edilmiş illüstrasiyalar ilə tamamlayır.

Uşaqların təlim və tərbiyəsində Azərbaycanın maddi mədəniyyətini xarakterizə edən arxeoloji materialların xüsusi əhəmiyyətini nəzərə alaraq həm məktəblərdə, həm də uşaq evlərində təşkil olunan sərgilərə Arxeologiya fondu müvəqqəti olaraq dublet materiallarını təqdim etmişdir.

Arxeologiya fondunun bəzi materialları tarix-diyarşünaslıq muzeylərinin sərgilərində də nümayiş etdirilmək üçün müvəqqəti olaraq verilmişdir (20). Qeyd etmək lazımdır ki, 1957-ci ildə Gəncə Muzeyinə 11 inventar sayı altında qeyd olunmuş Naxçıvan, Çovdar və Mingəçevirin müxtəlif gil qabları, 1958-ci ildə Naxçıvan Muzeyinə 7 inventar sayı altında qeyd olunmuş I Kültəpənin daş və gil məmulatları, 1959-cu ildə Quba Muzeyinə 8 inventar sayı altında qeyd olunmuş Xudat və Xaçmaz rayonlarından aşkar edilən tunc dövrünə aid gil qablar və tunc boyunbağı təqdim edilsə də həmin arxeoloji materiallar hələ də geri qaytarılmamışdır.

1958-ci ildə Azərbaycan Tarixi Muzeyi Nuxa Tarix-Diyarşünaslıq Muzeyinin yaradılmasında yaxından iştirak etmişdir. Bu məqsədlə Arxeologiya fondundan 77 inventar sayı altında qeyd olunmuş dublet materiallar ayrılmışdır. Govurqala (Qəbələ), Giləhli (Nuxa), Mingəçevir, Çayboğazı (Ağdaş), Şəfili (Qəbələ) abidələrindən əldə edilmiş maddi-mədəniyyət nümunələri və 1924-cü ildə Leninqrad arxeologiya texnologiyası emalatxanasından Azərbaycan Tarixi Muzeyinə göndərilmiş mulyajların bir hissəsi həmişəlik Nuxa Muzeyinə verilmişdir.

Azərbaycan Tarixi Muzeyi 1966-cı ildə Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinə 14 inventar sayı altında tunc, dəmir və gildən olan arxeoloji materialları həmişəlik bağışlamışdır (20). Bu maddi-mədəniyyət nümunələri Pokrovka (Cəlilabad), Dəlləkli və Bozayran (Yardımlı) kəndlərindən təsadüfi tapıntılar nəticəsində aşkar olunmuş, Azərbaycan Tarixi Muzeyinə daimi mühafizə üçün təqdim edilmişdir (102; 103).

1967-ci ildə Mingəçevir Tarix-Diyarşünaslıq Muzeyinə hamısı Mingəçevirdən aşkar edilmiş və 39 inventar sayı altında qeyd olunmuş dublet materiallar təqdim olunmuşdur (20).

Azərbaycan Tarixi Muzeyinin arxeoloji materialları xarici ölkələrdə SSRİ xalqlarının qədim maddi-mədəniyyətini göstərmək üçün təşkil edilmiş sərgilərdə də layiqincə nümayiş etdirilmişdir. 1959-cu ildə Nyu-Yorkda keçirilən «Sovet Ittifaqında elm və mədəniyyətin nailiyyətləri» sərgisində nümayiş etdirilmək üçün Arxeologiya fondundan 10 inventar sayı altında qeyd olunan Mingəçevir, Örənqala, Çovdar və Bakıdan aşkar edilmiş maddi-mədəniyyət nümunələri ayrılmışdır. London və Paris sərgilərində isə Arxeologiya fondunda mühafizə edilən Mingəçevir, Çovdar, Naxçıvan, Bakı və Qasım Ismayılov kəndindən aşkar olunmuş maddi-mədəniyyət

nümunələrinin əsli deyil, şəkilləri və mulyajları nümayiş etdirilmişdir.

1966-cı ilin aprel-iyun aylarında Hollandiyanın Haaqa şəhərində keçirilən «SSRI arxeologiyası» sərgisində Azərbaycan Tarixi Muzeyinin arxeoloji materialları da nümayiş etdirilmişdir. Əsasən Mingəçevir, Çovdar, Xaçbulaq, Uzuntəpə, Dolanlar, Qəbələ, Xanlar, Qızılburun, I Kültəpə, Şomutəpə, Mollaisaqlı, Qədim Gəncə, Örənqala, Qəbələ abidələrindən aşkar olunmuş maddi-mədəniyyət nümunələri 102 inventar sayı altında qeyd olunmuş və bu sərgiyə cəlb edilmişdir. Xüsusilə tunc əşyalara əsas yer verilmişdir. Materialların seçilməsində SSRI EA Tarix Institutunun elmi işçisi I.I.Artemenko da iştirak etmişdir. Lakin seçilmiş eksponatlardan 45 inventar sayı altında qeyd olunanı sərgidə nümayiş etdirilmədən geri qaytarılmışdır. Bu, görünür, materialların çoxluğu ilə əlaqələndirilmişdir.

1970-ci ildə Azərbaycan SSR-nin 50 illiyinə həsr olunmuş «Elm» sərgisində 9 inventar sayı altında qeyd olunmuş arxeoloji materiallar nümayiş etdirilmişdir. Mingəçevir, Bərdə və Şəki arxeoloji materialları ilə yanaşı, Muzeyin Sualtı Arxeologiya ekspedisiyasının tapıntıları da sərgiyə cəlb olunmuşdur.

1971-ci ildə Azərbaycan Tarixi Muzeyində «Azərbaycanın maddi-mədəniyyəti» mövzusunda sərgi keçirilmişdir. Sərgidə həm Muzeyin, həm də Tarix Institutunun arxeoloji materialları nümayiş etdirilmişdir. Arxeologiya fondu həmin sərgiyə 98 inventar sayı altında qeyd olunmuş arxeoloji materiallarını ayırmışdır.

1973-cü ildə Azərbaycan Tarixi Muzeyi 12 inventar sayı altında qeyd olunmuş Mingəçevir və I Kültəpənin arxeoloji materiallarını Azərbaycan Kənd Təsərrüfatı Muzeyinə öz ekspozisiyasında nümayiş etdirmək üçün müvəqqəti olaraq vermişdir.

Azərbaycan Tarixi Muzeyi ikinci elmi ekspozisiyasını 1980-ci ildə açmışdır. Muzeyin direktoru Püstə xanım Əzizbəyovanın rəhbərliyi altında şöbə və fondların elmi əməkdaşlarından təşkil olunmuş işçi qrupun gərgin əməyi sayəsində yeni maraqlı ekspozisiya yaradılmışdır. Bu ekspozisiya zamanı Arxeologiya fondunun materialları beş zalda nümayiş üçün yerləşdirilmişdir. Ən qədim dövrdən e.ə. IV əsrə qədərki tarixi mərhələnin arxeoloji materialları isə ilk üç zalda nümayiş etdirilmişdir.

I zalda daş dövrünün bütün mərhələlərinin (qədim daş, orta daş, yeni-daş və mis-daş dövrləri) əhatə edilməsinə çalışılmışdır. Burada qədim Azərbaycan

sakinlərinin Azıx və Daşsalahlı-Damcılı mağara düşərgələrindən, I Kültəpə, Şomutəpə, Abşeron və Təpəyatağı yaşayış yerlərindən aşkar olunmuş dəvəgözü və çaxmaqdaşıdan müxtəlif əmək alətləri, tam işlənməmiş təbii daş nukleus və xammallar, qəlpələr, osteoloji qalıqlar (mağara ayısı, balıq və başqa heyvanların sümükləri), mikrolitlər, daş toxa, oraq, gürz, balta, isgənə, dən daşı və həvəngdəstələr, sümük toxa, oraq, biz, gil qablar və iri küplər, üzərində müxtəlif təsvirlər olan qaya parçaları və s. nümayiş etdirilmişdir.

1980-ci il ekspozisiyasının aktına diqqət yetirdikdə I zalda daş dövrü ilə tunc dövrü maddi-mədəniyyət nümunələrinin ayrılmadığı, bir növ qarışıq düşdüyü nəzərə çarpır. Digər uyğunsuzluq isə arxeoloji materialların səhra qeydi sayı ilə və ya heç bir qeydiyyat sayı olmadan ekspozisiyaya verilməsidir (aktda sıra sayı 1-148). Bu, onu göstərir ki, həmin maddi-mədəniyyət nümunələri inventar kitabında qeyd olunmamışdır. Bu, sonralar çox lüzumsuz dəqiqləşdirmə işlərinin aparılmasına imkan vermiş, bəzən isə bu dəqiqləşdirmələr layiqincə yerinə yetirilməmişdir. Məsələn: həmin aktda birinci say altında qeyd olunmuş çaxmaqdaşıdan əmək aləti (s.q. № 2/14) əslində Azıxdan deyil, Daşsalahlıda II kolleksiyadandır. Məlumdur ki, Azıxda qazıntılar 1960-cı ildən aparılmışdır. Amma, burada həmin maddi-mədəniyyət nümunəsinin tapıldığı yer və il «Azıx, 1958-ci il» kimi göstərilmişdir (9, 1). 2004-cü il ekspozisiyasını hazırlayanlar da 1980-ci il ekspozisiya aktına əsaslandıqlarına görə bu səhvi təkrar etmişlər. Səhvlər silsiləsi beləcə akt boyu davam etmişdir (9). Odur ki, hal-hazırda ekspozisiyada olan və Arxeologiya fondu inventar kitabında qeyd olunmayan bütün arxeoloji materiallar birdəfəlik dəqiqləşdirilərək inventarlaşdırılmalıdır.

II zalda Azərbaycanın tunc dövrü maddi-mədəniyyəti Şəmkir, Mingəçevir, Çovdar, Qızılburun, Xocalı, Uzuntəpə, Xaçbulaq, Dolanlar, Xanlar, Şahtaxtı və digər abidələrin tapıntıları əsasında təqdim olunmuşdur (aktda sıra sayı 149-467). Məlumdur ki, Azərbaycanda tunc dövrü abidələri nisbətən yaxşı öyrənilmiş və xeyli unikal arxeoloji materiallar (dən daşı, daş çömçə və qablar, tökmə vasitəsi, əyircək, tunc biz və iynələr, məişət vasitələri, əmək alətləri, at ələhəsi və bəzəkləri, silahlar, bəzək vasitələri, müxtəlif minerallardan muncuqlar, gil qab və küplər, ağac vəl və s.) əldə edilmişdir. Bu, Muzeyin bütün ekspozisiyalarında tunc dövrünü daha yaxşı təqdim etməyə imkan vermişdir. Belə ki, 1980-ci il ekspozisiya aktından da göründüyü kimi, tunc dövrü arxeoloji materiallarından həm daş dövrü, həm də antik dövrü maddi-

mədəniyyətinin göstərilməsi işində də istifadə olunmuşdur.

III zalda ilk iki vitrinin arxeoloji materiallarına diqqət yetirdikdə ilk dəmir dövrünün ayrıca verilərək antik dövrə keçildiyi anlaşılır. Burada Mingəçevir, Uzuntəpə, Qızılburun, Ismayıllı, Vardanlı və Qazaxdan aşkar olunmuş maddi-mədəniyyət nümunələri nümayiş etdirilmişdir (aktda sıra sayı 468-623).

1984-1985-ci illərdə Azərbaycan Tarixi Muzeyində mühafizə edilən Dolanlar, Çovdar və Mingəçevirin 17 inventar sayı altında qeyd olunmuş tunc bəzək nümunələri Fransanın Paris və Bordo şəhərlərində SSRI günləri çərçivəsində təşkil olunan «Azərbaycanın bədii-tətbiqi incəsənəti» sərgisində nümayiş etdirilmişdir.

1998-2004-cü illərdə Muzey ekspozisiyası bərpa işləri ilə əlaqədar olaraq bağlı olduğundan arxeoloji materiallar bir qayda olaraq Muzeyin Şərq zalında təşkil edilmiş müxtəlif sərgilərində (2001-ci ildə Silah sərgisi və Dünya azərbaycanlılarının I konqresi ilə əlaqədar sərgi və s.) nümayiş etdirilmişdir.

Muzey özünün sonuncu böyük ekspozisiyasını 2004-cü il fevral ayının 12-də açmışdır. Muzeyin direktoru Nailə xanım Vəlixanlının rəhbərlik etdiyi, şöbə və fondların elmi əməkdaşlarından təşkil olunmuş işçi qrup qısa müddət ərzində, bütün daxili imkanları cəlb etməklə yeni ekspozisiya yaratmışdır.

Azərbaycanın ən qədim dövrdən 1828-ci ilə qədərki tarixini əhatə edən bu ekspozisiyada Muzeyin həm qədimliyin göstəricisi, həm də ekspozisiyanı gözəlləşdirməsi baxımından zövqləri oxşayan arxeoloji, etnoqrafik, numizmatik, osteoloji materiallar, tarixi hadisələri və abidələri əks etdirən rəsm əsərləri, fotolar, maketlər, xəritələr nümayiş etdirilmişdir. Həmin materiallar 6 zalda, müasir mebellərdən istifadə edilərək hazırlanmış çoxsaylı vitrinlərdə qoyulmuş, yaşıl və boz üzlü lövhələrdə asılmışdır.

2004-cü il ekspozisiyasında əvvəlki ekspozisiyalarda nümayiş etdirilmiş maddi-mədəniyyət nümunələri ilə yanaşı, hələ ekspozisiya və sərgilərə çıxarılmamış materiallar da Azərbaycan tarixi ilə maraqlananların ixtiyarına verilmişdir. Qədim daş dövrünə aid Zar, Tağlar, Kəkil, Ceyrançöl, Qazma mağara və düşərgələrindən, I Kültəpə, Əliköməktəpə, Şomutəpə, Babadərviş, Töyrətəpə, Qarğalartəpəsi kimi mis-daş dövrü yaşayış yerlərindən, I Kültəpə, Babadərviş, Xaçbulaq, Mingəçevir, Dolanlar, Xocalı, Xanlar, Çovdar, Qaracəmirli, Küdürlü, Xınıslı kimi tunc dövrü yaşayış yeri və qəbirlərindən, Uzuntəpə, Xarabagilan, Xaçbulaq, Mingəçevir, I Bəndovanın ilk dəmir dövrü təbəqələrindən, Nüydi, Xınıslı, Mingəçevir, Yaloylutəpə, Mollaisaqlı,

Qəbələ, Nərgizava, Xarabagilan antik dövr abidələrindən, Örənqala, Qəbələ, Mingəçevir, Şamaxı, Bakı orta əsr şəhər yerlərindən aşkar edilmiş çoxlu sayda unikal tapıntılar ilk dəfə olaraq bu ekspozisiyada nümayiş etdirilir. Həmin arxeoloji materiallar arxeoloji qazıntılar və təsadüfi tapıntılar nəticəsində aşkar edilmiş, Muzeyin zəngin Arxeologiya fondundan, AMEA-nın Arxeologiya və Etnoqrafiya Institutundan ekspozisiyaya cəlb olunmuşdur. Bu maddi mədəniyyət nümunələri Azərbaycanın görkəmli arxeoloqlarının çoxillik zəhmətləri sayəsində əldə edilmişdir.

Muzeyin son ekspozisiyası Azərbaycan Milli Elmlər Akademiyasının tarix elminin son nailiyyətləri əsasında hazırladığı, yeddicildlik Azərbaycan tarixinin elmi müddəalarına əsaslanaraq yaradılmışdır. 2004-cü il ekspozisiyasında antik dövrə qədərki arxeoloji materiallar I, II və III zalın bir hissəsində nümayiş etdirilmişdir. Burada tarixi-arxeoloji ardıcıllıq əsas götürülmüşdür:

Qədim daş dövründə insanlar əvvəlcə sürü, sonralar qəbilə icmaları halında yaşamış, yığıcılıq və ovçuluqla məşğul olmuşlar. Qədim insanların əmək alətləri və silahları daşdan və ağacdan hazırlanmış, tədricən təkmilləşmişdir.

Azərbaycan ərazisində 30-dan çox paleolit mağarası və düşərgələri aşkar edilmişdir. Onlardan ən qədimi Quruçay düşərgəsi və Azıx mağarasıdır. Dünya arxeologiyasında xüsusi yer tutan karst mənşəli Azıx mağara düşərgəsinin cənub giriş yolunda aparılan arxeoloji qazıntılar zamanı ən qədim tapıntıları VII-X təbəqələrdən aşkar edilən 10 arxeoloji təbəqə qeydə alınmışdır. Yeni arxeoloji mədəniyyətə Quruçay mədəniyyəti adı verilmişdir. Quruçay mədəniyyətinin 1,2 milyon il bundan əvvəl başlayıb 100 min il əvvəl sona çatması müəyyən olunmuşdur. 1968-ci ilin iyul ayında görkəmli arxeoloq Məmmədəli Hüseynov Azıx düşərgəsinin orta Aşelə aid V təbəqəsində əmək alətləri ilə birlikdə qədim insanın alt çənə parçasını aşkar etmişdir. Azıxantrop adlanan bu çənə fraqmentinin sahibi 400-350 min il bundan əvvəl yaşamışdır.

Qədim daş dövründə yaşamış insanların məişətinə, məşğuliyyətinə aydınlıq gətirən Azıx, Damcılı, Daşsalahlı, Zar, Tağlar, Kəkil, Ceyrançöl, Qazma mağara və düşərgələrindən aşkar olunmuş çaydaşı, çaxmaqdaşı, qranit, bazalt, dəvəgözündən əmək alətləri, Azıx adamının çənə sümüyünün maketi, vəhşi heyvan və balıq sümükləri qədim tariximizin əyani sübutudur. Burada «Quruçay mədəniyyəti» ayrıca təqdim olunmuşdur (I zal).

Orta daş dövrünə (e.ə. XIII - VIII minilliklər) aid mikrolit əmək alətləri

ayrıca lövhədə verilmişdir (I zal).

Yeni daş dövründə (e.ə. VIII minilliyin sonu - VI minilliyin ortaları) insanlar mənimsəmə təsərrüfatından (yığıcılıq və ovçuluq) istehsal təsərrüfatına (əkinçilik və maldarlıq) keçmişlər. «Neolit inqilabı» adlanan keyfiyyət dəyişikliklərinə nail olmuş qədim insan daşı cilalamağı, burğu üsulu ilə deşməyi, gil qab istehsalını mənimsəmiş, toxuculuqla məşğul olmağa başlamışdır. Qobustanda, Gəncə ətrafında, Qazaxda, Naxçıvanda mağara və düşərgələrin neolit təbəqəsi vardır. Bu ekspozisiyada Damcılı, I Kültəpə, Xaçbulaq abidələrindən aşkar olunmuş neolit dövrü maddi-mədəniyyət nümunələri nümayiş etdirilir (I zal).

Mis-daş dövründə (e.ə. VI minillik - IV minilliyin ortaları) insanlar ilk dəfə metaldan istifadə etmiş, atı əhilləşdirmiş, çiy kərpic və möhrədən kiçik evlər tikmiş, yaşayış yerləri salmış, maldarlıq, toxa əkinçiliyi və sənətkarlıqla məşğul olmuşlar. Onlar daha geniş əraziləri mənimsəmiş, qadının hakim mövqeyə malik olduğu qəbilə icmalarında yaşamışlar. Dini təsəvvürləri xeyli genişlənmişdir. Hazırkı ekspozisiyada I Kültəpə, Qarğalartəpəsi, Şomutəpə, Töyrətəpə, Babadərviş, Əliköməktəpə abidələrinin mis-daş dövrü təbəqəsindən aşkar olunmuş maddi-mədəniyyət nümunələri nümayiş etdirilir (I zal).

Tunc dövründə (e.ə. IV minilliyin ortaları - II minilliyin sonu) insanlar misin tərkibinə qalay, mərgümüş, sürmə, nikel qatmaqla daha möhkəm metal – tunc istehsal etmiş, ondan əmək alətləri, bəzək əşyaları və silahlar hazırlamışlar. Tunc dövrünün əsas hadisələri birinci və ikinci ictimai əmək bölgülərinin baş verməsi – maldarlığın əkinçilikdən, sənətkarlığın kənd təsərrüfatından ayrılması, tayfa ittifaqlarının formalaşması, varlı-kasıb təbəqələrlə müşaiyət olunan sosial-bərabərsizliyin, sənətkarlıq və ticarət mərkəzləri kimi şəhərlərin yaranması idi. Bu dövrdə Kür-Araz, Boyalı Qablar, Xocalı-Gədəbəy, Talış-Muğan, Naxçıvan mədəniyyətləri təşəkkül tapmış, dini təsəvvürlər genişlənmişdir. Hazırkı ekspozisiyada I Kültəpə, Şahtaxtı, Qızılburun, Mingəçevir, Xanlar, Xocalı, Gəncə-Çovdar, Ağdam, Dovşanlı, Dolanlar, Xaçbulaq, Uzuntəpə, Seyfəli, Qaracəmirli, Məşrif, Küdürlü, Lovain, Qusar və başqa tunc dövrü abidələrindən təsadüfi və arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri bu dövrün tarixi inkişaf prosesini «Təsərrüfat», «Silahlar», «Qadın bəzəkləri», «Sənətkarlıq. Ticarət. Ideologiya» adı altında xüsusi vitrinlərdə canlandırır (II zal).

Son tunc-ilk dəmir dövründə (e.ə. II minilliyin sonu-I minilliyin əvvəli) baş vermiş ictimai-siyasi, iqtisadi və mədəni prosesləri izləmək üçün Xocalı-Gədəbəy, Talış-Muğan, Naxçıvan arxeoloji mədəniyyətlərini xarakterizə edən maddi-mədəniyyət nümunələri öz rəngarəngliyi ilə seçilir. Dövrün əsas hadisəsi dəmir istehsalına başlanması idi. Azərbaycanda qəbilə icması intensiv surətdə dağılmış, erkən sinifli qurumlar yaranmışdır. Tuncun emalı yüksək çiçəklənmə mərhələsinə çatmış, dulus çarxından istifadə edilmişdir. Xış əkinçiliyi, yaylaq maldarlığı daha da genişlənir. Bu dövrdə ayrı-ayrı tayfa qruplarının birləşməsi prosesi güclənmiş, tayfa ittifaqlarının yaranması davam etmişdir. Tezliklə cəmiyyətin siyasi cəhətdən təşkilinin yeni forması olan dövlət də meydana gəlmişdir. 2004-cü il ekspozisiyasında Xaçbulaq, Mingəçevir, Uzuntəpə, Xarabagilan, Dolanlar, Vardanlı, Sarıtəpə, Çaylı abidələrindən aşkar olunmuş bu dövrün tunc və dəmir əmək alətləri, silahlar, zirehlər, bəzək əşyaları, qara cilalı gil qablar, gil möhür və qəndillər, tunc və gümüş qablar, pastadan slindrik möhürlər, gümüşlə inkrustasiya olunmuş tuf qablar, skiflərə məxsus tunc güzgülər, ox ucluqları və bəzək əşyaları nümayiş edirilir. Manna, Skif-kimmer-sak padşahlığı, Midiya və Atropatena dövlətlərinin tarixi əsasən tablolar və xəritələrdən ibarət ayrıca vitrinlərdə verilmişdir (III zal).

Azərbaycan Tarixi Muzeyi XX əsrin 20-30-cu illərində müxtəlif tədbirlərlə əlaqədar olaraq sərgilər təşkil etsə də, ilk elmi ekspozisiyasını 1956-cı ildə açmışdır. Sonralar ekspozisiyanın əsaslı zənginləşdirilməsinə (1973-cü il) və yenidən qurulmasına (1980; 2004) ehtiyac yaranmışdır. Azərbaycan Tarixi Muzeyinin tarixində mühüm hadisə olan ekspozisiyaların yaradılması və açılışı Azərbaycan tarixi ilə maraqlananlar üçün ən gözəl töhfədir. Odur ki, dünya standartlarına uyğun Muzey ekspozisiyanın yaradılması üçün son zamanlarda aparılan işlər bu sahədə gözəl gələcək vəd edir.

# NƏTİCƏ

Milli Azərbaycan Tarixi Muzeyinin yarandığı ilk illərdə sistemsiz, adda-budda, əsasən təsadüfi tapıntılar yolu ilə əldə edilmiş maddi-mədəniyyət nümunələrinin Muzeyə ayrı-ayrı şəxslərin təqdim etmələri formasında cəlb edilməsinin elmi əhəmiyyətinin azlığı arxeoloji qazıntıların aparılmasını zəruri etmişdir. Həmin dövrdə arxeoloji tədqiqat işlərinin aparılması ilə məşğul olacaq hər hansı qurum olmadığından Azərbaycan Tarixi Muzeyi bu işi öz üzərinə götürmüş, məhz bu məqsədlə Muzeyin (Muzekskurs) nəzdində Yevgeni Paxomovun sədrliyi ilə Qədim Abidələri Mühafizə Komissiyası təşkil olunmuşdur. Muzey 1921-ci ilin iyun ayında Şirvanşahlar sarayına ilk arxeoloji kəşfiyyat səfərini təşkil etmişdir. Elə həmin ay isə Gəncə qəzasına ilk arxeoloji ekspedisiya göndərilmişdir.

Beləliklə, Azərbaycan Tarixi Muzeyi Azərbaycanda elmi müəssisə kimi ilk dəfə arxeoloji qazıntı aparmış (1921-ci il), Azərbaycanda son tunc və ilk dəmir dövrü siklop tikintilərini davamlı olaraq öyrənmək məqsədilə ekspedisiyalar təşkil etmiş (1929, 1957-ci illər), çoxəsrlik tarixə malik Mingəçevir abidəsini tədqiq etmiş (1935-1939, 1941, 1946-1953-cü illər), ilk dəfə olaraq daş dövrünü öyrənən paleolit ekspedisiyasını yaratmış (1956-1958-ci illər), sualtı abidələrin tədqiqi ilə məşğul olan ilk və tək ekspedisiyanı təşkil etmişdir (1968-1986-cı illər). Azərbaycan Tarixi Muzeyinin arxeoloji qazıntılar aparmaq ənənəsini nəzərə alaraq gələcəkdə bu elmi-tədqiqat müəssisəsinin fondunu yeniləşdirmək və daha da zənginləşdirmək məqsədilə tarixi abidələrimizi arxeoloji cəhətdən öyrənməsinə şərait yaradılması və imkan verilməsi məqsədəuyğundur.

Milli Azərbaycan Tarixi Muzeyi ilə yanaşı, Azərbaycanda arxeoloji qazıntılar aparan və tapılmış maddi-mədəniyyət nümunələri Muzeyə təqdim edən elmi müəssisələr əsasən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (1923-1929), Azərbaycan Dövlət Elmi-Tədqiqat Institutu (1929-1932), SSRI EA Azərbaycan filialı Tarix, Etnoqrafiya və Arxeologiya Institutu (1936-1940), əvvəlcə SSRI EA Azərbaycan filialı, sonralar Azərbaycan SSR EA Tarix Institutu və onun Arxeologiya və Etnoqrafiya sektoru (1940-1992) olmuşdur. Həmin müəssisələrin arxeoloji qazıntı apardığı 50-yə qədər abidənin maddi-mədəniyyət nümunələri Muzeydə mühafizə edilir. Bunlarla yanaşı, Qafqaz Muzeyi, Xanlar Diyarşünaslıq Muzeyi və Nizami Gəncəvi adına Ədəbiyyat

Muzeyindən çoxlu sayda maddi-mədəniyyət nümunələri daxil olmuşdur.

Ekspedisiyalar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri ilə yanaşı, Azərbaycanın müxtəlif bölgələrindən Azərbaycan Tarixi Muzeyinə daxil olmuş çoxlu sayda təsadüfi tapıntı materialları da vardır. Həmin tapıntılar ilk dəfə sistemləşdirilmiş, kompleks halda tapılma illərinə əsasən xronoloji qaydada tədqiqata cəlb edilmişdir. Azərbaycan tarixinin öyrənilməsində həmin maddi-mədəniyyət nümunələrinin yeri müəyyən olunmuşdur. Həm Azərbaycan Tarixi Muzeyi, həm digər elmi-tədqiqat qurumları ekspedisiyalarının arxeoloji qazıntılar apardığı qədim abidələrin, həm də təsadüfi tapıntı yerlərinin xəritələri hazırlanmışdır.

Milli Azərbaycan Tarixi Muzeyi arxeoloji materiallarının təsnifatını verərkən artıq arxeoloji ədəbiyyatda qəbul olunmuş qaydaya əsaslanaraq tipoloji bölgülər aparılmışdır. Təsvirlərin verilməsi məsələsində ekspozisiyadakı arxeoloji materiallar əsas götürülmüş, hələ də ekspozisiyada öz yerini doğru-dürüst almayan arxeoloji materialları sistemləşdirərək onların kompleks tədqiqini təşkil etməklə yerləri birdəfəlik müəyyənləşdirilmişdir. Bu təsnifat və təsvirlərə yeri gəldikcə Arxeologiya fondunda mühafizə edilən maddi-mədəniyyət nümunələri də əlavə edilmişdir. Həmin əlavələr sayəsində gələcəkdə ekspozisiyanın zənginləşdirilməsi və təkmilləşdirilməsi səviyyəsini yüksəltmək mümkün olacaqdır. Beləliklə, maddi-mədəniyyət nümunələri çoxluğundan asılı olaraq daş, metal, gil və digər məmulatlar kimi təsnif edilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyində Azıxın ən bəsit Quruçay çapacaqlarından Sarıtəpənin möhtəşəm sütun altlıqlarına qədər inkişaf yolu keçmiş Azərbaycan daşişləmə sənətkarlığı nümunələrinin mühafizə edilir. Indiyə kimi Azərbaycan Tarixi Muzeyində saxlanılan daş məmulatı xüsusi tədqiqata cəlb edilməmiş və Azərbaycanda daşişləmə sənətkarlığının tarixi ardıcıllıqla, ayrıca öyrənilməmişdir. Burada daşişləmə sənətkarlığı nümunələri ayrı-ayrı maddi-mədəniyyət nümunələri halında tarixi ardıcıllığı gözləməklə təsnif və təhlil edilir, Azərbaycan tarixinin öyrənilməsində elmi əhəmiyyəti faktik materiallar əsasında dəlillərlə müəyyən olunur.

Azərbaycan Tarixi Muzeyində I Kültəpə, Mingəçevir, Uzuntəpə, Çovdar, Qızılburun, Dolanlar, Qaracəmirli, Xanlar, Vardanlı, Redkin lager, Şuşa, Xaçbulaq və digər tunc və dəmir dövrü abidələrindən aşkar olunmuş möhtəşəm və nadir metal əşyalar mühafizə edilir. Həmin maddi-mədəniyyət

nümunələrinin Muzey materialları kimi təsnifatı, onların tədqiqata və təbliğata qazandırılması aktual məsələ olub, bu problemin həllinə çalışılmışdır.

Azərbaycan Tarixi Muzeyində mühafizə edilən Azərbaycan sakinlərinin mis-daş dövründən başlayaraq e.ə. IV əsrə qədər istehal və istehlak etdikləri müxtəlif çeşid və keyfiyyətli saxsı məmulatının tariximizin öyrənilməsində mühüm əhəmiyyəti vardır. Burada mis-daş dövrünün I Kültəpə, Kür-Araz mədəniyyətinin yarımşar qulplu saxsı məmulatı, Boyalı qablar mədəniyyətinin xarakterik gil qabları, Xocalı-Gədəbəy mədəniyyətinin yastı çıxıntılı, ağ pasta ilə inkrustasiya olunmuş əsasən boz və qara rəngli gil qabları, ilk dəmir dövrünün zoomorf saxsı məmulatı və s. maddi-mədəniyyət nümunələri təsvir və təhlil edilir.

Azərbaycan Tarixi Muzeyində çoxlu sayda sümük, ağac və müxtəlif minerallardan hazırlanmış maddi-mədəniyyət nümunələri mühafizə edilir. Sümük toxalar, bizlər, at qaytarğanları, ox ucları, ağac vəl, müxtəlif muncuqlar və s. Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik olub, bir sıra elmi məsələlərin həllində əsas rol oynayır.

Azərbaycan Tarixi Muzeyi yarandığı vaxtdan bu və digər səviyyədə fondların materialları elmi cəhətdən öyrənilir, təhlil edilir, mühafizə və bərpa olunur, ekspozisiyada nümayiş etdirilir, həmçinin materiallar üzərində elmi-tədqiqat işləri aparılır və nəşrə hazırlanır.

Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə işinin XX əsrn 20-ci illərindən başlayaraq səmərəli təşkilinə səy göstərilmiş, Ishaq Cəfərzadənin rəhbərliyi ilə böyük işlər görülmüşdür. Daxil olmuş materialların qeydiyyatında və onların yerləşdirilməsində sistem yaradılmışdır. Lakin bir sıra obyektiv və subyektiv səbəblər üzündən baş verən çatışmazlıqlar da vardır ki, bu da özünü daha çox XX əsrin II yarısında əsasən materialların qeydiyyatında göstərmişdir. Xeyli materiallar nə Azərbaycan Tarixi Muzeyinin baş inventar kitabından, nə də Arxeologiya fondunun inventar kitabından keçmişdir. Hətta Arxeologiya fondunun bəzi inventar kitabları tərtib olunsa da onlar heç kim tərəfindən təsdiq olunmamışdır.

Azərbaycan Tarixi Muzeyində arxeoloji materialların tədqiqinə xüsusi diqqət yetirilmiş, elə ilk illərdən nəşrlərə başlanmışdır. Bu sahədə Davud Şərifov və Ishaq Cəfərzadənin başlatdığı elmi fəaliyyət Muzeydə ənənə halını almış, hətta XX əsrin 50-ci illərində «Azərbaycanın Maddi Mədəniyyəti» topluları ilə daha da genişlənmişdir. Arxeoloji materiallar «Azərbaycan

tarixinə dair materiallar» toplusunun ilk cildlərində oxucuların diqqətinə qabarıq şəkildə çatdırılsa da, onların Muzeydə tədqiqi həmin toplunun sonrakı cildlərində aşağı səviyyəyə düşmüşdür. Muzeyin elmi işçiləri toplularla yanaşı, arxeoloji materialların təhlil və əsasən rəngli təsvirlərinin verildiyi kataloqlar da hazırlamışlar. Hazırda «Azərbaycan Tarixi Muzeyi» adı ilə nəşr olunan Muzey toplusunda Arxeologiya fondunda mühafizə edilən arxeoloji materialların tədqiqinə xüsusi diqqət yetirilir və bu işə bütün şöbə işçiləri cəlb edilir.

Azərbaycan Tarixi Muzeyi əsas elmi-tədqiqat mərkəzlərindən olduğu kimi, Azərbaycan tarixinin təbliğ edilməsində də mühüm rola malikdir. Təbliğ olunma işinin əsasında elmi ekspozisiya və sərgilərin təşkil olunması durur. Odur ki, 1920-ci ildən başlayaraq Muzeydə toplanan maddi-mədəniyyət nümunələri kiçik elmi ekspozisiya və sərgilərdə nümayiş etdirilmişdir.

Azərbaycan Tarixi Muzeyi XX əsrin 20-30-cu illərində müxtəlif tədbirlərlə əlaqədar olaraq sərgilər təşkil etsə də, ilk elmi ekspozisiyasını 1956-cı ildə açmışdır. Sonralar ekspozisiyanın əsaslı zənginləşdirilməsinə (1973-cü il) və yenidən qurulmasına (1980; 2004; 2007) ehtiyac yaranmışdır. Arxeoloji materialların təbliği baxımından ekspozisiyalar arasındakı fərqlər, zəif cəhətləri və yanlışlıqlar üzə çıxarılmış, onların aradan qaldırılması yolları göstərilmişdir.

Azərbaycan Tarixi Muzeyinin tarixində mühüm hadisə olan ekspozisiyaların yaradılması və açılışı Azərbaycan tarixi ilə maraqlananlar üçün ən gözəl töhfədir. Odur ki, dünya standartlarına uyğun Muzey ekspozisiyanın yaradılması üçün son zamanlarda aparılan işlər bu sahədə gözəl gələcək vəd edir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 1.
2. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 2.
3. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 3.
4. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 4.
5. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 5.
6. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 6.
7. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 15.
8. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 21.
9. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 22.
10. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 23.
11. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 25.
12. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 27.
13. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 28.
14. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 29.
15. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 30.
16. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 31.
17. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 32.
18. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 33.
19. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 35.
20. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 36.
21. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 38.
22. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 40.
23. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 42.
24. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 44.
25. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 46.
26. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 50.
27. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 51.
28. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: sənəd № 52.
29. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: Azərbaycan Dövlət Muzeyi baş inventar kitabı № 1-2.
30. AMEA Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu: inventar kitabı № 1-27.
31. AMEA Azərbaycan Tarixi Muzeyi Sənədli Mənbələr fondu: Azərbaycan Dövlət Muzeyinin 1921-ci ilin iyununda Gəncə qəzasında apardığı kurqanların

qazıntısı haqqında hesabat, inv. № 36.

32. AMEA Azərbaycan Tarixi Muzeyi Sənədli Mənbələr fondu: Azərbaycan Dövlət Muzeyinin 1922-ci ilin iyununda Gəncə qəzasında kəşfiyyat işləri haqqında hesabat, inv. № 36.

33. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 1154.

34. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 1153.

35. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 655.

36. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 514.

37. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 87.

38. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 74.

39. Azərbaycan Respublikası Dövlət Arxivi: fond 57, siyahı 1, iş 417.

40. Azərbaycan tarixi. Dərslik. Bakı: Azərnəşr, 1994, 680 səh.

41. Azərbaycan tarixi. Bakı: Azərbaycan, 1996.

42. Azərbaycan tarixi: 7 clddə, I c., Bakı: Elm, 1998.

43. Azərbaycan Tarixi Muzeyi (kitab-albom). Bakı: Elm, 2004, 64 s.

44. Aslanov Q.M., Ismayılov Q.S. Alazan vadisində son tunc və ilk dəmir dövrünə aid yaşayış yeri // Azərbaycan Elmlər Akademiyasının Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 1973, № 3, s. 87-95.

45. Aslanov Q.Q. Gədəbəy rayonundan son tunc dövrünə aid arxeoloji tapıntılar // Azərbaycanın Maddi Mədəniyyəti, 1980, IX cild, s. 48-59.

46. Aslanov Q.Q. Azərbaycanın tunc təbərzin baltaları. Bakı: Elm, 1982, 65 s.

47. Aslanov Q.Q. Azərbaycan ərazisindən tapılan tunc yabalar haqqında (er.əv. II min.-yin sonu - I min.-yin əvvəllərinə aid) // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (Tarix, fəlsəfə, hüquq seriyası), 1983, № 1, s. 68-76.

48. Aslanov Q.Q., Kəsəmənli H.P. Əmirvar kəndində dağıdılmış bir kurqan haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1984, № 1, s.56-65.

49. Aşurov S.H. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı: Nafta-Press, 2002, 158 s.

50. Bord F. Daş dövrünün adamı // Tarix, ictimaiyyət və coğrafiya tədrisi, 1973, № 8, s. 55-59.

51. Cəfərov Ə.Q. Insanlığın səhəri. Bakı: Azərnəşr, 1994, 80 s.

52. Cəfərov Ə.Q. Qarabağın paleolit düşərgələri // Arxeologiya və Etnoqrafiya, 2003, № 1, s. 9-17.

53. Əhmədov Q. Elmi irsimizdən. Davud bəy Mikayıl oğlu Şərifov // Azərbaycan Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1998, № 1, s. 146-148.

54. Əhmədov Q.M, Muradova F.M. Axtarışlarda keçən ömür (I.M.Cəfərzadənin

anadan olmasının 80 illiyi münasibətilə) // Azərbaycan Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1978, № 1, s. 117-122.

55. Əliyev V.H. Ikinci Kültəpədən tapılmış boyalı qablar // Azərbaycan SSR EA Məruzələri, 1963, XIX cild, № 5, s. 69-74.

56. Əliyev V.H. Azərbaycanda boyalı qablar mədəniyyətinin öyrənilməsinə dair // Azərbaycanın Maddi Mədəniyyəti, 1965, VI cild, s. 59-66.

57. Əliyev V.H. Babadərvişdə son tunc və ilk dəmir dövrü yaşayış yerləri // Azərbaycanın Maddi Mədəniyyəti, 1976, VIII cild, s. 104-130.

58. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.

59. Əliyev V.H. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 76 s.

60. Əliyev V.H. Naxçıvanın qədim duz mədənləri // Azərbaycan Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1983, № 4, s. 79-87.

61. Hauels U. 20 milyon il təkamül // Tarix, ictimaiyyət və coğrafiya tədrisi, 1973, № 8, s. 45-54.

62. Həbibullayev O.H., Əliyev V.H. Azərbaycanın eneolit dövrü boyalı qabları haqqında. // Azərbaycanın Maddi Mədəniyyəti, 1976, VIII cild, s. 5-14.

63. Hüseynov Ə.N. Muzeylərdə eksponatların toplanılması və fond işlərinin təşkili haqqında // Azərbaycan tarixinə dair materiallar, Azərbaycan Tarixi Muzeyinin əsərləri, 1960, III cild, s. 142-151

64. Hüseynov M.M. Naxçıvanın qədim daş çəkicləri (Azərbaycan SSR EA Tarix Muzeyinin materialları əsasında) // Azərbaycan SSR Elmlər Akademiyasının Məruzələri, 1956, XII cild, № 2, s. 135-145.

65. Hüseynov M.M. Tağlar mağarasında paleolit düşərgəsinə dair // Azərbaycanın Maddi Mədəniyyəti, 1973, VII cild, s. 11-19.

66. Hüseynov M.M. Azıx mağarasında // Elm və həyat, 1975, № 6, s. 12-15.

67. Xəlilov C.Ə. Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığındakı qədim qəbristanlıq haqqında // Azərbaycan Elmlər Akademiyasının Xəbərləri (Ictimai elmlər seriyası), 1958, № 2, s. 29-39.

68. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çayları hövzələri). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşiriyyatı, 1959, 165 s.

69. Xəlilov C.Ə. Azərbaycandan tapılmış tunc kəmərlər // Azərbaycanın Maddi Mədəniyyəti, 1962, IV cild, s. 68-108.

70. Xəlilov F.S. Ağsuda yeni arxeoloji tapıntılar // Irs, 2000, № 4, s. 31

